YURİ POMPEYEV

# QARABAĞ QAN İÇİNDƏ

"AZƏRBAYCAN ENSIKLOPEDIYASI" NPB
BAKI - 1996

Tərcümə edəni *Zahid MUSTAFAYEV*

Redaktoru *İsmayıl ÖMƏROĞLU (VƏLİYEV)*

**Y. A. Pompeyev.**
P62 Qarabağ qan içində. Tərcümə. Bakı, "Azərbaycan Ensiklopediyası" NPB., 1996-cı il, 160 səh.

**Sankt-Peterburqda yaşayan tanınmış rus yazıçısı bu sənədli oçerkdə Qarabağ uğrunda müharibənin başlanmasını və genişlənməsini, minlərlə insan həyatını aparmış bu hadisələrdə ideya millətçiliyi banilərinin rolunu tədqiq edir.**

**Y 4702010201 elansız-96**
**M - 657 – 96**
**ISBN5-89600-153-3**

**© Y. A. Pompeyev, Sankt-Peterburq, 1992.**
**© "Azərbaycan Ensiklopediyası" NPB., Tərçümə, 1996.**

## ÖN SÖZ

Qarabağ hadisələrinin başlanmasından səkkiz il keçir. Torpaqlarımız üçün, xalqımız üçün faciəli, məşəqqətli, bəzən ümidsizlik dolu, bəzən ümid işartısı sezilən səkkiz il! Bu müddət ərzində biz, ocağımızın başında oturdub sadəlövhlüklə dost, qardaş dediyimiz bədnam qonşularımızın düşmən olduğuna növbəti dəfə inandıq, bütün gücü qüvvəti hay-küyündə olan yalançı "millət qəhrəmanlarını" da, hakimiyyət kürsüsündə kimin oturmasından asılı olmayaraq səssizcə öz Vətənini, xalqını qoruyan, onun yolunda şəhid olanları da gördük. Və bir də onu gördük ki, Azərbaycanın başqa xalqlar, başqa millətlər içərisində heç özümüzün də hələ yaxşı tanımadığımız təmənnasız, xeyirxah tədqiqatçıları, dostları var. Oxuculara təqdim olunan bu kitabın müəllifi Yuri Pompeyev belələrindəndir.

Kitab mənə 1994-cü ildə rast gəldi. Oxudum və belə qənaətə gəldim ki, müəllif bizi, bizim tariximizi, milli psixologiyamızı, dostlarımızı və bədxahlarımızı heç bizim özümüzdən pis tanımır. həmin dövrdə Yuri Pompeyev Bakıda idi. Mənim onunla görüşlərim oldu. hesab edirəm ki, çox ciddi informasiya blokadası məngənəsində boğulduğumuz o çətin günlərdə Azərbaycan həqiqətlərini yayan belə bir kitabin Sankt-Peterburqda nəşr etdirilib oxuculara çatdırılması dost fədakarlığı, ermənilərin uzun illər ərzində planlı şəkildə hazırladığı və bütün dünyada hökmran etdiyi möhtəşəm antiazərbaycan təbliğatı maşınının əksinə hərəkət etmək isə qəhrəmanlıq sayılmalıdır.

Kitabın ən son süjeti 1992-ci ilin mayına aiddir və təbii ki, həmin illərin abı-havası müəyyən dərəcədə burada öz əksini tapmışdır. Və o dövrün ayrı-ayrı personajları, müəyyən hadisələri barədə fikirlər subyektiv və mübahisəli ola bilər. Lakin bu əsas deyil və çox yer tutmur. Əsas odur ki, Y. Pompeyev öz personajlarından ermənilərin və onların muzdlu havadarlarının iç üzünü açmaq, erməni-türk (Azərbaycan) münasibətlərinə dair öz mülahizələrini vermək üçün bir vasitə kimi istifadə etmişdir. Əslində bir publisist kimi bu onun öz fikrini ifadə forması, deyim tərzi, öz dəst-xəttidir.

Müəllif mövcud problemlərimizin yaranma səbəblərini açmaq üçün kifayət qədər tarixi araşdırmalar aparmışdır ki, bu da kitabı sanballı və mötəbər bir qaynağa çevirir.

Yuri Pompeyevin bir gileyi barədə deməyə bilmirəm. O, Qarabağ hadisələrinə dair iki kitab və xeyli məqalə dərc etdirib, Azərbaycan və azərbaycanlılar haqqında yazdığına görə mətbuatda kəskin tənqidlərə məruz qalıb. Dediyinə görə, yalnız üç dəfə onun mövqeyini müdafiə edən yazılar verilibdir. Lakin Azərbaycanın özündə onun yazılarına laqeydlik göstəriblər. 1992-ci ildə Y. Pompeyevə müxtəlif səviyyələrdə söz veriblərmiş ki, "Qarabağ qan içində" kitabı azərbaycan dilinə, daha sonra isə avropa dillərindən birinə tərcümə ediləcəkdir. Bütün bu vədlər cəmiyyətimizdə gedən ictimai-siyasi dəyişikliklər burulğanında itib-batmışdır.

Mən bu barədə "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin Baş direktoru İsmayıl Vəliyevlə və müavini Zahid Mustafayevlə danışdım. Onlar kitabla və müəlliflə tanış olduqdan sonra azərbaycan dilinə tərcüməni öz üzərlərinə götürdülər. [3 - 4]

Buna görə mən Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyinin bütün əməkdaşlarına, o cümlədən bu kitabın tərcüməçisi Zahi Mustafayevə və redaktoru İsmayıl Vəliyevə dərin təşəkkür və minnətdarlığımı bildirirəm.

Tərcümədə müəllifin ayrı-ayrı şəxsiyyətlərə və hadisələrə dair mövqeyi tamamilə saxlanılmış, aparılan cüzi ixtisar və dəqiqləşdirilmələr isə Y. Pompeyevin öz məsləhəti ilə edilmişdir. Mən inanıram ki, müəyyən obyektiv və subyektiv səbəblər üzündən nəşri bir az yubadılsa da kitabı Azərbaycan oxucusu maraq və rəğbətlə qarşılayaçaqdır.

***Bəxtiyar Vahabzadə.***

## "KriK"* Xocalıdan sonra

Rus ədibinin ürəyi nə qədər də səbirli və dözümlüdür! Onun gözünün içinə tüpür — deyəcək allahın şehidir. Bax mən də beləcə dörd ildən çox bəzən hıçqırtı, bəzən də lənətlə pozulan olimpiyaçı sakitliyi ilə Qarabağ yaylasının üzərini örtmüş qara buludu seyr etmişəm. Seyr etmişəm ki, o neçə gah fırfıradək dolanır, gah da namərd qıf şəklində yerə enərək öz burulğanında təkcə tozu, qumu, daşı deyil, həm də fərqinə varmadan, lap dərzdən sünbülü dartıb çıxaran kimi insanların həyatını da qaldırıb köyə sovurur və bu şimşək buludunun mağara millətçiliyi adlı taun zəhəri hopdurulmuş çəngələri suveren ərazilər və neytral sular üzərində neçə cövlan edir.

1990-cı ilin sentyabrında Aleksandr İsayeviç Soljenitsin Rusiyanı "düzüb qaydaya salarkən" mötərizə içində, gücü çatdığı səviyyədə ötəri də olsa belə qənaətə gəldi: Qarabağı vaxtilə kəsib Azərbaycana veriblər (nə fərqi kimə verilir) ona görə ki, həmin vaxt Sovetlərin ürək dostu olan Türkiyəyə yarınmaq lazım idi. Bununla da sanki xaçpərəst yazıçı Gülüstan və Türkmənçay müqavilələrindən çox-çox əvvəl yüzillərlə bu yaylaları daim münbitləşdirən və əkib-beçərən bütev bir xalqın gözünün içini bir kazak cəsurluğu ilə qamçıladı. Və özünün Şuşa mavzoleyində yatan, hələ XVIII əsrin sonunda Rusiya ilə ittifaq tərəfdarı olan Qarabağ vəziri Molla Pənah Vaqif ağrıdan yerində çevrildi. Aleksandr İsayeviç Rusiyanın imperiya qüvvələrinin ermənilərі Qafqazda özlərinə əsas dayaq hesab etdikləri, ermənilərə tərəf durmağın genlərlə ona da keçdiyi üçün bu mö'tərizəarası qeydini etmişdir. Doğrudanmı bu vermont dustağına (tərkidünyasına) erməni dayağın qanla yoğrulub bərkidiyi, etibarsız və məkrli olduğu məlum deyildi? Əlbəttə məlum idi. Lakin tarixdə yalnız qanlı didişmələrlə qeyd olunsa da belə Rusiyanın bu xaçpərəst istehkamının lehinə neçə söz deməyəsən? Təki İliçi bir dəfə də dalamaq üçün bəhanə olsun. Yeri kəlmişkən, Vladimir İliç rus heyvərələrini həmişə həm Zaqafqaziya, həm də Ukraynaya yerləşdirənlərdən birincisi olmuşdur.

Köhnə barışdırıçılar olan Rusiya ziyalıları isə artıq [5 - 6] gizlinçə deyil, hamının gözü qarşısında bu yaxınlaradək dünyanın *altıda biri* adlanan evdə müvəffəqiyyətli talanların, çevrilişlərin, dəhşətli qarmaqarışığın müəllifləri və rejissorlarına çevrilirdilər.

Uşaqların, qoçaların və qadınların künahsız qanları artıq sadəçə kecələr yuxuma kirib, bəla və dəlillərə çevrilmir, həm də qanla yuyulur, yalan isə dəbdəbəli çıxışlara çevrilərək yüksək tribunaları və efiri boşboğazlıqla doldururdu.

Belə bir vaxtda mən susduğum üçün öz viçdanımın tənəsinə məruz qalırdım. Yeri kəlmişkən, bu xəstəlik çox yoluxuçudur: bir dəfə yalana öyrənən ondan əl çəkə bilmir. Nümunə köstərməyin küçünə bax: hakimiyyət orqanları yalan danışır, amma bizə rəva bilmir? Yox, bağışlayın.

Bu biabırçı səbirlilik dumanı güçü nədən alırdı? Rusun ona ümid etməsindənmi ki, yalan geç-tez gedib həqiqətə, cinayətkarı özünün çır-çırpı ilə birlikdə tulladıqı künahsız qurbanına baxmaq üçün uçurumun başına ketməyə təhrik edən bir qüvvəyə aparıb çıxaracaqdır. Düz demişlər: *yalan* olmasaydı, doğru da olmazdı.

Mən şübhə etmirəm ki, zirək dövlət xadimləri zahirən laxlamayan və çox möhkəm görünən Federasiya gəmisinin göyərtəsi yalnız özlərinin ayaqları altında bütün tikişləri və qurşaqları boyu sökülməyə başlayanda danışaçaqlar və veça (qədim Rusiyada şəhər əhalisinin yığınçağı) zəngləri, mərhum Fyodor Aleksandroviç Abramovun dediyi kimi. "Bütün Rusiyanı üşütmə içində silkələyəçəkdir".

Və hər şey başlandı. "KriK" (Komitet Rossiyskoy intelliqensii"Karabax") liderlərinin təsadüfi alimə keçən son (mart 1992-çi il) etiraflarını götürürəm.

Andrey Nuykin (o həm də A. Tarasovdur)"Komsomolskaya pravda" "qəzetində öz məqaləsinə belə bir başlıq vermişdir: *"Biz oz əllərimizlə Qarabağlar yaradırıq"*.

Vaxtilə Yerevandakı seçkilərdə Q. Starovoytovanın vəkili olmuş, sonra isə Rusiya xarici işlər nazirinin birinçi müavini işləyən Fyodor Şelov-Kovedyayev Brüssel-Moskva reysi ilə uçan İl-68 təyyarəsinin salonunda verdiyi müsahibəsində bu dramanın başqa səbəbkarlarını açıqladı:

*"Dağlıq Qarabağdakı konflikt yaxşı planlaşdırılmış, əvvəlçədən hazırlanmış, həyata keçirilməsi Ermənistanıı kommunist rəhbərliyinin uzarinə düşən aksiyadır... "Qarabağ hərəkatı"nın liderləri millətin öz muqəddəratını təyin etməsi prinsipini hipertrofiyaya uğradaraq elə bir həddə çatdırmışlar ki, ondan sonra separatizm başlayır".*

Diplomata xas olan bir qeyri-müəyyənliklə: kimlərsə "planlaşdırmış, əvvəlçədən hazırlamışlar", başqalarının "üzərinə düşmüş", üçünçülər isə "hipertrofiyaya uğratmışlar".

Əvəzində isə Rusiya prezidentinin millətlərarası problemlər [6 - 7] üzrə müşaviri, "sink ledi", "Bizim Tetçer" Qalina Starovoytovanın sözləri adamı lərzəyə salacaq qədər aqressivdir.

* (KriK-"Komitet Rossiyskoy intelliqensii Karabax" təşkilatının adı; rus dilində söz oyunu alınır).

*"Hətta Ermənistan movçud olmasaydı belə, Azərbaycan yenə də Qarabağ problemi ilə qarşılaşmalı olaçaqdı".*

Mistikaya bir baxın: hətta Azərbaycanda mövçud olmasaydı biz — Q. Starovoytovanın müasirləri yenə də Qarabağ problemi ilə qarşılaşmalı olacağdıq. Dövlət xadimi xanımın məntiqi belədir: qarşılaşmalıdır, vəssalam! Və ikili standartına görə onu Krımın öz müqəddəratını təyin etməsinin tərəfdarı Nikolay İliç Travkin nahaq qınayır: Qarabağ kartı ilə yanaşı Krım kartı da yenidənqurmanın "Məhək daşları" kimi oyun stolunun üzərinə atılmışdır.

1988-çi ilin əvvəlində Andrey Dmitriyeviç Saxarov M. S. Qorbaçovun adına yazdığı məktubu bu iki milli problemə həsr etmişdi: Krım tatarlarının öz vətənlərində yaşamaq hüququna və DQMV-nin Ermənistan SSR-in tərkibinə verilməsinə. Elə o zaman elmi məhsulu Leninqradın tatar, eston, erməni içmaları misalında etnik azlıqların şəhərlərdə vəziyyəti barədə cəmisi bir kitab olan Q. Starovoytova Leninqraddan Moskvaya — SSRİ EA Rəyasət heyəti yanındakı — millətlərarası münasibətləri öyrənən yeni mərkəzdə işləmək üçün köçdi. Yerevanda və Stepanakertdəki hadisələr tezliklə göstərdi ki, A. D. Saxarov və Y. G. Bonner onu seçməkdə səhv etməmişlər.

Nəhayət, indi, dörd il keçəndən sonra, Qarabağ ətrafında gedən çox kəskin informasiya müharibəsi şəraitində mən bu təhlükati. təhqiqatı aparmaq qərarına gəldim. Başa düşdüm ki, daha gözləməyə güçüm çatmır. Bu o demək deyil ki, mən bu müddətdə tamam susmuşam. Yox. 1988-çi ilin dekabrında "Leninqradskaya pravda "qəzetində Azərbaycan və Ermənistanın yazıçılarına, bu iki respublikanın bütün vətəndaşlarına şəxsi müraçiətimi dərç etdirmişəm. həmin "həyəçan səsi" Rusiyanın bir sıra mətbuat orqanlarından olan "vətənpərvərlər" tərəfindən Rus xalqının ünvanına deyilmiş doğrudan da ağır tənələrə görə rüsvay edilmişdi. Ona görə də bu müraçiəti bütövlükdə verməzdən əvvəl demək istəyirəm ki, müraciətdə Ermənistandakı zəlzələdən əvvəl 1988-ci ilin dekabrın əvvəlinə olan vəziyyətin nəbzi vururdu. Dünya hələ 200 min azərbaycanlının ən azı 500 il yaşadıqları Sevanətrafı rayonlardan vəhşiçəsinə deportasiyasının miqyasından xəbərsiz idi; elə 5 dekabra keçən kecə xüsusi təyinatlı bölmələrin Lenin meydanını mitinqçilərdən təmizləməsi zamanı adamların əzişdirilməsi xəbəri də mənim doğma Leninqradıma çatmamışdı. Müraçiətin mətni belə idi:

"Sizdən minlərlə kilometr uzaqda olsam da, qədim Zaqafqaziyada baş verən hadisələr üçün həyəçan keçirir, kömək tapmaqda kücsüzlüyümdən əzab çəkirəm. Belə hal adamda xəstə yatan əzizinin çarpayısı yanında yaranır, kömək etməyə gücün çatmadığına görə özünü onun qarşısında təqsirkar sayırsan. Lakin daim yaranmış [7 - 8] vəziyyətdən çıxış yolları haqda düşündükçə məndə günü-gündən belə bir inam yaranırdı ki, pislik, qarşısında cavab olaraq amansızlıq doğurur, qan, cavabında qan tələb edir, nifrət təkcə bu gün yaşayanlara deyil, həm də sabah doğulanlara, minlərlə künahsız adamlara sirayət edir və onlar öz qəddarlaşan əcdadlarının qarşılıqlı nifrət və baykotlarının qurbanına çevrilə bilərlər.

Beləliklə də babalar, atalar, bədbəxtlikdən həm də analar nəsli gələcək barədə düşünmədən öz gələcək övlad və nəvələrini qarşılıqlı düşmənçiliyə məhkum edir, bununla da öz xalqlarını alçaldırlar.

Bədbəxtlikdən, hazırda bir çox obyektiv və subysktiv səbəblər üzündən sizin respublikalarda ehtiraslar ən son həddədək qızış-mışdır. Onlarça günahsız ölənlər, yüzlərlə yaralananlar, onminlərlə evsiz-eşiksiz qalanlar, dərddən, övladları və əzizləri üçün yaranmış qorxudan ağlını itirənlər var. Hansı sözlər və vədlər onları bir-birinə inanmağa vadar edə bilər? Mehriban qonşuluğa, dostluğa və barışığa çağırışlar mitinqlərdə fitə basılır, qəzəbli qışqırtılarla qarşılanır. Hər kəs özünü, öz arvad və qızlarını, ər və qardaşlarını necə qoruyub saxlasın, öz xalqına inamını necə möhkəmləndirsin?

Təklif edirəm: Yeni-il ərəfəsində sizin respublika sakinlərindən və onlara köməyə gələn hərbçilərdən həlak olanların xatirəsini yad etmək üçün Ümumittifaq sükut dəqiqəsi keçirilsin. Və bu dəqiqə ərzində hər bir azərbaycanlı, yaxud erməni o biri millətin heç olmasa bir nümayəndəsinin — həyatını, taleyini və evini müdafiə etmək, sinəsini irəli verib zor və hücumlardan qorumaq istədiyi yoldaşını və dostunu, ev qonşusunu, iş yoldaşını, qarışıq ailələrdən olan qohumlarını (mən əminəm ki, hər iki xalqda bu çür tanışlıq az deyil) yada salsın. Və bu bir nəfər haqqında düşünərkən hər kəs dayana, ürəyindəki amansızlığı silkinib tökə və bir-birinə doğru hərəkət edə bilər.

Milli kin bütün təbii fəlakətlərdən və SPİD-dən qorxuludur, o insanların ruhunu, ürəyini Yeyir və bizləri ikiayaqlı mağara sakinlərinə çevirir.

Qızışmış ehtirasları daha da qızışdırmaqla, biri-birimizi təqsirləndirməklə biz avtobusda terrorçular əlində — yenidənqurma şəraitində öz hakimiyyətlərindən əl çəkmək istəməyən rüşvətxor klanlar əlində kirov qalmış və bundan özünü itirmiş uşaqların vəziyyətinə düşəcəyik.

Respublikalarda komendant saatı tətbiq etmək və ordu yerləşdirmək çıxış yolu deyil. Çıxış yolu beynəlmiləlçilikdə, onu xalqların genlərində məhv etməyin qeyri-mümkünlüyündədir. Gəlin bu istiqamətdə düşünək və axtaraq. Gəlin sözü insanın ağlına və dərrakəsinə verək.Yalnız bütün millətlər və xalqlar üçün eyni olan bu səs İnsanın şərəfini yuksəldə və bizim ümumi taleyimizi müəyyən edə bilər". [8 - 9]

Təmiz ürəklə deyilən bu çağırış 1988-ci il dekabrın 7-də dərc olundu və onun üstündən təkcə zəlzələ xətt çəkmədi: özünü hüquq müdafiəçisi elan edən "KriK"in təkindən sülhə xidmət edən bir dənə də söz cücərmədi.

Qarabağın dördillik qan kirdabını doldurub daşdıran son damla isə 1992-çi il fevralın 25-dən 26-na keçən gecə şəhər tipli qəsəbə olan Xocalının yuxuya ketmiş əhalisinə vəhşicəsinə qanlı divan tutulması oldu. Bunun Xatınla və Sonqmi ilə hər hansı müqayisəsi yersizdir: onlarda cəlladlar köməksiz dinc adamların tükü ilə birlikdə çıxarılmış baş dərilərini və qulaq seyvanını kolleksiya etmirdilər, onları sadəcə olaraq öldürürdülər.

***"Xocalıda yalnız ölülər qaldılar",*** — deyə "Moskovskiye novosti" acıqla bütün dünyaya xəbər verirdi. Allah, deyəsən, həqiqətən Xocalıları tərk etmişdi.

Müxbir Viktoriya İvlevanın etirafına görə o, hücum edənlərin birinçi eşelonunda deyil, ikincisində Xocalıya kedirdi və bu zaman o, qarşıdan "nə isə buludu xatırladan bir şey yaxınlaşdığını gördü". Bulud kimi görünən yarıçılpaq adamlar dəstəsi imiş. "Türklər dəstəsinin sonunda üç uşağı olan qadın kedirdi. Qarın üstüylə, ayaqyalın, O, çox çətin hərəkət edirdi, tez-tez yıxılırdı. Onun uşaqlarının ən kiçiyi ikigünlük idi".

O qadının, uşaqlarının və həmin "buluddan" olan onlarla qaçqının sonrakı taleyini mən səs cığırı operatorun hönkürtüsü ilə dolmuş televiziya kadrlarında izlədim. "Buludu" düzəngah yamacda birbaşa tuşlamaqla güllələmişdilər; adamlar arxası üstə üzü onları həmişəlik tərk etmiş Allaha tərəf yıxılmışdılar.

İvlevanın çəkdiyi fotoşəkillərin birinin adına bir baxın: Viktoriya! — dörd qəhrəman fidain (ermənilər bütün millətlərin, o cümlədən azərbaycanlıların dillərindəki sözləri işlətməkdən utanmırlar — *tərc)* məhv edilmiş "azəri" cəsədlərinin başı üstündə; qələbədən məst olmuş faşistlər dar ağacı fonunda belə şəkil çəkdirərdilər.

Hər bir oxuçunu Viktoriya İvlevanın fotoreportajı ilə tanış olmağa göndərmək istəmədiyimdən həmyerlim olduğundan xəcalət çəkdiyim, "KriK"dən olan "insan hüququ müdafiəçisi" Konstantin Voyevodskinin "Pro Armenia" jurnalında "milli azadlıq müharibəsi qəhrəmanlarının "keyimləri barədə yazdıqlarından istifadə etmək istəyirəm: "Əksəri desantçılarınkına oxşayan xaki və ya qara rəngli forma geymişdir. Kəmərində və sinəsində çal-çarpaz şəkildə patron lentləri, arxasında avtomat və ya karabin, kəmərində pistolet, bəzən lap ikisi, yanında bir-iki limonka (qumbara—*tərç.)****".*** Sizi qorxutmurmu? Əgər tam qorxmamışsınızca bu tarixi yazının əlavəsinə də baxın: "Döş ciblərinə avtoqələm başlıqları vasitəsilə bir neçə kiçik əldəqayırma bombacıqlar bərkidilmişdir.

Bəsdir!

Məgər V. İvlevanın çəkdiyi fotoşəkillər haqda beynəlxalq [9 - 10] məhkəməyə verilmək üçün sənəd deyilmi? Bu, həmin qanlı divantutmanın yekanə sənədi deyil. Sadəcə olaraq fidainləri tərifləməyə birinci başlayan "Moskovskiye novosti" bu vəhşilikləri yaxşı məlumatlı Qərbdən Çernobıl qəzası kimi üç həftədən çox gizlədə bilmədi. Əvvəlcə bu cür düşündüm, sonra isə başıma belə bir fikir gəldi: heç bir məhkəmə-zad olmayacaq,"Xocalıda yalnız ölüləri saxlamaq" əmrinin müəllifləri və icraçıları onu nöqsansız yerinə yetirmişlər və özlərini tam cəzasız hiss edirlər. Lap şeytanlar girdabda olan kimi.

Bu insanlıqa zidd hərəkəti Rusiya ziyalılarının Qarabağ komitəsi pislədimi? Allah eləməsin: körünür "KriK" hər birimizin bədənimizdə ürəyimizin gücü ilə dövr edən qırmızı qanın müsəlmanamı, xaçpərəstəmi aid olduğunu fərqləndirməyi öyrənib. həm də "KriK"dən olan müdafiəçilər — insan hüququ müdafiəçiləri belə hesab edirlər ki, müharibə qan sevir, qan tələb edir.

Elə ki, "KriK"un (söz oyunudur, rusça hay-küyçü—*tərc.)* Nuykinin həyasızcasına etdiyi etiraf yadıma düşür, ürəyim qana dönür: "Biz öz əllərimizlə Qarabağlar yaradırıq".

İndi isə onun əlavə etməyə haqqı var: həm də Xocalılar yaradırıq.

Mənə, rus ədibinə Xocalıdakı quldurluğa bir ay qalmış artıq aydın oldu ki, 1990-cı ilin yanvarında olduğu kimi, yenə də Azərbayçanda kütləvi qırğın hazırlanır. 1992-çi il yanvarın 16-da bazar künü Boris Yeltsinin və Ruslan Xasbulatovun adına vurduğum teleqramda mən yazırdım: "Radio, televiziya, bir çox qəzetlər hər kün Azərbayçan əleyhinə ehtirasları qızışdırır. Vasitəçilik baş tutmadı. Aydındır ki, boyeviklərin və Rusiya xüsusi alayının ixtiyarına verilmiş Qarabağda Rusiyanın başçılığı ilə qanlı divantutma hazırlanır. Rusiya hökumətini Xankəndindən (Stepanakertdən) 366-cı alayı çıxarmağa və hazırlanan qırğının qarşısını almağa çağırdım.

Viktoriya İvleva Xoçalının alınması zamanı 366-cı motoatıcı alayın əsgərlərini görməmişdi: bu da aydındır, o fotokamera ilə hüçum edənlərin ikinci eşelonunda gedirdi. Amma zəbt etdilməzdən əvvəl şəhərin top atəşinə tutulmasını və zirehli texnikanı öz gözləri ilə müşahidə etmişdi.

Süjet üçün bir şey də əhəmiyyətsiz deyil ki, həmin günlər — fevralın 26-sı və 27-sində sülh məramı ilə İranın xarici işlər naziri Əli Əkbər Vilayəti təxminən bir sutka yarım Gəncədə olmuşdu. O, bu müddətdə Xankəndinə uça bilmədi: atəşkəs haqqında bundan əvvəl razılıq əldə edildiyinə baxmayaraq erməni tərəf uçuşun təhlükəsizliyinə təminat vermədi. Bu moratorium xocalılar üçün ölüm müqaviləsi oldu. Vilayətinin elan olunmamış hərbi əməliyyatlar zonasına səfiri qəsdən və həyasızcasına pozulurdu: fidainlərdən və Rusiya xüsusi

alayının əsgərlərindən ibarət peşəkar qatillər bütün tərəflərə sübut etdilər ki, heç bir sülh və barışıq məramı onlara lazım deyil. Onların seçdiyi yol təcavüzkarlıq və zorakılıqdır. [10 - 11]

Mən çərşənbə künü — 1992-ci il fevralın 26-da öz gündəliyimdə yazdım:

"Düzkün informasiya qıtlığı, şərhçilərin yaratdığı yalan seli adamın yaşamaq həvəsini öldürür. Sən demə "Vesti" və "Novosti" proqramlarının Stepanakertin atəşə tutulması barədə oxuduqları mətnin alovlanan Şuşanın göründüyü telekadrlarla müşayiət olunması təsadüfi deyilmiş: "Svoboda" radiosunun məlumatına görə Azərbaycan tərəfinin "qrad" qurğuları yoxdur, bu qurğularla oyuncaq DQR-in hərbi qüvvələri Şuşanı, Xocalını və Qarabağ düzənliyindəki çoxsaylı Azərbaycan kəndlərini məhv edir və eyni zamanda öz paytaxtları ətrafina da həmin mərmilərdən buraxırlar. Stepanakertin mərkəzində isə köhnə avtomobil şinlərini və başqa zir-zibili yandırırlar ki, onlar həftələrlə tüstülənə bilsin. Beləliklə, həqiqət, o cümlədən erməni boyeviklərinin sırasında muzdluların olması haqqında həqiqət üzə çıxır. Onlardan ikisi —-Gürcüstandakı hərbi hissədən fərarilik etmiş Alik Kan və Volodya haqqında Parisdə nəşr olunan "Russkaya mısl"ın bir nömrəsində oxudum. "Russkaya mısl"ın səhifələrinə isə sadəcə Sovet İttifaqına heyvani kin hopdurulmamışdır (bəlkə də bəzi müəlliflər üçün üzürlüdür, həm də çox pul verilir), onun çalışdığı özünə yad olan Rusiya torpağında hamıda bir-birinə nifrət yaratmaq, istisna etmədən hamını biri-birilə vuruşdurmaqdır: pravoslavları və müsəlmanları, azərbaycanlıları və rusları, mülki şəxsləri və hərbçiləri, realistləri və avanqardistləri, rus kilsəsini və xarici pastırları və s. və i. a. Bizim ərazilərdə sülh onlar üçün qəbuledilməzdir. Düşmənçilik toxumunu məğlub olanlar tərəfdə də səpmək lazımdır, rəhmsizcəsinə və həyasızlıqla. "Russkaya mısl"ın hər nömrəsində "KriK"dən olan xaricilərin ya məqaləsi,ya da müsahibəsi verilir: onlar harada aş, orada başdırlar. Bu informasiya pərdəsinin tiryəkindən sadəcə ürəkbulanması əmələ gəlmir — adamın qəlbini çürümə bürüyür. Pis iyli yalançı sözlər ölüdür və bizi sanki meyit zəhəri kimi zəhərləyir. Yelena Bonner xırıltılı səsi ilə Xocalı qurbanlarının sayı haqda məlumatı təkzib edirdi: bilirsinizmi oradakı qurbanlar yüzlərlə, minlərlə deyil, haradasa onlarladır. Və ona inanırdılar. Andrey Dmitriyeviç Saxarovun dul qadınına.

Bu insan hüquqları müdafiəçisi (A. D. Saxarov — *tərc.)* nədənsə yenidənqurmanın ən apofeozunda repressiyaya məruz qalmış bədbəxt məshəti türklərini müdafiə etmədi, amma Moskva metrosunda 1977-ci ilin yanvarında onlarla günahsız adamın ölümünə səbəb olmuş partlayışı təşkil edən "Novaya Armeniya" partiyasının terrorçuları Zatikyan, Stepanyan və Bağdasaryanı sinəsini qabağa verib müdafiə etdi. Görəsən Nobel mükafatı laureatında bu ayrı-seçkilik haradandı?

Bu barədə söhbət hələ irəlidədir.

Hələlik isə "Moskovskiye Nozosti"nin 1992-ci il martın 15-i nömrəsində xaricdən olan erməni terrorçularının Qarabağ hadisələrində iştirakını bir daha təsdiq edən yazısına nəzər salaq. [11 - 12]

"Ermənistanda erməni diasporunun terrorçuları varmı," — sualına MN-in müxbiri İosif Verdinyan qısaca cavab verir: "Var". Və öz həmsöhbəti, 2 il əvvəl Livandan turist kimi gəlmiş 34 yaşlı Vazgen Sislyanın çox geniş və qəzəbli bəyanatını verir. Parisin Usman məhəlləsində 60 girovu ələ keçirmək aksiyasında (sentyabr, 1991-ci il) və Budapeştdə (dekabr, 1991-ci il) Türkiyə səfiri Bədrəddin Tünabaşa qəsddə iştirakının üstü açılan bu ASALA (Erməni gizli azadlıq ordusu) döyüşçüsü öz milli mənliyini indi burada—Xocalıda ikigünlük uşaqları öldürməklə müdafiə edir. Niyə də belə olmasın? Vazgen Sislyan, onun "KriK"dən olan rusiyalı himayədarları iddia edirlər ki, "qanun güclünün tərəfindədir". Doqrudanmı bizim intellektuallara sadə həqiqət məlum deyil ki, şahı şah ayağına, rəiyyəti rəiyyət ayağına ölçərlər və girovlarla, uşaqlarla və qadınlarla alveri (bir baş—bir kanistr benzin) özünə sənət seçən peşəkar qatil və zorakı öz milliyyətini və mənliyini çoxdan itirib.

Azərbaycanla həmsərhəd olan Şəmşəddin rayonu kəndlərinin birində jurnalist Y. Arakelyanın dediyinə görə, 70-ci illərdə M. Əliyev, M. Məmmədov və S. Şəkibəyovun — 1920-ci ildə mühasirəyə düşmüş ermənilərə neft, çörək, taxıl çatdıran kommunarların şərəfinə bir abidə ucaldılmışdır. Azərbaycanlı familiyalarının altından erməni daşyonanı müdrik bir sətir həkk etmişdir: *"Duz-çörək gulləlɘnmir".*

Bu gün həmin bulaq-abidə məhv edilmişdir, həm çörək güllələnmişdir, həm də duz.

Biz niyə bu günə düşdük? Gəlin yada salaq.

## 1987-ci ilin noyabrı: Qorbaçov, Bjezinski, Aqanbekyan və Pyer Dümon

Min doqquz yüz səksən yeddinci ilin sonunda Qərbdə və bizim özümüzdə bu işə maraq göstərən müşahidəçilər əvvəlkindən fərqli olaraq dedi-qodusuz ona əmin oldular ki, SSRİ-də başlamış yuxarıdan yenidənqurma sözçülük burulğanında boğulur.

MK-nın oktyabr plenumunda Boris Yeltsinin şəxsi qiyamı adı altında Kreml çevrilişi başda Aleksandr Yakovlev olmaqla Siyasi Bürodakı "akademik-ateistlər"in açıq improvizasiyası və tələskənliyi üzündən boşa çıxdı. "hakimiyyət zirvəsindəki dissident" (Vaşinqtonda Mixail Qorbaçova belə ad vermişdilər) Yer üzündə

"Parçala və hökmranlıq et" prinsipinin çox mahir formalarla, əsasən qeyri-iqtisadi məcburiyyətlə həyata keçirildiyi son imperiyanın — SSR İttifaqının sönük həyatının bütün qollarını birdəfəlik sındıran uzunmüddətli süjet hazırlamağa çalışırdı. O biri imperiya — Amerika Birləşmiş Ştatları isə daha çox iqtisadi zorakılıq hesabına nəzərə çarpacaq böyük nəticələr əldə edirdi. [12 - 13]

Qeyd edək ki, həm də xeyli yuvarlaq ildönümü yaxınlaşırdı: XX əsrdə 70 il əvvəl Brest müqaviləsinə (fevral-mart 1918-ci il) əsasən dünya yenidən bölüşdürülmüş və o dövrün dörd imperiyası — Rusiya, Osmanlı, Almaniya və Avstriya-Maçarıstan eyni zamanda dağıdılmışdı. Hitlerin üçüncü Reyxi yenidən dirçəltmək cəhdi isə Almaniyanın bölünməsi və Avropa-Asiya ərazisində 1922-ci ildə SSRİ adlandırılmış yeni Rusiya imperiyasının geosiyasi hökmranlığının başlanması ilə nəticələnmişdir.

Sovet Partiya iyerarxiyasının zirvəsinə qalxmış, demokratiya və aşkarlığı elan etmiş dissident, Ceyms Beykerin sonradan etdiyi etirafa görə ABŞ və onun müttəfiqlərinə son yüzillikdə bu "şər imperiyasını" parçalamaq üçün yeganə şans verirdi.

Parçalama süjeti 1987-ci ilin ilk aylarından axtarılıb-öyrənilirdi və orta əsr üsulları ilə müqayisədə yeni heç nə yox idi. Uduzulmayan gedişlər nəzərdə tutulmuşdu: milli və dini düşmənçilik törətmək. Prezident Karterin sabiq köməkçisi Zbiqnev Bjezinski "Vaşinqton Tayms" qəzetinin bir qrup reportyoruna və redaktoruna verdiyi bəyanatda irəlicədən deyirdi:

"Gələcək 20 — 30 ildə dünyada milli və etnik münaqişələrin mərkəzi Sovet İttifaqı olacaqdır. Burada millətçilik canlı dinamik qüvvəyə çevriləcəkdir. Sovetlər öz millətlərinin problemini nəzarətdə saxlaya bilməyəcəklər. Onların sistemi ölümcül böhran ərəfəsindədir".

Bjezinski nə ərazi, nə də etnos adı çəkib, lakin onun irəlicədən dedikləri o qədər düz çıxdı ki, artıq il yarım sonra kitab mağazalarının vitrinlərində onun "Möhtəşəm iflas: XX əsrdə kommunizmin doğulması və məhvi" bestselleri göründü. Memar öz yarımçıq əsərini tamamlanmış halda təsəvvür etdiyi kimi, o da həmişə hadisələri bir-iki addım qabaqlayırdı.

Moskva mümkün münaqişələrin ünvanlarını axtarırdı.

Hələ 1987-ci ilin əvvəlində "Literaturnaya qazeta" İqor Belyayevin "İslam" məqaləsini dərc etdi. Məqalənin məzmunu ondan ibarət idi ki, bu din ölkəmiz üçün təhlükəlidir və düşməndir, müsəlmanlar isə çox məkrli və xaindirlər. hələ Əfqanıstanda döyüşlər gedirdi və oradan sink tabutlarda oğulları təkcə Bakıya, Aşqabada, Daşkəndə deyil, həm də Minskə, Ryazana, Riqaya kətirirdilər. Yeri gəlmişkən, möhtərəm islamşünaslar bizim qoşunların Əfqanıstana fəlakətli, faciəli soxulmasının qarşısını heç olmasa Siyasi Büroya göndərilmiş bir kiçicik yazı ilə də olsa almağa cəhd göstərmədilər. Onlar ki, Orta Asiyada basmaçların hökumətə 20 ildən artıq davam edən gərgin müqavimətindən xəbərdar idilər.

"Literaturnaya qazeta"nın ardınca 1987-ci ilin fevralında və mayında oxşar ssenari üzrə "Pravda" çıxış edir ("Özündən bədkümanlığın nətiçəsi" və "Yalnız dostluq xeyirxahlıq yaradır" məqalələri). Sov.İKP MK-nın orqanı həmin məqalələrdə qazaxları və qırğızları "milli qapalılıq meylinə, milli lovğalıq əhval ruhiyyəsinə" və "ayrı-ayrı millətçilik təzahürlərinə" görə məzəmmət [13 - 14] edirdi. Bu məqalələr 1986-cı ildə Gennadi Kolbinin Qazaxıstana fitnəkarcasına canişin təyin edilməsi ilə əlaqələndirilirdi. İndi bütün dünya prezident Nursultan Nazarbayevi tanıdıqdan (6 il əvvəl o, Qazaxıstan vilayətlərindən birinə başçılıq edirdi) sonra inamla demək olar ki, Kolbinin təyinatı Bjezinskinin dediyi "milli və etnik münaqişələr" zəminində Qorbaçovun birinci fitnəkarlığı idi.

Lakin bu ilk çiçəklər idi, meyvələri isə Qərb üçün həmişə başqalarının (həm də təkcə Zaqafqaziyada deyil) daxili işlərinə qarışmaqda sınaq şarı olan "erməni məsələsinin" ləklərində yetişirdi.

1987-ci ilin iyununda Avropa parlamentinin "Ermənistanda genosid qurbanlarının xatirə günü" təsis etməsi SSRİ ictimaiyyətinin demək olar ki, nəzər-diqqətindən kənarda qaldı. Yerevanda isə 1915-ci ildə Osmanlı imperiyasının şərq ucqarlarından qovulmuş və həlak olmuş həmtayfalarına əvvəlcədən abidə qoyulmuşdu. Maili, hündür, qara mərmərlə üzlənmiş daş sütunlar altında əbədi məşəl yanır, matəm musiqisi səslənirdi. Bu memoriala hər gəliş sultan hökumətinin birinci dünya müharibəsində erməni əhalisinə qarşı qanlı zorakılıq hərəkətləri barədə hekayətlərlə və bunu onlara etiraf etdirmək çağırışları ilə müşayiət olunurdu. Halbuki, həmin hakimiyyət yetmiş ildən artıq idi ki, Türkiyə Respublikasının özündə də mövcud deyildi. Zori Balayanın və Silva Kaputikyanın (onlar haqda sonra söhbət açacağıq) yazılarında türklərə qarşı olan hipertrofiyaya uğramış nifrət açıq-aşkar qonşu azərbaycanlılara da şamil edilirdi və onlar azərbaycanlıları başqa cür yox, elə "türk" adlandırırdılar.

Mən vaxt xronologiyasını məcburiyyət qarşısında pozuram ki, Strasburqdakı Şərq Tədqiqatları İnstitutunun direktoru Pyer Dümonun erməni genosidi barədə mülahizələrini verim.1989-cu ildə ABŞ senatı qarşıdan gələn 1990-cı ilin "erməni genosidi ili" elan olunmasını təklif etdikdə Pyer Dümon Avropa və Amerika qəzetlərində sensasiya doğuran belə bir bəyanat yaydı ki, Osmanlı İmleriyası Hökumətinin Türkiyə ərazisini erməni əhalisindən tamamilə təmizləmək barədə qoşunlara əmr göndərdiyi və bu işdə marağı olan siyasətçilərin son 70 il ərzində tarixi dəlil kimi istinad etdiyi xüsusi teleqram həyatda ümumiyyətlə mövçud olmamışdır.

Sonra tanınmış alim birinçi dünya müharibəsində Türkiyənin şərqində erməni tiçarət burjuaziyasının rus və ingilis müşavirlərinin köməyi ilə rus və ingilis tüfəngləri, pulemyotları və hətta topları ilə silahlanmış zinvor (boevik) dəstələrinin yaradıldığı aylarla bağlı süjeti təsvir etmişdir. Qeyd edim ki, Türkiyə üçlər ittifaqının tərkibində İngiltərə və Rusiyaya qarşı, çıxış edirdi. Zinvorların fəaliyyəti nəticəsində 60 minə yaxın dinc əhali— kürdlər və türklər həlak oldu (bu və başqa məlumatları Pyer Dümon təkcə Türkiyə arxivlərindən deyil, həm də Böyük Britaniya və Fransa Xarici İşlər Nazirliklərinin [14 - 15] arxivlərindən götürmüşdü), Türkiyə hökuməti erməni zinvorların tələblərini qəbul etdi və şərqi Türkiyənin ruslar tərəfindən işğal edilməsinə razılıq verdi. Elə general Yudeniç də o zaman Ərzurumu alarkən məşhurlaşdı, lakin tezliklə onun familiyası yanından "Erzurumski" əlavəsi itdi. Ümidsiz vəziyyətə salınmış kürdlər işğalçı rus qoşunlarına və zinvor birləşmələrinə amansız partizan müharibəsi elan etdilər. Üsyançılara nizami türk ordusunun hissələri kömək edirdilər. Rus qoşunları və zinvor dəstələri Rusiya imperiyası ərazisinə — Zaqafqaziyaya qaçırdılar. Türkiyənin erməni əhalisi faktiki olaraq girov vəziyyətində qaldı. Dümon Türkiyə əleyhinə kütləvi çıxışlar törətmək məqsədilə libasını dəyişmiş zinvorların erməni kəndlərinə hüçum etmələri ilə bağlı çoxlu hadisəni də qeydə almışdır. Fanatikliyin nəticələri çox acınacaqlı oldu: qisasçılığa xas olan əvəzə-əvəz prinsipinə uyğun olaraq öz əməllərinin çavabında 300 minədək erməni əhalisi amansızcasına məhv edildi.

Alim belə hesab edir ki, ondan əvvəlki yüzilliklərdə Türkiyə tarixində bir dənə də olsa ermənilərin kütləvi təqib olunması faktı olmayıb, faciəli 1915-ci ilədək onların bir çoxu yüksək dövlət vəzifələri tuturdular və türklərin ermənilərə həmişə xüsusi (yəni pis—*tərc.)* münasibət bəslədiyini iddia etmək — müasir siyasətbazların xülyasının məhsuludur. Türkiyədə bu gün də yaşamaqda davam edən on minlərlə erməni qalmışdır. Lakin divantutmanın miqyasından qorxuya düşən 400 mindən çox erməni Rusiyaya, Avropa ölkələrinə və Yaxın Şərqə mühacirət etmişdir. Pyer Dümon belə bir nəticəyə gəlirdi: "Dinc kürd, türk və erməni əhalisi arasında tələfat, hərbi qarşıdurmanın güclənməsini kəskinləşdirən xariçi işğalçı qoşunların iştirakı ilə hər iki tərəfin apardığı hərbi əməliyyatların nəticəsidir və bu genosid hesab edilə bilməz. *Bu hadisələr ətrafında möhtəkirlik nəticəsində qurbanların sayını 2 milyona çatdırmışlar. Halbuki, o zaman Osmanlı Turkiyəsinin və Rusiya İmperiyasının sərhədləri daxilində cəmi 1,4 milyon erməni yaşayırdı (kursiv tərcüməçinindir).*

Pyer Dümonun "Qoy siyasətçilər tarixə müdaxilə etməsinlər" adlandırdığı və ABŞ senatına ünvanladığı bəyanatı aşağıdakı sözlərlə qurtarırdı: "Onların müdaxiləsi həmişə saxtakarlıqla müşayiət olunur."

Strasburq Şərq Tədqiqatları İnstitutu direktorunun nə dərəcədə düz olduğunu deyə bilmərəm (hər halda onun dediklərinin təkzib olunması barədə məlumata rast gəlməmişəm), təkcə ABŞ-ın yəhudi icması başçısının elə həmin mövzuya həsr olunmuş çıxışını misal kətirmək istərdim: *"Bəşəriyyət tarixi yalnız bir genosid — yəhudi xalqının genosidini tanıyır, lakin façiədən uçuz balaqan duzəltməyə bizim qürurumuz heç cür yol verməz".*

Hazırki Ermənistan siyasətçiləri və diplomatları xariçi bazarda tamamilə kosmopolit (vətənpərvərlik hissindən və s. uzaq) [15 - 16] baxışlar təbliğ edirlər, genosidə güc verməkdən isə daxildə istifadə olunur. Aydındır ki, müsəlmanlara gizli nifrət bəsləmək, elə xristianlara və ya yəhudilərə gizli nifrət bəsləmək qədər faydasızdır.

Bu mexanikanı daha qabarıq köstərmək üçün İstanbul jurnalisti Murad Arvasın söylədiklərinə müraciət etmək istərdim. Yerevanda onu və Fransadakı *"Le monda*" qəzetinin müxbirini mətbuatla əlaqələr üzrə məmur Aşot Nazaryan müşayiət edirmiş. həmin səfər 1991-ci ilin yanvarında baş verdiyindən Murad bəy təzə press-attaşeyə sual verir: respublikadakı çoxminlik ordu kimə qarşı yaradılmışdır? Əkər Türkiyəyə qarşıdırsa, bu həddindən artıq kiçikdir; əgər Azərbaycana qarşıdırsa, onda axı onlar da sizin kimi Sovet Respublikasıdır... Nazaryan belə cavab vermişdir: *"Ordunu biz ruslara qarşı yaratmışıq: bax onlardır bizim əsas duşmənimiz".*

Aydınçır: həmin günlər Yerevana Türkiyə hekumətinin nümayəndəsi Ermənistanla iqtisadi saziş barədə danışıqlar üçün gəlmişdi. Onda Rusiya ziyalılarını niyə inandırırlar ki, Yerevan — demokratik Rusiyanın Qafqazdakı əsas istehkamı və xristianlara heç bir təhlükə yaratmaq fikri olmayan müsəlmanlardan və pantürkistlərdən müdafiəçisidir? Qoy olsun. Belə siyasəti Murad bəy bu cür müəyyən etdi: "Dovşana canıyananlıqla deyirlər qaç, tazıya deyirlər tut!" Hüquq təhsilini Fransada almış A. Nazaryan 1915-ci il faciəsi barədə jurnalistlərə günün konyukturasına uyğun olaraq, əsaslandırılmış çavab verdi: **"Türklər və ermənilər yüzillər ərzində mehriban yaşamışlar — erməni kəndlisinin türk kəndlisi ilə bölməli heç nəyi yoxdur. Birinçi dünya müharibəsində rus fitnəsinə uyaraq Rusiyanın və Qərbin komandası ilə Türkiyəyə qarşı müharibəyə girdik, nəticədə erməni xalqı genosidə məruz qaldı və Türkiyə ərazisindən qovuldu. Biz yeni dövlət qurduq, bizi diasporumuz və qərbdəki dostlarımız müdafiə edir və bizim əsas düşmənimiz Sovetlər, Sovetlər İttifaqıdır".**

1915-ci il hadisələrinə dair öz münasibətini türk jurnalisti də şərh etdi:

*"Ermənilər əsrlər boyu Osmanlı imperiyası ərazisində yaşamış, tiçarətlə və sənətlə məşqul olmuşlar. Osmanlı imperiyası çox güclü idi, lakin birinci dünya muharibəsi başladı: Fransa və İtaliya bizim qərb əyalətlərimizə qoşun çıxardılar, Yunanıstan İzmiri, İngiltərə İstanbulu işğal etdi. Rusiya da Turkiyəyə qarşı hərbi əməliyyatlara başladı. Və bu şəraitdə 400 ildən çox Turkiyə ərazisində yaşayan ermənilər daşnakların*

*təhriki ilə Turkiyənin kişisiz qalmış köməksiz kəndlərinə zərbə endirdilər. Həddən çox heç bir gunahı olmayan qadın, uşaq və qoca həlak oldu.*

*Dinc. əhalini qorumaq uçun cəbhədən hərbi hissələr geri çağırıldı. Muharibə odundan çıxmış əsgərlər, onların evlərini talamış, heç bir gunahı olmayan köməksiz adamları öldürmüş* [16 - 17] *daha hiyləgər və xain duşmənlə üzləşdilər. Nizami ordunun hüçumları altında daşnaklar qaçırdılar. Daşnakların əsaslı surətdə hazırladıqları cinayətə görə bu dəhşətli fitnəyə uymuş bütün ermənilər cəzalandılar".*

Niyəsə Murad bəy Yerevanı tərk edərkən qüssə ilə söylədi ki, ermənilərin Türkiyə, İran, Azərbaycan və Gürcüstan torpaqlarının xeyli hissəsinə böyük iddiaları var. Görəsən, Avropa parlamenti 1987-ci ilin yazında "erməni məsələsini" qoyanda, bu sərsəm əhval-ruhiyyələri nəzərə alırdımı?

"Təpənin o üzündən" isə bizə Qarabağ barədə ilk siqnal daxil oldu. 1987-ci il noyabrın ortalarında akademik Abel Aqanbekyan Fransanın Erməni İnstitutu və erməni veteranları Assosiasiyasının onun şərəfinə düzəltdikləri qəbul zamanı "Qarabağın ermənінin olduğunu eşitmək" — arzusunda olduğunu bildirdi. Akademik söylədi ki, "bir iqtisadçı kimi belə hesab edirəm ki, o Azərbaycana nisbətən Ermənistanla daha sıx bağlıdır". Yeri kəlmişkən, o zaman DQMV-nin xariçi mal dövriyyəsində Ermənistan SSR-in payı 1,5 faizdən çox deyildi. Özümüzə təskinlik verək ki, iqtisadçı akademik bunu bilmirdi və bu, böyük təbii ehtiyatları olan nəhəng ölkənin indiki iqtisadi iflasının səbəbləri barədə suala qismən cavab verir. Öz dövrünü və insanların arzu və istəklərini incəliklərinədək duyan Marietta Şakinyan isə tamam əks fikirdə — Qarabağın məhz Azərbaycana meyl etməsi fikrində idi. 1927-ci ildə hadisələrin . izi soyumamış, bu vilayəti uzunmüddətli gəzintiyə çıxan M. Şakinyan görürdü ki, bu torpaq *"ozunun coğrafi və iqtisadi mövqeyi o baxımından üzünü daha çox Azərbaycana çevirmişdi. Əsrarəngiz meşəli yaylaqları buraya enir, çaylar buraya axıb gedir, yollar buraya uzanır, çay axarı və yollar boyunca kəndlər və adamlar da öz iqtisadi maraqları ilə birlikdə yerini buraya dəyişir: ticarətlə məşqul olur, mal alır, mal dəyişir, uyğunlaşır, tələbata cavab verir, məişət cizgilərini mənimsəyir, ümumi məqsədlərlə bir-birilə bağlanırlar*".

Bu da Zaqafqaziyanın partiya bosslarından biri olan Levon Mirzoyanın daha əvvələ — 1923-cü ilə aid olan fikirləri: *"Xalis Qarabağ məsələsi yoxdur. Erməni kəndlisi Bakı və Ağdamla sıx əlaqəsi olmadan yaşaya bilməz, yalnız onun ovalıq hissəyə yolunu təhlukəsiz etmək və mədəni inkişafına imkan vermək lazımdır".*

Bu əcaib akademikə ibrət üçün daha bir sitat gətirək. Hələ Azərbaycanda və Ermənistanda Sovet hakimiyyəti qurulmazdan əvvəl—1919-cu il mayın 22-də Anastas Mikoyan V. İ. Leninə məlumat verirdi: *"Erməni hökumətinin daşnak agentləri Qarabağı Ermənistana birləşdirməyə çalışırlar. Bu, Qarabağ əhalisi uçun Bakıdakı həyat mənbəyindən məhrum olmaq və heç zaman və heç nə ilə əlaqəsi olmadığı Yerivanla bağlanmaq deməkdir. Erməni kəndliləri beşinci qurultayda Azərbaycanı tanımağı və ona birləşməyi qərara aldılar."* [17 – 18].

Necə deyərlər, hər şey axır, hər şey dəyişir: elə həmin Anastas Mikoyan SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olandan sonra 10 il əvvəl Krımın müvəffəqiyyətlə Ukraynaya verildiyini nəzərə alaraq 1964-cü ilin əvvəlində N. S. Xruşşova DQMV-ni Ermənistana birləşdirməyi təklif etdi.

Etibarlı məlumatlara görə, Xruşşov əsəbiliklə deyib: *"Bir sutka ərzində DQMV ermənilərini Ermənistana koçürmək uçun 12 min hərbi yuk maşınını onların ixtiyarına verməyə hazıram".*

Qorbaçov belə suala çavab verməyə hazır deyildi və güman etmək olar ki, insanın çox zəif yeri olan millətçiliklə manipulyasiya etmək tək Zbiqnev Bjezinskinin planına daxil deyildi. Və uzun illər eyni ərazidə yaşamış hansı xalqlar bir-birinin xatirinə dəyməmişlər? İnsailarda milli qəzəbi söndürən qüvvələr həmişə tapılırdı, çünki, millətlərdə ayrı-seçkilik yaranması yalnız qanla və qarma-qarışıqlıqla nəticələnə bilir.

Tarix belə deyir. Fazil İskəndər hesab edir ki, *yalnız ağlını itirmiş şöhrətpərəstlər və cinayətkarlar düşmənçilik hərəkətində olurlar. Birincilər şöhrətlənmək istəyirlər, ikincilər isə umid edirlər ki, ümumi qarma-qarışıqlıqda onların cinayətlərini unudacaqlar.*

Parisin "İnterkontinental" otsində yerli erməni elitası qarşısında səslənmiş və "Humanite" səhifələrində 1987-ci il noyabrın 18-də dərc olunmuş DQMV-nin Azərbaycandan alınıb, Ermənistana verilməsinin "iqtisadi məqsədəuyğunluğu" barəsindəki yalan qanunsuzluq üçün geniş meydan açdı. Halbuki həqiqəti bir-başa düzgün demək lazım idi: ümumi uğursuzluğun səbəbi normal dövlətçiliyin olmamasındadır: yalnız bu, bizləri—rusları, erməniləri və azərbaycanlıları qəzəbləndirir və alçaldır, qəzəbli adamlar isə, fərqi yoxdur, moldavan olsun, özbək və ya yakut, çox asanlıqla milli düşmən obrazı yaradır. "Nifrət üçün Obyektləri seçin" — deyə, Gebbels öyrədirdi.

Nişanlanmış Qarabağ kartı oyuna belə girdi. SSRİ Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına ilk sui-qəsd bütöv bir xalqın mənliyinə vurulmuş sillə kimi səsləndi.

Hikmət Hacızadənin fikrincə, Azərbaycan milli xarakterinin özəyi Koroğlu eposundan yaxşı tanınan türk hərbi-feodal namus kodeksinin müəyyənedici təsiri altında formalaşmışdır: mərdlik qazancdan irəlidir, namussuzluq — ölümdən pisdir, kömək almaq adam alçaldandır, ailə və uşaq müvəffəqiyyətdən və vəzifədən üstündür. Varlanmağa çalışmaq əxlaqa zidd deyil, kişi pulu dünyanı gözəlləşdirir, — deyilir Quranda.

Gəlmə adama münasibətdə azərbayçanlıda etibar və qonaqpərvərlik krediti həmişə hazırdır. Bu zaman ev yiyəsi tez-tez səhv edir və elə bilir ki, onun evinin qayda-qanunu qonağa məlumdur. Qədim. bir hekayət bu qaydaları belə izah sdir. Gələn qonağı qəbul etdilər, yedizdirdilər, içirtdilər, gecələməyə yer verdilər. həyasız qonaq bir ucdan hər şeyi tərifləməyə başlayır, bilir ki, yerli qanuna [18 – 19] görə qonağın nədən xoşu gəlsə, onunkudur. Qonağa çoxlu hədiyyələr verdilər, ketmək istədikdə, xahiş etdilər ki, çəkməsini çıxarsın və altındakı torpağı çırpıb tekdülər. *"Torpağımız birçədir, — deyirlər Azərbaycanda, onu biz hədiyyə vermirik".*

Torpağına istənilən iddia hər bir xalqın qeyrətinə və mənliyinə ağır zərbədir, hətta insanlar uzaq Parisdə səslənən qanunsuzluğa çağırışın onların dinc həyatlarında tüstülənən ocaqlarının sonu olduğunu dərk etməsələr belə.

Abel Aqanbekyanın Qarabağ haqqında bəyanatı ani olaraq bir çox xarici erməni qəzet və jurnallarının, Parisdəki "Ayb" radio stansiyasının, "Azadlıq" və "Amerikanın səsi" radiolarının erməni redaksiyalarının mərkəzi mövzusuna çevrildi.

Var-dövlətinə görə ikinci diasporun çoxsaylı siyasi təşkilatları hərəkətə gəldi: "İnqilabçı daşnaklar", "İnqilabçı ermənilər ittifaqı", "Kəndli azadlığı", "Birləşmiş Ştatların Şərq erməniləri", "Kilikiya", "Jirair", "Ermənistanın müdafiəçisi" və "Gənc erməni daşnakları" partiyaları.

ABŞ o zaman növbəti prezident seçkilərinə hazırlaşırdı. Erməni lobbisi prezidentliyə əsas namizədlərdən uzaqda dura bilməzdi. Murad Topalyan Maykl Dukakisin milli məsələlər üzrə müşaviri oldu, ABŞ-dakı erməni icmasının başçısı Paruyr Zorçyan isə Corc Buşun namizədliyini müdafiə ilə çıxış etdi.

(Bu gün televizoru qoşub "Novosti" və ya "Vesti"yə baxdıqda görürəm ki, reportaj müəlliflərinin, jurnalistlərin və operatorların tən yarısı erməni familiyasından olan adamlardır, başa düşürəm ki, xarici lobbistlərin köstərdiyi pis nümunə Rusiya televiziyasının rəhbərlərindən biri, "müstəqil" jurnalist, telekompaniyaya "Den" qəzetinin məlumatına görə öz "şəxsi" 17 milyon vəsaitini qoymuş Eduard Saqalayevə və "Vesti"nin Baş redaktoru, c-b Saqalayevdən az məhşur olan işbaz c-b Minasyana da yoluxmuşdur).

Lakin 1987-ci ilin dekabrına qayıdaq. Respublikaçılar partiyasının Nyu-Orleandakı qurultayındakı erməni icmasından olan nümayəndələr təkid edirdilər ki, partiyanın proqramına "Sovet İttifaqında öz müqəddaratını təyin etmək hüququnu əldə etməyə çalışan xalqların müdafiəsi" barədə maddə daxil edilsin.

SSRİ-də hakimiyyətin zirvəsində olan erməni lobbisinə gəldikdə isə Abel Aqanbekyan heç çür yanıla bilməzdi, onları adbaad tanıyırdı: Baş katibin köməkçiləri Şahnazarov və Brutensdən tutmuş, yeni Baş nazir Rıjkovun yaxın adamları olan Sitaryana və Xaçaturovadək.

Bir də ki, yüksək vəzifəli partiya və dövlət nökərlərinin və hətta mədəniyyət xadimləri — ermənilərin açıq siyasi fəallığına ümid bəsləmək olmazdı. Əsas o idi ki, onlardan heç biri elan edilmiş konstitusiya özbaşınalığına qarşı çıxış etməyəcəkdir.

SSRİ xalq artisti leninqradlı Ruben Ağamirzyanın dedikləri mənə daha səmimi göründü: [19 - 20]

*"Əlbəttə, bir erməni kimi istəyirəom ki, Dağlıq Qarabağ Ermənistana keçsin, — mən bunu ədalətli sayardım. Digər tərəfdən isə mən başa düşürəm ki, aksiya nəticəsi bilinməyən xarakterli zəncirvari reaksiya yarada bilər".*

Lakin, elə Qarabağ süjetinin müəlliflərinin bütün ümidi də məhz nəticəsi əvvəlcədən bilinən xarakterli bu zəncirvarı reaksiya idi: Zbiqnev Bjezinskinin proqnozunu yada salaq.

Əgər akademik Aqanbekyan da rejissor Ağamirzyan kimi özünün Parisdəki çıxışını ondan başlasaydı ki, o bir erməni kimi Dağlıq Qarabağın Ermənistana keçməsini istəyir, bu zaman onun milli mənliyini millətçiliklə səhv salmaq olardı. Ona görə də Kremlin saray iqtisadçısı, L. İ. Brejnevin BAM üzrə baş məsləhətçisi Abel Aqanbekyan mərhum Ruben Sergeyeviç Ağamirzyandan daha hiyləgər rejissor çıxdı. Körəsən, millətçilik çıl-çırpısına odu birinci tullayan Abel Aqanbekyanın Ermənistanın özündəki Qarabaq hərəkatından xəbəri vardımı? Şübhəyə yer qalmır. Yerevanın elçiləri bütün 1987-ci il ərzində Qarabağa gedərək müəssisələrdə və erməni kəndlərində yığıncaqlar təşkil edir, muxtar vilayətin statusunu dəyişmək qətnamələrinin altına imzalar toplayırdılar. Sadəlövh millətçilik ideya millətçiliyi ilə, iki "yad" millətin bir ərazidə yaşamasının qeyri-mümkün olması fikri ilə çulğalaşırdı. Yerli kitabxanalardan Azərbayçan klassiklərinin rus dilində nəşr edilmiş kitabları götürülürdü, hətta erməni xalqının əməksevərliyini, işgüzarlığını öz həmtayfalarına səmimi simpatiya ilə misal gətirən Cəlil Məmmədquluzadənin uşaq hekayələri də. İdeoloji artilleriya hazırlığında əsas yeri Zori Balayanın bir çox erməni kəndlərində stolüstü kitaba çevrilmiş "Ocaq" yol oçerkləri tutdu. "Millətin çiçəklənməsi hüququnu mən insanın bütün hüquqlarından uca tuturam — özünə çoxmənalı Qayk Qarabaxçi təxəllüsü götürmüş publisistin əqidəsi və leytmotivi belədir. Yalnız bu hüququ həyata keçirən əsl vətəndaş və vətənpərvərdir. Bütün yerdə qalanlar — satqınlardır. Əxlaqa ziddir..."

Özünü və öz xalqını həmişə haqlı sayan Zori Balayan şəxsi qəzəbinə beynəlxalq miqyas verirdi: "Biz barbarların doğrayıb tökdükləri həmvətənlərimizi heç vaxt yaddan çıxarmırıq. Şəxsən mən başa duşmurəm ki, bu gün yaponlar amerikanlarla necə dostluq edirlər. Xirosima və Naqasakidən sonra yapon adalarında amerika təyyarəçilərini necə qəbul etmək olardı? On beş saniyə ərzində yuz qırx min yaponiyalı ömrünu tapşırır. Yüz

milyonlarla başqaları sonradan əziyyət çəkəcəklər. Minlərlə və minlərlə adam indiyədək əziyyət çəkir. Və bu vaxt təyyarəçi forması geymiş amerikalılar yapon adalarında sakitcə gəzişirlər".

Amerika təyyarəçilərinə arxadan hücum etməyi və Amerika konsulluğuna partladıcı qurğu qoymağı Qayk Qarabaxçi yaponlara əmr etmədi, əvəzində "türk diplomatını öldürməyi qarşılarına məqsəd qoymuş erməni millətindən olan gənc oğlanlar" barədə hərarətli fikir söylədi. [20 - 21]

"Tarixi Arsaxı" tərənnüm edərkən, müəllif azərbaycanlıları "gəlmələr", "türk köçəriləri" adlandıraraq millətlərarası münasibətlər etikasını pozmuşdur: "bizim yerimiz necə də dardır? Rayon mərkəzləri arasından yol əvəzinə şəhər keçir. Bizim yerimiz heç kimdə və heç yerdə olmadığı qədər dardır".

Təsvir olunan süjetin personajlarına bir şey lazım idi: Tarixi vətəndəki darısqallıqlar barədə təntənəli nəğmələrlə milli hissləri qızışdırmaqdan kütlənin despotiyasına keçmək.

Aqanbekyanın Parisə uçuşundan təxminən bir ay əvvəl—1987-ci ilin oktyabrında Yerevandakı Puşkin adına parkda "Qarabağ" komitəsinin ilk mitinqi keçirildi. Onun liderləri İqor Muradyan və Levon Ter-Petrosyan o zaman ən çoxu 250 adam yığa bildilər. Lakin elə ondaca kifayət qədər davakar "Qarabağımızı xilas etmək üçün ölümdən və həbsxanadan qorxmamağı bacarırıq" sonluğu ilə bitən "Axı bu gün Qarabağa çanlı bütlər gərəkdir" mübarizə himni səsləndi.

Şairə Silva Kaputikyan haqlı olaraq bu hərəkatı "yenidənqurmanın, kütlələrin sosial aktivliyinin övladı" adlandırmışdı.

Dinç qarabağlılar öz məmləkətlərinin gələcək "xilası" barədə düşünmürdülər, lakin azərbaycanlı qonşulara əyri baxmaq halları artırdı və bu narahatçılığı ilk hiss edənlər qarışıq nigahlardan yaranan ailələr oldu.

1970-ci il təvəllüdlü Abbasova Rəna Vasif qızına orta təhsil haqda verilən attestatda isə əsas fənlərdən aldığı dördlərin və beşlərin sırasında iki fənnin—Azərbaycan dili və Azərbaycan ədəbiyyatının qarşısında yazılmışdı: "keçməmişdir".

## 1988-ci ilin fevralı: "Korrektorlar", "Qarabağ"ın liderləri və Silva Kaputikyan

Bu gün həmin səhvlər o qədər əhəmiyyətsiz görünür ki, onları heç yada salan da yoxdur. Gah 1963-cü il üçün "Kalendar vraça"da, gah N. V. Voronovun "Monumentalnaya skulptura" (1984-cü il) kitabında və ya hətta "Osnovı sovetskoqo qosudarstvennoqo prava" (1987-ci il) dərsliyində Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistan SSR-ə aid edilmişdi. Naşirlər və müəlliflər bu saxtakarlıqları korrektorların günahı kimi izah sdirdilər: gözdən qaçıb. Vəssalam. Azərbaycanın hökumət dairələri və xüsusən oxucular elə bir çiddi etiraz məsələsi qaldırmırdılar.

Zori Balayanın "Ocaq" kitabının tənqidi təhlilinə və iki xalqın (Azərbaycan və erməni — ***tərç.)*** qarşılıqlı münasibətlərinin əsl tarixinə həsr etdiyi əsaslı məqaləsi ilə bağlı Azərbaycanın xalq yazıçısı Mirzə İbrahimovun payına "Literaturnaya qazeta"dan edilən təkcə bir telefon zəngi düşdü. Burada daha korrektorlara istinad etmirdilər, lakin Aleksandr Çakovskinin [21 - 22] tapşırığına əsasən yazıçıya məlumat verirdilər: kitab Yerevanda nəşr edildiyindən, redaksiyanın Ümumittifaq və dünya miqyasına çıxarmağı lazım bilmədiyi məsələyə aid olduğundan Sizin məqalənin çapı qeyri-mümkündür.

Amma "Bakinski raboçi" qəzetində Ermənistan haqqında, qonşu respublikaya və onun sakinlərinə dərin hörmət ruhunda yazılmış silsilə oçerklər verilərkən başlığın yanında yerləşdirilən Ermənistan gerbində Araratın kontur təsviri düşməyəndə Yerevanın reaksiyası texniki mətbəə brakına adekvat olmadı. Artıq növbəti nömrədə (oçerklərin verilməsi davam edirdi) mətbəə bu brakı aradan götürə bilsə də Yerevandan təkcə Moskvaya və Azərbaycanın ali hakimiyyət orqanlarına protestlər göndərilmədi, həm də Ermənistanın özündə haylı-küylü narazılıq—təbliğat kampaniyası başlandı. Bir qrup redaksiya və mətbəə işçisi yuxarılarda çox sərt şəkildə söyülüb danlandıqdan sonra təqiblərə və işdən çıxarılmaya məruz qaldılar.

Zaqafqaziya Azərbayçanının və yuxarı Dağıstan xalqlarının əcdadlarından biri, Zaqafqaziyanın az məlum olan və az öyrənilmiş üç qədim xalqlarından biri olan albanların siyasi və mədəni həyatının mənzərəsini yaratmaqla məşğul olan tarixçilərin əsərləri xüsusi müşahidə və nəzarət altına alındı. Qədim Albaniyanı eyrənən mərkəz SSRİ Elmlər Akademiyası Rəyasət heyətinin göstərişi ilə Bakıdan Yerevana köçürüldü.

Fəridə Məmmədovanın 1985-ci ildə nəşr olunan və doktorluq dissertasiyası kimi 1987-ci ildə müdafiə etdiyi "Qafqaz Albaniyasının siyasi tarixi çoğrafiyası (b.e.ə. III əsr — b.e.-nın VIII əsri)" (rus dilində) Yerevanın "Qrakan tert" ("Ədəbiyyat qəzeti") qəzetində dəhşətli tənqidə məruz qaldı. Ədib Albert Muşeqyan yuxarı partiya orqanlarının və AAK-ın diqqətini F. Məmmədovanın erməni tarixinə aid çoxsaylı faktlara qeyri-elmi şərh verdiyinə və onları qərəzli şəkildə təhrif etdiyinə yönəldir, müəllifi əsassız iddialarına görə və orta əsrlər erməni ədəbiyyatı, memarlığı və mədəniyyətini mənimsəməyə çalışmaqda günahlandırırdı.

Akademik Ziya Bünyadov əbəs yerə "Qrakan tert"dən olan həmkarına xəbərdarlıq edirdi ki, albanistikanı elm sahəsindən çıxarıb siyasət meydanına çevirmək, üstəlik "yuxarı orqanlara" xəbərçilik etmək

yaramaz; axı qədim Albaniya bir çox xalqların, ilk növbədə Azərbaycanın mədəni irsidir. Ziya Bünyadov bu zaman albanistikanın və Ermənistan Elmlər Akadsmiyasının banilərindən biri, vaxtilə haqlı olaraq "erməni millətçilərinin zahirən elmi görünən uydurmalarını" pisləyən akademik İosif Abqaroviç Orbesliyə istinad edirdi.

Başqa dövr — akademiklərin yox, "Qarabağ" komitəsindən olan [22 - 23] və "qızışdırıcı mövzuya həqiqi mənada dişləri ilə yapışmış" ortabab filoloqların dövrü gəlmişdi.

Erməni kilsəsi də öz intellektuallarından geri qalmırdı. Hətta zəif müşahidəçi də görə bilirdi ki, Eçmiədzin təmkinlə, artıq emosionalara yol vermədən antiazərbaycan əhval-ruhiyyəsini hazır vəziyyətdə saxlayırdı. O dövr üçün təzə olan yalnız iki vəsaitin adını çəkmək istərdim: "Erməni xalqının inqilaba qədərki və inqilabdan sonrakı düşmənləri" (1978-ci il) və "Ermənistanın taleyinin həll olunmasında doqquz məsələ" (1983). Təbii ki, Ermənistanın taleyinin həllində Qarabağ başqa səkkiz məsələ üzərində üstünlük təşkil edirdi.

"Qarabaq ətrafında" 1987-ci il hadisələrinin çox az hissəsini təhlil edə bilsəm də, adı çəkilən və məcburən oynanılan bu dramın süjeti bizi 1987-ci ilə, Dağlıq Qarabaqın özünə və bu muxtar vilayətin mərkəzinə, vaxtilə Xankəndi olmuş (indi adı bərpa edilmiş—***tərc.)*** Stepanakert şəhərinə aparır.

1988-ci il fevralın 20-də DQMV vilayət sovetinin əksər deputatları vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistan SSR-ə verilməsi qərarına səs verdi. Bakıya, Yerevana və Moskvaya Ali Sovetlərin ünvanına müvafiq müraciətlər göndərildi. hələ bu ali orqanlardan cavab alınmamış bayraqlar və Ermənistan SSR-in yurisdiksiyasına keçirilmiş müəssisələrin adlarını bildirən lövhələr dəyişdirilirdi.

Düz bir ay sonra "Pravda" bu, "ölkəmiz üçün görünməmiş hadisə" ilə bağlı sual verirdi:

"Elə görünür ki, burada pis və qorxulu nə var? Axı, istənilən məsələ ilə bağlı yalnız bir fikir mövcud olan dövrlər keçdi. Əgər başqa fikir yaranıbsa o, niyə müzakirə edilməsin, açıq söhbətlə yoxlanılmasın. İnsanlara dəlillərlə izah etmək lazımdır ki, baxılan halda yerliçilik marağı dövlət marağından üstün olubdur".

Özbaşınalığın hökmranlığından qanunun hökmranlığına keçidin (xatırlayırsınızsa, biz hüquqi dövlət qurmaq istəyirdik) heyrətə gəlmiş bütün ölkə tamaşaçılarının gözü qarşısında millətçilik azarına tutulmuş, başqa, deməli, daha qanlı özbaşınalıqla əvəz edildiyini deməyə "Pravda" cürət etmədi. O dövrdə hələ də partiya senzurasının zülmü altında olan digər kütləvi informasiya vasitələri haqqında danışmaq isə yersiz olardı.

Jurnalistlərə xəbərdarlıq edirdilər: Ölçülüb-biçilmiş fikir söyləmək lazımdır, vəziyyət mürəkkəbdir, hər sözə qarşı reaksiya kəskindir; Moskvada "qarşılıqlı güzəştli sülh konsepsiyası" işlənib hazırlanırdı, sanki, Azarbaycanın da Ermənistan ərazisinin bir hissəsinə iddiası vardı. [23 - 24]

Konfliktin ilk dünlərindən yazanların çaşqınlıqı barədə "İzvestiya"nın müxbiri A. Qazıxanov bildirirdi:

"Mən təxminən belə düşünürdüm. hadisələrin əsasında nə durur? Anlaşılmazlıq. Böyük, möhtəşəm, faciəli, dəhşətli nəticələr verə biləcək anlaşılmazlıq. Amma, anlaşılmazlıq. Mənə daim belə gəlirdi ki, əgər bir nəfər ağıllı, dərrakəli, tamamilə qərəzsiz, həm azərbaycanlılara, həm də ermənilərə hörməti olan və onları sevən adam tapılsa, birtəhər işləri yoluna qoymaq olar. hərgah bu adam (və ya bir qrup adam) yaranmış narazılıqları, qarşılıqlı karlığı və korluğu müdriklik və incəliklə aradan götürə bilsə, hər şey öz yerini tutacaqdır".

Doğrudur, Stepanakert ipək fabrikinin klubunda fabrikin direktoru R. Atayan çıxış edərkən orada yaranmış vəziyyət A. Qazıxanovu bir qədər şübhələndirdi və bu barədə o, oxuculara da məlumat verdi: "Təbii ki, o, erməniçə danışırdı. Mən gənclərə müraciət edərək direktorun danışığını tərcümə etməyi xahiş etdim, lakin kəskin rədd cavabı ilə rastlaşdım. Onda mən yanımda dayanmış və güman ki, bu fabrikin fəhləsi olan orta yaşlı adamdan xahiş etdim ki, direktorun nə danışdığını heç olmasa qısaca tərcümə etsin.

Fəhlə lütfkarlıqla dedi ki, "o, bizim tariximizdən danışır. O, deyir ki, ..." sonrasını eşidə bilmədim. Üzü qırxılmamış bir neçə adam qazəblə ona nəsə dedilər. Fəhlə pərt halda özünə bəraət qazandırmağa çalışırdı."

Qərəzsiz fikrə malik istənilən adama aydın idi ki, Qarabağın hakim dairələri muxtariyyət çərçivəsində, muxtariyyətin mahiyyətini dahada dolğunlaşdırmaq, mehribançılıq yaratmaq üçün çevik və küclü iradə göstərmək hesabına praktiki müstəqilliyə nail olmağı bacarmır və istəmir. Onlar "üzü türklü cavanların" təzyiqi altında idilər. Qorxuya düşən Vilayət Sovetinin sədri, fevralın 20-də axşam möhürü itirdiyini elan etmiş, lakin axırda onu tapmış (yaxud tapdırmışlar—*tərc.),* sənədləri təsdiq etmiş və bununla da deputat səsverməsinin nəticələrini qanuniləşdirmişdir.

"İzvestiya" və "Pravda"nın jurnalistləri Qarabağ ermənilərindən öyrənməyə çalışırdılar ki, DQMV tutaq ki, ermənilərə keçdi, bunun hansı konkret müsbət cəhətləri var? Onu kim və necə hesablamışdır? Aqanbekyanın "iqtisadi məqsədəuyğunluğunu" yaddan çıxararaq onlar cavab verirdilər: "Söhbət müqəddəs bir işdən gedərkən, hər şeyi hansısa haqq-hesaba necə bağlamaq olar?"

"Qarabağ verilməsə bizə heç bir yenidənqurma lazım deyil", — deyə Sosialist Əməyi Qəhrəmanı Sero Xanzadyan Yerevandan hədələyirdi.

Növbəti dəfə petisiyalar tərtib edilir, imzalar toplanır, Moskvaya nümayəndə heyətləri göndərilirdi ki, orada DQMV-ni Ermənistana birləşdirmək ideyasının müdafiyə edilməsinə nail [24 - 25] olsunlar. Şayiələr yayılırdı ki, guya Moskva demək olar ki, "hə" deyir, amma bir az da qatiyyətlə tələb etmək lazımdır.

Stepanakertdə mitinqlər başlandı, burada "Lenin, partiya, Qorbaçov" triadasını qışqırırdılar. Yenidənqurmanın cəbbəxanasında bu yenilik idi: aşaqıdan təzyiq, kütlə despotiyası.

Sadəlövh jurnalistlər sual verirdilər: "Axı DQMV-də əhalinin dörddə birini azərbaycanlılar təşkil edir. Onlardan heç olmasa bir nəfəri mitinqdə varmı? Bəlkə onlar üçün torpaqları, evləri və mal-qarası ilə birkə qonşu respublikaya veriləcəklər, yaxud burada qalacaqlar, əhəmiyyəti yoxdur. Cavabında eşidirdilər: "Bütün bunların işə nə dəxli var? Onlara sadəcə olaraq izah etmək lazımdır ki, DQMV-nin Ermənistana verilməsi onlar üçün pis olmayacaqdır".

Məhz belə — *soruşmaq yox, izah etmək* — sanki dilsiz-ağızsız məxluqlardır.

Vilayət sovetinin azərbaycanlı deputatları 20 fevraldakı səsvermədə iştirak etməkdən imtina etdilər.

Stepanakertdə bütün dünyada məhşur olan sessiyanın çağırılmasına nail olan və şadyanalıq edən piketçilər hirslə deyirdilər: nə olsun səs vermədilər, çoxluq onsuz da "hə" deyib.

İlk dövrlərdə obyektiv və qərəzsiz yazmağa çalışan jurnalistləri stepanakertlilər inandırmağa çalışırdılar ki, "Bizim barəmizdə ya yaxşı yazmaq, ya da heç nə yazmamaq lazımdır". — "Bəs pis barədə necə məlumat verək? — "Pisi yalnız azərbaycanlılar haqqında yazın".

Bu sadə məsləhət tezliklə Rusiyanın bütün demokratik mətbuatı tərəfindən qəbul edildi. "Pravda" və "İzvestiya"da Stepanakertdəki millətçilik fəlakətinin heç olmasa əks-sədasını çatdıran o ilk məqalələrin müəllifləri isə tezliklə qəzet səhifələrindən yox oldu. Bir ay sonra "Emosiya və ağıl" məqaləsinin müəlliflərindən biri, pravdaçı A. Arakelyan özünün Yerevandakı müxbir postundan məhrum edildi. Həmin jurnalistlər öz erməni həmsehbətlərinin tələblərini ("yalnız onları dinləmək, yalnız onlara inanmaq") məyusluqla qarşılayırdılar; bütün bu tələblər qonşularla dostluq etmək vədləri, demokratiya və ədalət normaları ilə çətin uyuşurdu. Jurnalistlər etiraf edirdilər ki, iki qonşu Zaqafqaziya respublikasının ümumi problemləri elə bil həmişəlik yox olmuş və yalnız bir problemə—ərazi probleminə gətirib çıxarılmışdır. Mübahisəli və çıxış yolu görünməyən bir problemə.

"İzvsstiya"nın o dövrdəki müəllifləri S. Dardıkin və R. Lınev, A. Qazıxanov, elə "Pravda"dan olan həmin A. Arakelyan haqlı idilər.

Qarabağdakılarla eyni vaxtda Yerevanın teatr meydanında daha izdihamlı və müəssisələrdə tətillərə çağıran mitinqlər işə düşdü. Bu, süjetdəki ikinci yenilik idi. Dağılma poliqonu tam gücü ilə işə başlamışdı.

"Bəli, biz görürük və oxuyuruq ki, bizim kimi çalışqan, sadə [25 - 26] cavanlar soruşurlar: niyə biz ermənilərə görə əzab çəkməliyik"

— deyən, rele zavodunun tokarı, tətil komitəsinin lideri Ovanes "Komsomolskaya pravdanın" müxbirinə öz mülahizəsini bildirirdi.

— Soruşmaq istəyirəm: bəs bu çavanlar bizim üçün nə ediblər? Onlar bizim problemlərimiz barədə nə bilirlər?

Sual qəti qoyulurdu: Siz niyə ermənilərlə deyilsiniz?

Bu ilk günlərdə Baqramyan prospektindən olan şairə Silva Kaputikyan xüsusilə məşhurlaşdı. halbuki, dörd il keçdiyinə baxmayaraq onun xidmətləri nə "KriK" intellektualları, nə də Ermənistanın indiki hakimiyyəti tərəfindən layiqinçə qiymətləndirilmədi. Ona məxsus olan poetik çılğınlıqla həqiqəti Balayandan da parlaq üzə deyirdi. Məsələn, deyək ki, türk müəllifindən sitat kətirir, sonra əlavə edirdi: *"Türk özü lənətlənməlidir, amma sözləri doğrudur"* və bunu erməni hikmətli kəlamı kimi təqdim edirdi. Teatr meydanındakı tribunadan "birdən tabe olmamağa cürətlənmiş xalqı (1988-ci ildə onu kim tabe etmək fikrindəydi?) salamlayan şairə onları inandırırdı ki, mərkəzi hakimiyyət bizi başa düşəcək və kömək edəcək. Yoxsa biz... Türkiyəyə müraciət edəcək və deyəcəyik ki, Rusiyaya meyl etdiyimizə görə günahımızı boynumuza alırıq. Sonra əlavə edirdi:- "Amma bu satqınlıq heç vaxt baş verməyəcək, onda biz Araratın üzünə necə baxa bilərik?! Qarabağı türk-azərilərin (Silva Kaputikyan Viktor Hüqonun "Yunan oğlan" əsərindən "Burdan türk keçibdir — hər yerdə ölum və xarabalıqdır" sətrini sitat kətirməklə azərbaycanlıları belə adlandırırdı) hakimiyyəti altından çıxarmaq, milləti yeni, daha etibarlı qoruyub saxlamaq yolları aramaqda bizim axtarışımızdır. Cuşa gələndə isə, — Allah xatirinə lazım deyil bizə bu "dadlı tikə", — deyə özü öz sözünü gəsirdi, — biz otuz min kvadrat kilometrdən az olan qayalıq torpaqda yaşamağa öyrənmişik, onun üstünə Qarabağın dörd min beş yüz kvadrat kilometrini gəlməklə onsuz da Çin ola bilməyəcəyik... O rabitəsiz şəkildə özünün hökumətin gözündən düşmüş göygöz, kürən Nazim Hikmətlə görüşünü, bağrına basmaq istədikdə əllərini itələyib "Əvvəlçə torpaqlarımızı qaytarın, bizim torpaqları, sonra qucaqlaşarıq" — deyə qışqırdığını yadına salırdı. Və bütün bunları ciddi şəkildə, açıqla, kütlə qarşısında deyirdi. Qonşuların (azərbaycanlıların — *tərc.)* erməniləri və azərbaycanlıları "çoxəsrlik qardaşlar" adlandırmasını nifrətlə rədd edirdi. Bu sözləri heç dırnaqsız işlətmək olarmı? hətta müsəlmanların, "Novruz bayramı" — yeni il günlərində gördüyü almalar və sitrus meyvələri də yerli ermənilərin mənliyini alçaldır, qıcıqlandırır. "Dördüncü əsrdən biz bu türklərə dözürük, daha nə qədər dözmək olar?"

Milli ədavəti qızışdıran bu cür yazılı və şifahi çıxışları üçün Silva Kaputikyan nə Rusiyada, nə də Azərbaycanda məzəmmət olunmadı. halbuki, o, xüsusilə Xocalıda "Türk-azərilər" üzərindəki [26 - 27] vəhşiliklərdən sonra daha aydın göründüyü kimi, lap döyüş ordeni almağa layiqdir. Yaxud da xalqın lənətini?

Şairə ağzı köpüklənə-köpüklənə erməni millətinin xüsusiyyətləri və müstəsnalığı barədə yazmaqda, öz həmtayfalarında davakarlıq, barışmazlıq hissləri oyatmaqda davam edirdi və bunu yerevanlı jurnalist Murad

Arvas yaxşı başa düşürdü: "Qoy doqma ölkəmiz ərazisində toplanaq, torpaqlarımızın onda doqquzu respublikamızın sərhədlərindən kənarda qalmasın, qoy hər səhər gözümüz önündə sərhədlərimizdən kənara düşmüş, Hamletin atasının kölgəsi kimi təkcə gecələr deyil, gündüzlər də lal tənə ilə bizə baxan və ədalətin təntənəsini gözləyən Ararat durmasın".

Dünyanın yenidən bölüşdürülməsinə çağırış deyil nədir? Bu "ədalətin" təntənəsi xatirinə şairə özü də səmim-qəlbdən etiraf etdiyi kimi, əlində "berdanka və əynində kəfən" şəhərləri və kəndləri gəzib öz xalqını silahlı mübarizəyə çağırmağa hazırdır.

"Qarabağ" komitəsinin lideri Levon Ter-Petrosyan isə lap əvvəldən başqa taktika götürdü. O, "berdanka və kəfəni" inkar etmədən Ermənistanın özündə hakimiyyət uğrunda mübarizəyə girərək daha uzağa baxırdı. Komitəçilərin tam ixtiyarına verilmiş Yerevandakı yazıçılar evində 1988-ci ilin həmin fevral günlərində fəaliyyət proqramı elan edildi. Proqramda aşağıdakılar nəzərdə tutulurdu: müəssisələrin partiya təşkilatlarının rəhbərlərini işdən çıxarmaq, yenilərini seçmək, xalq deputatlarını geri çağırmaq, "Qarabağ" komitəsinin ilk təşkilatlarının yaradılmasına mane olarsa, hamısını partiyadan xaric etmək, Az sonra "Tayms" qəzetinə verdiyi müsahibədə Levon Ter-Petrosyan bildirirdi ki, hətta ermənilərin DQMV-nin Ermənistana verilməsi tələbi ödənildiyi halda belə etiraz hərəkatı saxlanılmalıdır. Suveren Ermənistanın gələcək prezidenti deyirdi:"Əgər biz öz məqsədimizə çatarıqsa, onda hərəkat xalqın iradəsinin ifadəsi kimi mövcud olacaqdır".

Demokratik lideri Stepanakertdə və Yerevandakı - mitinqlərdə olan total həmrəylik narahat etmirdi, onda kiçicik də olsa şübhə yaranmırdı ki, görəsən rüşvətxor direktorla çox çətinliklə dolanan fəhləni, möhtəkir-alverçi ilə vicdanlı ziyalını nədir birləşdirən! Bu qorxunc həmrəylik barədə fikrini qeyd edən Fazil İskəndər bəlkə də haqlıdır:

"İnsanlar qanunsuzlüq vakuumunu hiss etdilər və oraya cumdular: inkişafın dalınca çatmasan da, talanlara çatacaqsan".

Bir şey aydın idi: "Qarabağ" komitəsi və onun liderləri öz aparatı və idarəetmə üsulları olan özünəməxsus paralel hakimiyyət mexanizmi yaradırdılar.

"Qarabağ" fəalları öz filiallarını "Krunk" ("Durna") adı ilə Stepanakertin özündə yaratdılar. Buradakı ehtiyatda olan podpolkovniklər və pedinstitutun dosentləri özlərinin aşağıdakı [27 - 28] hərəkət planını müəyyən etdilər: əvvəlcə partbiletləri yerə qoyacağıq, sonra partizan müharibəsi başlayacağıq. Kimə qarşı?

"Biz — ölümə gedənlərik. Bizi ayırmasalar (Azərbaycan SSR-dən — *tərc.*) onda biz hər şeyə gedəcəyik!" — deyə "Krunk"dan olan üzü tüklü cavanlar "İzvestiya"nın xüsusi müxbiri A. Qazıxanovun sifətinə əsəbi halda qışqırırdılar.

Hər şeyə gedəcəyik — kimə qarşı?

1988-ci il fevralın 20-də, məhz Brest müqaviləsinin 70 illiyi günlərində əslində Azərbaycana müharibə elan edildi. Brest müqaviləsindən sonra Rusiya imperiyasının bir çox uçqarları, o cümlədən Azərbaycan və Ermənistan dövlət statusu əldə etdilər. o zaman qardaş qırğınına səbəb olan vətəndaş müharibəsi nəticəsində Qarabağ əhalisinin demək olar ki, beşdə biri məhv edilmişdi.

Rəsmi şəkildə heç yerdə qeyd olunmayan bu yubileyin təfsilatına və siyasi nəticələrinə toxunmaq istəmirəm, hərçənd ki, mən bizim müasir tariximizdə bu yubileyə mühüm əhəmiyyət verirəm. Yalnız iki respublikanın başlanmış qarşıdurması ilə bağlı bir mühüm faktı qeyd etmək istərdim (Azərbaycan indi də 70 il əvvəl olduğu kimi şikayət etməyən, küy salmağı və "yaxşı mətbuat" yaratmağı bacarmayan ağır tərpənən nataraz adam rolunu oynayırdı; ona hər tərəfdən edilən təqiblərə mütiliklə qulaq asmaq rolu hazırlanmışdı): nə Yerevanda, nə də Stepanakertdə *bir dəfə də olsa millətin oz müqəddəratını təyin etmək hüququ barədə tələb səslənməmişdi* (siyasi ehtirasların bu mərhələsini Moskvada Q. Starovoytova hazırlayırdı), ilk dövrdə açıq və aqressiv şəkildə qonşuya ərazi iddiaları edilmişdi.

"Qarabağ" Komitəsinin Yerevandakı iclaslarından birində DQMV-nin inkişafının sosial-iqtisadi proqramının bəndləri oxunduğu zaman çıxış edənin sözünü qətiyyətlə kəsdilər: "Əgər bu tələbləri Azərbaycan rəhbərliyi yerinə yetirsə, Ermənistan Dağlıq Qarabağın üzünü görməyəcəkdir".

Əvəzində isə "Qarabağ" komitəsinin intellektualları tam ciddiyyətlə Ermənistanı öz atom bombasını yaratmağa, onun vasitəsilə Türkiyə və Azərbaycandan müdafiə olunmağa çağırırdılar (bu iki həmsərhəd respublika dörd il keçdikdən sonra da Ermənistana etiraz etməyə vaxt tapmadılar, etiraza əsas isə nə qədər desəniz var idi). Bəs onda məsələ nədədir? Əgər Moskva bizimlə o dəqiqə həmrəy olduğunu elan etmirsə, onda xristian Ermənistanla xristian Rusiyanın strateji İttifaqı dağılmağa başlayır. Qarabağ ermənının olana qədər biz total aclıq elan sdəcəyik.

Komitə mövcud Konstitusiya qaydalarını aşmaq üçün sərsəm də [28 - 29] olsa, xəyanətkar tövsiyələr düşünüb tapırdı. Birinci ideya: Qarabağ erməniləri SSRİ-nin tərkibindən. çıxmağa nail olsunlar və dübarə Sovet İttifaqına daxil olmaq (amma Ermənistan SSR-in tərkibində) xahişilə müraciət etsinlər. İkinci variant: bir haldakı SSRİ Konstitusiyasına əsasən DQMV-nin öz müqəddəratını təyinetmə hüququ yoxdur, Ermənistan SSR-in isə bu hüququ var, qoy onda Ermənistan özü Daqlıq Qarabağın tərkibinə daxil olmağı elan etsin və paytaxtı Stepanakert olan yeni Arsax respublikası yaratsın.

Bəlkə də bir şey çıxdı. Dörd il keçəndən sonra Xocalı, Cənubi Osetiya və Pridnestrovye (görəsən növbə kimindir?) qan kirdabında çimdikdən sonra əvvəllər cəfəngiyyat kimi qəbul edilən, millətçiliyin xarab etdiyi təxəyyülün yaratdıqı mənzərə kifayət qədər real cizgilər ala bilər: marionet Arsax-DQR yaradıldı ki, üstəlik referendum da keçirildi. Doğrudur, Qarabağ azərbaycanlıları iştirak etmədilər. Onlar artıq öz torpaqlarından qovulmuşdular, torpaqlarını da ermənilər işğal etmişdi.

Bəs Eçimədzin? Din xadimləri 20 fevralda başlanan konfliktlə bağlı öz mövqelərini rəsmi şərh etməsələr də bəyan edirdilər: arxayın ola bilərsiniz ki, qardaşlarımızdan ötrü ürəklərnmiz qanla dolur. Avstriya jurnalisti Meyzelin "yerində saymadan Qarabağda olan ermənilərin hüququnu necə müdafiə etmək olar", — sualına erməni kilsəsinin yuksək vəzifəli xadimlərindən biri qeyri-müəyyən bir cavab verdi:

"Biz tək deyilik. Diaspordakı qardaşlarımıza heç bir siyasi məhdudiyyət qoyulmamışdır. Onlar öz hökumətləri qarşısında bizim haqq işimizi müdafiə etmək tələbi qoya bilər. Və bu təzyiq şübhəsiz ki, tezliklə öz nəticəsini göstərəcəkdir."

Tezliklə Kaliforniya ştatının qubernatoru Corc Dukmaçyan "milyonlarla ermənilərin arzusunun" müdafiəsinə qalxdı. Amerika konqresmeni Paşayan və Qərbin bir sıra başqa siyasi xadimləri də uyğun bəyanatlar, verdi. Onların mövqelərindən aşkarcasına belə bir ümid sezilirdi ki, Dağlıq Qarabağ və onun ətrafındakı hadisələr zənçirvarı reaksiya kimi ölkənin başqa regionlarına da keçəcəkdir. Başlanmış konflikt sönməməlidir. "Amerikanın səsi" radiosunun məlumatına görə erməni kilsəsi "aşkarlıq şüarı" altında erməni hərəkatının xalqının başında durdu və DQMV-nin Ermənistan SSR-in tərkibinə verilməsini tələb etməyə başladı. Ruhanilər elan etdilər ki, "Mixail Qorbaçov bu məsələni ermənilər üçün müsbət həll etməsə, onlar daha qəti tədbirlər görəcəklər". Ermənilərin Nyu-Yorkdakı mitinqində arxiyepiskop Mesrop elan etdi: "Biz dünya ictimaiyyətinə göstərməliyik ki, erməni xalqı yekdildir və öz tələblərinin həyata keçməsinə nail olacaqdır".

Çıxış birdir: Moskvaya təzyiq etmək, yenə də təzyiq etmək [29 - 30] lazımdır; orada nəhayət başa düşəcəklər ki, bütün dünyaya istibdad üsuli-idarəli bir dövlət kimi tanınmaqdansa, güzəştə getmək yaxşıdır.

Moskvaya ilk nümayəndə heyəti yola düşərkən "elçilər" qorxu hissi keçirirdilər. Aleksandr Proxanovun dediyinə görə, "nümayəndələr düşünürdülər ki, qayıtmayacaqlar, onları həbs edəcəklər. Onları əzabkeşlər, öz başını erməni ideyası qurbangahına qoyan quzular kimi yola salırdılar.

Qorxu təbii idi, amma əbəs idi. Proxanovun dediyinə görə, Moskva "onları dinlədi, başa düşməyə cəhd etdi". Aydın oldu ki, hüquqi özbaşınalığın qarşısında Konstitusiya hasarı olsa da, o çürükdür, tüfəngin qundağı ilə vur, dağılacaqdır.

Partiya taxt-tacına yaxın olan təsir agentlərinin təkidi ilə Moskva yalandan tərəf çıxmaq, oyunbazlıq etmək siyasətini başlamaqla öz hökmran barmağını müvəffəqiyyətlə Qarabağ separatizminin qıcanmış dişləri görünən ağzına soxdu.

Həmin günlərdə Siyasi Büroda başqa mülahizə var idimi? Gəlin üç il sonra "La Stampa" qəzetinə verdiyi müsahibədə Yeqor Liqaçovun dediyi fikrə qulaq asaq.

Sual: — Sizinlə Qorbaçov arasında, xüsusən millətçilik təzahürləri məsələsində ayrılıq var idimi?

Liqaçov: — Bəli, bu bizim aramızdakı ixtilafın üçüncü və bəlkə də ən ciddi bəndi idi. 1988-ci ildə Dağlıq Qarabaqda konflikt başlayanda biz çox tez-tez görüşər və çoxlu mübahisə edərdik. O, əlbəttə olduqca narahat idi. Lakin, həmişə olduğu kimi ekstremist qüvvələrdən danışır və həmişəki kimi qayda-qanunun bərpa olunması üçün zəruri tədbirləri görmək istəmirdi. Nətiçəsi məlumdur: minlərlə həlak olanlar, yüz minlərlə qaçqın, bütün İttifaq üçün təhlükəli gərginlik.

Sual: Siz hesab edirsinizmi ki, bu Qorbaçovun təqsiri üzündəndir?

Liqaçov : Mən indi də o vaxt təkrar etdiyimi deyirəm. Yenidənqurma üçün əsl təhlükə konservatizm yox, ölkəni parçalayan separatçı antisosialist millətçilikdir. Mən bilirəm ki, indi Qorbaçov da bu fikirlə razıdır. Lakin bir neçə il ərzində bu cəhətə əhəmiyyət verməmək faciə ilə nəticələndi.

Mən belə hesab etmirəm ki, dörd il əvvəl Liqaçov saqlam düşüncə sahibi idi,Qorbaçov isə yox. Sadəcə olaraq onlar öz təsir dairələrini bölmüşdülər və hər birinin öz xəbərçiləri vardı. Bir də xatırladım ki, Qorbaçovun şəxsi məsləhətçisi onunla Qarabağ nümayəndə heyətinin görüşünü təşkil edən Georgi Şahnazarov olmuşdu və bu gün də qalır. Nümayəndə heyətini həmin vaxtadək dəfələrlə özlərinin "türklərə"—azərbaycanlılara zooloji nifrətini açıq söyləmiş Yerevan ədibləri Zori Balayan və Silva Kaputikyan təşkil edirdi. Qorbaçovun siyasi ikiüzlülüyü [30 - 31] və onun millətlərarası ehtirasları girdabının yaradılması sahəsində fəaliyyəti və fəaliyyətsizliyində abırsızlığı heyrət doğurur. Yalnız kiçik bir xronikaya diqqət verin:

Dekabr, 1986-cı il, ilk sınaq şarı — Alma-Ata; milli zəmində toqquşma? Belə olsa nə var ki? Yalana və dezinformasiyaya vərdiş edin.

Fevral, 1988-ci il, Dağlıq Qarabağ və Əsgəran-Sumqayıt dupleti. Məhz bu ardıcıllıqla. Talanın ilk qurbanları. Şəhərdə ordu. Komendant saatı.

Şokdan sonra özünüzə gəldiniz? Sentyabr, 1988-ci il. Yenidən Dağlıq Qarabağ, bütöv bir vilayətdə xüsusi vəziyyət və komendant saatı.

Proses kifayət qədər uğurla keçdi. Noyabr 1988-çi il. Regiona Saxarov, Bonner və Starovoytovanın gəlişindən sonra iki yüz minədək azərbaycanlının Ermənistandan qovulması. Bakı və Yerevanda çoxgünlük xüsusi vəziyyət və komendant saatı. Ordu şəhərlərin küçələrində.

5 dekabr, 1988-ci il. Xüsusi təyinatlı qüvvələrin Bakıda Lenin adına meydanı boşaltması. Silahsız adamların döyülməsi.

9 aprel, 1989-cu il. Tbilisi. Ordu dörd ay əvvəl olduğu kimi yenə də polis rolunu oynayır. Bakıda olduğu kimi yenə də xalqın milli mənliyi ağlasığmaz dərəcədə alçaldılır.

May 1989-cu il. Fərqanədə vəhşilik.Ordu artıq fəaliyyətsizlik göstərir. Milis gücsüzdür. Qırx minə yaxın məshəti türkü kainatın ənginliklərinə atılmış olur. Onlar nə Rusiyada, nə də Gürcüstanda heç kimə gərək deyil. Qaçqınların bir çoxu kasıb qeyri-qaratorpaq Rusiyasında və taptalanmış Azərbaycanda özünə sığınacaq tapır.

1989-cu ilin yayı, yeni zərbələr: Uzen, yenidən Dağlıq Qarabağ, Abxaziya.

Daha baçarmıram, dayanmalıyam. Qanlı parıltılar hətta yazı makinamın klavişlərində də şölələnir.

Bəs Qorbaçov? 1989-cu ilin sentyabrında MK plenumunda o, milli məsələyə dair platforma ilə çıxış edir. Yeni sözbazlıq və yeni gücsüzlük: "Ümumiyyətlə, kim bizim bir-birinə çulğalanmış, bütün iqtisadi, siyasi, sosial, mənəvi, insani və ailəvi tellərlə bağlı cəmiyyəti biçib-doğramağı öz üzərinə götürə bilər! — deyə Baş katib ucadan qışqırırdı. Yalnız avantüristlər buna çağıra bilər".

Bir ay sonra italyan şəhəri Assizidə o, Qərbdən özünün ilk mükafatını— "Sülh zəvvarı 1989" mükafatını alır. Sülh uğrunda Nobel mükafatına layiq körülmək üçün Bakıda bir dərya qan tökmək və Vilnüsdəki qurbanlar hesabına ordunu tam biabır etmək lazım idi.

1991-ci ilin yanvarında, hələ Qorbaçov hakimiyyət sükanı [31 - 32] arxasında dayanaraq, başqalarının əmrlərini yerinə yetirdiyi zaman nəşr etdiyi mülahizələrində yazıçı Anar yenidənqurma liderinin ikiüzlü xarakterini çox düzgün hiss etmişdi:

"Qorbaçovla görüşlərdə mən onu çevik, ağıllı və incə siyasətçi kimi tanıdım. Natura etibarilə o, sözsüz ki, sərt adam deyil. Təkrar edirəm, mənim fikrimcə, sərt adam olmasa da o, bəzən qəddar və qanlı aksiyalara (Tbilisi, Bakı, Vilnüs) haqq qazandırır, bəlkə də onları həyata keçirmək üçün sanksiya verir. İndi Prezidentə ordu həmişəkindən çox lazımdır və mənə belə gəlir ki, o, ordunun istənilən hərəkətinə, hətta bir siyasətçi kimi deyil, bir insan kimi öz ürəyindən olmayanlara da haqq qazandıra bilər. Əlbəttə, insanların həyatı onun üçün xırda şey deyil, lakin eyni zamanda o, bir siyasəçi kimi hər hansı məqsədə çatmaq yolunda onların həyatını qurban verməyi qeyri-mümkün qiymət saymır".

Ah, Anar, Anar, rəhmdil ürəkli Anar! Yadınızdan çıxdımı ki, bu "sərt olmayan" adam Sizi, xalq deputatını və Azərbaycanın xalq yazıçısını, bir az bükük ziyalı belini sanki qamçılayaraq birinci qurultayın tribunasından qovdu, iftiralardan təhqir olunmuş xalqının müdafiəsi üçün bir söz belə deməyə imkan vermədi. Siz etiraz edib deyə bilərsiniz ki, başqalarını alçaldan, özü alçalar. Bu televiziya tamaşasına baxandan sonra sizə cavab verəcəm: heç elə şey yoxdur, başqalarını alçaltmaq təkəbbürlülərə xas cəhətdir. Sizin başınız üzərində lovğa qalib durmuşdu, Sizin və Sizin xalqınızın alçalmağı onu əyləndirirdi.

Bir də ki, psixoloji cəhətdən bu, başa düşüləndir və mən Anarı qınamıram: özüm də beləyəm, müsəlman deyil, xristian olsam da. Belə demək düz olardı ki, ikimiz də ateistik. Mən bunu ona görə deyirəm ki, Anar 1988-ci ilin fevral məqalələrinin birində öz həmvətənlərinə 1905-ci ildə fitnəkarlıqla ilk erməni-müsəlman toqquşmaları törədiləndə özündə cəsarət taparaq hər iki xalqa belə bir çağırışla müraciət edən M. Ə. Sabiri misal kətirirdi:

İki yoldaş, iki qonşu bir vətəndə həmdiyar,
Əsrlərcə ömr edib, sülh içrə bulmuşkən qərar,
Fitneyi-iblisi-məlun oldu nagəh aşikar...
Gör cəhalətdən nə şəklə düşdü vəz'i-ruzigar!
Qətlü qarət bişümarü şəhrü qəryə tarimar...
Əlaman, bu fitnəyə çarə qıl, ey pərvərdigar!

1988-ci ilin əvvəlinin erməni qəzetləri isə başqa çağırışlarla dolu idi: "Biz tələb edirik, siz razılaşın! Qoy bütün dünya odda yansın, təki Qarabağ bizim olsun!"

Diasporun millətçi xadimlərinin layihələri dərc olunurdu: Ermənistan SSR-in İttifaqın tərkibindən çıxması, Qərb ölkələrində [32 - 33] "vahid müstəqil erməni dövlətinin" konsulluqlarının açılması, əskərləri respublika ərazisində qulluq etməli olan milli hərbi hissələrin yaradılması.

Bu artıq uzunmüddətli realist proqram idi. Və həm də təkçə Ermənistan üçün yox. Lakin ilk növbədə onun üçün.

Məqsəd müəyyənləşdirildi, vəsait ayırıldı, əvvəllər deyildiyi kimi, iş başına, yoldaşlar!

"Bütün dünya erməniləri bizə baxır" — Yerevandakı "Kommunist" qəzeti bu başlıqla çıxdı.

Siz isə, hörmətli Anar, Sabirin sözləri ilə...

Vicdanlı, beyni millətçilik azarına tutulmamış adamların bir-birinə arxa olmaq vaxtı, dahi Sabirin, Sayat-Novanın, Aleksandr Sergeyeviç Puşkinin bizə vəsiyyət etdikləri kimi, öz həmvətənlərimizə insan mənəviyyatını pozanlar haqqında həqiqəti demək vaxtıdır. Və bu həm də təkcə onlarınmı vəsiyyətidir?

Axı, Zori Balayanın və Silva Kaputikyanın davamçıları fəndgir və qəddardırlar. Buyurun buna sadə bir misal. "Yujnaya" şaxtasının mədən fəhləsi, Vorkuta şəhər tətil komitəsinin üzvü Ş. Şeyxəhmədov Kremldə M. S. Qorbaçovla görüşdə deyirdi:

"Qızğın tətil günlərində Vorkutadan kimlər gəlib keçmədi: Rusiya (xalq) cəbhəsi, Dİ (Demokratik İttifaq) və başqaları. Bu tərəfdən də Dağlıq Qarabağdan gələn qonaqlar vorkutalılardan tələb etməyə başladılar ki, məni tətil komitəsindən qovsunlar. Yalnız belə bir sadə səbəbə görə ki, mən azərbaycanlıyam, halbuki, artıq dediyim kimi, mən dağıstanlıyam. Maaş almadıqları üçün tətilçilərin pula ehtiyacı olsa da, onların bizə təklif etdikləri 50 mini rədd etdik.

Düşmənçilik toxumu səpməyə gəlmişsinizsə, çıxın gedin, sizin pulunuz bizə lazım deyil".

Kərək o zaman Qorbaçov şaxtaçılardan ibrət kötürəydi!

## 1989 - cu il:
## Çoğrafiyaşünas Skibitski, professor Sventoxovski
## və fəhlə Poyarkov

Mən, Qarabağın dağlıq hissəsilin ərazicə kimə məxsus olduğu barədə tarixi mübahisələrin dərinliyinə varmaq istəmirəm. Qəribə də olsa "Azadlıq" radiosunun ermənicə verilişlərinin baş redaktoru, Daşnaksütyun partiyasının liderlərindən biri Eduard Ohanesyan da bu məsələdə mənimlə eyni fikirlidir. Münxendəki erməni klubunda o, Azərbaycan EA Kibernetika İnstitutunun böyük elmi işçisi Asəf Hacıyevlə görüşərək videokasetə yazılmış belə bir fikir söylədi: [33 - 34]

"Ərazi iddiaları problemi, bizlərdən kimin daha yaxşı və ya pis olduğu, kimin hansı tarixə malik olması problemi praktiki olaraq cəfəngiyyatdır. Mən öz fikrimi izah edim: ermənilər deyirlər: bax, böyük Ermənistan var idi və onda Qarabağ ora daxil idi. Deməli, o bu gün də bizim ərazimizə daxil olmalıdır. İndi tarixi hüquqlardan danışmaq — biz tərəfin səhvidir."

Söhbət zamanı Münxen klubunun arxa divarında mifik Böyük Ermənistanın rəngli xəritəsi asılmışdı və bu videokasetdə aydın körünürdü, Ohanesyan isə davam edirdi:

"Bir erməni intellektualları kimi biz qərara gəldik ki, yaranmış şəraitdə (söhbət 1991-ci ilin yanvarında gedirdi — *Y.P.)* Qarabağ əraziçə və hüququ cəhətdən Azərbaycana məxsus olmalıdır. Mən siyasi baxımdan bu nətiçəyə gəlmişəm. Biz buna o vaxt gedəcəyik ki, siz azərbaycanlılar Qarabağ ermənilərinin həyatını erməni dəyərləri ilə təmin etməyə razı olasınız" (sitatı deyildiyi kimi verirəm — *Y.P.)*

E. Ohanesyan "erməni dəyərləri" adı altında nəyi nəzərdə tuturdu?. Biz bunu hələ aydınlaşdırmalıyıq. Axı Daşnaksütyunun Münxen intellektualları öz metropoliyalarının Ali sovetinə DQMV-ni Ermənistana birləşdirmək barədə antikonstitusyon qətnaməsini ləğv etməyi, yaxud fidain dəstələrini tərksilah etməyi məsləhət gördümü? Əlbəttə yox. Halbuki, Haçıyev 122 nəfər Qarabağ ermənisinin faciəvi müraçiətini onlara verdi: Üç il ərzində Yerevan saqqallılarının və "millət atalarının" girovları olmaqdan bezmişik.

Bacarırsan mitinqə və ya nümayişə çıxma, bacarırsan Stepanakertdə tətil olanda sən işə çıx. Bütün bunlar—millətçilik terrorudur. Məlumdur o nə ilə qurtaracaq. Rusiya parlamentinin liderlərindən biri olan Ramazan Abdulatipovun fikrinə diqqət verək:

"Bu gün hər hansı erməni lideri desə də ki, azərbaycanlılar bizə düşmən deyillər, dostdurlar, ola bilsin ki, onu lap sabah məhv edəcəklər. Niyə? Ona görə ki, o özü milli prinsipləri çox yüksək pilləyə qaldırıb, milləti psixoz vəziyyətinə gətirib çıxarıbdır. Gizli atəş vaxtilə öz xalqını müharibə və qisas bayrağı altına çaqırmış lider əleyhinə işləyəcəkdir".

Sülhpərvər liderlərin təqib edildiyi barədə hələlik məlumatım yoxdur, lakin millətçilərin sıravi qarabağlılarla qəddar rəftarına aid nə qədər desəniz misal tapılar.

Şuşa çörək zavodunun texnoloqu Aşxen Qriqoryanın SSRİ Ali Soveti Rəyasət Heyətinin məşhur 1988-ci il 18 iyul tarixli iclasından sonra dedikləri:

"Vaçib bir məsələni deyirəm. Azərbaycan xalqının heç nədə günahı yoxdur. Bütün günahlar erməni ekstremistlərindədir. Biz sakitcə yaşayır və işləyirdik. Erməni ekstremistlərinin başına Qarabağı Ermənistana birləşdirmək ideyası düşdü. Lakin biz yaxşı bilirik: Qarabağ Azərbaycanın olub və olacaqdır. SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarını rəğbətlə qarşıladım. Axı, [34 - 35] mən də belə qərar üçün dua edirdim. hətta sevincimdən üç kilo şokoladlı konfet alıb, adətimizə görə bütün tanıdıqlarıma və tanımadıqlarıma payladım. Evimizə gedən yolda müxbirlərlə rastlaşdım və onlara öz hisslərim barədə danışdım. Tezliklə bu haqda mərkəzi televiziyada veriliş oldu.

Təəssüf ki, mənim sevincim uzun çəkmədi. Stepanakertdən mənə zənk vurdular və dedilər ki, mən niyə bu cür "konsertlər" verirəm, məni öldürəcəklər. Mən isə cazabında dedim: siz səkkiz aydır konsert verirsiniz, mən isə cəmisi beş dəqiqə.

Zori Balayan Yerevanın "Kommunist" qəzetində məqalə dərc edərək məni təhqir elədi, yazdı ki, guya mənə bir kilo konfeti veriblər (yəqin ki, azərbaycanlılar — ***tərc.),*** sonra döyüblər, daha sonra isə öldürüblər...

Mən Zori Balayana deyərdim ki, o cürbəcür şayiələr buraxmasın. Elə Zori Balayan özüdür ermənilərin düşməni".

Aşxen Qriqoryanın (yeri gəlmişkən o Şuşa şəhər sovetinin deputatıdır) emosional söhbəti belədir. Öldürmək, ləkələmək, vətən xaini elan etmək kimi hədə-qorxular göstərirdi ki, elan olunmamış müharibə Franko dövründə İspaniyada olduğu kimi vətəndaş müharibəsi xarakteri alır.

DQMV-nin statusunun dəyişməsi uğrunda başlanmış kampaniyanın sağlam düşüncə ilə öyrənilməsi yolunda atılan istənilən sülhpərvər addımın nəinki yerindəcə — Stepanakertdə, yaxud Şuşada, həm də Moskvada qarşısı alınırdı. 1988-ci il martın 25-də SSRİ Nazirlər Sovetinin sosial inkişaf üzrə bürosu sədrinin birinçi müavini Vladimir Laxtin "İzvestiya"da bildirəndə ki, "məsələn, evlə təmin olunmaqda DQMV Azərbaycanın qalan hissəsi üçün olan orta göstəricini 1,4 dəfə qabaqlayır" və "başqa göstəricilər də var ki, onlar üzrə də vilayətdəki vəziyyət hər iki müttəfiq respublikadakından yaxşıdır", həmin Zori Balayan redaksiyaya gələrək bildirdi ki, "əvvəlki metodlarla hərəkət etmək olmaz". Təbii ki, DQMV-nin yeni partiya lideri G. Poqosyan da həmin mövqeni tutdu. Kütləvi informasiya vasitələrinin də hamılıqla işlətdiyi—vilayətin erməni əhalisinin hüquqlarının pozulması tezisi isə müvəffəqiyyətlə bu günədək gətirilib çıxarıldı. DQMV bütün İttifaqda yeganə vilayət idi ki, onun məktəblərində vilayətin daxil oldugu respublikanın deyil, başqa respublikanın (danışılan halda Ermənistan SSR-in) tarixi öyrənilirdi və bu faktı mərkəzi mətbuat orqanlarının birində də açıqlamaq olmazdı. Onu da açıqlamaq olmazdı ki, yol, qaz və su təminatı cəhətdən birinci növbədə vilayətin əhalisi azərbaycanlılar olan kəndləri əziyyət çəkirdi. Aydın idi ki, Moskvanın ayırdığı 400 milyon rubl kapital qoyuluşunu G. Poqosyan istifadə etməyəçəkdi: axı planlar başqa idi.

Maraqlıdır ki, Qarabağın "tarixən Ermənistana mənsub olması" ideyasını ilk müdafiə edən "Moskovskiye novosti" vasitəsilə "SSRİ Ali Sovetinin bu problemə hələ qayıdacağına və məsələni [35 - 36] müsbət həll edəcəyinə " inandığını bildirən akademik Saxarov olmuşdur. Elə o zaman — 1988-ci ilin martında jurnalist Hacı Hacıyev akademikə açıq məktub göndərdi. Təbii ki, bu məktub "Moskovskiye novosti"də dərc olunmadı, lakin bəzi şərhlərlə xaricdə çap edildi.

Azərbaycan jurnalisti tanınmış akademikə nə barədə yazırdı?

"Dövrümüzün görkəmli fiziki və ictimai xadimi kimi Sizə olan dərin hörmətimə baxmayaraq, Sizin bu cür incə məsələyə belə səthi yanaşmanız məni heyrətə gətirdi. Ona görə də Mən Sizə tövsiyə etməyi özümə borc bilirəm ki, Siz erməni məsələsi ilə dərindən məşğul olasınız və özünüz üçün aydınlaşdırasınız: Sovet İttifaqının indiki ərazisinə, o cümlədən Azərbaycana və hətta Ermənistan SSR-ə ermənilər necə gəlib məskunlaşıblar".

Hacıyev B. İşxanyanın tədqiqatlarına istinad edir və onun 1916-cı ildə Petroqradda nəşr olunmuş "Qafqaz xalqları" ("Narodnosti Kafkaza") kitabından sitat gətirirdi: "Ermənilərin əsl vətəni, qədim tarixi mənada Böyük Ermənistan Kiçik Asiyada, yəni Rusiya sərhədlərindən kənarda yerləşir", və bir də: "Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi aborigenlərdir — qədim albanların xristian dinini saxlamış törəmələridir, bir hissəsi isə Türkiyə və İrandan olan qaçqınlardır və Azərbaycan torpağı onlara təqib və zülmdən xilas olmaq üçün sığınacaq olmuşdur".

Andrey Dmitriyeviç Saxarovun B. İşxanyanın tədqiqatlarına müraçiət edib-etmədiyini demək çətindir, lakin, Aleksandr Sergeyeviç Qriboyedovun "O pereselenii armyan iz Persii v naşi oblasti" ("Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi barədə") adlı 1823-cü ildəki qeydləri hamıya məlumdur və onun əsərləri külliyatının ikicildliyinə daxil edilmişdir. Köçürülmə siyasətinin birbaşa iştirakçısı və yüksək vəzifəli icraçısı olan Qriboyedov diplomatik tərzdə etiraf edirdi:

"Biz müsəlmanlara etməli olacağımız təlqin barədə az fikirləşmədik ki, onlar özlərinin uzunmüddətli olmayacaq çətinlikləri ilə razılaşsınlar və ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara həmişəlik sahib çıxa biləcəkləri barədə onlardakı qorxu hissi aradan qalxsın. Bu barədə mənim tərəfimdən burada, mənim yanımda olmuş polismeysterlə, idarə heyəti üzvləri ilə və xanlarla danışılmışdır".

Müsəlmanların qorxuları, gördüyümüz kimi əsassız çıxmadı. XIX əsrdə Zaqafqaziyanı istila etmiş Rusiyanın müstəmləkəçilik siyasətinə ilk növbədə İran və Türkiyə ermənilərinin kütləvi şəkildə imperiyanın yeni ərazisinə köçürülməsi və eyni zamanda azərbaycanlıların İran və Türkiyəyə köçürülməsi daxil idi. Tarixçi N. Şavrovun dediyinə görə "köçkünləri yerləşdirərkən Rus hökuməti həmin ərazidə erməniləri məskunlaşdırmaqla burada müsəlman elementinin əhəmiyyətini azaltmağa çalışırdı". N. Şavrovun 1911-ci ildə "Novaya uqroza russkomu delu v Zakafqazye" kitabı çap olunan vaxt onun hesablamalarına görə Zaqafqaziyada [36 - 37] yaşayan "1 milyon 300 min nəfər erməninin 1 milyondan çoxu məmləkətin yerli əhalisi sırasına aid deyil və bizim tərəfimizdən köçürülüblər". Erməni köçkünlərin yerləşdiyi ərazilər içində tarixçi "Yelizavetpol quberniyasının dağlıq hissəsinin"də adını çəkir, bu isə elə indiki Dağlıq Qarabağdır.

Hacı Hacıyev Andrey Saxarova yazırdı: "Ənənəvi olaraq qonaqpərvər və geniş ürəkli azərbaycan xalqı bütün dövrlərdə milli mənsubiyyətindən asılı olmayaraq bütün təqib olunanlara və məzlumlara, o cümlədən erməni xalqına sığınacaq vermişdir".

Azərbaycanın müxtəlif rayonlarında vaxtilə Rusiyadan qovulmuş malakanların və staroverlərin yaşadığı çoxsaylı kəndlər, qədim Bakının beynəlmiləl xarakteri, üstəlik Fərqanədən qovulmuş minlərlə məshəti türklərinə sığınacaq verilməsi Hacıyevin sözlərinin haqlı olduğunu təsdiq edir.

1988-ci ilin martında Hacı Əliheydər oğlu Hacıyev akademik Saxarova yazdığı açıq məktubunda ona bildirirdi": "İstərdim ki, Siz ədalətli və obyektiv olasınız, insanların Sizə inamını itirməyəsiniz".

Mühacir qəzeti "Veçerniy zvon"un redaksiya şərhində kədərlə qeyd edilirdi ki, Azərbaycan jurnalistinin A. D. Saxarovun özünə, həmçinin sovet və qərb nəşrlərinə göndərdiyi məktub işıq üzü görmədi və cavab verilməyə layiq bilinmədi. Qəzet qeyd edirdi ki, "İnsan hüquqlarının və ya hər hansı başqa ədalət formalarının qorunması uğrunda mübarizə aparan şəxsin və ya institutun informasiyaya və eyni dərəcədə vəziyyətə münasibətdə ölçü kriterisi şəxsi va ailə üzgörənliyi ilə deyil, milli, dini və ya başqa fərqlərdən asılı olmayan müəyyən bir mənəvi borcla müəyyən edilməlidir. Ermənistan və Azərbaycan — Şərqdir. Şərqdə isə adət belədir ki, dalaşanları mühakimə etməzdən əvvəl gərək hər iki tərəfin dediklərinə qulaq asasan".

Andrey Dmitriyeviç Saxarov özünün dünyadakı müstəsna mövqeyindən azərbaycanlılar haqqında nifrətəlayiq millət, ermənilər haqqında isə başı bəlalar çəkmiş fədakar bir millət təsəvvürü yaratmaq üçün dəfələrlə istifadə etmişdir.

Təkcə bir misalla kifayətlənəcəyəm. 1988-ci ilin dekabrında, o, özünün Bakıya gəlişindən bir neçə gün əvvəl radio ilə müsahibəsində bütün dünyaya bəyan etdi ki, Azərbaycanda növbəti dəfə erməniləri qırırlar. Bu dəfə Kirovabadda: 193 nəfər öldürülüb, 187 nəfər yaralanıb və ölümlərlə əlaqədar tələb edirdi ki, Dağlıq Qarabağın erməni əhalisinin silahlı özünümüdafiə dəstələri yaradılsın.

Bakıdakı görüş zamanı yazıçı Maqsud İbrahimbəyov akademikdən soruşdu: "Andrey Dmitreyeviç! Faktlar artıq Sizə məlumdur və onlardan görünür ki, Kirovabadda səkkiz adam həlak olub, ölənlərin hər birinin familiyası və milli mənsubiyyəti də bəllidir: üç əsgər—rus, belorus və ukraynalı, bir azərbaycanlı [37 - 38] kişi, azərbaycanlı qadın öz uşağı ilə, iki erməni. Məgər səkkiz adam azdır? Bəs 193 rəqəmini Siz hardan aldınız?"

Sonrakı situasiyanı Maqsud İbrahimbəyov "Drujba narodov" jurnalının millətlərarası münasibətlər üzrə şurasının iclasında belə təsvir edir:

"Saxarov bu suala çavab verdi ki, o doğrudan da səhv edib və razılaşdı ki, rəqəmlərlə ehtiyatla davranmaq lazımdır. Ona ölənlərin ilkin sayı barədə kim məlumat verdiyini demədi. Görüşdə çox fəal iştirak edən, bir sıra əlamətlərə və Saxarovun reaksiyasına əsasən hədsiz qətiyyətli olduğu bilinən arvadı Əlixanyan—Bonner də onu demədi".

İçtimai rəyin bu cür total dezinformasiyası qarşısında gücsüz olan Azərbaycan yazıçısı təəssüflə qeyd edirdi:

"Rəqəmlərlə anlaşılmazlıq qırx-əlli adamın iştirakı ilə aydınlaşdırıldı, Kirovabadda kütləvi qırğın barədə məlumat isə bütün dünyaya bəyan edildi".

Qeyd edim ki, Saxarovun bəyanatından bu gün də istifadə edilir, halbuki akademik daha sağ deyil, Kirovabad şəhərinə isə onun qədim "Gəncə" adı qaytarılmışdır.

Deməк əsl məsələ başqa imiş...

Məni isə, düzünü desəm şəffaf bulaqlı və gur çaylı, zəngin üzümlükləri və tut bağları (təkində isə sink, qurğuşun və başqa dəyərli qazıntıları) olan bu əyalətin qədim tarixi çox da narahat etmirdi, lakin mən təsəvvür etmək istəyirdim ki, bu əsrin əvvəllərinədək Allahın bəxtəvərlik bəxş etdiyi bu torpaqda kimlər yaşayırdı, yəni bu gün yaşayanların atası, babası, ulubabası kimlər olmuşdu?

Və mənim bəxtim gətirdi. Alim dostlarım mənə yol göstərdilər: 1899-cu ildə Tiflisdə M. A. Skibitskinin "Materialı dlya ustroystva kazennıx letnix i zimnix pastbiş i dlya izuçeniya skotovodstva na Kafkaze" kitabı nəşr olunmuşdur. Skibitski burada özünün onverstlik miqyasda (müasir ölçülərlə 1:420000) tərtib etdiyi xəritəni də vermişdir ("Karta Qarabaqskix kazennıx letnix pastbiş"). Misli-bərabəri olmayan bu xəritənin özü yalnız Bakıda— kitabxanada saxlanılıb qalmışdır. Leninqrad, Tbilisi və Moskva kitabxanalarında isə yoxa çıxmışdır. Yerevan barədə isə heç danışmağa dəyməz. Daha doğrusu, kitab özü var, onun əsas, o dövrdəki təsərrüfatların və orada yaşayanların sayı göstərilən Qarabağ xəritəsi isə bir iz kimi məhv edilmişdir.

Skibitskinin yazdıqlarından onun tədqiq etdiyi Qarabağ barədə nə oxumaq olar?

"Qarabağın yay otlaqları (yaylaqlar) Qarabağ adlanan, 1828-çi ildə Rusiyaya birləşənədək xüsusi Qarabağ xanlığını təşkil edən torpaqlarda yerləşmişdir. O... uzunluqda 102,4 verst, ... enlikdə isə 146 verst uzanır (müəllif Qarabağın dəqiq coğrafi koordinatlarını dərəcə, dəqiqə və saniyələrlə göstərmişdir, mən onu buraxıram — *Y.P.)*. [38 - 40]

Lakin Skibistki ən nadir məlumatları tədqiq etdiyi Qarabağdakı təsərrüfatların və kəndlərin sayı, əhalinin etnik tərkibi haqqında vermişdir.

"Təsvir edilən yaylaqlardan istifadə edənlərin ümumi sayı 452 kənd arasında paylanmış 26038 təsərrüfatdır, onlardan 4048 təsərrüfat Cəbrayıl uyezdinin 81 kəndində, 5064 təsərrüfat Cavanşir uyezdinin 102 kəndində, 331 təsərrüfat Yelizavetpol uyezdinin 4 kəndində, 9432 təsərrüfat Zəngəzur uyezdinin 175 kəndində, 5223 təsərrüfat Şuşa uyezdinin 81 kəndində və 1940 təsərrüfat Cavad uyezdinin 9 kəndində yaşayırdı".

Mülkədarların və çobanların canlı təsərrüfatlarından aydın oldu ki, onların ən böyük kəndləri (orta hesabla hərəsində 215 təsərrüfat) Cavad uyezdində yerləşirdi, yerdə qalanları isə bərabər paylanmışdı: hər kənddə 50 — 80 təsərrüfat.

Skibitski davam edirdi: "Tayfa tərkibinə görə dediyimiz yaylaq azərbaycanlılara, kürdlərə, ermənilərə və tatlara bölünür.18919 təsərrüfatdan ibarət azərbaycanlılar-türklər (hesablasaq görərik ki, əsrin əvvəli üçün "yaylaqlardan istifadə edənlərin ümumi sayının" 72,6 faizini azərbaycanlılar təşkil edir — *Y.P.)* bütün Qarabağ ərazisində səpələnmiş 333 kənddə (o ki, hesablamağa başlamışıq qeyd edək ki, kəndlərin sayına görə də faiz həmin qədər" idi — *Y.P..)* və Gəncə ovalığında olan iki kənddə; 3510 təsərrüfatdan (13,5 faiz — *Y.P.)* ibarət kürdlər Zənkəzur uyezdində Həkərə və Bərgüşad çaylarının çökəkliyində, Cavanşir uyezdindəki Tərtərdə və Tuxtuda, Cəbrayıl uyezdində Bərgüşad çayının aşağı axarında; 3408 təsərrüfatdan ibarət ermənilər (13 faiz — *Y.P.)* Cavanşir, Zənkəzur və Cəbrayıl uyezdlərinin yüksəklik hissəsində 47 kənddə yaşayırdı".

Gördüyümüz kimi, pravoslav Rusiyasının çar hökumətinin keçürmə siyasətinə baxmayaraq XX yüzilliyin başlanması ərəfəsində Qarabağda azərbaycanlılarla ermənilərin nisbəti ən azı 4:1 kimi idi. Bəs niyə Skibitskinin xəritəsi ölkənin elmi mərkəzlərinin kitabxanalarından yoxa çıxdı? Bu detektiv tarixin açılmasında mənə gürcü yazıçısı İ. Q. Çavçavadze yol göstərdi. Bir halda ki, indiki erməni tarixçiləri və siyasi xadimləri yorulmadan təkid edirlər ki, Qarabağ həmişə ermənilərlə məskunlaşmışdır, azərbaycanlılar isə burada gəlmə xalqdır, köçərilərdir, onda M. A. Skibitskinin tərtib etdiyi xəritə bu versiya üçün xoşagəlməz faktdır. Bəs nə etməli? "Faktı yox etməli: tarixi ya pozmalı, ya qaşımalı, ya da öz xeyrinə başqa cür düzəltməli" — İ. Q. .Çavçavadzenin "Armyanskie uçenıe i vopiyuşie kamni" (Tiflis, 1902-ci il) əsərində erməni "kitabsevərləri-savadlıları"nın oyunları barədə cavab belədir. Çavçavadze davam edirdi: "Oz fikir və tədqiqatlarını onlar qızıldan qiymətli, başqalarınınkını isə, əgər onların xeyrinə deyilsə heç nə sayırlar". Mən gürcü yazıçısının saxtalaşdırma və dəyişdirmə [39 - 40] barədə fikirlərini o qədər də danılmaz həqiqət hesab etmirəm, hərçənd ki, onun kitabında "...erməni tarixçilərinin tarixi saxtalaşdırmaq hesabına heç vaxt yaşamadıqları yerlərə necə "köçdükləri" barədə inandırıcı misallar az deyil. Aydın deyilmi ki, onlar öz səthi alimlikləri ilə dünyanı inandırmağa çalışırlar ki, guya onların bu yerləri tutmaq üçün tarixi hüquqları vardır".

Hər neçə olursa olsun, amma 1989-çu ilin fevralında ABŞ erməni mərkəzi Kolumbiya universitetində Dağlıq Qarabağ üstündə erməni-azərbaycan konfliktinin ildönümünə həsr edilmiş konfrans keçirdi. Alimlər orada da sübut edirdilər ki, ... Amma, bu konfransda nə baş verdiyini məşhur sovetoloq, Azərbaycanla bağlı məsələlər üzrə mütəxəssis Tadeuş Sventoxovski Bakının "Elm" qəzetinə verdiyi müsahibədə geniş şərh etmişdir. O, konfransa dəvəti həvəssiz qəbul etmiş, təşkilatçılara məsləhət görmüşdü ki, Azərbaycan xalqının nümayəndəsini dəvət etsinlər. Çünki onun fikrincə yalnız azərbaycanlı bu məsələdə zəruri aydınlaşdırma apara bilər. Lakin...

Sual: — Bağışlayın, professor, ermənilər azərbaycanlılardan heç kimi tapmadılar, yaxud onları konfransa d'vət etmək istəmədilər?

Sventoxovski: Onlar dedilər ki, tapmadılar. Mən yoxlamadım ki, görüm bu belədimi... Mən konfransda çıxış etdim. Mənim məruzəm təqribən 40 dəqiqə çəkdi. Qarabağ problemindən əlavə mən erməni-azərbaycan milli münasibətlərinin tarixinə toxundum. Konfransda ermənilərdən başqa amerikan alimləri də iştirak edirdilər.

Öz məruzəmdə mən ilk növbədə qeyd etdim ki, hazırda Azərbaycan da daxil olmaqla Zaqafqaziyada yaşayan bütün ermənilər gəlmədilər, yerli əhali deyillər. Onların çox hissəsi XIX əsrdə İrandan və Türkiyədən köçürülmüşlər. Xristian mənşələrinə görə, çar Rusiyası ilə xüsusi münasibətləri hesabına özləri üçün böyük imtiyazlar əldə etmişlər. Gəlmə olmalarına baxmayaraq ermənilər təhsil sahəsində, sosial və iqtisadi sahələrdə böyük üstünlük almışlar. Bu meyl təkcə Azərbaycanda deyil, Gürcüstanda da müşahidə olunurdu, nəticədə ermənilərlə gürcülər arasında barışmaz ziddiyyətlər əmələ gəldi.

Sual: —Axı bəs, gürcülər də xristiandırlar, bunu nə ilə izah etmək olar?

Sventoxovski: — Məsələ dində deyil. Burada iqtisadi vəziyyət böyük rol oynayır. Maddi cəhətdən ermənilər daha güclü mövqeyə malik idilər. Azərbaycanlılar və gürcülər bunu çar hökumətinin himayədarlığının nəticəsi kimi qiymətləndirirdilər. (Qeyd edim ki, keçən əsrin 80-ci illərində erməni qraf M. T. Loris-Melikov Rusiya imperiyasının daxili işlər nazirliyinə [40 - 41] başçılıq edirdi—*Y.P.)*. Qısası, İran və Türkiyədən Qafqaza mühacirət etmiş ermənilər çar Rusiyasının hərtərəfli himayəsi altında idilər.

Sual: — Professor, bü cür himayəni nə ilə izah etmək olar?

Sventoxovski: — Səbəblərdən biri budur ki, ermənilər Osmanlı imperiyasının Şərqi Anadolu ərazisində yaşayırdılar və çar Rusiyası onlardan öz xarici siyasətlərində istifadə edə bilərdi. Çoxlu erməni Qafqazda çar ordusunda xidmət edirdi, azərbaycanlılar isə hərbi xidmətdən azad edilmişdi. Bundan əlavə, iri ticarət

ermənilərin əlində idi. Bakının neft sənayesinin xeyli hissəsinə də ermənilər nəzarət edirdi. Doğrudur, bu sahədə əsas nəzarəti azərbaycanlılar həyata keçirirdilər, lakin ermənilər də burada böyük rol oynayırdılar. (Öz adımdan əlavə edim ki, inqilaba qədər Bakı neftini Nobeldən əlavə, Azərbaycan sənayeçisi Tağıyev və erməni kapitalisti Mantaşev bölürdü — *Y.P.).* Onu da qeyd etmək yerinə düşərdi ki, hökumətin himayədarlığına baxmayaraq ermənilər və ruslar arasında da ziddiyyət yaranırdı. Belə ki, bizim əsrin əvvəllərində erməni terrorçuları çar hökumətinə qarşı da çıxırdılar. Lakin, bütövlükdə onlar bir-birilə həmrəy idilər.

Sual: — Son hadisələrə qayıdaq. Sizin fikrinizcə ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək tələbi əsassız və qeyri-qanuni deyilmi? Onların məntiqinə əsasən mülahizə yürütsək, onda sabah meksikalılar Kaliforniyanı, puertorikalılar Nyu-Yorku, kubalılar isə Floridanı tələb etməlidirlər.

Sventoxovski: — Bəli, mən düşünürəm ki, ermənilərin tələbi haqsızdır, ədalətsizdir. Birincisi, yaddan çıxarmaq lazım deyil ki, ermənilər burada kəlmə xalqdır. Daqlıq Qarabağdakı bütün ermənilər buraya mühacirət etmişlərin nəvə və nəticələridir. (1992-ci il martın 27-də Rusiya TV-si ilə Yerevandan verilən reportajda "milli-azadlıq" müharibəsi aparanların qəhrəmanlığını qeyd edərkən jurnalist Qarabağ ermənilərini Rusiya kazakları və pomorları ilə müqayisə etdi və görünür şübhə etmədi ki, düz nöqtəsinə düşüb: kazaklar da, pomorlar da həqiqətən imperiyanın ucqarlarına xüsusi müstəmləkəçilik məqsədilə yerləşdirilirdi — *Y.P.).* Mən demək istəmirəm ki, ermənilər burada heç vaxt yaşamamışlar. Lakin, hətta yerli, köklü ermənilər də Qarabağ xanlığı və Gəncə quberniyası tərkibində, qədim Azərbaycan torpağında yaşamışlar. Əgər iqtisadiyyat, ticarət və ya istənilən başqa sahəni götürsək görərik ki, Qarabağ Ermənistanla yox, Azərbaycanla bağlıdır. Mən bir də qeyd etmək istəyirəm ki, öz respublikasından kənarda yığcam yaşayan digər millətlər kimi ermənilərin də başqa respublikadan sərhədləri dəyişməyi [41 - 42] tələb stməyə bir əsası yoxdur. Bu çür tələblər rədd edilməlidir, yoxsa başqa milli azlıqlar da uyğun tələblər irəli sürməyə başlayacaqlar (Yadımıza salaq ki, həmin 1989-cu ilin sentyabrında MK plenumunda hesabat verərkən Qorbaçov görünür ki, Q. Starovoytova tipli mütəxəssislərin məsləhətilə "tələblər rədd olunmalıdır" kimi açıq-aşgar həqiqətin üstündən özünə xas olan sözbazlıqla aşıb keçdi: "dəfələrlə görüşlər olmuşdur. İrimiqyaslı qərar qəbul edilmişdir... Xüsusi idarə komitəsi yaradılmışdır... oraya komissiyalar göndərilmişdir" — *Y.P.).* Təhlükə var ki, əkər ermənilər Qarabağ məsələsində öz istədiklərinə nail olsalar, onda ruslar başqa respublikaların ərazilərinə öz iddialarını irəli sürəcəklər ("Proses başlandı" — bu iki söz Ermənistanın başladığı və özünün bir çox xalqlarının bədbəxtçiliyinə Rusiyanın şirnikdirdiyi ideya millətçiliyindən sonra yaddaşımızda ilişib qaldı — *Y.P.).*

Sual: — Necə düşünürsünüz, bu qədər mərəkə nədən ötrüdür?

Sventoxovski: — Bu suala cavab vermək çətindir. Uzun illər ərzində azərbaycanlılar ermənilərlə mehriban qonşuluq şəraitində yaşamışlar. Bəzi erməni liderlərinin fikrincə əlverişli şəraitdən istifadə etmək lazımdır. Belə ki, yenidən-qurmanın taleyi qeyri-müəyyəndir, onun daha nə qədər çəkəcəyi məlum deyil. Məhz buna görə də sərhədləri yenidən dəyişmək üçün əlverişli andan istifadə etmək istəyirlər. (Qarabağ konfliktinin ideoloqu, o zaman hələ heç kimə məlum olmayan Qalina Starovoytova Kolumbiya Universitetindəki konfransla eyni vaxtda həmin 1989-cu ilin fevralında "Rodina" jurnalının səhifələrindən elan etdi: "millətin öz müqəddəratını təyin etmək hüququ — dövlətçilik dəyərlərindən yüksəkdir. Doqrudur hələ sual işarəsi ilə: bəlkə qəbul etmək lazımdır?" — *Y.P.).* Qeyd edim ki, bu istiqamətdə ermənilərin fəaliyyəti yaxşı təşkil olunmuş və düşünülmüşdür. Onlar möhkəm birlik nümayiş etdirirdilər. Onların rəhbərlərinin fəaliyyəti, onların birliyi və həmrəyliyi azərbaycanlılar üçün nümunə olmalıdır. Amma bunun onların qeyri-qanuni tələblərinə heç bir aidiyyatı yoxdur.

Sual: — Ermənistanda yığcam yaşayan azərbaycanlılar bü cür tələbləri heç vaxt irəli sürməmişlər. Axı, onlar da eyni şeyi söyləyə bilərdilər?

Sventoxovski: — Bəli, əlbəttə istənilən millət bu və ya başqa əraziyə iddia edə bilər. Lakin, bu ədalətli iddia olmalıdır...

1989-cu ilin mühüm hadisələrindən biri Leninqraddakı "Elektronmaş" EİB-in fəhləsi İqor Poyarkovun SSRİ Konstitusiya nəzarəti komitəsinin sədri Sergey Alekseyev ünvanlanmış məktubu oldu. Poyarkovun Qarabağ konfliktinə baxışı ondan ibarətdir ki, "bu regiondakı çıxılmaz vəziyyəti millətçilikdən ağlını itirmiş [42 - 43] adamlardan çox, SSRİ hakimiyyət orqanlarının, o cümlədən Sizin başçılıq etdiyiniz komitənin prinsipsizliyi yaratmışdır".

İqor Poyarkov davam edərək yazırdı: “Hərgah onlar (ermənilər — *Y.P.)* üçün müəyyən anda *millətin öz müqəddəratını təyin etmə huququ* dünyadakı bütün başqa hüquqlardan üstün olmuşdursa, DQMV-dən Ermənistana çıxıb getməklə sərbəst və tam şəkildə bu hüquqdan istifadə edə bilərlər. Bəs onlar bunu niyə etmirlər?

Onlar Ermənistana *üstündə yaşadıqları ərazi ilə* birlikdə çıxıb getmək arzusundadırlar.

Bəs ərazisiz necə?

Ərazisiz onlar getmək istəmirlər!

Təəssüf eləyirəm, amma tamamilə aydındır ki, hər halda bu adamlar üçün onların yaşadığı ərazi *millətin öz muqəddəratını təyin* etməsindən daha vacibdir. Ermənilərin öz müqəddəratını təyin etməsi artıq olmuşdur. Bir millət öz müqəddəratını necə dəfə təyin edə bilər?"

SSRİ Konstitusiyasının 70-ci və 78-ci maddələrini təhlil edən İqor Poyarkov da, bu konfliktin bilərəkdən və ya qeyri-ixtiyari iştirakçısı olan başqa adamlar kimi *dövlətə* nəzərini dikərək gözləyirdi ki, ləng və ağırtərpənən Mərkəz *könfliktin səbəbkarlarını açıq deyərək:* "Kimdir onlar — milli qəhrəmanlar, xilaskarlar? Yaxud, adicə xuliqanlar və banditlərdir? İki il ərzində dövlətin mövqeyinin olmaması Poyarkovun fikrincə hər iki respublikada "ekstremistlərin sayının və onların dövlətə daha çox təzyiq etmək həvəslərinin artmasına səbəb olmuşdur. Eyni zamanda qan tökülmüş və hadisələri sürətləndirmişdi".

"Siz niyə ləng izahat verirsiniz? — deyə fəhlə Konstitusiya nəzarəti komitəsinin hüquqşünaslarından soruşurdu, — halbuki, mən beş dəqiqə ərzində məsələdən baş çıxardım, səbəb və nəticələri gördüm (iki gün isə SSRİ Konstitusiyasının nüsxəsini tapmağa getdi).

Onun "bütöv iki ili ləngimək, bütöv regionların iqtisadiyyatının dağıldığı, yüz minlərlə adamın öz ev-eşiyindən qovulduğu, ölənlərin sayının yüzlərlə hesablandığı zamanda ləngimək olmaz" məzəmməti cavabsız qaldı.

Poyarkovun məktubu yalnız "Bakinski raboçi" qəzetində işıq üzü gördü, o da ki, ciddi senzura ixtisarları ilə.

Birinci ixtisar: "Öz Konstitusiyasını Yerevan mitinqlərinin zibil vedrəsində yaxalamağa razıdırsa onda SSR İttifaqı hansı nüfuz və hörmətə ümid bəsləyir".

İkinci ixtisar. Poyarkov ləng tərpənməkdə təkcə S. S. Alekseyevin komissiyasını deyil, həm də "yol. Rıjkovun hökumətini, iki hüquqşünasın və şəxsən Baş katib yol. Qorbaçovun başçılıq etdiyi SSRİ Ali Soveti Rəyasət heyətini" də ittiham edirdi. [43 - 44]

"Bakinski raboçi"nin redaktoru mətndən Poyarkovun "və indi Ermənistan vertolyotlardan, zirehli transportyorlardan və artilleriyadan istifadə etməklə Azərbaycana qarşı müharibə aparmazdı" ifadəsini çıxarmışdı.

Və ən başlıcası isə qətiyyətli sonluğu çıxarmışdı. "Ermənistanda millətçilik dalğası sönmür və öz-özünə sönməyəcəkdir. Orada silahdan yapışmış adamlardan heç biri SSRİ Konstitusiyasını oxumayıb və təhlil etməyibdir. Konflikt ideoloqları mitinqlərdə işlətməyə hazır şəkildə onlara nə veriblərsə onlar da onu udublar. Kimdir bu ideoloqlar? Mənim buna şübhəm yoxdur ki, qanunu pozan, çoxlu adamı qanunu pozmağa təhrik edən şəxs, sadəcə olaraq Nürnberq prosesinin müttəhimlər kürsüsündə hələ oturmağa imkan tapmamış canidir ki, var".

Şukşinin bir çox "qəribə" qəhrəmanları kimi, hamı üçün mütləq olan Dövlətə və onun Qanunlarına inanan Leninqrad fəhləsi İqor Poyarkov bax belə düşünürdü.

Müqayisə üçün bu barədə M. S. Qorbaçovun mövqeyini xatırladım: "Sovet qanunları millətlərarası düşmənçiliyi qızışdırmaq üçün çəza nəzərdə tutur və hüquq mühafizə orqanları bu qanunların sözsüz yerinə yetirilməsini təmin etməlidirlər".

Millətlərarası düşmənçiliyi qızışdırmağa görə cəzalanmalı olan personajlar isə Baş katib və Prezidentin ən yaxın ətrafında idilər və kukla ustaları kuklanı oynatdığı kimi onu idarə edirdilər.

Professor Sventoxovski isə 1989-cu ildə özünün Kolumbiya universitetindəki məruzəsini belə bir istəklə bitirdi:

"İndi ermənilər və azərbaycanlılar arasında mehriban münasibətləri bərpa etmək barədə düşünmək lazımdır. Bu iki xalq arasında dostluğu yenidən dirçəltmək lazımdır. Axı, bəzən yaxın qonşular da mübahisə edirlər. Bu konflikti aradan götürmək lazımdır. Qanlı toqquşmalara yol vesrmək olmaz, çünki onlardan sonra dostluğu bərpa etmək çətin olur"...

Onun çıxışı konfransın erməni iştirakçılarının xoşuna gəlməmişdi. Professor ürək ağrısı ilə yada salırdı ki, onlardan biri ona necə yaxınlaşdı, gözünün içinə baxdı və Sventoxovskinin ayaqları qarşısına tüpürərək dedi:

"Siz necə alimsiniz? Siz necə iddia edirsiniz ki, amerikan alimisiniz? — Və ermənicə əlavə etdi: görüm sənin üzün mənim ayaqqabımın altından qara olsun". [44 - 45]

## Sumqayıt:
## "Bizə atəş açmağa məcbur edəçəyik"

1988-ci ilin sentyabrında Zori Balayan "Arsax: yaralar və ümidlər" məqaləsində M. .. orbaçovla ilk görüşünü yada salırdı:

"Artıq 1988-ci ildə Qarabağ hərəkatı başlandıqdan sonra Sov. İKP MK Baş katibi M. S. Qorbaçov Silva Kaputikyandan və məndən soruşdu: "Siz bəs iki yüz yeddi min Bakı ermənilərinin taleyi haqqında

düşünürsünüzmü?" Mən suala sualla cavab verdim: "Bakıdakı iki yüz yeddi min erməninin taleyi haqda düşünmək zərurəti niyə yaranmalıdır, biz ki, dövlətik..."

Bu dialoq bir neçə cəhətdən maraqlıdır. İlk növbədə erməni elçilərinin təmkinliyi heyrətamizdir; hətta "Planlaşdırılmış qantökülmə" (sonralar Andrey Nuykin bu ifadəni çox işlədəcəkdir) barədə "Krunk"un liderlərindən biri A. Manuçarov öz həmtayfalarını, "bizə atəş açmağa məcbur edəcəyik" — deyə əvvəlcədən xəbərdar etsə də Qorbaçovun saxta narahatçılığı (gələcək hadisələr bunu göstərdi) millətçilik ideoloqlarının mövqeyini öyrənməkdən başqa bir şey deyildi: görəsən onlar sivil və allahın seçmələri olan erməniləri öz arxalarınca "Stalinin süni sürətdə yaratdığı bufer respublikanın barbar türkləri və tatafrları" ilə qanlı düşmənçilik girdabına apara biləçəklərmi? Aydın oldu. ki, aparacaqlar, heç nədən çəkinməyəcəklər. Çünki, yalnız qan kütləvi qəzəb və intiqam hissi oyadır və bütün variantlarda günahkar Azərbaycan olacaq. Onda milli mənsubiyyətindən asılı olmayaraq öz vətəndaşlarının təhlükəsizliyini təmin edə bilməyən bu "inzibati bölgünün" ləğvini tələb etmək olar.

Millətlərarası düşmənçiliyi qızışdırmağın tipolokiyası qəribə uzunömürlüdür. Aşağıdakıları oxuyanda lap məəttəl qalırsan:

"Zaqafqaziya xalqlarının həyatında olan uğursuz bir məsələ — türk (azərbaycan—*Y.P.)* xalqı ilə erməni xalqının dinc birgəyaşayışının möhkəm daimi əsaslarını yaratmaq məsələsi getdikcə daha çox düyünə düşür. Biz belə düşünməkdə davam edirik ki, ermənilərin və türklərin maraqları bir-birinə o qədər sıx çulğalaşıb ki, onları bir-birindən təcrid etmək qeyri-mümkündür və tam təçrid olunmaq üçün edilən hər cür cəhd hər iki tərəf üçün ağır itkilərlə nəticələnə bilər, ona görə də bizim bütün səylərimiz sülhün əsaslarını və birgə əmək fəaliyyətini bərqərar etməyə yönəldilmişdir...

Təəssüf ki, biz erməni xalqının siyasi rəhbərlərindən bunu görmürük. Əksinə: biz erməni xadimlərinin bütün cəbhələrdə azərbaycan türklərinin qanuni hüquqlarına qarşı düşmənçilik [45 - 46] hərəkətlərinin gücləndiyini müşahidə edirik. Onların Avropadakı bütün diplomatik bacarıqları azərbaycan türklərini Avropa içtimaiyyətinin gözündə erməni xalqının faciəsinin əsas təqsirkarı kimi göstərməyə yönəldilmişdir. Mətbuat da içtimai rəy üzərində bu istiqamətdə işləyir... Belə təsəvvür yaranır ki, indi bədbəxt ermənilər müvəffəqiyyətli zəfər günlərini yaşayan azərbaycan türklərinin qurbanı olmuşlar. Erməni rəhbərlərinin bütün bu mütəşəkkil işi hesabına son illərin qanlı hadisələri davam edir. Bu mütəşəkkillik çərcivəsində hazırda, xüsusi halda Qarabağ məsələsi ətrafında iş gedir".

İdeya millətçiliyi taktikası kifayət qədər davamlı şeydir, çünki mən yetmiş il əvvəl olan nöqteyi-nəzəri sitat kətirdim: 1919-cu il iyulun 6-da Azərbaycan Demokratik Respublikasının orqanı olan "Azərbaycan"qəzeti belə yazırdı.

"Erməni məsələsinin" tarixinə varmadan (diqqətli oxucuya Böyük Sovet Ensiklopediyasının 1926-cı il nəşrindəki V. Qurko-Kryajinin eyniadlı məqaləsini oxumağı məsləhət bilirəm) qeyd edim ki, birinci dünya müharibəsinin başlanması ərəfəsində P. N. Milyukovun ifadəsi ilə desək, "Rusiya və Türkiyə arasındakı yolayrıcında oturmuş ermənilər Rusiya və İngiltərə kimi böyük dövlətlərin Bosfor və Dardaneli tutmaq istəkləri nəticəsində böyük siyasi əhəmiyyət kəsb etdilər. Ermənilər bizim eranın 387-ci ilində dövlətçiliyini itirmişdi və Rusiya-Türkiyə müharibəsindən sonra 1877-ci ildə Türkiyə və Rusiya erməniləri adını çəkdiyim qraf Loris-Melikovun və Qafqaz canişini böyük knyaz Mixail Nikolayeviçin köməyi ilə milli erməni dövləti yaratmağa çəhd göstərirdilər. Bu petisiyalar və müraciətlərin nəticəsi o oldu ki, ermənilər təkçə Türkiyədən deyil, həm də öz mövqeyini dəyişmiş İngiltərədən də tam təcrid olundular. II Aleksandrın öldürülməsinin ardınca 1881-ci ildə qraf Loris-Melikovun imperiyanın daxili işlər naziri vəzifəsindən istefa verməsindən sonra isə ermənilər Rusiyadan özləri imtina etdilər.

Bundan sonra burjuaziyanın və patriarx Nersesin böyük ölkələrin mürəkkəb oyunlarına cəlb etdiyi erməni xalqının taleyində baş verən faciəli hadisələr barədə V. Qurko-Kryajin öz məqaləsində belə yazır:

"İngiltərə Rusiyanın öz siyasətini Türkiyə erməniləri üzərində qurmaq ümidini pozduqdan sonra erməniləri Türkiyə hökumətinin ixtiyarında qoyaraq onlardan aralandı. Bu təhlükəni aradan qaldırmağın sadə və ən düzgün yolu sultan Əbdülhəmid tərəfindən belə ifadə edilmişdir: "erməniləri yox etməklə, erməni məsələsini yox etmək". Bundan sonra Türkiyə Ermənistanı üçün erməni əhalisinin kürdlər tərəfindən tədricən (xarici siyasəti mürəkkəbləşdirməmək üçün) məhv edilməsi dövrü başlayır. Bu proses 1890-cı ildə formal olaraq sərhədləri Rusiyadan müdafiə etmək, [46 - 47] əslində isə əsas etibarilə erməni talanları törətmək üçün müntəzəm kürd süvari dəstələri — həmidiyyələr yaradıldıqdan sonra geniş miqyas aldı.

Erməni burjuaziyası böyük dövlətlərin köməyinə ümidini itirdikdən və xülyasında olduğu "Böyük Ermənistanın" bazisini təşkil etməli olan kəndli kütlələrinin fiziki məhv olması faktı qarşısında qaldıqdan sonra dövlət terroruna qarşı silahlı mübarizəyə keçdi. Rus Zaqafqaziyasında məskən salmış millətçi Qnçak və Daşnaksütyun partiyaları yaradılır, onlar Türkiyəyə təşviqatçılar və təbliğatçılar köndərir, üsyançı dəstələr təşkil edirlər. Bu dəstələrin çıxışlarından məqsəd real hərbi müvəf-fəqiyyətdən çox, hadisələrə böyük ölkələrin diqqətini cəlb etmək idi".

Tezliklə Qnçak səhnədən çıxır və dünya meydanında ermənilərin yeganə rəhbər siyasi təşkilatı (bu gün də) ilkin məqsədi Türkiyənin tərkibində qərbi Ermənistan üçün muxtariyyət əldə etmək olan Daşnaksütyun partiyası qalır.

Daşnakların üsyan hərəkatı türk hökumətinin əl-qolunu daha da açdı. Böyük Sovet Ensiklopediyasının məlumatına görə, 1894-cü ildə Sasunda 24 erməni kəndi məhv edildi; 1896-cı ildə qırğın Asiya Türkiyəsinin bütün ərazisində gedirdi: 8000-dək kənd dağıdıldı, 50 minədək adam öldürüldü, 100 minədək adam ağır yaralar aldı. 300 minədək evsiz-eşiksiz qaldı, çoxlu erməni Rusiyaya mühacirət etdi.

Böyük dövlətlər bu hadisələrə nə cür baxdılar? A. Qurko-Kryajinin fikrincə "tamamilə laqeyd".

İnkiltərənin ermənilərə "bir dəqiqəlik" marağı artıq keçib ketmişdi... Rusiyaya gəldikdə isə o, bu dövrdə Zaqafqaziyada ruslaşdırma siyasəti yeridirdi və "Asiyada ermənilərin müstəsna üstünlüklərindən istifadə edəcəyi ərazi yaradılması" ideyasına qarşı açıq etiraz edirdi. Almaniya isə Bağdad yolu üçün konsessiya əldə etməklə məşğul idi, bu qırğına qarşı nəinki etirazını bildirmirdi, hətta II Vilhelmin şəxsində Əbdülhəmidin öz "qiyamçı təbəə"ləri barədə siyasətini açıqca dəstəkləyirdi.

Daşnakların ümumtürk inqilabi hərəkatında və 1908-ci ildə mlado—türklərin dövlət çevrilişində iştirakı bir dəyişiklik gətirmədi. Lakin 1913-cü ildə birinci dünya müharibəsi ərəfəsində rus diplomatları öz mövqelərini dəyişərək "Əzabkeş ermənilərin müdafiəsi" barədə açıq çıxış edir, Daşnaksütyunla razılıq əsasında Türkiyənin şərq vilayətlərində islahat aparıl-masını tələb edir. Bu islahat nəticəsində ermənilər kifayət qədər geniş muxtariyyət almalı idilər.

Rusiyanın müdaxiləsi və daşnakların Türkiyə erməni-fərari-lərindən təşkil etdiyi könüllü zinvor dəstələrini yaratması əvvəl [47 - 48] dediyim kimi, 1915-ci ildəki mütəşəkkil və qeyri-adi qəddarlığı ilə fərqlənən qırğına gətirib çıxardı.

"Nəticədə, V. Qurko-Kryajinin yazdığına görə 300 minə yaxın adam öldürülmüş, o qədər adam Mesopotamiyaya gedən yolda ölmüş, 200 min adam Rusiyaya qaçmış, 400 min adam islam dinini qəbul etmək yolu ilə xilas olmuşdu. Bu nəhəng divantutmadan sonra Türkiyə Ermənistanı faktiki olaraq ermənisiz qaldı".

1918-ci ildə üç Zaqafqaziya respublikasının — Gürcüstan, Azərbaycan və Ermənistan respublikalarının yaranmasından sonra Konstantinopol müqaviləsinə görə Ermənistan ərazisi bütövlükdə 400 min əhalisi olan iki uyezddən Erivan və Eçmiədzin uyezdlərindən ibarət idi.

İndi artıq təkcə Türkiyəyə qarşı deyil, həm də Sovet Rusiyasına qarşı vuruşan Antanta dövlətləri Zaqafqaziyada özləri üçün "erməni bazasını" möhkəmlədərək daşnak hökumətinin başçılıq etdiyi bu respublikanın ərazisini 17500 kv. ingilis milinə, əhalisini isə 1,5 milyona çatdırdılar. Bu əhalinin 795000-i erməni, 575000-i müsəlman və 140000-i başqa millətlər idi.

V. Qurko-Kryajin yazır: "Bununla kifayətlənməyən daşnaklar Gürcüstanın tərkibinə daxil olan Axalkalaki və Borçalı ərazilərinə, Azərbaycanın tərkibinə daxil olan Qarabağa, Naxçıvana və böyük Yelizavetpol quberniyasının cənub hissəsinə ərazi iddiası elan etdilər. Zaqafqaziya ingilis işğalı altında olanda bu əraziləri güclə evlərinə birləşdirmək cəhdləri Gürcüstanla müharibəyə (dekabr, 1918) və Azərbaycanla uzun sürən qanlı vuruşa gətirib çıxardı, nəticədə mübahisəli rayonların əhalisi 10 — 30% azaldı, bir sıra yaşayış məntəqələri isə sözün həqiqi mənasında Yer üzündən silindi".

İlahi, bunlar Qarabağ və ona bitişik rayonlardakı bu günkü qan kirdabına necə də oxşayır! Xüsusilə də Böyük Ermənistan millətçi ideyaları toxumu səpənlərin terrora və dünya içtimaiyyətini aldatmağa meylləri.

1919-cu ildə bu rayonları gəzmiş inkgilis jurnalisti Liddel Daşnaksutyun partiyası barədə qeyd edirdi: bu, uzun illər ərzində bilərəkdən erməniləri müsəlmanlara hücum etməyə təhrik edən terrorçu təşkilatdır. Müsəlmanlardan layiqli cəzalarını aldıqdan sonra, dünyada "yazıq ermənilərə" rəğbət oyatmaq üçün onu yayırdılar...

Görəsən 69 il sonra törədilmiş Sumqayıt faciəsi də eyni ssenari üzrə oynanılmayıbmı?

İngilis jurnalisti yazırdı: *"Daşnak üçün öldürülmüş erməni çox qiymətlidir. Belə hadisələr necə lazımdırsa o təbliğat işində çox xerə bilər".* [48 - 50]

1988-ci il fevralın sonunda Sumqayıtdakı mitinq ehtiraslarına səbəb ilk növbədə Stepanakertdə azərbaycanlı evlərinin yandırılması, azərbaycanlılara hücumlar edilməsi, onların çoxunun Dağlıq Qarabağdan sıxışdırılıb çıxarılması idi. Faciə ərəfəsində Əskəran arasındakı yolda qızışdırılmış millətçilik ehtiraslarını söndürmək mümkün oldu.

Nə səbəbə faciə üçün Sumqayıt seçilmişdi? Akademik Ziya Bünyadov (onun barəsində söhbət irəlidədir) limitçilərlə doldurulmuş bu yeri "ekoloji cəhənnəm" adlandırmışdı: faciə anında şəhərdə keçmiş cinayətkarların sayı 20 minə çatırdı. Qanlı hadisələr baş verdikdən sonrakı gecə bu şəhərdə olmuş, müxtəlif millətlərdən olan yerli əhali ilə, həmçinin, müstəntiqlərlə və SSRİ Baş prokurorunun müavini ilə söhbət etmiş yazıçı Maqsud İbrahimbəyovun fikrincə "Sumqayıt hadisələri çox bacarıqla planlaşdırılmış aksiyadır". Krunkçular talanlardan əvvəlki bir həftə ərzində Sumqayıtın erməni əhalisindən pul toplayır, onlara əmanət kassalarında olan pullarını çıxarmağı, varlı sex sahiblərinə isə ümumiyyətlə şəhəri tərk etməyi məsləhət görür-dülər.

Şəhərin hakimiyyət orqanları özlərini necə aparırdı? Şəhər komitəsinin üzvü Jora Tamrazyanın məlumatına görə birinci katib Müslümzadə deyirdi: "Mən nə eşitdiyimi,hara getdiyimi başa düşmürdüm, amma mən bayrağı əlimə aldım və hərəkətə başladım, banditlər də mənim arxamca. Yalnız mən görəndə ki, maşını necə yandırırlar, başa düşdüm: düzgün hərəkət etmirəm, partiya xətti ilə getmirəm. Ona qədər başa düşmürdüm ki, nə edirəm."

Sumqayıtın sakinləri — sıravi ermənilər və azərbaycanlılar özlərini neçə aparırdılar?

Armen Qriqoryan deyir: Sumqayıtda yaşayan Qarabaq azərbaycanlılarının erməniləri talan etməyə başladığı fevralın 26-dan 27-nə keçən gecə mən zavodda növbədə idim. Bu bədbəxtçilik barədə mənə ev qonşum—azərbaycanlı Zakir iş yerimə gəlib xəbər verdi"...

Jora Tamrazyan: "27 fevral, mənim arvadımın qohumunun ad günüdür. Bizimkilər onu təbrik etməyə getdi, mən getmədim. Sonra küçədə 500 — 600 nəfərlik qışqırışan kütləni gördüm. Balkona çıxdım. Yuxarıda bir azərbaycanlı yaşayır, o dedi: "Jora gəl bizə. Birdən səni də öldürməyə gələrlər. Dedim: "Yox", cəld bayıra qaçdım, taksiyə oturdum və ailəmin yanına getdim. Başqa nə deyim? Qırğınadək bizim azərbaycanlılarla münasibətimiz çox yaxşı idi. Mən heç vaxt fikirləşə bilməzdim ki, belə şey baş verə bilər. Mən hətta onlarla qohum olmuşdum: "kirvə" olmuşdum onlara... Müsəlman adətinə görə balaça oğlan uşağına sünnət edən zaman... [49 - 50]

Mehriban yaşayırdıq, lap bir ailə kimi. Özümüz də başa düşmürük ki, bütün bunlar nə cür baş verə bildi. Bir çox azərbaycanlılar özü deyir: qatillərə nifrət edirik, onlar heç bu dünyada yaşamasalar yaxşıdır".

Beləliklə yer seçilmişdir: kasıblar yaşayan "gecə qonduları" və iyirmi min keçmiş caniləri olan şəhərdə təkcə hələ nazir Şelokovun dövründə silahdan və dəyənəkdən məhrum edilmiş milis deyil, həm də partiya hakimiyyət orqanları fəaliyyətsiz idi. Şəhər partiya komitəsinin birinci katibi vəzifəsində Müslümzadəni əvəz etmiş Z. Hacıyev o günlərdə belə mühakimə edirdi:

"Kim ilk növbədə öz vətəndaşlarını müdafiə etməli idi? Şəhər! Onun hakimiyyət orqanları! Onun partiya özəyi! Lakin bunun üçün cəsarətli qərar qəbul etmək lazım idi. İlk növbədə fəhlələrə müraciət edilməliydi, yataqxanalara, müəssisələrə. Lakin məsələ elə onda idi ki, rəhbərlik şəhərin özü ilə doğmalığı sadəcə olaraq itirmişdi. Məhz buna görə də partiya təşkilatının qərargahında hətta normal operativ informasiya yox idi və o hazırlıqsız və gücsüz oldu. Halbuki şəhərdə təkcə sovetlərin deputatları 300 nəfər idi, yüz nəfər isə şəhər komitəsinin və təftiş komissiyasının üzvü var idi. hələ nə qədər güclü partiya təşkilatı katibləri, şəhər komsomol komitəsinin üzvləri var idi. Onlar xalqdan ayrı düşmüşdülər, fəhlə sinfinin gücünü yaddan çıxarmışdılar..."

Beləliklə, daxili qoşunların bir sutka gecikməsi, dəmir çubuqların hazırlanması və bütün şəhərə yayılması da daxil olmaqla Sumqayıt talanlarının planı zərgər dəqiqliyi ilə hazırlanmışdı. Artıq səhərisi gün Stepanakertdə "Sumqayıt genosidi qurbanları üçün" əvvəlcədən hazırlanmış abidə qoyuldu.

Doğrudur, nə Silva Kaputikyan, nə də başqa şairlər şer yazmağa imkan tapmadılar. Ona görə də ermənipərəst mətbuat həmin günlərdə V. Nemiroviç-Dançenkonun. 1915-ci ildə haqlı olaraq qəzəb və canıyananlıqla yazdığı sətirləri dərc edirdi.

1988-ci il martın 3-də Sumqayıtda həlak olanları dəfn edirdilər: 26 ermənini, 6 azərbaycanlını. Talanın təşkilatçıları haqqında 19 cinayət işi açıldı, yüzədək adam həbs olundu. Ölümlərlə bağlı rəsmi ittiham olunan cinayətkarlar təkcə azərbaycanlılar deyildi, ləzgi də, rus da, erməni də var idi. Ermənilərdən Qriqoryan adında birisi həmin dəhşətli gün Paşa ləqəbi ilə "fəaliyyət" göstərirdi.

Bir il sonra, 1989-cu ilin fevralında Yerevan xüsusi rayonunun. komendantı general-leytenant Y. Kuznetsovun məlumatına görə "milli zəmində" toqquşmalardakı qurbanların sayı 83 nəfərə çatmışdı: [50 - 51] 48 azərbaycanlı, 32 erməni və 3 nəfər başqa millətlərin nümayəndəsi.

Lakin həmin 1988-ci il fevralın 27-dəki uqursuz səhər günü yazıçı Maqsud İbrahimbəyovun etirafına görə, "Azərbaycanın şəhər və kəndlərinin əhalisi özləri haqda onu bildilər ki, onlar qaniçən qatillər və zorakılardır".

Doğrudan da dünyanın bütün radiostansiyaları "qan iyindən ağlını itirmiş azərbaycanlılar dəstəsinin erməniləri necə öldürdüyündən" danışırdı. Ən çox işlədilən sözlər genosid və qırğın oldu.

Zahirən gözlənilmədən baş vermiş Sumqayıt talanları təbii ki, hamı üçün gözlənilməz deyildi. Qabaqcadan planlaşdırılmış qan tökülməsini ondan hələ bir gün əvvəl Sumqayıta gəlmiş adamların kino və videokameraları qeydə almışdı. Film Avropa və Amerikanın erməni kaloniyaları olan bütün ölkələrində nümayiş etdirilmişdi. Bütün ölkələrdə! Təkcə Sovet İttifaqından başqa.

Nə üçün?

Həmin filmi İsveçdə görmüş Maqsud İbrahimbəyov belə nəql edir:

"Ağılasığmaz mənzərələr sırası, adamı dəhşətə gətirən səs sırası ilə tamamlanır. Filmin qəhrəmanlarından biri mat-məəttəl qalmış isveçlilərə öz dostu Mişanın və onun arvadının ölüm səhnəsini təsvir edirdi və aydındı ki, "özü öz gözləri ilə görmüşdü": Mişanın və arvadının başları kəsildikdən sonra otuz azərbaycanlı onun yeniyetmə qızının üstünə düşdülər. Növbə ilə zorladıqdan sonra onu xırda tikələrə doğradılar,

manqalı yandırdılar, insan ətindən bişirilmiş kababı iştahla yedilər. Siz təsəvvür edə bilməzdiniz ki, biz bu vəhşilərin nələrinə dözmüşük! — deyə "şahid Qabrielyan sözlərini tamamlayırdı!"

Güman etmək olar ki, bu film Qarabağda törədilmiş millətçilik qiyamına bəraət qazandırmaq sənədidir. Balayanın aqressiv millətçi "Ocağ"ının davamıdır: azərbaycanlılar təkcə köçəri — müsəlmanlar, türklər deyil, həm də adamyeyəndirlər, ona gerə də onları Dağlıq Qarabağdan və ümumiyyətlə, Zaqafqaziyadan qovmaq və öldürmək ədalətlidir.

Bakıdakı 1989-cu ilin payız mitinqlərinin liderlərindən birinin söylədikləri:

"Sumqayıt barədə belə deyərdim: bu Azərbaycan xalqı üçün rüsvayçılıq və ürək ağrısıdır. Lakin onun başqa tərəfi haqda da susmaq olmaz — Sumqayıt faciəsi Azərbaycan əleyhinə ehtirasların qızışdırılması üçün zəmin oldu. Bizi 1915-ci il genosidinin davamçıları kimi təqdim etmək istəyirlər. Qorxu və nifrəti bərpa edirlər. Nə üçün? Yeni nəsilləri onların əsasında böyütmək üçün?" [51 - 52]

Bu gümanın düz olduğunu 1991-ci ilin yanvarında Yerevanda olmuş türk teleşərhçisi Mehmet Əli Birand təsdiq edir:

"Ermənistanda olan ermənilər üçün türklərlə azərilər arasında heç bir fərq yoxdur. Onları bir sıraya qoyurlar. Ermənilər belə hesab edirdilər ki, 1915-ci ildə onları türklər qırırdı, indi isə azərbaycanlılar qırır. Türk xalqlarına mənsub olan hər bir adam onlarda şübhə, nifrət və qəzəb doğuracaqdır".

Bu cür milli psixologiya hələ əsrin əvvəlində və xüsusilə də vətəndaş müharibəsi illərində Avropa və dünya mətbuatında yaradılmış erməni-müsəlman toqquşmaları mənzərələrinin nəticəsidir. "Azərbaycan" qəzeti özünün 8 dekabr 1918-ci il nömrəsində qeyd edirdi:

"Azərbaycan türkləri və ümumiyyətlə, bütün Qafqaz müsəlmanları hakimiyyətsizlik və anarxiya dövründə Qafqazda yaşayan bütün başqa xalqlardan on dəfələrlə və hətta yüz dəfələrlə çox əziyyət çəkmiş olduqları halda, bu gün də Qafqaz mətbuatının çoxu onlara qarşı böhtanları davam etdirir: planlı, sistemli xarakter almış böhtanları; yaradılmasında kadetlərdən tutmuş bolşeviklərədək və daşnaklardan tutmuş sosialistlərədək bütün elementlərin təəccüblü və riqqətli yekdillik ifadə etdiyi böhtanları. Sonunçularda sinfi məsələlər hətta arxa plana keçmiş və indi mübarizə ayrı-ayrı siniflərlə yox, həm də sosial zəmində deyil, milli və dini zəmində artıq azərbaycan türklərinə qarşı gedir".

Bu əyintiləri və "mürtəce" müsəlmanlar əleyhinə və onların qapı-qapı gəzən bədhaxlarının xeyrinə bütün Avropada qaldırılmış hay-küyü sezən oldumu?

Tarixdən maraqlı bir misal.

1919-cu ilin payızı. Yudeniçin şimal-qərb ordusu, onunla birgə Petroqrad quberniyasından on min qaçqın qədim İzborska geri çəkildi. "Məxvi məruzənin" anonim müəllifi kütləvi insan tələfatı ilə nəticələnən uğursuz yürüşün nəticələrinə kədərlə yekun vururdu:

"Kimin canı bərk idi—dözdü, qalanlar öldülər... *Musibətin mənzərəsi belədir ki, o rusların deyil, ermənilərin başına gəlsəydi, indi bütün Avropa dəhşətdən lərzəyə gəlirdi"* (kursiv mənimkidir — *Y.P.).*

Belə ki, o dövrdə ermənipərəst mövqe tutan mətbuatın priyomlarını çoxları, hətta siyasətdən baş çıxarmayan adamlar da sezirdi. Bu günkü vəziyyət haqqında isə müəllif başqalarından eşitdiyini demir və bu barədə söhbət irəlidədir.

Bir də 1919-çu ilin yazına qayıdaq, bu zaman yeni yaranmış Ararat respublikası təkcə daşnak çətəçilərin (partizanlarının— *tərc.)* möhkəm məskən saldıqları Qarabağda deyil, həm də azərbaycanlı əhalisi üstünlük təşkil edən Erivan quberniyasında şiddətli vuruş aparırdı. 5-ci sahənin Dağlıq zolağının nümayəndəsi İsmayıl Sultanovun Gəncə uyezd rəisinin adına 21.04.1919-il tarixdə yazdığı məlumatda deyilirdi: "Artıq bu il aprelin 13-dən başlayaraq Ararat respublikası ordusunun Novobayazid uyezdinin Göyçə rayonundakı dinc müsəlman kəndlərinə hücumu başlanmışdır, məqsədləri Göyçə (Sevanın o vaxtkı adı) gölünün şərq və şimal ətraflarında yerləşən əraziləri müsəlmanlardan təmizləməkdir. Hazırda (yəni bir həftə ərzində — *Y.P.)* 60000 əhalisi olan 22 kənd talan sdilib, yandırılıb və təmizlənib. Bədbəxt müsəlmanlar erməni ordusunun top-tüfəng atəşləri altında amansızcasına həlak olurlar. Ermənilərin məqsədi Göyçə müsəlmanlarını məhv etməkdir və onu həyata keçirirlər. Ermənilərin və erməni hökumətinin öz keçmiş qonşularına vəhşi münasibətlərini gördükdə adamı dəhşət bürüyür; müsəlman əhalisinin heç bir xahişi, yalvarışı v fəryadı nəzərə alınmır.

Erməni ordusunun əlinə keçən müsəlmanları heç nəyin bahasına sağ saxlamırlar, əksinə görünməmiş əziyyətlərlə işgəncə verir, arvadları, uşaqları, qocaları və cavan kişiləri öldürür, az miqdarda cavan qadınları və yeniyetmə qızları istisna kimi saxlayırlar. Əhalinin bütün var-dövləti ac Ermənistanın ordusu tərəfindən götürülür və mütənasib şəkildə bölünür. Sağ qalan qaçqınları ordu təqib edir, onlardan az miqdarda bir hissə Gəncə uyezdinin beşinci bölməsinə doluşub, 17 kəndin sakinləri Cavanşir uyezdinin dağlıq zolağı istiqamətində qaçır, qalanları isə, yəni 7—8 kəndin əhalisi Gəncə uyezdinin beşinci bölməsi ilə həmsərhəd dərələrdə, qarlı dağların qarlı zirvələrinə sığınaraq erməni ordusu tərəfindən təqib edilir, qara bataraq kütləvi surətdə halak olurlar. Ararat respublikasının məqsədi artıq həll olunmuşdur: daha Göyçə rayonunda müsəlman yoxdur."

Oxşar faktlar erməni tarixçiləri tərəfindən də təsdiq edilir. A. Lalayan "Revolyusionnıy vostok" (1936, 2—3, səh. 92—93) jurnalında daşnak qəhrəmanlarından birinin qoyub getdiyi "qəhrəman-ığı" təsvir edir: "Mən

heç nəyin fərqinə varmadan Basarkeçərdəki (Sevanın şimalında rayon — *Y.P.)* türk (azərbaycanlılar nəzərdə tutulur) əhalisini məhv etdim. Amma bəzən gülləyə heyfim gəlir. Bu itlərə qarşı ən düzgün vasitə odur ki, döyüşdən sonra sağ qalanları toplayasan, quyunu onlarla ağzınacan doldurasan, yuxarıdan ağır daşlarla axırlarına çıxasan... Mən belə də elədim: bütün kişiləri, qadınları və uşaqları topladım, əvvəlcə hamısını quyuya atdım, sonra isə quyunu ağzınadək daşla doldurub işlərini bitirdim". [53 - 54]

Azərbayçana erməni ekspansiyasının ingilis müşahidəçisi həmin illərdə qeyd edirdi: "Əgər türk milli xarakteri (stixiya) daha elementar, birbaşa və kobud formada özünü köstərirsə, erməni təcavüzü məqsədliliyi, inadcıllığı və sistematikliyi ilə fərqlənir."

Maraqlıdır ki, 1919-cu ilin payızında Zaqafqaziyada millətlərarası vuruşların səbəbləri barədə həm ingilis müşahidəçiləri, həm də gürcü sosialistləri eyni nəticəyə gəlmişlər.

Sonuncuların fikri belədir:

"Əsas etibarilə Daşnaksütyun partiyasından olan erməni inqilab xadimlərinin peyda olmasınadək Zaqafqaziya sülh və sakitlik şəraitində yaşayırdı. Bizim gördüyümüz, tez-tez və hər yerdə təkrarlanan erməni-müsəlman qırqınının dəhşətlərinin zərrə qədərini belə burada heç kim xatırlamır. Erməni inqilabçılarının mübarizə meydanını Zaqafqaziyaya köçürdükləri an əsrlərlə əhalisi—ermənilər, türklər, gürcülər sülh və dostluq şəraitində yaşamış bizim diyarın tarixində ən uğursuz anlardan biri sayılmalıdır. Daşnaklar gəldilər — özləri ilə milli ədavət gətirdilər: bu zəmində isə, əlbəttə, erməni-müsəlman qırğınından, yaxud Ermənistan və Gürcüstan arasında müharibədən başqa heçnə bitməzdi".

Qarabağda olmuş inkilis müşahidəçisi qeyd edir ki, daşnaklar dünyada ən yaxşı təbliğatçılardır:

"Hər iki xalq öz həyat yollarını mehriban şəraitdə davam etməyə hazır idilər, onlar beləcə də edərdilər, hərgah işə təşviqatçılar qarışmasaydılar. Mən əminəm ki, erməni-tatar qırqını üçün yalnız bunlar məsuliyyət daşıyırlar... Onların xaricdəki təbliğatı elədir ki, Avropa və bütün dünya onların tərəfindədir. Əlbəttə, onlar çox əziyyət çəkiblər, lakin minlərlə müsəlman kişilər, qadınlar və uşaqlar da onlardan çox əziyyət çəkiblər. Əlbəttə, ermənilərə qarşı qəddarlıqlar olmuşdur, lakin onlar özləri də müsəlman kəndlərində qəddarlıqlar etmişlər, hətta türklərin heç eləmədiyi qəddarlıqları".

Birləşmiş Ştatların deputatlar palatasının üzvü Valter M. Çandler Amerika ermənilərinin təbliğatçılıq işini müşahidə edərək və onların Azərbaycana bəslədikləri hissləri öyrənərək Parisə xəbər verirdi:

"Bu hisslər qəti düşmənçilik hissləridir və Amerika erməniləri Azərbaycanın müstəqilliyi ideyasına o qədər də yaxşı münasibət bəsləmirlər... guya azərbaycanlılara o qədər də çox fikir vermək lazım deyil, çünki, onlar türk, tatar və müsəlmandır... Amerikada yaydıqları ədəbiyyat türkə və tatara aid nə varsa, [54 - 55] hamısına ittiham və hücumlarla doludur və bu hücumların çox hissəsi Azərbaycanın payına düşür".

Elə bu barədə 1920-ci ildə Tiflisdə nəşr olunmuş "Krasnaya kniqa"nın müəllifləri — gürcü sosialistləri daha kəskin demişler; yeri gəlmişkən, bu kitab Qafqazda tanınmayan, lakin Avropada geniş təmsil olunmuş Qr. Çalxuşianın imzası ilə çıxmış eyniadlı kitaba cavab olaraq yazılmışdır.

Erməni toplusunun müəllifini gürcü xalqına böhtan atmaqda və xəbərçilikdə ittiham edən gürcü publisistləri Daşnaksütyun partiyasını "erməni xalqının dəhşətli müsibəti", "Kiçik Asiya-nın və xüsusilə də Zaqafqaziyanın bəlası" adlandırmışlar. Kitabın ön sözü (girişi) belə bir passajla qurtarırdı:

"Onlar burada bizim bədbəxt diyarımızda yaşayan bütün xalqların qardaş olması, həmrəy olması barədə yalvaracaqlar. Orada, Avropada isə erməni xəbərçiliyi və yalanları kitabı sərbəst dolanacaqdır, gürcü xalqı haqqında isə Kiçik Asiyada və Zaqafqaziyada yeganə mədəni millət olan erməniləri təqib edən barbarlar kimi düşünəcəklər".

Burada mənim bir az əvvəl göstərdiyim Maqsud İbrahimbəyovla Andrey Saxarov arasında 1988-ci ilin dekabrında Kirovabadda həlak olanlar barədə apardıqları polemikanı necə yada salmayasan? Təbliğat priyomları elektron rabitə vasitələrinin yaranması ilə bağlı yalnız texniki cəhətdən dəyişmişdir.

Qeyd edim ki, 1919-cu ilin yayında Qarabaq general-qubernatorluğundakı qarşıdurmanı aradan qaldırmaq mümkün oldu: həmin unudulmaz 5 iyun səhəri ingilis komandanlığının nümayəndəsi azərbaycanlı çinovnikin müşayiəti ilə Şuşadan erməni milli şurasının "aqressiv üzvlərini" çıxardıqdan sonra sakitlik yarandı. Vəssalam.

Elə həmin gün Qarabağ general-qubernatoru doktor X. B. Sultanov özünə tabe olan vilayət üzrə əmr verdi; burada bildirilirdi ki, ermənilərin şəxsiyyətinə və əmlakına qarşı cinayətlər və zorakılıqlar hərbi vəziyyət qanunlarının bütün qətiliyi ilə cəzalandırılacaqdır. həmin 5 iyun axşamı bu acınacaqlı toqquşmaların dayandırılması üçün bütün tədbirlərin birlikdə görüldüyü yepiskop R. N. Melik-Şahnazarov doktor Sultanovun yanında oldu.

Gördüyümüz kimi, Qarabağda sülh, doğma vətən "KriK"unları və ya ingilis baronessası Koks tipli yalnız təhrik etməyə, öyrətməyə və ehtirasları qızışdırmağa qabiliyyəti çatan insan hüququ müdafiəçilərinin iştirakı olmadan yaradılırdı. Axı məlumdur: od vurmasan yanğın olmaz, od vurulmasa heç odun da yanmaz.

1919-cu il iyunun 6-da Qarabağın erməni əhalisi ilə görüş zamanı doktor X. B. Sultanov göstərdi ki, dövlətçiliyə yalnız o hakimiyyət iddia edə bilər ki, onun üçün milli ayrı-seçkilik yoxdur. Azərbaycan hökuməti

ciddi dövlət məsələlərinin həlli [55 - 56] yoluna qədəm qoymaqla öz işində hamının qanun qarşısında bərabər olduğunu, ümumdövlət idseyalarının həyata keçirilməsini zorakılıqla pozmağa aparmayan tam siyasi fəaliyyət azadlığını əsas götürür. Və Qarabağın erməni və müsəlman əhalisi arasındakı ayrılmaz iqtisadi əlaqələri qırmaq heç bir antidövlət elementinə müyəssər olmayacaqdır, çünki, bu qırılma hər iki millət üçün ölümlə nəticələnəcəkdir".

Müasirləri, öz növbəsində həyəcanlanmış milli ehtirasların sakitləşdirilməsi baxımından "siyasi şüurluluq nümayiş stdirmiş və pis niyyətli şəxslərin fitnəkar təhrikinə uymamış" erməni yepiskopu R. N. Melik-Şahnazarovun çox faydalı fəaliyyətini qeyd etmişlər. Yepiskop Şahnazarov bir mənalı elan etmişdi:

"Bu cənablar həmişəlik bilməlidirlər ki, onlar nə qədər cəhd göstərsələr də və nə qədər əllaməlik etsələr də son nəticədə Qarabağda ermənilər və azərbaycanlılar yaşayacaqlar." Bu gün Melik—Şahnazarov mütləq kollaborasionistlər siyahısına düşərdi və ona öz həyatı üçün təhlükədən ciddi qorxmaq lazım gələrdi. Lakin 1919-cu ildə onun sülh yaratmaq fəaliyyəti və müdrikliyi Qarabağın xristian dindarlarının öz qonşuları olan azərbaycanlılara kin bəsləmələrini aradan götürdü. Bu mahalda olan qaçqınların çoxu Türkiyə Ermənistanından qaçmışdılar, türklərdən əzab çəkmişdilər və o, bir dəfə desəydi ki, azərbaycanlılar da elə həmin türklərdir, bir-birinin yanında qarışıq halda yaşayan dinc kəndlilərin bir-birini məhv etməsi yeni amansızlıqla başlanacaqdı və qılınclar qınına girməyəcəydi.

Mixail Qorbaçovun 1988-ci ilin fevralında Balayana və Kaputikyana haqqında sual verdiyi Bakı erməniləri barədə demək lazımdır ki, iki yüz yeddi min erməni içərisində bir nəfər yetmiş yaşlı Bakı sakini — Qavril İvanoviç Petoyan tapıldı ki, millətlərarası düşmənçiliyin yaranmasından il yarım sonra 1989-cu ilin avqustunda öz milliyyətindən utanaraq səkkizinci mərtəbənin balkonundan özünü isti asfaltın üzərinə atdı. Zərərçəkənin (müstəntiqlər ona belə ad verdilər) cibindən qaynar su kimi vicdanı yandıran ölümqabağı məktub çıxdı:

"Mən öz ölümümdə Dağlıq Qarabağ və Ermənistanın erməni ekstremistlərini ittiham edirəm. Qəzetlərdə oxuyuram, televiziya və radio verilişlərindən eşidirəm, onlar azərbaycan xalqına nə qədər bəla və bədbəxtlik gətirmişlər. Mənə yuxusuz gecələr əziyyət verir. Mən daim bu barədə düşünürəm və bu biabırçılığa dözə bilmirəm. Etiraz əlaməti olaraq özümü qurban verirəm.

*Petoyan Q.İ."*

Müstəntiqlər millətçilik təbliğatının priyomlarına bələd olduqları üçün arayış toplamağa başladılar ki, mərhum Petoyan əsəb pozğunluğundan əziyyət çəkmirdi və müvafiq dispanserə müraciət etməmişdi və "zərərçəkən ölməzdən əvvəl spirtli içki qəbul etməmişdi." Amma onun dostu və keçmiş iş yoldaşı Məmmədəli Əliyev demək üçün insani sözlər tapdı:

"Mərhum genişürəkli adam idi, o daim xeyirxahlıq şüalandırırdı, lap nəfəs aldığı kimi. Bir də o, həyata hədsiz bağlı idi. Biz onunla 30 il dostluq etmişik və onun həlak olduğunu eşidəndə mənim qan təzyiqim qalxdı, bu günədək heç cür özümə gələ bilmirəm... Onun qızı Tereza mənim gözlərim önündə böyüyüb, mən onun arvadı Qalina Savelyevna Kotelevskayanı yaxşı tanıyırdım. Bu ailənin ən yaxın dostları azərbaycanlılar idi, biz bir-birimizin milliyyətimiz barədə fikirləşmədən sevinci və kədəri birlikdə bölürdük. Mən bilirəm o zahirən təmkinini və şənliyini saxlasa da DQMV-Dəki hadisələrin lap başlanğıcından həyəcan keçirirdi. Əlbəttə, yalnız güclü şəxsiyyətlər bu cür addım atmaq qərarına gələ bilər. Qavril İvanoviç kimilər".

Q. İ. Petoyan Bakıya 1943-cü ildə Leninqrad ətrafında ağır yaralandıqdan sonra düşmüşdü, lakin özünü bu şəhərdə elə hiss edirdi ki, sanki elə burada da anadan olmuşdu. Azərbaycan torpağında onun qızı Tereza və on bir yaşlı nəvəsi qaldı.

Tereza deyirdi: "Bilirsinizmi, atam bütün ömrü boyu böyük çətinliklər çəkmişdi və onlara səbrlə dözmüşdü. Lakin DQMV-dəki həmtayfaları tərəfindən bu cür satqınlığa və əclaflığa dözə bilmədi. Dağlıq Qarabağda bir gün sakitlik yaranacaq, lakin mən atamın etirazını heç zaman unutmayacağam və bağışlamaya-çağam".

Ona məlum olmayan bakılı Q. İ. Petoyanın həlakından təxminən bir il sonra Mixail Qorbaçovun etdiyi etirafı onun (Qorbaçovun — *tərc)* xeyrinə aid edirəm: "Mən qəti olaraq dövləti parçalamağın əleyhinəyəm, ərazilərin yenidən bölünməsinin, xalqların əsrlərlə yaranmış əlaqələrinin qırılmasının əleyhinəyəm. Mənə belə gəlir ki, indi mənə danışmaq daha asandır: artıq bizim adamların qanı ilə yuyulmuş təcrübəmizdə görürük ki, bölünə bilməyəcəyik".

Birdə ki, SSRİ-nin eks-prezidentinin bu etirafını ona xas olan ikiüzlülüyə də aid etmək olar; axı, ərazilərin yenidən bölünməsi Dağlıq Qarabaqdakı hadisələrdən başlanmışdı və "xalqların əsrlərlə yaranmış əlaqələrinin" pozulmasının təşəbbüskarlarını 1988-ci ilin fevralında qəbul etdikdən sonra da M. S. Qorbaçov bu cür kəskin etiraz sözləri işlətməmişdi və o zaman təmkinlə faktları qeyd etməklə kifayətlənmişdi:

"Muxtar Vilayətin Azərbaycan SSR-dən Ermənistan SSR-ə keçməsi barədə məsələ qaldırılmışdır. Buna kəskinlik və dramatizm verilmişdir ki, bu da kərkinliyə və hətta qanun çərçivəsindən kənara çıxan hərəkətlərə kətirib çıxarmışdır". [57 – 58] Azərbaycan və Ermənistan xalqlarına onun bu müraçiəti 1988-ci il fevralın 26-da

Sumqayıt fitnəkarlığı günü səslənmişdi. Necə deyərlər, proses başlandı, tarixin qurutduğu torf yatağında başlanmış və vaxtında söndürülməmiş yanğın kimi.

## Q. Starovoytova:
## Xalq hərəkatından milli-azadlıq müharibəsinədək

Qarabağ barədə bütün kütləvi informasiya vasitələrində çıxış etmiş Q. Starovoytova, nəhayət, 1992-ci ilin fevralında Azərbaycan televiziyasının ekranlarında da peyda oldu. İki saatlıq müsahibə ərzində o yalnız bir dəfə müxbir ona "Ermənilər dollarla Sizə ayda nə qədər verirlər?— sualını verdikdə pərt oldu. Haqlı olaraq onun pulalma sənədlərindəki imzalarının qalın bir dosyedə toplandığını güman edən təvazökar qadın, sualı o dəqiqə rədd etdi: "Həyasız suallara cavab vermirəm" və bu zaman heç olmasa belə hallarda geniş işlədilən kommersiya sirri kimi arqumentdənsə istifadə etmədi.

Bir ay sonra "Komsomolskaya pravda"nın müxbirinin onun müasir şəhərdə etnik qruplar (tatarlar, ermənilər, estonlar) haqqında yazdığı kitabın xarakteri barədə sualına cavab verərkən, Q. Starovoytova açıqca etiraf etdi ki, Qarabağ konflikti ərəfəsində onun kitabının mövzusu "heç də SSRİ xalqlarının möhkəm dostluğunun böyük əhəmiyyəti barədə olmamışdı".

"Bizim Tetçerin" ("Komsomolka"nın verdiyi ad) bu iki aydın etirafı onun adətən qəti formada ifadə etdiyi baxışlarının təkamülünü izləmək zərurəti yaradır. Bu baxışlar son dörd ildə o vaxtadək naməlum olan "Moskva etnopsixoloquna ermənilər arasında böyük populyarlıq gətirmişdir" (Yerevanın "Komsomolets" qəzetinin ifadəsi). Üstəlik bu baxışlar və geniş kütlədən gizli qalan siyasi aksiyalar Q. Starovoytovanı B. Yeltsinin millətlərarası problemlər üzrə baş müşaviri postunadək yüksəltdi. Erməni tərəfə açıq simpatiya bəsləyən, özündən sonra Xocalının qarlı yamaclarında yüzlərlə qoca, qadın və uşaq meyidi qoyan Rusiya xüsusi polkunun dağıdılmasından sonra bu "kifayət qədər intizamlı, prezidentin əmrlərini həmişə yerinə yetirən qadının" Rusiyanın müdafiə naziri təyin ediləcəyi barədə Moskvada ciddi şayiələr gəzməyə başladı. Q. Starovoytova özü də bir çox müsahibələrində bu şayiələrin olmasına kömək göstərir (məsələn, Finlandiyada hərbçilərə gözəl bir qadın başçılıq edir və heç də pis alınmır) və etiraf edirdi ki, bir çox böyük hərbi rütbəlilər strategiya məsələlərində onunla məsləhətləşirlər. Sonra isə bir az da naz-qəmzə ilə yekunlaşdırırdı ki, "belə yükü qadın çiyinlərinə qoymazlar, çünki bizim ictimai şüurumuz hələ o dərəçədə inkişaf [58 - 59] etməyib ki, hərbi idarənin başına əyninə don geymiş şəxsi qoysunlar".

Yazıçı Vasili Belov demişkən, hər şey hələ irəlidədir və istisna olunmur ki, Qalina Vasilyevna tərəfindən axıradək zəhərlenmiş "bizim ictimai şüurumuz" hələ bundan da yüksəklərədək inkişaf edəcəkdir... Axı Georgi Arbatovun sağ əli, rusdilli şovinist "Rqo Armeniya" jurnalının redaksiya heyətinin üzvü və müəllifi (öz oğlu Alekeeylə və əlbəttə Q. Starovoytova ilə birlikdə) A. Kokoşin Rusiya müdafiə nazirinin müavini portfelini aldı. Don geyinməsə də, görün hərbi idarənin rəhbərliyinə gəlib çıxmış A. Kokoşin hansı kampaniyadandır. Əminəm ki, Rusiya müdafiə naziri müavininin iş stolunun üzərində təbaşirli kağızdan olan üz qabığında aşağıdakı çağırışlar yazılmış "Pro Armeniya" jurnalı durur:

"Nə blokada, nə kəskin iqtisadi böhran, nə hərbi təcavüz qarabağlını sındıra bilmədi. O, öz torpağında möhkəm və məğrur durur. Ermənistan dağları tək. O, özünün haqlı olduğuna inanır və öz Vətəni uğrunda axıradək döyüşəcəkdir".

Bu "özünün haqlı olduğuna inam" başqa şeylə deyil, söz gəlişi qeyd edim ki, Rusiya ilə Ermənistan arasında dostluq və qarşılıqlı müdafiə haqda müqavilə ilə möhkəmlənir. Bu çür müqavilə bağlamaq barədə Azərbaycanın müraciətinə (Rusiyaya— *tərc.)* isə bu günədək məhəl qoyulmayıb. Bu bütün Rusiyanın olmasa da, heç olmazsa onun ali hakimiyyət orqanlarının "ictimai şüurunun" artması deyil nədir? Pis silahlanmamış silahlı dəstələrin Azərbaycan şəhəri Xocalını yer üzündən silməsi də onun kimi. Mixail Poltoraninin və Oleq Poptsovun başçılıq etdikləri Rusiya kütləvi informasiya vasitələrinin ölü sükutu şəraitində.

Lakin qoy Allah onları mühakimə etsin.

Bizim Tetçerin başqa fəxr elədiyi şeylər — Ginnesin rekordlar kitabına "nümayişlərdə eyni vaxtda iştirak edən daimi sakinlərinin sayına görə" düşmüş Yerevan və "tətillərin davametmə müddətinə görə" uyğun rekord qazanmış Dağlıq Qarabağ Muxtar Vilayətidir.

Millətlərarası məsələlər üzrə müşavirin, bizim və xarici mətbuatda olan çoxsaylı bəyanatları üzərinə həvəssiz qayıdıram, çünki onların hamısında aqressivlik, dağıdıcılıq və antiinsani başlanğıc var.

Lakin, hər şeyi öz sırası ilə deyək. Starovoytovanın dediyinə görə, onun Ermənistana məhəbbəti Narekasinin şerlərini və Andrey Bitovun "Uroki Armenii" ("Ermənistan dərsləri") əsərini oxuyandan sonra başlayıb. Andrey Bitovun öz dostu—erməni ilə məhz məhəbbət barədəki dialoqunu yada salım: [59 - 60]

"— O...O...O... — dedi dostu. hərgah sən bir dəfə sevmisənsə bunun üçün cavab verməlisən! —Bu necə olur?

— Sən bu sevgini bir də nümayiş etdirməli olacaqsan.

— Əgər daha sevmirəmsə?

— Sən ona xəyanət etmisən.
— Niyə ki?
— Onda buna qədər niyə sevirdin"?
Müəllifin daha maraqlı bir dialoqu — bu dəfə dostunun Bitovun "bizim barəmizdə yazacağını" eşidən qardaşı ilə:
"Bundan sonra o mənimlə belə danışmağa başladı:
Gördü, qarpız aparırlar...
— Bu erməni qarpızıdır, — dedi.
— Qoduğu gördü...
— Bu erməni eşşəyidir, — dedi.
— Bu çox kök erməni qadınıdır. Bu isə erməni pivəsidir. Pivə istəyirsən? Bu adi erməni taksisidir. Minmək istəyirsən?
Əvvəlcə gülümsündüm. Sonra hirslənmək fikrinə düşdüm. Amma özümü saxladım. Sonra mənim üçün asan oldu: mən bilirdim ki, bu erməni hasarı olacaq, bu erməni dirəyidir, bu isə adi erməni milis nəfəridir, o necə də bundan bezikmir?"
Rus yazıçısı öz dostlarının psixolokiyasını istedadla, ironiyalı şəkildə göstərmişdir. Başqa məsələdir ki, bu psixologiya heç bir ironiyasız-zadsız dövlət strategiyasına çevrilir.
Yalnız bir misal. 1991-ci il fevralın 16-da "Qolos Armenii"nin səhifələrindən bu bölmənin qəhrəmanının köhnə dostu Zori Balayan Boris Yeltsinə müraciət etdi. Nədən ötrü? Ondan ötrü ki, bu "fatal mühafizəkar ürək ağrısı ilə başa düşsün ki, hələ onun Uraldakı əcdadları Qarabağın taleyini Rusiya dövləti ilə əlaqələçdirirdilər və niyə Prezident."Qarabağ və Şərqi Ermənistanın nədənsə (?! — Z.Balayanın qoyduğu vurğu işarələridir — *Y.P.)* nəinki Rusiya sərhədlərindən kənarda qalması, hətta onunla ümumi sərhədlərinin olmaması faktının gözdən qaçdığından" qəzəblənmir. Prezident Yeltsinə müraciətin müəllifi "erməni və rus xalqları arasında siyasi ittifaqın qarşılıqlı faydalı olduğuna" istinad edərək Andrey Bitovun yol yoldaşı kimi ona xatırladır ki, "Qars — rus strateji fikri ilə möhkəmləndirilmiş qədim erməni qalasıdır","erməni çayı Arazın bir tərəfində erməni vilayəti Qars, dikər tərəfində — erməni muxtar respublikası Naxçıvan yerləşir", "erməni ərazisində — erməni şəhəri Ərzrum" və oradaca "erməni dəmir yol qovşağı Qars yerləşir".
Bu sadalamadan nə alınır? Ya Balayan, ya da Ermənistanın xalq deputatı Q. Starovoytova B. N. Yeltsinə "Ənənəvi strategiyanı həyata keçirmək üçün" ("bunsuz nə Rusiya, nə də Ermənistan yoxdur") Naxçıvanı ermənilərə “qaytarmağı” məsləhət görür. [60 - 61]
Ədalət naminə deyək ki, Zori Balayan yox, İttifaq parlamentinə seçkiqabağı kampaniya dövründə, 1989-cu ilin fevralında "Rodina" jurnalının səhifələrində ilk dəfə Naxçıvan problemini açıq qaldıran məhz Q. Starovoytova olmuşdur. Milli siyasətdə stalinizm praktikasının nəticələrinə istinad, edərək SSRİ EA Rəyasət heyəti nəzdindəki millətlərarası münasibətlərin öyrənilməsi Mərkəzinin baş elmi işçisi ötəri belə bir ifadə işlətdi: "Ermənistanın ürəyində yerləşən Naxçıvan MSSR onunla heç bir ümumi sərhədi olmayan Azərbaycana tabe edilib." Vəssalam, Ostap Bender demişkən "şayiə buraxıldı". İki il sonra Z. Balayan B. Yeltsinə məktubunda təkrar edir: "Naxçıvan MSSR-i ləğv etmək və ermənilərə vermək lazımdır".
Adını çəkdiyim "Rodina" jurnalının səhifəsində Q. Starovoytova "Qarabağ problemini"milli münasibətlər sahəsində yenidən-qurmanın başlanğıcı adlandırmışdı. Z. Balayan isə B. Yeltsini öyrədirdi ki, Artsax və Getaşen yarımrayonu "Bütün bizim ölkəmizin və ilk növbədə Rusiyanın faciəsini özündə əks etdirən güzgündür". Sonra daha da qızışırdı: "Arsax — erməni dövlətçiliyinin elementidir", Rusiya və orta Asiya xalqları yaxşı bilirlər ki, " məhz erməni dövlətçiliyi, yəni Ermənistan Respublikası və Qarabaq qatı türk-azəri pantürkizminin yolunu kəsirlər".
Pantürkizm və ("qatı") fundamentalizm barədə biz hələ danışacağıq, indi isə Balayanın (şübhə etmirəm ki, Starovoytovanın da) bir il əvvəl Yeltsinə təklif etdikləri süjetin məntiqini izləyək. "Erməni Qarabağının" (bu, Bitovun ironiya ilə qeyd etdiyi "erməni qarpızı", yaxud "erməni çox kök qadını"ndan daha çiddidir) müdafiə qüdrətinin birbaşa ölkənin silahlı qüvvələrinin Baş qərargahının himayəsi altında olmalı olduğunu hesab edən Balayan, Yeltsindən "Arsax erməni muxtariyyətinə ittifaq ərazisi statusu verməklə DQMV-ni, Şaumyan rayonunu və Getaşen yarımrayonunu, Azərbaycan Respublikasının siyasi, inzibati və iqtisadi tabeliyindən çıxarmağı" tələb edirdi.
1992-ci il aprelin əvvəlində Q. Starovoytovanın Qarabağ erməniləri adından, onların heç də "Qarabaqın Ermənistana verilməsi uğrunda deyil, "öz müstəqillikləri uğrunda çıxış etdiklərini" və Rusiyanın protektoratı olmağı istisna etmədikləri barədə verdiyi bəyanatı artıq təəccüblənmədən oxudum.
Gördüyümüz kimi, məsləhətçi xanım qarabağlılar üçün siyasi strategiyanı dostu Zori Balayandan daha səlis ifadə edir, halbuki, məhz Balayan Ermənistan yazıçılar ittifaqının üzvüdür. həm də o, 1984-cü ildə özünün "Ocaq" kitabı çıxdıqdan və elə o zaman Qafqazda uzunömürlülük fenomenini öyrənmək üzrə Sovet- Amerika ekspedisiyasının tərkibində ilk dəfə Dağlıq Qarabağa gəlmiş Q. Starovoytova ilə tanışlıqdan sonra üzv

olmuşdur. Balayan özünün [61 - 62] dar milli, separatist niyyətlərini gizlətmir, onları heç dəbdəbəli sözlər arxasında ört-basdır etmirdi də.

Starovoytovaya gəlincə, onun 1984-cü il ekspedisiyasından hansı "Qarabağ fenomeni "barədə hansı qənaətə gəldiyini təsəvvür etmək çətin deyil, çünki, dörd il sonra konfliktin hərəkətverici ideoloji yayına çevrildikdən sonra o, bir dəfə də olsa Azərbaycan tərəfin arqumentlərinə istinas etmədi. Bundan sonra xüsusi takt, tam obyektivlik, yaxud mübahisənin məğzini və predmetini dərindən bilmək barədə danışmaq olarmı?

Yeri gəlmişkən Azərbaycan ziyalılarının baxışlarında, xüsusilə təcavüzün ilk mərhələsində millətçilik qatışığı yox idi. Təkcə moskvalı şair İlham Bədəlbəylinin 1989-cu ilin aprelində dediklərini misal göstərmək istərdim. Bu vaxtadək artıq bütün azərbayçanlılar son nəfərinədək Ermənistandan qovulmuşdu, yüzlərlə adam danışırdı ki, onlara necə hücum və zorakılıq edir, öldürür, soyur, evlərini yandırırdılar, ən yaxşı halda isə silah kücünə öz evlərini tərk etməyə məçbur edirdilər və bu aksiyalarda mütləq erməni rəhbərliyinin vəzifəli şəxsləri iştirak edirdi. Öldürülmə və köçürmə kortəbii iğtişaşlar nəticəsində baş vermirdi, — hər aksiya diqqətlə hazırlanır və boyeviklərin silahlı qrupları tərəfindən içra edilirdi. Bu günkü daşnaklar 1988-ci il dekabrın 10-unu Ermənistanı "türksüz respublika" elan etməyə hazırlaşırdı.

Beləliklə, İlham Bədəlbəyliyə söz verək: "Azərbaycanlılar üçün, onların milli şüuru üçün Qarabağ (təkçə onun kiçik bir parçası olan DQMV yox), Şuşa ilk növbədə onların Tarixidir, milli ziyarətkahları Cıdır düzü, İsa bulağı, Topxanasıdır (Rus xalqı üçün Kulikovo çölü kimi), Vaqifi və Natəvanı, dahi Üzeyiri və Bülbülüdür. Deyilənlərin müqabilində bu mürəkkəb problemi sadələşdirilmiş — mənim torpağımdır, verməyəçəyəm, — kimi təqdim etmək çəhdləri çətin ki, səmərəli olsun".

Hörmətli İlham müəllim! Sizin təəccüblənərək dediyiniz hikmətli sözlərə cavab olaraq elə həmin vaxtda "Xorurdayin Ayastan" respublika qəzetində İqor Muradyan "mənim torpağım" barədə öz konsepsiyasını şərh edirdi:

"Dağlıq Qarabağ Respublikanın (əlbəttə, Ermənistanın) yüksək keyfiyyeqli meyvə və ciləmeyvəyə olan tələbatının təqribən 25 — 30 faizini, süd və ət istehsalının 25 faizini, taxıl istehsalının üçdə birini, kartof istehsalının xeyli hissəsini təmin edə bilər. Arsaxı respublikanın tütünçülük, şərabçılıq və ipəkçilik bazasına çevirmək imkanı var.

Bütövlükdə götürdükdə... Arsaxın kənd təsərrüfatı ehtiyatları olmadan Ermənistanın müstəqilliyi qeyri-mümkündür... Arsaxı respublikanın tikinti sənayesi üçün əvəzedilməz xammal bazası hesab etmək lazımdır. Vilayətin ehtiyatları respublikanı keramika, şüşə, ən başlıcası isə kips istehsalı üçün kənardan xammal gətirilməkdən xilas edə bilər". İlham Bədəlbəylinin çox sevdiyi Topxanada — "Kulikovo çölü"ndə isə Kreml canişini Arkadi Volskinin rəhbərliyi altında gizlincə alüminium zavodunun korpusları tikilirdi.

Elə həmin 1989-cu ildə "Sovetski Karabax" qəzeti Komitas Manukyanın özünün iştirakı ilə Venesiyada hazırlanmış medalın şəklini dərç etdi. Medalın üz tərəfində Ermənistanın DQMV və Naxçıvan Muxtar Respublikası ilə birgə xəritəsi (ya siyasi baxımdan, ya da Venesiyadakı qızıl suyunun keyfiyyətindən Naxçıvan MR azaçıq tutqunlaşdırılmışdı) və erməni dilində "Qarabaq—bizim Arsaxımızdır" yazısı təsvir edilmişdir. Arxa üzündə isə "Ey erməni xalqı, sənin xilasın sənin birliyindədir". "Biz azıq, amma erməniyik", "Biz olmuşuq, varıq, biz çox olmalıyıq" yazıları həkk olunmuşdu. Qəzetin məlumatına görə medal mədəniyyət, incəsənət xadimlərinin, həmçinin keçmişdə, indi və gələcəkdə "Böyük Ermənistanın" bərpasında və ayrılmaz hissələri olan Qarabağla, Naxçıvanla və Azərbaycan Respublikasının başqa torpaqları ilə birləşdirilməsində xidmətləri olan dövlət xadimlərini və hərbi xadimləri təltif etmək üçün nəzərdə tutulmuşdu.

Söz yox ki, açıq başla, heç bir ironiyasız-zadsız düşünülmüş hörmətli mükafatdır. Ona görə də bu niyyət — "xadimləri" aşkar təcavüzə və millətçilik ideyalarının təbliğinə görə həvəsləndirmək niyyəti daha acınacaqlıdır.

Ənənəvi beynəlmiləl Bakıdakı 1988-ci ilin noyabr mitinqlərində ziyalılardan olan natiqlərdən çaşqınlıqla soruşurdular.

— Niyə bizim millət erməni millətinə münasibətində özü üçün təhqiramiz vəziyyətdə qalmalıdır? Məkər biz onların ərazisinə qəsd etmişik? Yox, mehriban qonşuluq münasibətləri qarşılıqlı olmalıdır.

Mitinq təşkilatçılarının bəzi arqumentləri Qafqaz Albaniyası üzrə mütəxəssis Fəridə Məmmədovanın xatirinə dəydi: "Bəli, filankəs yaxşı alimdir, amma onun anası rusdur. Filankəs pis adam deyil, lakin anası, yaxud hələ nənəsi almandır..." Başlarında qırmızı sarğılar olan həmsöhbətlərinin qəzəbli üzlərinə nəzər salan tarix elmləri doktoru necə düşünürdüsə, o cür də birmənalı cavab verdi:

"O rus qadınına, o alman qadınına və ümumiyyətlə, istənilən millətdən olan o qadınlara eşq olsun ki, bizim xalqımız üçün layiqli oğullar doğublar! Yazıq o azərbaycanlı qadının gününə ki, övladları özlərini ləkələyir!"

Və axırda da Azərbayçcn ziyalılarının öz xalqının psixologiyası barədə fikrini bildirdi: [63 - 64]

"O zaman ki, milli saflıq barədə söhbət gedir və bu məqsədlə adamın nəsl şəçərəsini az qala yeddinci dolananınadək "araşdırırlar", bu, normal adamda ikrah və təəssüf hissindən başqa heç nə doğura bilməz. Mənim

bildiyimə görə, milli müstəsnalıq və təkraredilməzlik iddiası və bununla bağlı ambisiyalar heç vaxt bizim xalqımıza xas olmayıb".

Ermənistanla Narekatsinin şerlərinə və Andrey Bitovun povestinə görə tanış olan Q. Starovoytova öz yerevanlı dostlarının Qarabağ iddialarını dərhal müdafiə etdi. 1988-ci ilin fevralı idi, Raisa Maksimovna artıq üç ay əvvəl minnətdarlıq ifadə edən təbəssümlə Vaşinqton səfirliyində "erməni xalqından sovet xalqına" verilən bəxşişi qəbul etmişdi, Q. Starovoytova isə özünün stirafına görə Moskvada qolu və qıçı sınmışdı, xəstə yatırdı. "Yerevana uçmaq imkanım olmadığından, mən S. Kaputikyana və Z. Balayana ünvanlanmış hüsn-rəğbət məktubu yazdım, — deyə az sonra Ermənistandan xalq deputatlığına namizəd sevincini gizlətmədən danışırdı. —Aşkar görünürdü ki, biz tarixi hadisələrlə, sadəcə təsadüfi xalq çıxışları ilə deyil, tarixin gedişində məşəqqətlərdən keçib meydana gəlmiş xalq hərəkatı ilə üz-üzə dayanmışıq".

Dayan! "Tarixin gedişində məşəqqətlərdən keçib meydana gəlmiş xalq hərəkatı" barədə ilk ideologem səsləndi, halbuki, ilk vaxtlardan istisnasız olaraq bütün müşahidəçilərə Ermənistanın qonşu respublikanın ərazisinin bir hissəsini özünə birləşdirmək meyli aydın idi. Bir həftə sonra sevimli "xalq hərəkatı" xatirinə "Sumqayıt prosesi" (Q. Starovoytovanın öz ifadəsidir) işə salındı.

Ümumiyyətlə, həmin günlərdə də, sonra da "bizim Tetçer", insan hüquqları müdafiəçisi (bu sözlərin təmiz mənasında) akademik Andrey Saxarovun Qarabağ barəsindəki qərəzli fikirlərinin ruporu oldu. Akademiksə sübutsuz-dəlilsiz iddia edirdi ki, Ermənistandakı hərəkat "qanuni və dinc xarakter" daşıyır, Azərbaycan isə onun yaddaşında "1915-çi il genosidinin dəhşətli mənzərələrindən" başqa heç nə oyatmır.

Bir il sonra, 1989-cu il-in fevralında ictimai şüura buraxılmış ideologemin bəzi praktiki nəticələrini yekunlaşdırmaq mümkün idi. Kreml bürokratiyasının Dağlıq Qarabağa dair qəbul etdiyi qərar göstərdi ki, "dövlət orqanizmi sən demə həssas imiş". Bu nəticəni Q. Starovoytova belə bir məsələnin qoyuluşu ilə müşayiət etdi: "bu eklektik tikilinin (yəni, SSRİ-nin — *Y.P.)* ətrafındakı zonanı mühafizə olunan zona elan etməyə dəyərmi" və bu zaman V. İ. Leninin "dövlət, kütlələrin şüurluluğu ilə güclüdür" təlimindən istifadə etməkdən də çimçəşmədi və demokratiyadan başını itirmiş həmvətənlərini çağırdı ki: "Çoxdan bizə bu məsələlərə həsr olunmuş Sov. İKP MK plenumu [64 - 65] lazımdır". Bu xanım siyasi konyukturaya həmişə sözsüz əməl edirdi və əmin idi ki, MK-nın millətlərarası münasibətləri təkmilləşdirmək üzrə qarşıdakı plenumunda Baş katibin köməkçisi akademik G. Şahnazarovun köməyi ilə "separatist meyllər haqqında birmənalı neqativ meyllər" səslənməyəcəkdir. Starovoytova özü isə o vaxtkı seçkiqabağı dövrdə bu barədə neytral danışmağı üstün tuturdu: öz müqəddəratını təyinetmə hüququ — millətin konstitusiya hüququdur. Bu, sıra nömrəsinə görə ikinci ideologemdir və ona Leninqrad fəhləsi İqor Poyarkovun yuxarıda araşdırdığımız məktubunda kifayət qədər tam qiymət verilmişdir.

Müxtəlif partiyaların və ayrı-ayrı adamların SSRİ-nin dağılmasına necə münasibət bəsləmələrindən asılı olmayaraq, bu prosesdə Qarabağ süjeti müəlliflərinin və icraçılarının rolu açıq-aşkarça lazımınca qiymətləndirilməmişdir. 1992-ci ilin 14 aprelində "Komsomolskaya pravda" qəzeti Almaniyada yaşayan yazıçı Lev Kopelevin müsahibəsini dərc etmişdir. Yazıçının dediyinə görə keçmiş Sovet İttifaqında baş verən hadisələr onu "ağrıdır" və o, etiraf edir ki, "Sovet imperiyası tarixən məhkum olunmuşdur, o, dağılmalı idi". Və heyrətli bir faktı deyir: "Biz hələ 1970-ci ildə bu barədə Andrey Dmitriyeviç Saxarovla danışırdıq". Kopelev "bu dağılmanın belə sürətlə və belə dəhşətli baş verməsindən" təəssüflənsə də, akademik Saxarovun niyyəti barədə etiraf özü nəyə desən dəyər.

"Eklektrik tikili ətrafındakı mühafizə zonasını", yəni SSRİ-nin sərhədlərini dağıtmağa çağıran Elmlər Akademiyasının baş elmi işçisi Avropa və Amerikanın 33 iri dövlətinin müasir sərhədlərin toxunulmazlığı barədə 1975-ci ildə imzaladığı Helsinki müqaviləsi ilə mübarizəyə girmişdi. Halbuki müqavilənin altında L. İ. Brejnevin imzası da durduğundan onun müddəaları SSRİ-nin daxili sərhədlərinə də aid idi.

İnsan hüquqları uğrunda mübarizlər bu hüquqları öz vətənlərində pozmağa başladılar. Cəzasız və səhv etmədən. Mətbuatın və hakimiyyətdəkilərin tam sükutu şəraitində.

Lakin deyəsən səhv edirəm. İsrail publisisti Robert David Daqlıq Qarabağ separatistlərini dəstəklədiyini "A. D. Saxarovun qanlı səhvi" adlandırdı və bu işdə bütün təqsiri Yelena Bonnerin üzərinə qoydu. R. David izah edirdi: " Bonnerin Saxarovun ölümündən sonra onun müəlliflik hüququna sahib olma iddiası, hələ sağlığında Saxarov üzərində tam hökmran olduğuna əsaslanır. Y. Bonnerin mərhum ərinin adından Nobel sülh mükafatından imtina etmək çəhdini İsrail publisisti "əsl lətifə" adlandırmışdı. R. David iddia edir ki, "Saxarov özü künahsız deyil, çünki, heç bir ər ona sərf etmirsə öz üzərində arvadının hökmranlıq etməsinə yol vermir". Mənə belə gəlir ki, bir məsələdə İsrail [65 - 66] publisisti yanılır: O, Yelena Bonnerin guya öz əlilə alnına yaq sürtdüyü (xristian mərasimi) Rusiya deputatı Anatoli Şabadı "bu günkü Saxarov" adlandırıb. Bununla da R. David hələ sağlığında akademikə "DQMV" probleminin erməni redaktəsini diktə etmiş Q. Starovoytovanın rolunu azaldır; Andrey Dmitriyeviçin Azərbaycan xalqına qarşı görünməmiş qeyri-obyektivliyi Q. Starovoytovanın bu rolunun nəticəsində yaranmışdır.

1988-ci ilin payızında Yerevanın Teatr meydanındakı çoxminlik mitinqdə erməni ziyalılarının qaymağı sayılan, Ermənistan EA müxbir üzvü Rafael Kazaryanın açıqca dediyi, "Onilliklər ərzində ilk dəfədir ki,

Ermənistanı təmizləmək üçün nadir imkan yaranmışdır", sözlərini A. D. Saxarov hüsn-rəğbətə yaxın olan sükutla qarşılamışdı.

"Lənətə gəlmiş türklər, Ermənistandan rədd olun"!—deyə köməksiz və silahsız azərbaycanlıları çox vaxt paltarsız və ev əşyalarsız öz evlərindən qovurdular.

Elə bu zaman Baş katibin Saxarovun başçılıq etdiyi elçiləri Azərbaycan ictimaiyyəti ilə söhbətlərdə M. S. Qorbaçovun adından "əlverişli dəyişmə", "əlverişli sövdələşmə" yerinə yetirməyi təklif edirdilər. İçlas iştirakçılarından biri olan Fəridə Məmmədovanın ifadəsinə görə "praktik olaraq bizə ermənilərə verdiyimiz öz keçmiş Azərbaycan ərazimizin bir hissəsini özümüzün başqa torpaqlarımıza dəyişməyn təklif edirdilər".

Elmlər Akademiyasındakı görüşdə Fəridə Məmmədova SSRİ yarananadək Azərbaycan və Ermənistanın vəziyyəti barədə mümkün qədər yığcam şəkildə Andrey Dmitriyeviçi məlumatlandırmaq istədi. Azərbaycan həmin dövrlərdə müstəqil xanlıqlardan ibarət idi, Ermənistana gəldikdə isə, o sadəcə olaraq yox idi, yəni ermənilərin siyasi qurumu mövcud deyildi. F. Məmmədova moskvalı qonaqlara danışırdı: "Ermənistan öz dövlətçiliyini çox tez itiribdir və bu, Qafqazda yox, bizim eranın beşinci əsrində Mesopotamiyada olmuşdur. Dörd yüz il sonra IX-X əsrlərdə Mesopotamiyanın şimali-şərqində erməni dövləti yaradılmışdır. X1V-XV əsrlərdə isə tamamilə yeni ərazidə, Aralıq dənizinin şimali-şərq sahilində erməni Klikiya çarlığı yaradılmış, onun süqutundan sonra XX əsrədək erməni xalqının dövlətçiliyi olmamış və hansı xalqın dövlətçilik qurumuna daxil olmuşlarsa, onların da talelərini bölüşdürmüşlər. XX əsrin əvvəlində erməni liderləri özgə torpaqları hesabına Türkiyənin və yaxud Gürcüstanın ərazisində erməni dövlətini bərpa etmək istədilər və bu tam uqursuzluqla nəticələndi. Ermənistan Respublikası Oktyabr inqilabı və azərbaycan xalqının iradəsi sayəsində yarandı. O, Azərbaycanın cəmn 30 faiz əhalisi erməni olan İrəvan xanlığından, həmçinin Azərbaycanın Zəngəzur torpaqlarından yaradılmışdı". [66 - 67]

Fəridə Məmmədovanın şərh etdiyi tarixi obyektivlik belədir. O, həm də DQMV-nin etnik əlamətlərə görə deyil, çoqrafi əlamətlərə görə təşkil olunmasından irəli gələn özünəməxsus xarakterini də qeyd etdi. Axı, hər xalq öz müqəddəratını bir dəfə təyin edir, ermənilər isə özləri üçün istisnaya hazırdırlar. 1991-ci ilin dekabrında heç kim tərəfindən tanınmayan DQR-i yaratmaqla onun liderləri Q. Starovoytovanın son ideyasını—milli-azadlıq müharibəsi ideyasını işdə həyata keçirdilər.

Vaxt ötəcək və bu qanlı sərsəmləmələrə layiqincə qiymət veriləcəkdir. İndi isə belə bir detalı qeyd etmək istərdim: milli birliyin (rədd edilmiş imperiya beynəlmiləlçiliyinin əksinə olaraq) əhəmiyyəti Q. Starovoytovanı siyasi deputat karyerasının lap əvvəlində SSRİ-nin yaradılması haqqında müqavilənin təzədən bağlanmalı olması fikrinə gətirib çıxardı. Bu ideya münbit zəminə düşdü: respublikaların xalqları doğrudan da Kremlin total diktatından əziyyət çəkirdi; lakin 1989-cu ilin yazında çətin ki, kimsə SSRİ-nin dağılacağı barədə ciddi düşünürdü. həmin İsrail publisisti R. Davidin fikrincə, Qarabağ süjetinin müəllifləri "kənardan təhrik edilməsələr oturduqları budağı kəsməyə başlamazdılar. Onların Amerikadakı rəhbərlərinə konflikt lazım idi, Sovet İttifaqında milli düşmənçilik zəminində aləmi qarışdırmaq lazım idi və bu məqsəd elə həmin ermənilərin qanı hesabına əldə olundu".

R. David 1991-ci ilin mayında Yerevanda və Bakıda olduqdan sonra nəticə çıxarmağa tələsməsə də hər halda maraqlı təəssürat söylədi: "Görünür, təsadüfi deyil ki, Birləşmiş Ştatlarda nəhəng icması olan iki SSRİ xalqından biri, məhz ermənilər yenidən-qurmanın lap başlanğıcından sovet ordukahında troya atı rolunu oynadılar. Dağlıq Qarabağ millətçilik taununun ilk yarası oldu və ondan bu yoluxucu xəstəlik yayılaraq İttifaqın cənub və qərb ucqarlarını dolanmağa başladı".

Özünün bu ikinci məqaləsində R. David, nəhayət Q. Starovoytovanın aparıçı rolunu dərk edir və demokratik Rusiyanın indi Rusiya ilə müsəlman cənubu arasında düşmənçilik yaratmağa çalışan amerikanpərəst dəstəsinin siyahısını onunla başlayır. Məhz buna görə də hər gün Ermənistanın və onun himayədarlarının Azərbayçana qarşı müharibəsi mərhələ-mərhələ qızışdırılır.

İndi heç kimə amerikanpərəst qüvvələrə mənsub olduğunu demək təhqir sayılmır, lakin mən İsrail publisistinin istinad etmədiyi bir tutarlı sübutu göstərmək istərdim.

1989-cu il iyulun 19-da ABŞ konqresinin Senatı yekdilliklə "ABŞ-ın Sovet Ermənistanı xalqının Dağlıq Qarabaq ətrafındakı mübahisələri sülh yolu ilə və düzgün həll edilməsi barədə istəklərini müdafiə etdiyini" ifadə edən qətnamə qəbul stdi. Q. Starovoytovanın çoxsaylı çıxışlarında olduğu kimi bu sənəd Azərbaycanın ünvanına həyasız hüçumlarla və ABŞ-dakı erməni içmasına lageycəsinə səcdələrlə doludur. Yeri gəlmişkən, Senat [67 - 68] təkcə "Ermənistanın bərpası barədə səylərin müdafiə olunmasını və həvəsləndirilməsini davam etdirmək", yaxud "prezident Qorbaçovun xalq deputatları qurultayında erməni nümayəndələri ilə dialoqunu davam etdirməsini müdafiə etmək" kimi qərarlar qəbul etmədi. O, həm də qəbul olunmuş qətnaməni düzəliş şəklində 1990-cı maliyyə ili üçün qanun layihəsinə daxil etdi.

Moskva erməni fidainlərini silahlandırmağa hələ cəsarət etmirsə, bəs Vaşinqton nə etməli idi?

1992-ci il martın 20-də "Azərbaycan" qəzeti Bakı şəhərindəki rus müəllimlərinin Starovoytovaya açıq məktubunu dərc etdi. Orada deyilirdi:

"Müharibə Azərbaycan torpağında gedir, beşinci ildir ki, bütün xalqların nümayəndələrinin qanı tökülür. Bu müharibə öz ərazisindən tədricən bütün milli azlıqları sıxışdırıb çıxarmış monomilli respublika tərəfindən başlanmışdır: Sizin kimi "alim-siyasətçilərin" yazı-pozusunun nəticəsidir ki, indi Azərbaycan xalqlarının birbaşa məhv edilməsi baş verir... Siz erməni xalqının genosidi barədə çox ağlayırsınız. Kim kimi məhv edir? Təkcə son ayda 30-dan çox Azərbaycan kəndi məhv edilmişdir (qeyd edirik — Azərbaycan ərazisində).

Xocalı faciəsi tarixdə erməni bandaları və onların hüquq müdafiəçiləri: Bonner, Balayan, Nuykin və xanım Starovoytova, məhz sizin Azərbaycan xalqına qarşı törətdiyiniz genosid kimi qalaçaqdır. Gəlin kimə bəraət qazandırdığınızı öz gözlərinizlə görün. Əlbəttə, əgər sizdə hələ bir damla rus qanı qalıbsa".

Azərbaycandakı yarım milyonluq rus icması Starovoytovaya görə utanmağa bir az gec başladı, çılğın madamın ünvanına qəzəbi bir az əvvəl bildirmək lazım idi. Ruslar da bu yerdə azərbaycanlılar kimi sonrakı ağılları ilə güclüdürlər.

Lakin, vicdan itirilməyib və Azərbaycanın taleyini onun bütün sakinlərinin qayğıkeş əlləri ilə qorumaq olar. Bir də ki, dünya ictimai rəyi də kəskin dəyişməli idi. ATƏM-in Yuxarı Qarabağın Azərbaycana mənsubluğunu və bu suveren dövlətin daxili və xarici sərhədlərinin pozulmazlığını etiraf edən bir az əvvəlki qətnaməsi də belə əhval-ruhiyyə yaradır.

"Azərbaycan" qəzetinin həmin 1992-ci il 20 mart nömrəsində müəllif İskəndər Axundovun aşağıdakı fikirləri ilə razılaşmaya bilmirəm: Ermənistan müharibəni başlamaqda təqsirkar olduğunu etiraf etməli, Azərbaycanın suverenliyinə qəsd edən bütün qeyri-qanuni dövlət aktlarını ləğv etməli və Azərbaycan ərazisində olan bütün hərbi birləşmələrin təslim edilməsini həyata keçirməlidir.

Mən təxminən bir il əvvəl Gəncədə olan bir nəfər Sovet ordusu generalı ilə bu barədə danışanda, o, məsələyə bu cür yanaşma ilə razılaşdı. "Bəs nə mane olur? — deyə mən soruşdum. General cavab verdi: — "Komanda lazımdır. Moskva susur". Mən öyrənmək istədim: "Bəlkə müharibəni başqa mərkəzdən idarə edirlər?" General bu elan olunmamış müharibənin komanda məntəqəsinin dəqiq ünvanını deməyə cürət etmədi, başını razılıqla yellədi.

Belə düşünürəm ki, bu mərkəz Q. Starovoytovaya sözsüz məlumdur.

Bu başqa məsələdir ki, görəsən millətlərarası münasibətlər üzrə müşavir başa düşürmü ki, azərbaycan xalqının da öz müqəddəratını təyin etmək və ərazi bütövlüyünü saxlamaq hüququ var və nəhayət, torpaq xalq malıdır, onu almaq olmaz? Əgər başa düşürsə və eyni zamanda dünya və Rusiya mətbuatında milli-azadlıq müharibəsini və Arsaxı müstəmləkəçilikdən azad etmək ideyasını təbliğ edirsə, onda Q. Starovoytova bu gün Azərbaycan torpağında törədilən genosidi müdafiə etdiyi üçün ciddi ittiham olunmağa layiqdir; çünki, BMT-nin Bəyannaməsinə görə genosid — təkcə xalqın və ya onun bir hissəsinin fiziki məhv edilməsi deyil, həm də yerli əhalini öz doğma yerlərini tərk etməyə məcbur edə biləcək dözülməz şəraitin yaradılmasıdır. Axı, alın təri ilə suvarılmış, sənin əçdadlarının sümüyü yatan torpaq yalnız qanla müdafiə olunur. Daşnak tipli millətçilərin törətdiyi milli-azadlıq müharibəsi nəticəsində təkcə DQMV-də deyil, həm də "Alazan" raketlərinin və "Qrad" mərmilərinin çata bildiyi sərhəd rayonlarından öz doğma yerlərini tərk etməyə məcbur olan həm azərbaycanlılar, həm də ruslar genosidə məruz qalmışlar. Qoy lənətə gəlsin insan qanına batmış istənilən siyasi karyera! Eyni dərəcədə səmimi olan insanlar arasında fikir müxtəlifliyi ola bilər və onların arasında yalan və boşboğazlıq üzrə mütəxəssis peyda olmasa, onlar həmişə razılığa gələ bilərlər.

## Qara dekabr: məhv edilmə instinkti

Arkadi Volskinin Qarabağdakı idarə üsulu, əlbəttə, şərəfsiz qurtardı, lakin bu, millətçi qüvvələrin elan olunmamış müharibədə ilk qələbəsi oldu. Dilsiz-ağızsız Kamran Bağırovdan sonra, imkanlarına və qabiliyyətinə inam hissi ilə qarşılanan Azərbaycanın yeni lideri Əbdürrəhman Vəzirovun qeyri-qanuni DQMV Xususi İdarə Komitəsinin yaradılmasına razılıq verməsi, faktiki olaraq Qarabağın Dağlıq hissəsinin Azərbaycandan ayrılmasına gətirib çıxaran birbaşa satqınlıq oldu. Vəzirov çox ehtimal ki, Qorbaçovun erməni tərəfə verdiyi vədləri yerinə yetirirdi.

Mərkəzin rezidenti, Andropovdan Qorbaçovadək bütün ağaların nökəri Volskinin bitərəfliyi saxta idi. Kimin haqlı, kimin təqsirkar olduğunu demədən qarşıdurma şəraitini o belə qiymətləndirirdi: "Ermənistan indi əslində monoetnik respublikaya çevrilir, bu da məlum nəticələr törədə bilər, digər tərəfdən [69 - 70] Azərbaycanın öz prinsiplərini güc hesabına təsdiq etməsi az təhlükəli deyil".

Moskvanın çoxusu, Yerevandan diktə edilən istənilən göstərişlərini yerinə yetirən itaətkar Azərbaycan barədə Volskinin dedikləri yalan idi.

Azərbaycan əleyhinə təbliğatda əsas arqumsnt bütün 1988-ci il ərzində konfliktin qızışdırılmasını təmin edən Sumqayıtdakı fevral hadisələri idi və hətta 7 dekabr zəlzələsi də "genosid" ehtiraslarını dayandıra bilmədi.

Qızışdırılmış intiqam hissini yalnız insanlar, onların sağlam düşüncəsi, bir-birinə olan qayğısı sakitləşdirə bilərdi.

Bu mənada Sumqayıt faciəsi öz nəticələrinə görə zəlzələ ilə müqayisə edilə bilər. Lakin Azərbaycan Xalq Cəbhəsinin bütün səylərinə baxmayaraq bu patologiyanın ağıllı təhlili aparılmadı. Yeri gəlmişkən, elə bu hadisə respublikanın demokratik qüvvələrinin çiyninə hansı ağır yükü götürdüyünü müəyyən etdi.

Marionet DQR-in 1992-ci ilin aprelində öldürülmüş lideri Artur Mkrtçyan ölümündən bir az əvvəl etiraf etmişdi:" Bizdə müharibə deyil. Bizdə baş verən hadisələri mən qısaca belə adlandırıram; insanları ələ salmaq. heç güman etmək olardımı ki, hər bir qarabağlıya bu qədər qarşısıalınmaz məhvetmə instikti sirayət edib. Mən özümüzü də, onları da nəzərdə tuturam. (Sağlığında partiya mənsubiyyətini gizləmiş, Daşnaksütyun partiyasının üzvü Mkrtçyan *onları* dedikdə yəqin ki, azərbaycanlıları nəzərdə tutur — *Y.P.).* Lakin bu var, indi üzə çıxdı, deməli, gizlədilibmiş".

Stepanakertdəki terror aktları bir qayda olaraq o erməni xadimlərini yaxalayırdı ki, onları "qarşısıalınmaz məhvetmə instikti" narahat edirdi, kim heç olmazsa zəif də olsa "başqalarının", y'ni Qarabağın azərbaycan icmasının da hüquqları olduğunu etiraf edirdi. 1991-ci ildə aeroportun rəisi A. İşxanyan (öz evində partladılmışdı) və Dağlıq Qarabağın rəhbərlərindən biri, sülh danışıqlarının iştirakçısı V. Qriqoryan (küçədə güllələnmişdi) həlak olmuşlar.

Öldürülmüş liderin "gizlədilmiş məhvetmə instiktini" və üstəlik millətçilik qızışdırıldığına görə onun "qarşısıalınmaz" olduğunu dərk etməsi, məni bir daha konfliktin başlanğıcına nəzər salmağa məcbur edir. Heydər Əliyevin 1992-ci il aprelin 17-də "Komsomolskaya pravdaya" verdiyi müsahibə buna imkan yaradır. Sov. İKP MK Siyasi Bürosunun sabiq üzvü bəyan edir ki, 1986-cı ildə Alma-Atadakı dekabr iğtişaşlarının günahkarı Mixail Qorbaçovdur, o zaman məhz o, qazax millətçiliyi məsələsini ifadə etmişdir. Abel Aqanbekyanın Parisə səfərindən iki həftə əvvəl isə Heydər Əliyevə istefaya getmək üçün ərizə vermək təklif [70 - 71] olundu, o da bunu etdi. Dağlıq Qarabağın Ermənistana birləşməsinin zəruri olduğunu elan edən akademik Aqanbekyan Parisin daşnak elitasına dedi ki, bu məsələ Qorbaçovla razılaşdırılmışdır. Heydər Əliyev bu gün belə nəticəyə gəlir: "bundan sonra hadisələrin intensiv inkişafı başladı və onlar bizim şahidi olduğumuz faciəyə gətirib çıxardı".

Müxtəlif respublikalardaki: demokratik hərəkatlar, ilk növbədə "Dem Rossiya" Ermənistanı Zaqafqaziyada demokratiyanın dayağı qəbul edib, dərhal onun tərəfini saxlamaqla millətçi "məhvetmə instiktini" qızışdıran təşviqatçıların ixtiyari və ya qeyri-ixtiyari köməkçisi oldular. Yeni dalğadan olan bir çox siyasətçilər öz karyeralarını da elə bu hüsn-rəğbətlər hesabına əldə etdilər və bu gün də antimüsəlman, antitürk hisslərini ifadə edən ağılsız çıxışlarını davam edirlər: biz hamımız xristianıq, biz bir-birimizə kömək edəcəyik. Bunlar Zori Balayanın qaladığı tonqala atılan quru odunlardır. Publisist özünün 1988-ci ildə Moskvada nəşr olunmuş "Doroqa" ("Yol") kitabının səhifələrində soruşurdu: "Sovet İttifaqında bu barədə bilirlərmi ki, özünə Ankarada sığınacaq tapmış islam fundamentalizmi gələçəkdə Rusiyanı qılıncın köməyilə yox, Quranın köməyi ilə məhv etməyi nəzərdə tutur. Sovet mətbuatında dərc olunurmu ki, ölkədə inqilabdan əvvəl nə qədər müsəlman var idi, indi nə qədərdir, iki mininci ildə nə qədər olacaq, iki min otuzuncu ildə nə qədər olacaq?"

Ritorik suallardır, ona görə ki, heç kim Sovet mətbuatında nəinki müsəlmanlar, hətta — Balayanın və baronessa Koksun köməyi ilə antimüsəlman ittifaqı elan olunmuş xristianlar və yəhudilər barəsində də mə'lumat tapa bilməz.

Təhlükəli oyunlardır, cənablar! Mixail Qorbaçov 1990-cı ildə Bakıdakı qanlı qırğını təşkil etdikdən sonra elan etdi ki, Azərbaycanda islam dövləti yaratmaq ideyası mövcuddur. Ən heyrətlisi də o idi ki, həmin kədərli yanvar günlərində Azərbaycan paytaxtında keçirilmiş ictimai rəy sorğusunda cavab verənlərin cəmisi 3,6 faizi respublikada islam dövləti yaradılmasına razı idi. İslam təhlükəsinin şişirdilməsi həmişə erməni geosiyasətinin tərkib hissəsi olmuşdur.

Politoloq Eldar Namazov haqlı qeyd edirdi ki, Qorbaçov tərəfindən azərbaycanlıların islam fundamentalizmində ittiham edilməsi Bakıya qoşun yeridilməsini qabaqladı və faktiki olaraq qətillərin təşkilatçısı ölkənin ictimai rəinin sükutla bu qanlı aksiyanı müdafiə etməsinə nail oldu. hətta, Pribaltika demokratları tərəfindən də kəskin ittihamlar olmadı, halbuki, 1990-cı ildə onların azərbaycanlılara münasibətdə düzgün mövğe tutmaları bir il sonra Vilnüsdə və Riqadakı qanlı davantutmalardan yaxa qurtarmağa kömək edə bilərdi. [71 - 72]

Lakin Balayanın müsəlmanofobiyası qələbə çaldı və təəssüf ki, qələbə çalmaqda davam edir.

Azərbaycan Xalq Cəbhəsinin liderlərindən biri İsa Qəmbərov Moskva demokratlarını inandırmağa çalışırdı: gəlin bütün Azərbaycan ziyalılarının, milliyətindən asılı olmayaraq bütün vicdanlı adamların pislədiyi və qəzəbləndiyi Sumqayıt faciəsinin ilkin şərtlərini və səbəblərini araşdıraq. Elə görünürdü ki, İsa Qəmbərov öz analizində o zaman (elə indi də) az məlum olan hadisələrə əsaslanırdı. Mən onları olduğu kimi verirəm, çünki bu patologiyanın düzgün diaqnozu indiyədək işıq üzü görməyib.

***Ümumi fon.*** Qəmbərov izah edirdi: Sumqayıt ölkəmizin ən pis vəziyyətdə olan şəhərlərindən biridir. Ağır ekoloji şərait, yüksək ölüm faizi. Mənzil problemi, həqiqi zibilxanalarda yaşayan minlərlə ailə. Bu

zibilxanaların əhalisi əsasən kənd rayonlarından köçüb gələnlər, həmçinin öz doğma yurdlarını "könüllü-məcburi" tərk etmiş azərbaycanlılar, yəni Ermənistandan olan köçkünlərdir. Sumqayıta öz həbs müddətlərini çəkmiş çoxlu keçmiş dustaq göndərilirdi. Ümumi fonun mühüm elementlərindən biri də o idi ki, Azərbaycanın başqa şəhərlərindən fərqli olaraq Sumqayıt milli kök və ən'ənələrə malik deyildi.

***Yaxın fon.*** DQMV-dən gələn həyəcanlı xəbərlər. Tətillər, iğtişaşlar, Vilayət deputatlar sovetinin qərarı. Stepanakertdə azərbaycanlıların sıxışdırılması. Əsgəranda 16 və 23 yaşlı iki cavan azərbaycanlının öldürülməsi. Yerevanda güclü nümayiş dalğaları. Moskvanın erməni nümayişçilərinin tələblərini yerinə yetirmək fikrində olduğu barədə şayiələr. Ermənistanda azərbaycanlılara qarşı psixoloji və fiziki terrorun güclənməsi haqqında məlumatlar. Məlumatlar əsassız deyildi. Ararat rayonunun "Qələbə" kolxozunun aqronomu İslam Vəliyevin danışıqları: fevralın 17-də mənim arvadım oğlan doğdu. Doğuş çətin və mürəkkəb keçdi. Nə arvadıma, nə də uşağa kömək edilmədi. həkimlər və mamaçalar əllərini qoyunlarında çarpazlayıb istehza edirdilər: "iki türk az olacaq". Uşaq pnevmoniya oldu. Arvadım bu günədək tam sağalmayıb. Yalnız Azərbaycana gətirdikdən sonra onlara tibbi yardım göstərdilər". Erməni ekstremistləri azərbaycan kəndlərində evləri yandırır, bağları doğrayır, istixanaları dağıdırdılar. Azərbaycanlıların kütləvi şəkildə işdən çıxarılması həyata keçirilirdi.

***Bilavasitə təkan.*** Təsadüfi deyildi ki, fevralın 25-26-da Yerevandakı nümayişlər öz apogeyinə çatdığı və bütün Ermənistanın Qarabağ hərəkatının təsiri altında olduğu bir vaxtda zorakılıq və qorxunun təqib etdiyi minlərlə azərbaycanlı Azərbaycana üz tutdu. Onların çoxu fevralın 26-27-də müxtəlifillərdə Ermənistandan köçmüş həmyerlilərinin yaşadığı Sumqa-yıta və onun yaxınlığındakı Fatmayı və Saray kəndlərinə kəlmişdilər. Məhz bu günlərdə DQMV-də iki azərbaycanlının öldürüldüyü barədə rəsmi məlumat elan edildi. Dairə qapandı.

İsa Qəmbərov Moskva demokratlarına sübut edirdi ki, Dağlıq Qarabağ problemi yenidənqurma və cəmiyyətimizin demokratikləşdirilməsinə çiddi təhlükədir. Bunu başa düşmək olurdu — o zaman hamı aşkarlığa və yenidənqurmaya inanırdı, Qorbaçova səcdə edirdi. Azərbaycanın demokratik əhval-ruhiyyəli tarixçiləri və ədəbiyyatşünaslarını bu cür görüşlərdə Sumqayıta görə kəskin məzəmmətləyir və tələb edirdilər: günahkar olduğunuzu bütün dünya qarşısında etiraf edin. Onların tələb etdiklərini heç Nürnberq tribunalı nasist-cinayətkarlardan tələb etməmişdi.

Bu belə olmuşdu və mən, Leninqrad yazıçısı onun şahidiyəm. Azərbaycan demokratları yenidənqurmayla bağlı həmfikirləri arasında əvvəldən gözümçıxdıya salınmışdılar: axı, respublikalardakı bütün xalq cəbhələri, bütün qeyri-formallar erməni "Qarabağ" komitəsinin gizlədilmiş millətçilik instiktindən bəhrələnərək Qorbaçov yenidənqurmasının şüarları altında çıxış edirdilər. Bu məsələdə hamısı yekdil idi.

1988-ci ilin yazında Pribaltikanın cavan demokratik mətbuatı yazıçı Sero Xanzadyanın belə bir yazısını dərc etdi ki, guya Sumqayıtda 450 erməni öldürülmüş və onların qollarına birka vurulmuş cəsədlərini morqda öz gözləri ilə görmüşdür. "Faşist cəlladları (oxu: azərbaycanlılar — *Y.P.)* şəhər xəstəxanasına və doğum evinə soxuldular, birkalara görə yenicə doğulmuş erməni uşaqlarını müəyyən edir və pəncərələrdən atırdılar, doğuş gözləyən erməni qadınlarının isə qarınlarını cırırdılar". Qəzetlər Xanzadyanın adından (yeri gəlmişkən o, Sumqayıtda ümumiyyətlə olmamışdır) bunları yayırdılar. Milis kapitanı Ç. M. Məmmədovun bu yazıları rəsmi təkzibini isə yalnız Bakıda "Elm" qəzeti dərc etdi və ona görə də mən mətni bütünlüklə verirəm:

"Mən bu deyilənlərin yalan olduğuna şahidlik edirəm, belə ki, Sumqayıtdakı millətlərarası toqquşmaların gedişində həlak olanların hamısı Bakı şəhərindəki Elmi-Tədqiqat Eksperimental Cərrahiyə İnstitutunun morquna gətirilmiş və buranı mənim tabeliyimdə olan hissənin milisləri mühafizə etmişlər. Cəmi 26 erməni və 6 azərbaycanlı (meyidi) var idi. Cəsədlərə heç bir birka bağlanmamışdı, bir dənə də olsa uşaq meyidi və ya hamilə qadın meyidi yox idi (yeri gəlmişkən, bu haqda SSRİ Prokurorluğunun rəsmi məlumatı var). Bu çirkin yalan kimə və nə üçün lazımdır?" [73 - 74]

Görünür, milis kapitanı Məmmədova Gebbels təbliğatının prinsipləri tanış deyildi: yalan nə qədər dəhşətli ağ yalan olsa, ona o qədər tez inanarlar. Yoxsa kapitan bu qədər lap aşkar suallar verməzdi...

Lakin başda Ermənistanın gələcək prezidenti Levon Ter-Petrosyan olmaqla "Qarabağ" komitəsini dərhal müdafiə edən demokratik mətbuatın riyakarlığı yenicə özünə yol açırdı. Ona görə də ilk addımlar daha ibrətamizdir, belə deyilmi?

1988-ci il mayın 22-də "Moskovskiye novosti" V. Loşakın "Sumqayıt. Epiloq traqedii" reportajını dərc etdi. Burada Bakıdakı erməni kilsəsinin baş keşişi David Dilanyanın sözlərinə əsasən, guya kilsədə yanğın törətmək cəhdləri olması da iddia edilirdi. D. Dilanyan özü kilsəni yandırmaq cəhdi barədə faktı qəti təkzib etdi:

Baş keşiş oxuculara izah edirdi: "Təxminən mayın 15-də erməni kilsəsi ilə özünü "Moskovskiye novosti" qəzetinin müxbiri kimi təqdim edən adam maraqlandı, soruşdu ki, kilsəyə Sumqayıtdan qaçqınlar gəlmişdimi... "Moskovskiye novosti" müxbirinin hərəkətləri məni hiddətləndirdi. Mən məqalədə göstərilən faktların rəsmi təkzib olunmasını tələb edirəm."

Düşünürsünüz ki, təkzib olundu? Əlbəttə yox. D. Dilanyanın bəyanatı Bakıdan kənara çıxmadı, V. Loşak isə "Surroqat qəzetin" o vaxtkı baş redaktoru Yeqor Yakovlevlə birlikdə millətlərarası düşmənçilik oduna yağ artırmaqda davam edir, minlərlə Bakı ermənisini iki xalq arasında qızışdırılan qarşıdurma nəticəsində Respublikadan kənara səpələnməyə düçar edirdi.

Loşak özünün yalançılıq məharətləri ilə bir yana qalsın! Natəmiz oyuna profsssorlar, elmlər doktorları, Rusiyanın Dövlət mükafatı laureatları qoşuldular. Elə ki, akademik Ziya Bünyadov "Nə üçün Sumqayıt" adlı analitik məqalə ilə (kaş mərkəzi qəzetlərdə çap edilə biləydi) çıxış etdi, möhtərəm akademikin, Sovet İttifaqı Qəhrəmanının üzərinə söyüş və qəzəb yağdırıldı. hər porsiyası ketdikcə daha ədəbsiz, daha kəskin.

Qarabağ kirdabının ssenarisini ifşa edən Ziya Bünyadov, bu cəsur cəbhəçi, başlanılmış düşmənçiliyin bütün ölkə üçün dəhşətli nəticələr verə biləcəyi barədə oxucuları xəbərdarlıq edir və özünün Böyük Vətən müharibəsində əldə etdiyi təcrübəyə istinad edirdi:

***"SSRİ xalqları arasındakı dostluq özünü muharibə illərində xususilə aydın göstərdi. Bizim xalqların birliyini pozmaq axıradək Hitler təbliğatına muyəssər olmadı. Mən təşvişlə özumə sual verirəm, hərgah ermənilər özlərinin bu oyunlarını muharibə illərində çıxarsaydılar, necə olardı? Heç şubhəsiz ki, cəbhə bir neçə gun ərzində dağılardı".*** [74 - 75*]*

Elə bil ki, hər şey, xususilə də indi — Z. Bünyadovun məqaləsi dərc olunandan dörd il sonra aydındır. Söhbət SSRİ daxilində ərazi iddiasından, ölkənin xəritəsini yenidən dəyişməkdən gedir. Yalnız və yalnız ondan gedir.

Fikirləşəndə dəhşətə gəlirsən ki, bu cür tələblər o təhlükəli günlərdə irəli sürülsəydi faşist Almaniyası qardaş xalqlar (bu həqiqətən belə idi) arasına nifaq salmağa nail ola bilərdi və bu da SSRİ-nin məğlubiyyətinə gətirib çıxarardı.

Lakin bu belə başa düşülmədi. Bir çox qəzetlərin səhifəsindən professor V. Petrovski şivən qopartdı: "Erməni xalqının şərəf və ləyaqətini təhğir etməyin, ermənilər cəbhəni dağıtmamışlar!" Lakin, Ziya Bünyadov onları bunda ittiham etmirdi. O, sadəcə olaraq vaxtilə mümkün ola biləcək faciəni "millət qəhrəmanlarının" bu gün törətdikləri faciə ilə müqayisə etməyə cəhd göstərmişdi.

Mən hələ erməni mətbuatında dərc olunan çoxsaylı "Ziya dayıya məktublar"dan danışmıram: burada onu yarımçıq alim, elmdə təlxək, keçmiş köçərilərin imamı adlandırır və Arkadi Qukasyan kimilər isə hədələyirdi: biz sizi susmağa məcbur edərik.

Birdə ki, hər dəfə iki xalq arasında nifaq salan bu yazıların mövzusu və elə məzmunu da siam əkizləri kimi oxşar olur, sanki indiyədək eyni bir fitnəkar əllə yazılır.

Ona görə də artıq bizdən uzaq olan 1988-ci ildəki riyakarlıqlara dair sonuncu misalla kifayətlənəcəyəm. Bütün televiziya proqramlarında elan edilmişdi ki, dekabrın 29-da Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə barədə film göstəriləcəkdir. Film heç bir səbəb göstərilmədən proqramdan çıxarıldı. Buna səbəb Ermənistanın millətçi mətbuatında B. Vahabzadənin "erməni xalqının düşməni" elan olunması sayılmalı idi? Lakin bu hadisədə ən heyrətamizi başqa şey idi: mərkəzi televiziya bir neçə gün sonra davakar baxışları barədə yuxarıda dediyim Silva Kaputikyan haqqında xüsusi veriliş təşkil etdi. Mərkəzi telsviziyanın bü cür hərəkətləri azərbaycan xalqını növbəti dəfə təhqir etməkdən başqa şey deyildi.

Həmin dövrdəki saxtakarlıqların zirvəsi isə Nizami haqqında "mifləri" alt-üst etmək qərarına gəlmiş iki "Nizamişünasın" — fəlsəfə elmləri doktoru M. Kapustinin "Sovetskaya kultura"da və Qraçik Simonyanın "Qrakan tert" qəzeti səhifələrində uzlaşdırılmış çıxışları oldu. Q. Simonyanın tədqiqatlarının yalnız başlıqlarını sadalamaqla kifayətlənəcəyik: "Nizami Gəncəvi doğrudanmı azərbaycan mədəniyyətini təmsil edir?", "Dünya nizamişünaslığı şairin yaradıcılığının mənsubiyyəti haqqında", "Nizaminin valideynləri və milliyəti". Sonra iddia edilir ki, Nizami Azərbaycan mədəniyyətinin nümayəndəsi olmayıb və ola da bilməzdi, çünki, o, İran şəhəri Qumda anadan olub, erməni şəhəri Gəncədə yaşayıb, onun poemalarının məzmunu Azərbaycan gerçəkliyi ilə bağlı olmayıb, o, Ermənistanı və erməniləri mədh edirdi. Nizamini Stalin və M. C. Bağırov azərbaycanlı etdilər ona görə ki, [75 - 76] müharibə ərəfəsində, repressiya dövründə hansı yollasa xalqın mənəvi ruhunu yüksəltmək lazım idi. Və yekun olaraq çağırış: Azərbaycan şairi kimi Nizaminin yubileyi qeyd olunmasın, kitabları nəşr edilməsin.

Bu lan obıvatel cəfəngiyyatıdır, — deyəcəksiniz və yadınıza salacaqsınız ki, 1941-ci ildə blokada şəraitində olan Leninqradda Ermitajın o zamankı direktoru, bir il sonra Ermənistan Elmlər Akademiyasının ilk prezidenti olmuş İosif Abqaroviç Orbelinin təşəbbüsü ilə Nizaminin 800 illik yubileyi qeyd olunmuşdur. Akademik-şərqşünas "erməni millətçi elməbənzər uydurmalarını" nahaq pisləmirdi, lakin 1988-ci ildə bir nəfər nə erməni, nə də rus akademiki tapılmadı ki, Qraçik Simonyanın fitnəkar hiddətini, nadanlığını və qızışdırıcılıq niyyətini ifşa etsin.

Yalnız Nizami Gəncəvi adına Azərbayçan ədəbiyyatı muzeyinin direktoru Arif Hacıyev saxtakarlara sakitcə cavab verdi: "Nizami böyük vətənpərvər idi. Lakin o dahi idi, dahilər isə bütün insanlığa məxsusdur. Və biz azərbaycanlılar bununla fəxr edirik. Devizi — biz hamımız Yer üzünün övladlarıyıq olan şairlə fəxr edirik".

1991-ci ilin noyabrında Neva sahillərindəki şəhərin yaradıcı ziyalıları Ermitaj teatrında Azərbaycan şairi Nizami Gəncəvinin 850 illiyini qeyd etdi. Şəhərdə bu gecə barədə heç bir afişa və ya elan yox idi və toplaşanların sayı yəqin ki, yarım əsr əvvəl blokada dövründəkindən çox deyildi. Təntənəli gecə layiqincə keçdi. Azərbaycan mədəniyyət xadimlərinin gözəl konserti də daxil olmaqla. Lakin Nizaminin "Şairin böyük

kitabxanası" seriyasından hazırlanmış bir cildlik kitabı işıq uzü görmədi. Qraçik Simonyan və onun "Sovetskaya kulturadan" olan havadarları da elə buna çağırırdılar.

Küman edilirdi ki, 1988-ci il 7 dekabr zəlzələsinin dəhşətləri, bütün planetin köməyə gəlməsi və canıyananlığı erməni millətçilərinin şüuruna aydınlıq gətirəcək, təbii fəlakət aqressivlik və ekstrimizm dalğasını söndürəcəkdir. Lakin elə səhərisi gün dekabrın 8-də "Qarabağ" komitəsi həmvətənlərinə müraciət etdi: "Biz mərkəzi hökuməti erməni xalqının faciəsindən Ümumittifaq tikintisi elan etmək üçün istifadə etməməyə, Ermənistanın etnik tərkibini dəyişməyə çalışmamağa çağırırıq".

Sov. İKP MK siyasi Bürosu komissiyasının sədri Nikolay Rıjkov növbəti səhər toplantısında qayğılı halda məlumat verdi: "Dünən Leninakanda kimlərsə peyda olmuş, adamları öyrədirlər ki, uşaqlarını fəlakət yerindən kənara aparmağa imkan verməsinlər, böyüklərə isə məsləhət görürlər ki, təbii fəlakətin dağıtdığı şəhərlərdən sağlamlıq ocaqlarında, mehmanxanalarda və yataqxanalarda onlar üçün yer hazırlatmış başqa respublikalara getməsinlər. Guya sonra geriyə — Ermənistana heç kimi buraxmayacaqlar".

Biri o birindən dəhşətli şayiələr çoxalırdı: vulkan barədə, guya erməni xalqının diqqətini Dağlıq Qarabağ problemindən [76 - 77] yayındırmaq məqsədilə Leninakanın altında partladılmış nüvə bombası haqqında. Guya Yerevana da yazıqları gəlməzdi, yaxınlığında atom elektrik stansiyası olmasından qorxublar. hələ başlanğıcda ikən qarşısı alınmamış bu siyasi banditizm "Qarabağ" komitəsinin liderlərinə xalqın faciəsindən özlərini barışmaz milli qəhrəmanlar kimi göstərməkdə istifadə etmələrinə kömək etdi.

Levon Ter-Petrosyan və onun silahdaşları informasiya bülletenləri, müraciətlər, BMT-yə petisiyalar buraxmaqla elə zəlzələdən sonrakı ilk günlərdə EÜH—ün-Erməni Ümummilli hərəkatının birinci növbədə respublikada hakimiyyəti ələ keçirməyə yönəldilmiş proqramını işləyib hazırladılar. Proqramda xalqlar dostluğu barədə də sözlər var idi: "Bizim prinsipimiz bütün qonşularla sülh və dostluq şəraitində yaşamaqdır". Elə həmin vaxt "Qarabağ" fəalları Amasiya kəndində şagirdlərin nümayişini təşkil etmiş və onların tələbi azərbaycanlıların işdən çıxarılması olmuşdur.

SSRİ xalq deputatı, Spitak rayonunun ağası Muradyan azərbaycanlıların kecə ikən zəlzələdən zərər çəkmiş Qursalı kəndindən qovulmasını tələb edirdi. Ongünlük aclıqdan və əziyyətlərdən sonra azərbaycanlıların bu son ailələri Ermənistandan vertolyotla qonşu Qazağa göndərildi. Əməliyyata Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini başçılıq edirdi.

Yerevanın qarnizon qospitalına vərəqə tulladılar: qospitalda erməni xəstələrlə birlikdə azərbaycanlıların da müalicə olunduğuna görə həkimləri və tibb heyətini hədələyirdilər. Onlar Bakıdan olan avtomobil çilingəri, Zvartnos yaxınlığında qəzaya uğramış (qəzayamı uğramış? — *tərc.)* İL—76 təyyarəsinin sağ qalmış yeganə sərnişini, ehtiyatda olan sıravi əsgər R. Balayevi nəzərdə tuturdular. Həmin təyyarədə Azərbaycandan olan 77 könüllü həlak olmuşdu.

Yerevanlılardan biri "Krasnaya Zvezda"nın xüsusi müxbiri A. Orlovdan soruşurdu: "Bilirsinizmi baş verən hadisələrlə bağlı adamların gözünü nə aça bilər? Geniş informasiya: Azərbaycan Ermənistana nə ilə və necə kömək edir? O, nə iləsə kömək edir, yaxud kömək etmir?"

Müxbir bildirdi ki, elə ilk günlərdəcə qonşu respublika fəlakət zonasına yüzdən çox avtokran, buldozer, ekskovator göndərdi. Azərbaycan təqr. 70 min ton avtobenzin, aviasiya yanacağı, dizel yanacağı yola saldı. Zərərçəkənlərə iki həftə ərzində 1200 ton maye bitum, 90 min ton mazut, 2800 ton yağ və başqa yanaçaq-sürtkü materialları verilib. Leninakan, Spitak və Kirovakanda 20-dən çox səyyar yanacaqdoldurma stansiyaları və benzin daşıyan maşınlar işləyir. Çoxlu miqdarda su boruları və kabel əmlakı da buraya göndərilib. Bakıdan olan on komplekt tibbi briqada öz sanitar maşınları ilə birlikdə zərərçəkənlərə ilk kömək göstərir. 1988-ci il dekabrın ortalarına məşhur 700412 [77 - 78] hesabına Azərbaycan artıq 5 milyon rubl ianə toplayıb köçürmüşdür.

Millətçi şüarların hay-küyündən yorulmuş adamlara aydın idi: Azərbaycan dar ayaqda öz qonşusunun köməyinə gəlib. Milyonların ürəyində canıyananlıq hissləri səslənib.

Yükqaldırma qabiliyyəti 10 tondan 50 tonadək olan 28 güclü avtokrandan ibarət ilk mexanikləşdirilmiş dəstə maşın və avtobuslarla birlikdə artıq dekabrın 8-də Bakıdan yola düşdü. Köməyə montaj və xüsusi işlər nazirinin müavini Şamil Musayevin başçılıqı ilə yüksəkixtisaslı 80 mütəxəssis (azərbaycanlılar, ruslar, yəhudilər, ermənilər) gedirdi.

Dəstənin rəhbəri bir ay sonra danışırdı: "İcevan postunda o tərəfdən bizə maneçilik törətdiklərindən biz praktiki olaraq təxminən bir sutkanı itirdik. Özlərini hakimiyyət orqanlarının nümayəndəsi kimi təqdim edən adamlar dəstənin milli tərkibini göstərən siyahı tələb etdilər. Onların təklifinə əsasən biz dəstədə maşınların və kranların yerini dəyişdik, guya bizim öz "təhlükəsizliyimiz" xatirinə. Bütün bunlara baxmayaraq bizim dəstəmiz birinçi olaraq buraya kranları, qaldırıçı mexanizmləri çatdırdı ki, bunlarsız da nə sağları xilas etmək, nə də ölüləri çıxarmaq mümkün deyildi".

Azərbaycandan gələnlər qatı qaranlıqda və tonqalların zəif işartılarının işığında tam gücləri ilə işləyir, oyuncaq evciklər kimi uçub dağılmış doqquz mərtəbələrin xarabalıqlarını təmizləyirdilər. Təkcə ilk günlərdə 63 adam xilas edə, 320 cəsəd çıxara bildilər. Yeddinci gün respiratorlarda, əlehqazlarda və rezin əlcəklərdə işləməyə başladılar.

Şamil Musayev xatırlayırdı: "Üçüncü sutka öz mətbəximiz işə düşdü və oraya kim müraciət edirdisə hamısına isti xörək verirdik. Həmin dəqiqələrdə adamlar bir ocağın istisində qızınır, itirdikləri əzizləri haqqında danışaraq ağlayırdılar, canıyananlıq və kömək üçün minnətdarlıq edirdilər, bizim iki xalq arasında yaranan problemlərin nə qədər kiçik və qondarma olduğunu deyirdilər. Bir də ki, kim Leninakan sakinlərinin düşdüyü bəlanın sınağından keçmişsə o, milli mövzular ətrafında möhtəkirliklə məşğul olmayacaqdır. Onların bizi sərhəddələngidənlərin ünvanına söylədiklərini isə yaxşısı budur ki, deməyək. Bir fikir verin, həmin sutkanı boş dayanmasaydıq daha nə qədər adamı xilas etmək olardı".

1988-ci il dekabrın 9-da yola düşmüş "Azneftin" mexanikləşdirilmiş dəstəsinin taleyi isə başqa cür oldu. Sürücülər geri qayıtdılar. Nə üçün?

"Sərhəddən bizi qabaqdan ZTR, yanlardan milis və arxadan DAM müşayiət edirdi, — "qayıdanlardan" biri Bakı ermənisi Mixail Areşev "Sosialistiçeskaya industriya"nın müxbirinə belə danışırdı. Bu konvoyun nədən ötrü olduğu tezliklə aşkar oldu. Bizi ötüb keçən maşınlardan açıq hədələr, söyüş eşidilir, bizə yumruq [78 - 79] göstərilirdi. Spitakla Leninakan arasında əllərində bel sapı olan qoçular bizim maşınlara cumdular: rədd olun geriyə, Azərbaycana, bizə sizin köməyiniz lazım deyil. Səhər dəstə Leninakana çatdı. Kranları o dəqiqə götürdülər, bizə isə dedilər: gözləyin. Başqa qoçular Rafiq Kuzəhmədovun üzərinə cumdular. Dedilər: sən qarayanızsan. O cavab verdi ki, tatardır. Onlarsa onun üstünə yeridilər. Dedilər fərqi yoxdu müsəlmansan, biz səni öldürəcəyik. Qərara aldıq ki, onlarla səmimi söhbət edək. Dedik: əzizlərimiz, sevimlilərimiz biz sizə saf niyyətlə gəlmişik, kuzada balonlar, kabinədə qaynaqçılar. Görün biz necə də lazımıq, dörd tərəfdə bu cür bədbəxtçilik var. heç nə eşitmək istəmirlər. elə bil beyinləri dumanlıdır. Ağaca, daşa əl atdılar. Komendatlıqdan hərbçilər yaxınlaşdılar: uşaqlar, siz burada gərginlik yaradırsınız, yaxşısı budur çıxın gedin... Biz də qayıtdıq".

"Biz bütün bunların erməni xalqı adından edilməsi fikrindən uzağıq, — Rafiq Kuzəhmədov Areşevin dediklərini tamamladı. yox, xalq öz dərdi ilə məşğuldur. Lakin təəccüb doğuran odur ki, buna cavab vermirlər. Ağlıma sığışdıra bilmirəm ki, indi, bu dəqiqə necə möhtəkirlik etmək olar, həm də bu müsibətin içində.

Doğrudanmı onlar başa düşmürlər ki, xilas edilmiş heç olmasa daha bir erməni uşağının nəfəs alması onların səbəbsiz qəzəb və nifrətlərindən çox-çox qiymətlidir?"

Sən demə, nəinki möhtəkirlik, həm də talançılıq da etmək olarmış. Oğurluqlar, şəxsi maşınların qaçırılması, dünyanın hər yerindən "Zvartnos" aeroportuna gətirilmiş dərmanların oğurlanması, zəlzələnin dağıtdığı şəhərlərdə mağazaların talanması, meyidlərin üstündən saatların, qızıl "sırğaların, kulonların, pulların götürülüb mənimsənilməsi, — bunları yada salmaq çox ağırdır və lazım da deyil.

Ən əsası budur ki, zəlzələ faciəsi saxta millətçilik ideyasını zəiflətmədi, gözlənilən barışıq üçün ağ bayraq qaldırılmadı. "Niyə bizə öz qanınızı göndərirsiniz? — deyə "Qarabağ" komitəsinin tərəfdarları qəzəblənirdilər. Ermənilər kifayət qədər qan veriblər, özgə qanı bizə gərək deyil. Ucuz və mənasız beynəlmiləlçilik təbliğatından əl çəkmək lazımdır".

"Qarabağ" Komitəsi xarici köməyin təşkilini öz əlinə almaq qərarına gəldi. Aşot Manuçaryan Şarl de Aznavura və Kaliforniyanın qubernatoru Corc Tokmacyana müraciət edərəg vəsait toplanması və göndərilməsi üçün uyğun olaraq Avropa və Amerikada Mərkəzlərin təşkilini öz üzərlərinə götürmələrini xahiş etdi. İanələr bu kanalla gəlməyə başladı. Ermənistanda həmin kanalı "Qarabağ" liderlərindən biri Xaçik Stambultyan öz nəzarəti altına aldı. Stambultyanın şəxsi hesabına böyük valyuta köçürülmələri daxil olur, həmçinin şəxsən onun adına Fransa və ABŞ-dan yüklə dolu təyyarələr gəlirdi. Əlbəttə, bunlar səxavətli maddi yardımlar [79 - 80] idi və onların müqabilində iş görmək tələb olunurdu. 1988-ci il dekabrın 10-da hələ həlak olanların meyidləri soyumağa imkan tapmamışdı, qospitallarda və klinikalarda həkimlər yaralıları xilas edirdi, altında diri adamlar qalmış uçqunlar hələ təmizlənməmişdi, "Qarabağın" liderləri isə Yerevandakı yazıçılar evinin yanında qanunsuz (icazə verilməmiş) mitinq təşkil etdilər. Komitə rəhbərlərinin taleyini Vaşinqtondan Ermənistana gələn və həmin adamları natəmiz həyasızlar adlandıran Mixail Qorbaçov həll etdi: insan hüququ haqqında ucadan qışqırırlar, özləri isə bu hüquqları taptayır, onların fikrinə şərik olmayan hamını xalq düşmənləri elan edirlər. EÜH liderlərindən 5-i (A. Akopyan, K. Vartanyan, S. Kevorkyan, V. Manukyan və L. .Ter-Petrosyan) 30 sutkalıq inzibati tutulub saxlanma cəzasını aldılar. Tutulub saxlanılanları Butırkaya göndərdilər. Tutulma Yerevan hərbi komendantı general-polkovnik Albert Makaşovun bilavasitə rəhbərliyi altında həyata keçirildi.

Tutulanların nüfuzu ağlasığmaz dərəçcdə artdı; sən "Qarabağ" komitəsi ilə deyilsənsə, deməli vətənpərvər deyilsən. Vətənpərvər olmamaq kimi ad çıxarmağı isə heç kim istəmirdi. Respublikanın "Kommunist" qəzetinin millətçi ifadələrdən bihuş olmuş, xalqı milli faciəyə sürükləyən, azğıncasına hakimiyyətə can atan siyasi avantüristlər barədə bəyanatı artıq heç kimi, hətta Ermənistan Kommunist partiyası MK-nin birinci katibi Arutunyanı da inandırmırdı. Millətə yeganə canıyanan adamların azad edilməsi barədə ultimatum məhz ona ünvanlanmışdı:

"Qarabağ" komitəsinin liderlərini və bu günlərdə həbs olunmuş bütün siyasi dustaqların dərhal azad olunmasını tələb edirik. Götür-qoy etmək üçün 24 saat vaxt veririk. Əks halda kütləvi terrora keçirik. Vaxtı və fəaliyyət yerini göstərmirik. Dostla-rımızın bizə çatdırdığı "Stinger" silahlarımız var. "Andranik" terrorçular dəstəsi".

"Ultimatuma" yazılmış müfəssəl şərhin içində təxminən əlliyə yaxın ölümsaçan mərminin şəkli verilmişdi; görünür onlar Xaçik Stambultyanın təşkil etdiyi kanalla çatdırılmışdı. Bu, "stingerlərin" olması haqqında ilk işarə idi.

Sonralar Paris qəzetlərindən biri öz xüsusi müxbiri Klod-Mari Vardonun hazırladığı materialda yazırdı:

"Son günlər Livandan Yerevana ağır silahlar, minomyotlar və avtomatlar yüklənmiş təyyarələr gəlməkdə davam edir. Onlar gecələr erməni gömrükxana işçilərinin mühafizəsi altında boşaldılır. Artıq bir neçə gündür ki, aeroportun gömrükxanasında bir nəfər də rus qulluq etmir. Dağlıq Qarabağda vətəndaş müharibəsinin qızışdığı bir vaxtda, Yerevanda və kəndlərdə, paytaxtla Azərbaycan sərhədi arasındakı ərazidə daha çox silahlı adam rast gəlir. Bu bandaların başında çox vaxt Beyrutdan və Dəməşqdən gələn erməniləri görmək olur. "Qarabağ" komitəsi [80 - 81] Azərbaycana basqınların təşkilini öz əlində saxlayır. Ölkənin şərqinə tez çatmaq üçün yalnız o vertolyot verə bilər!"

Bu hadisələrin bir qədər zəif əks-sədası sovet mətbuatında da eşidilirdi. 1989-cu ilin martında "Komsomolskaya Pravda" SSRİ Prokurorluğunun Baş istintaq idarəsi rəisinin birinci müavini V. İ. İlyuxinin bəyanatını dərc etdi: "Ermənistanın yollarında bu gün də silahlı qruplara rast gəlinir. Onları tərksilah etmək lazımdır. Silahlara gəldikdə isə, orada gizli şəkildə böyük miqdarda silah saxlanılır".

Mixail Qorbaçov yalnız 1990-çı ilin iyulunda qanunsuz hərbi birləşmələrin ləğvi və tərksilah edilməsi barədə fərman imzalamağı lazım bildi və elə oradaca Ermənistanın yeni prezidenti Levon Ter-Petrosyanın xahişilə o vaxtkı SSRİ daxili işlər naziri Vadim Bakatin epməni bandit birləşmələri üçün bu fərmanı faktiki olaraq ləğv etdi. Azərbaycanlılar isə öz hakimiyyət orqanlarının əmri ilə itaətkarcasına sonuncu ov tüfənglərini də təhvil verirdilər.

Zəlzələ ərəfəsində mərkəzi televiziyanın əməkdaşları Bakı — Yerevan tele-körpüsü hazırlamağa başladılar. Fəlakət bu cəhdi dayandırdı. 1988-ci il dekabrın 20-də "İzvestiya" Ermənistandan və Azərbaycandan qayıtmış və təəssüratları və gördüklərini necə qiymətləndirdikləri barədə fikir mübadiləsi etmək qərarına gəlmiş jurnalistlərin söhbətlərini dərc etdi. Xatırladım ki, 1988-ci il dekabrın ilk günlərində hər iki respublikanın paytaxtını çoxminlik mitinqlər lərzəyə gətirirdi. Dekabrın 5-nə keçən gecə Bakıda xüsusi təyinatlı hissələr yarım saat ərzində Lenin meydanını təmizlədilər; bu, beş ay sonra 1989-cu il aprelin 9-da Tbilisidə baş verəcək hadisələrdən qabaq edilən məşq idi. Beləliklə, sözü "İzvestiya"nın jurnalistlərinə verək:

R. Lınev: Bir az əvvəl bizə belə gəldi ki, mitinqin öz-özünə "nəfəsi kəsilir". Mitinq eləyənlər cəmisi min beş yüzə yaxın qalmışdı, hərbçilər onları yarım saata dağıtdılar.

A. Stepovoy: Ən başlıcası indi başladı.Kimsə şayiə buraxdı ki, guya meydana tanklar salınıb, qan tökülüb. Və dərhal küçələr əllərində matəm bayrağı olan kütlələrlə doldu, onlar MK binasını, DİN-i mühasirəyə aldılar, müəssisələrə girərək işi dayandırmağa çalışdılar. Küçələrdə bir necə maşın yandırıldı, tələfat oldu... Bir sözlə, Bakıdakı şərait müəyyən müddətə nəzarətdən çıxdı. Və elə o cür də gözlənilmədən səhəri gün öz qaydasına düşdü.

A. Prosenko: Bakıda mitinqin dayandırılması Yerevanda sakitliyi artırdı. Həmin vaxtda artıq bir çox müəssisələr işləyirdi və hətta, ali məktəblərdə məşğələlər başlamışdı.

A. Stepovoy: Niyə "hətta"?

A. Prosenko: Ona görə ki, tələbələr ən inadcıl tətilçilər idilər. [81 - 82]

A. Stepovoy: Aydındır. Bakıda da gənclər, tələbələr hərəkatın ən fəal hissəsini təşkil edirdilər.

M. Kruşinski: hər halda, mənə belə gəlir ki, Bakı və Yerevanı belə bir-birinə qarşı qoymaq ədalətsizlikdir. Çünki, Ermənistanın rayonlarında da vaxt-vaxt şərait nəzarətdən çıxırdı. Silahlı dəstələr düzəldilir, atəş səsləri gəlirdi. Ermənistandan çıxıb getmək istəyənlərin arasında itki çoxalırdı. (Şübhələnirəm ki, burada senzura düzəlişi var: jurnalist noyabrın sonunda Ermənistandan deportasiya olunan azərbaycanlılar arasındakı itkidən söhbət edir — *Y.P.)*

R. Lınev : Bəs bunları sizin Ermənistandakı həmsöhbətləriniz necə izah edirdi? Axı Sumqayıtdan sonra ermənilərin çoxu özünü zərərçəkən tərəf sayır və iddia edir ki, zorakılıq, üstəlik qəddarlıq onlar üçün qəbuledilməzdir.

M. Kruşinski: İzah edirdilər ki, bu Sumqayıtın "cavabıdır". İnsanlara güllə atmağı, əlbəttə, təqdir etmirdilər, hər halda ziyalı adamlar belə idi. Amma belə deyirdilər: mərkəzi hökumət bizi qorumaqda kücsüzdürsə, biz nə etməliyik?

(İndi məlumdur ki, azərbaycanlıların Ermənistandan qovulması nə qədər vəhşiliklə baş vermişdir: cəmisi 216 adam, o çümlədən 57 qadın, 5 körpə və müxtəlif yaşlı 18 uşaq öldürülmüş, min beş yüz illik tarixi olan 172 azərbaycan kəndi, DQMV-dən iki dəfə böyük 8 min kvadrat kilometr ərazi ermənilərin əlinə keçmişdir — *Y.P.).*

R. Lınev: Çox oxşar vəziyyətdir: azərbaycanlıları da eyni şey narahat edirdi. Faciə də burasındadır! Tərəflərdən hər biri kimin birinci başladığını axtarır. Amma bu gün tapmaq lazımdır ki, kim birinci qurtaraçaq.

A. Prosenko: həm də qovmaqda "o biri tərəfdəkiləri" günahlandırırlar, evlərində isə qovulanlara güllə atırdılar.

R. Lınev: Kim başlayıb, kim qurtaracaq? Biz ziyalılar barədə təsadüfən danışmadıq. Konfliktin "nəzəri təminatı" ilk növbədə məhz alimlərin — tarixçilərin, yazıçıların üzərinə düşür. O nədən ibarətdir? Dağlıq Qarabağa tarixən müstəsna hüququn olduğunu əsaslandırmaq çəhdindən. Lakin bu mübahisə perspektivsizdir. Hər iki xalq lap qədimdən bu torpaqda yan-yana yaşayır. Dostluq etmişlər, dalaşmışlar, bir-birinin mədəniyyətindən və təcrübəsindən çox şey götürmüşlər.

A. Prosenko: Axı bir an elə körünürdü ki, erməni-azərbaycan münasibətləri problemi keçmişdə qalmışdır. "Sizdə" neçə olduğunu bilmirəm, "bizdə" zəlzələdən sonrakı iki sutkadan çox müddət ərzində o barədə heç işarə də edilmirdi.

R. Lınev: Bizə də elə görünürdü. Bakıda çoxları ürəkdən sarsılmışdı. Fəlakətə düşənlərə canları yanırdı. Amma, təəssüf ki, bədxahlıq edənlər də var idi...

M. Kruşinski: Təəssüf ki, üçüncü sutkada vəziyyət [82 - 83] dəyişdi. Yerevanda daha tez-tez eşidilirdi ki, azərbaycanlıların köməyini qəbul etməyəcəyik. hətta, bu şüar altında keçirilən mitinqlər də olurdu. Müxtəlif növ siyasətbazlar, açıq-aşkar kütlələr içərisində öz təsirlərini itirməkdən ehtiyat edərək, yaxın keçmişin faciəli hadisələri ətrafında möhtəkirlik etməklə obstruksionist kampaniya başladılar.

A. Prosenko: Aydındır ki, Azərbaycandan olan kömək səmimi idi. Təəssüf ki, bu kömək haqqında məlumatların təbliğatçılar tərəfindən boğulması əks nəticələrə gətirib çıxardı. Ermənistanda çoxları buna yersiz hərəkət kimi baxırdı.

A. Stepovoy: hansı yersiz hərəkətdən söhbət gedir? Axı, iki respublikanın sərhədində sözlər, şüarlar deyil, konkret kömək — tibbi ləvazimat, texnika tutulub saxlanılırdı...

M. Kruşinski: Təəssüf ki, elədir. Mitinqləri və kordonları təşkil edənlərin əli Leninakanda, Spitakda, Kirovakanda xilas edilə bilməyənlərin qanına batıbdır.

Bu, mərkəzi mətbuatda son yazı idi ki, obyektivliyə və iki xalq arasında başlanmış ayrılığın səbəblərini başa düşməyə çalışırdı. Sonra qəzetlər başlanmış mübahisənin məğzini başa düşməkdən çox-çox uzaq olan, məlumatı olmayan elm və mədəniyyət xadimlərinin müxtəlif məqalə və müraciətləri ilə doldu. Müəlliflər əsasən Azərbaycan xalqına öyüd-nəsihət verməyə çalışırdılar, — guya ənənəvi olaraq gözəl, genişqəlbli, səxavətli və s. olan Azərbaycan xalqı niyəsə indi belə... belə... olub, inad eləyir və bir qarış torpağı öz qonşularına — taleyin bədbəxt etdiyi ermənilərə güzəştə getmək istəmir.

Hər şey görün necə sadədir: güzəştə get, konfliktə son qoyulacaq, SSRİ-də sülh və əmin-amanlıq olacaq!

Bu mövqeyi xalq şairi B. Vahabzadə kədərlə belə xarakterizə etdi: "41-ci ildə biz torpağımızı versəydik, Böyük Vətən müharibəsinin dəhşətləri olmazdı və biz təxminən 30 milyon adamın həyatını qoruyub saxlaya bilərdik! Cəfəng və qəribə məntiqdir!"

Mətbuatda gözlənilən "tərəflərin günahları balansı" (Sov. İKP MK-da qəzet redaktorlarını istiqamətləndirirdilər: DQMV barədə yazılar — a) DQMV əhalisində, b) Azərbaycan əhalisində, v) Ermənistan əhalisində, q) Azərbaycanda yaşayan ermənilərdə mənfi hisslər yaratmamalıdır) millətçilərin təsiri ilə get-gedə Azərbaycanın günahı ilə, "inadkar" azərbaycanlıların "qədim və əzabkeş" Ermənistan xalqına qarşı qoyulması ilə əvəz olunurdu. Bu cür təbliğatın gizlədilmiş "məhvetmə instinkini" qızışdırdığı, ona insanı ələ salmaqda çox böyük ətalət qüvvəsi verdiyi barədə isə müəlliflər düşünmürdülər. Bu mənada ölümündən əvvəl Artur Mkrtçyanın etirafı tamamilə səmimi idi. Millətçiliyin, riyakarlığın və saxtakarlığın üstündən sükutla keçilməsi, nə ayrı-ayrı adamlar, nə də bütövlükdə xalq üçün başqa nəticə [83 - 84] verməmişdir. Harada erməni varsa, ora Ermənistandır doktrinası ikitərəflidir...

Respublikada 1991-ci ilin mayında olmuş İsrail jurnalisti R. David yazırdı: "Bu günkü Ermənistanda millətçilik və kapitalizm qəti qələbə çalmışdır. Bu, nəhənk Riqa bazarına, köhnə əşyalar satılan meydana çevrilmiş yeganə respublikadır... Elə təsəvvür yaranır ki, bütün enerji ticarətə və millətçiliyə sərf edilib, istehsal üçün daha küc qalmayıb... İndi geriyə nəzər salaraq açıq demək olar ki, erməni millətçiləri kiminsə iradəsini yerinə yetirmək və Qarabağda düşmənçilik odunu alovlandırmaqla elə özləri də zərər çəkdilər".

Yeri gəlmişkən, qeyd etdiyimiz təbliğat bir nəticə də (ümid edirəm ki, aralıq nəticədir və düzələ biləndir) əldə etmişdir: "Azərbaycanda Qarabağ konfliktinə qədərki dövrlərdən yadda qalan o gözəl Bakı qardaşlığı aradan çıxır. Amma, bəlkə də müxtəlif xalqların bu qardaşlığı da, slavyanlarla türk səhrasının assimilyasiya və bir-birinin içində həll olmağa deyil, qarşılıqlı hörmətə əsaslanan qədim ittifaqı da qayıdacaqdır.

Rusiya hakimiyyət orqanlarının ikiüzlü davranışına baxmayaraq bu ittifaqı hələ qoruyub saxlamaq mümkündür, bu gün 1992-ci il aprelin sonunda Qarabağ müharibəsinin yeni mərhələsi məhz bu ittifaqın əleyhinə yönəlsə də.

**Əbdürrəhman Vəzirok və Keorki Rojnov —**
**1989 - cu il**

Etnoslar və etnik davranış stereotipləri barədə xeyli orijinal konsepsiyanın yaradıcısı Lev Nikolayeviç Qumilev özünün "Drevnyaya Rus i Velikaya Step" kitabında inandırıcı şəkildə sübut edir ki, qədim ruslar (rusiçlər) və köçəri qıpçaqlar arasındakı konfliktlər təsadüfi idilər; məsələn, Çerniqov və Kiyev arasındakı konfliktlər daha ciddi idi. Başqa sözlə, alim qədim Rus ilə Böyük Səhraya bir sistem—slavyan-türk sistemi kimi baxırdı.

Lev Nikolayeviç Qumilev Azərbaycanın gənc alimlərinə öz arzularından birini belə bildirmişdi: " Öz xalqınızı tərifləməyə çalışmayın, o, onsuz da böyükdur, bir şey ki, gözəldir, onun tərifə ehtiyacı yoxdur".

Və davranış stereotiplərini. öyrənəndə də istifadə etdiyi özünün zəngin "qulaq" keçmişindən bir epizod danışmışdı. Bu tarixcə belə idi:

"Bizim düşərgədə olan Rzaqulu adlı bir azərbaycanlı ilə bağlı belə bir hadisə olmuşdu. O indi Bakıda yaşayır. Kimyaçı, sakit, təvazökar bir adam idi. O özü üçün yeməyə sala kəsirdi, bir nəfər isə onun başı üstə dayanıb qışqırır, zibili dəstərxanın üzərinə tökürdü. Rzaqulu dedi: "aralaş", o bütün əli ilə Rzaqulunun üzünə vurmaq istədi, Rzaqulu sonra mənə danışırdı: "o məni vursaydı mən ya vurmalı, ya da ölməli idim". Buna görə də Rzaqulu onun əlinin içini bıçaqladı. O, dərhal harasa qaçdı. Rzaqulu deyir: "oturmuşam və fikirləşirəm: mən öləcəyəm, ya yox". Ö, geri qayıtdı, əli sarınmışdı, əlini uzadır və deyir: "Sənə afərin..."

Azərbaycanlını polyakdan, almandan, qərb slavyanından nə fərqləndirir? Axı onlar mənliyi qoruyub saxlamaq xatirinə həyatları ilə risk etməzdilər.Bu isə heç fikirləşmədi də, o başqa davranış stereotipinə malikdir. Və bundan sonra mən stereotipləri öyrənməyə başladım".

Rus alimi öz müşahidəsində haqlıdır. Bu başqa məsələdir ki, Azərbaycan xalqı da, istisnasız olaraq bütün biz sovet xalqı kimi, mücərrədliyə çevrilmişdir, o cür də qalır. Pyotr Yakovleviç Çaadayevin dediyi kimi, bizi həmişə o qədər yalançı aqillər idarə edib və edirlər ki, hətta onların dediyi həqiqət də dönüb yalan olur.

Belə görünür ki, bizdə və Qərbdəki erməni millətçilik hərəkatının təşəbbüskarları əmin idilər ki, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi elə bir çətinliklə qarşılaşmayacaqdır. hər şey hesaba alınmışdı, yalnız bir faktordan — Azərbaycan xalqının iradəsindən savayı. Onu partiya "şirvanşahları" iflic edə bilməmişdi.

Qarabağ konflikti başlananda demək olar ki, hökumətin bütün üzvləri və MK-nın bütün məsul işçilərinin çoxu biri-birinə qohum idi.

Açıq danışdığı məqamlardan birində Azərbaycan yazıçılar İttifaqının katibi Çinkiz Abdullayev deyirdi ki, bu cür əlbirlik içərisindən keçmək asan deyildi. Ən yaxşı halda bu, əlverişli evlənmək hesabına mümkün olurdu. Vaxtilə xanlıqlara parçalanmış Azərbaycan şəraitində dəhşətli "haralısan" sualı milləti parçalayır, adamları bakılılara və naxçıvanlılara, qarabağlılara və lənkəranlılara ayırırdı.

Çinkiz Abdullayev yazırdı: "Yapışqanlı-pis "rüşvət" sözünü biz "hörmət"lə əvəz edərək bir-birimizə hörmət etməyə başladıq, başa düşmədik ki, içindən çıxa bilməyəcəyimiz qapalı dairə yaratmışıq".

"Hörmət" uşaq bağçaları və körpələr evinin işçilərindən başlayır, milislər, hakimlər, prokurorluq, partiya hakimiyyət orqanları ilə rastlaşdıqda isə astronomik rəqəmlərə çatırdı. Pul hər şeyi həll edirdi. "Gəlin eyblərimizi gizlətməyək" — 1989-cu ilin əvvəlində Çingiz Abdullayev buna çağırırdı.

Əvəzində Moskvada kütləvi informasiya vasitələri var gücü [85 - 86] ilə aranı qızışdırır, millətlərarası ədavətin sərt rentgen şüalanmalarını Azərbaycana yaymağa çalışırdı. haqqında verilən xəbərin iki xalq arasında yığılıb qalmış bütün xırda və kinli nə varsa hamısını arxa plana keçirdiyi Ermənistandakı zəlzələ günlərinə qayıdım.

Bakıda könüllülər donor məntəqəsi qarşısında qan vermək üçün növbəyə dayanan vaxt "Vremya" proqramının şərhçisi elan edirdi ki, Azərbaycan paytaxtında Ermənistandakı zəlzələ münasibətilə atəşfəşanlıq olmuş, indi xalq gəzintisi gedir. Və bu, Moskvanın tətbiq etdiyi hərbi vəziyyət və komendant saatı nəticəsində gecələr qaranlığa qərq olan, hər iki məhəllədən bir tank və zirehli transportyor dayanan, təsadüfən buraxılış vəsiqəsi olmadan küçədə qalmış adamları səhərəcən milisdə saxlanılan şəhər haqqında deyilirdi.

1988-ci ilin dekabrında edilən bu çıxışın Ermənistanda və Azərbaycanda hansı nəticələr verdiyini təsəvvür etmək olar... Bir məqsəd küdülürdü və indi də güdülür: qanun yolu ilə mübahisələri həll etmək üçün olan istənilən təklifi rədd etmək, onsuz da gərgin vəziyyəti bir az da gərginləşdirmək. Bədbəxtçilikdir, sadəcə olaraq bədbəxtçilik!

Əslən Qarabağdan olan yazıçı Maqsud İbrahimbəyov məqalələrinin birində yazırdı: "Bir az əvvəl qərara aldılar ki, Dağlıq Qarabağın azərbaycanca adını dəyişsinlər. — guya onun azərbaycanca adı erməni xalqının estetik hisslərini təhqir edir. Xalqın burada nə işi var? Ermənilərin düz yarı hissəsi ya azərbaycanlı, ya da türk familiyalıdır: Allahverdiyan, Ağasyan, Aqanbekyan, Ağababyan, Babayan, Balayan, Verdiyan, Kaputikyan, Dəmirçiyan, Xanzadyan, Əlixanyan və onlarca başqası. Amma heç nə olmur, elə bil ki, xalq qəzəblənmir, heç kim nə familiyasını, nə də adını dəyişmir. Öz əziz adamlarına müraciət edərkən çoxları azərbaycan sözü "can" işlədir. Hələ ki, ləğv etməyiblər. Qafqazın dahi nəğməkarı Azərbaycan, erməni və gürcü dillərində yazıb-yaratmış erməni Sayat-Nova özünün ölməz 105 qəzəlindən 75-ini azərbaycan dilində yazmışdır. Onu da ləğv etməyiblər. Oxuyurlar. Bəs onda Dağlıq Qarabağın adını dəyişmək nədən ötrü lazım olub? Qəzəb doğurmaq, ədavəti gücləndirmək üçün, adam öldürmək, zorakılıq, evlərin yandırılması ara verməsin deyə. həmişə

qızışdırmaq, təhrik etmək lazımdır, yoxsa birdən tətillər dayana bilər, nə bilmək olar, bəlkə bir-birinə salam verməyə də başladılar.

Eyni əhval-ruhiyyə 1989-cu ilin yazında Moskvada işə başlamış SSRİ xalq deputatlarının birinci qurultayında da qızışdırılırdı. Sanki Qarabağdakı mübahisə meydanı Moskva Kremlinə köçürülmüşdü. Q. Starovoytova başda olmaqla Ermənistandan olan xalq deputatları bütün ölkənin və bütün dünyanın gözü qarşısında DQMV-ni Ermənistana verdirməyə çalışır, nalayiq ifadələrdən çəkinməyərək Qorbaçov və Lukyanovun imkan verməsi şəraitində azərbaycan xalqını pisləyirdilər. [86 - 87]

Azərbaycandan olan deputat körpusu öz dayazlığı (kütlüyü) ilə təəççüb doğururdu. Bununla əlaqədar Leninqradda yaşayan azərbaycanlı qadının məktubunu sitat gətirmək istəyirəm, həm də onu deyim ki, bu məktub heç Azərbaycan mətbuatına da yol tapa bilməmişdir.

Müəllif öz sualını "qara yanvardan" sonra vəzifəyə təyin olunması skeptikliklə qarşılansa da xalqın səsinə qulaq asacağı və respublikanın əsas maraqlarını müdafiə edəcəyi ümid edilən yeni lider Ayaz Mütəllibova ünvanlayardı:

"Necə oldu ki, Azərbaycandan SSRİ xalq deputatları qurultayına bu cür deputat körpusu seçildi? Məgər aydın deyildimi ki, ölkədə qəti dəyişikliklər gedir, deputat seçkilərində bu və ya başqa sosial təbəqənin faizlə normasını gözləmək və birinci katibin göstərişinə uyğun səs verən və əlini qaldıran adi itaətkarları deyil, savadlı, müstəqil düşünən, müxtəlif sahələrdən başı çıxan, respublika üçün yanan, öz xalqını ləyaqətlə təmsil edən, respublikanın mənafeyini həqiqətən müdafiə edə bilən adamları seçmək lazımdır? Axı, bu cür adamlar Azərbaycan əhalisinin bütün sosial təbəqələrində var.

Bəs niyə dairə komissiyaları məhz qurultayda müxtəlif sahələrdə özünü müstəqil göstərə biləcək adamları "kənarlaşdırdılar".

Bizim nümayəndə heyətinə, növbəti çıxışlara, Vəzirovun ardınca yekdilliklə qalxan əllərə baxanda adam xəcalət çəkirdi... Bəzən adama elə gəlirdi ki, ümumiyyətlə, Azərbaycan deputatları qurultayda yoxdur.

Və əlbəttə, Azərbaycan xalqının məhdudluğu, kütlüyü və s. barədə şayiə yayanlar bundan istifadə edirdilər. Mənə zənk vurur və deyirdilər: "Sən hələ iddia edirsən ki, sizdə qabiliyyətli və çəsarətli adamlar var. Bəs hanı onlar? Bütün sizin nümayəndə heyəti "qanuna tabe çoxluğa daxildir və sədr nə cür desə o cür də səs verir". Bunları eşitmək adama toxunur və ağrıdır, çünki bilirdim ki, həqiqətən də respublikada layiqli adamlar, baçarıqlı mütəxəssislər var. Vəzirov və onun aparatı, yenə də daha çox öz hakimiyyətləri, Baş katibin gözlərində özlərinin necə görünəcəkləri barədə düşünmüşdü".

Nə demək olar, iyirmi beş il əvvəl Bakıdan getmiş Leninqradlı qadının gəldiyi nəticə düzgün idi: özünə hörmətsizlik, başqalarının sənə etinasız olmasına gətirib çıxarır.

Bakıdakı Volodarski adına fabrikin tikişçisi xalq deputatı L. Baruşeva dərc olunmuş çıxışında (o tribunadan söz ala bilmədi) e'lan edirdi:

"Xoşbəxtlikdən millətçilik basili respublikanın milli mühitinə daxil ola bilmədi.

Ermənilər yalnız Ermənistanda, azərbaycanlılar yalnız Azərbaycanda, [87 - 88] ruslar yalnız Rusiyada və i.a. yaşaya bilər idsyasında nə isə bir antihumanistlik var. Bu ideyaların bizim xalqların həqiqi mənafelərilə heç bir əlaqəsi yoxdur. Mən bütün ömrümü Bakıda yaşamışam və heç yerdə özümü yad hiss stməmişəm; nə işlədiyim kollektivdə, nə də yaşadığım evdə. Mənə Bakıda yaşayan onlarla millətdən olan seçicilər səs vermişlər".

L. Baruşevanın çıxışı "Ümumi evimizi birgə tikək" adlanırdı və proletar Bakının beynəlmiləlçilik ənənəsini ifadə edirdi. Buna oxşar məzmunlu məqalələrlə 1989-cu ildə Azərbaycanın bütün respublika qəzetləri dolu idi. Tipik başlıqlardan yalnız bir neçəsi: "Problemlər birgə həll edilir", "Biz bir yerdə yaşamalıyıq", "Yol birdir — milli barışıq", "Millətlərarası sülh naminə". Ağlasığmaz çətinliklə Vəzirov aparatının ideoloji senzurasından keçərək müəlliflərin "Hüquqi dövlət qanuna hörmətdən başlayır", "Ambisiyaların yox, həqiqətin arxasınca getmək lazımdır" və tam realist "Mal-qaranı oğurlayırlar" başlıqlı çıxışları qəzet səhifələrinə çıxırdı.

1989-cu il Azərbaycan və Ermənistan hökumətlərinin "Daimi yaşayış yerlərini tərk etmiş vətəndaşlara müraciəti" ilə başladı:

"Biz hamımız M. S. Qorbaçovun çaqırışına qulaq asmalıyıq, hər şeyi etməliyik ki, kim daimi yaşayış yerlərini məcburi tərk edibsə, tezliklə öz doğma ocaqlarına qayıtsınlar".

Bu riyakar çağırışadək ("Siz öz torpaqlarınızda işləmək üçün darıxmısınız, sizin gözləriniz doğma dağlar və düzlər üçün darıxıb, bağlar sizin əllərinizin hərarətini gözləyir") Ermənistan praktiki olaraq bütün iki yüz min nəfərlik azərbaycanlı əhalini qovmuşdu. Qaçqınlar Bakıda dəstə-dəstə yığışır, MK binasının qarşısındakı meydana çıxırdılar, ağlaşan uşaqları ilə birlikdə onları Vəzirov özü dilə tuturdu, cəld tapılıb gətirilmiş avtobuslara doldurur, haradan qovulublarsa oraya yola salırdılar. Orada isə hadisələrin gedişi göstərdi ki, antiazərbaycan isteriyası heç bir gün də ara verməmişdi. Və başa düşmək lazımdır ki, bu dövrdə meydana niyə "Səbr etdik bəsdir" şuarı gətirildi.

Azərbaycan hökuməti qaçqınların öz iqliminə görə qoyub gəldikləri vətənlərinə, yəni Leninakana, Kirovakana, Spitaka, Qursalıya, Sarala yaxın olan coğrafi mühitə keçmək arzularını rədd etdi. Arqument isə bir

idi: biz dağ adamlarıyıq və demirik ki, bizi Los-Anjelesə və hətta Dilicana, yaxud Moskvaya keçürün, deyirik ki, Suveren Azərbaycan SSR ərazisində Dağlıq Qarabağa göçürün. Elə həmin müddətdə Abşerondan Dağlıq Qarabağa 20 min erməni keödü: "dağlıq iqlim şəraitinə uyqunlaşmaq üçün".

Qaçqınların biri, qadın hərəkatı fəalı Sənubər Abdullayeva [88 - 89] bir suala çavab axtarırdı: niyə biz ümid əvəzinə məyusluq hiss sdirik. Və Bakının hakimiyyət orqanlarını cinayətkarcasına arxayınçılıqda, qaçqınların taleyi üçün məsuliyyəti öz üzərinə götürməməkdə ittiham edirdi. O, qovulmuşlara izah etməyə çalışırdı ki, "faktiki olaraq, bizim torpaqlarda hakimiyyət Moskvaya məxsusdur və onu riyakarlıqla mənim həmvətənlərimə ordunun erməni əhalisini qorumaq üçün Qarabağda olduğunu deyən, həmçinin mənim azərbaycanlılarıma gərginliyi gücləndirməmək və erməniləri əsəbləşdirməmək üçün öz kəndlərindən guya müvəqqəti köçməyi təklif edən simasız bir adam təmsil edir".

Sənubər Abdullayevanın bu sözləri Azərbaycanın o zamankı lideri Əbdürrəhman Vəzirovu düzgün əks edirdi. İki xalqa "öz ocaqlarına sülhlə və təmiz ürəklə qayıtmaq" müraciətini Moskva diktə etmişdi ki, Bakı erməniləri üçün ideal şərait yaratsın. Onların bəziləri öz evlərini və mənzillərini baha qiymətə satır və müavinət aldıqdan sonra Rusiyanın yaxşı şəhərlərində maksimum əlverişli şəraitin harada olduqunu öyrənirdi. Bakı şəhəri xüsusi rayonunun komendantı general-leytenant M. Kolesnikovun məlumatına görə, 1989-cu il martın sonuna erməni millətindən olan 190 min əhalidən 23 min nəfəri köçüb getmişdi. Onlardan yeddi mini Ermənistana, qalanları RSFSR-ə. Ermənilərin Los-Anjelesə köçmələri barədə gensral-leytenantın məlumatı yox idi.

Vəzirovun və respublikanın başqa rəhbərlərinin gücsüzlüyü və öz xalqına etinasız münasibəti artıq 1989-cu ilin lap əvvəlində sosial-siyasi partlayışa aparırdı. Bunu istənilən qərəzsiz müşahidəçi proqnozlaşdıra bilərdi. Kompüterizasiya, kəndlərdə hamam tikmək, qoz ağacları əkmək, vəhşiliklə qovulmuş azərbaycanlıları öz yerlərinə qaytarmaq sahəsində qaynar fəaliyyət göstərmək kimi hoqqabazlıq və təlxəklik edən Əbdürrəhman Vəzirov hadisələrin sonrakı gedişini bir çox çəhətdən müəyyən edən ən zəruri üç suala çavab verə bilmədi.

Necə oldu ki, hələ Sumqayıt hadisələrindən əvvəl Ermənistandan bir neçə min azərbaycanlının deportasiyası gizlədildi və ölkədə bu barədə geniş məlumat yayılmadı!

Necə oldu ki, respublika rəhbərliyi Sumqayıt hadisələrinin bütün iştirakçılarının işinə açıq məhkəmə prosesində baxılmasını təkid etmədi ki, kimin kim olduğu bilinəydi.

Respublikanın artıq yenidənqurma dövründəki hakimiyyət orqanlarının təkcə bu iki suala cavab verməsi Ermənistan xalq deputatı İgityanın siyasi akrobatizminə mane olardı. hansı ki, qurultayda sakit, dinc ermənilərin yenidənqurmanın bəhrəsindən dadmağa tələsərək, "Lenin, partiya, Qorbaçov" şüarı ilə küçəyə çıxdıqlarını və elə bu zaman Sumqayıtın özünü çatdırdığını iddia etməklə ölkəni və bütün dünyanı sarsıtdı. Biz Azərbaycanın mütərəqqi hissəsinin, onun ziyalılarının bu zorakılıq aktını pislədiyini hiss etmədik, — deyə İgityan təzyiq göstərirdi. [89 - 90] "Hərgah bunu ermənilər etsəydilər mən durub bütün sovet xalqı qarşısında, bütün dünya qarşısında üzr istəyərdim".

Əlbəttə, gələcək siyasi karyera üçün risklə (çünki, Sov. İKP MK və Baş katibin ermənilərdən olan köməkçiləri güclü və ağılları başlarında idilər), lakin xalqın ləyaqətini qoruyub saxlamaq xatirinə dediyimiz iki suala verilməli cavablar deputat İkityanı məcbur edərdi ki, dursun və heç olmasa Azərbaycan və erməni xalqlarından üzr istəsin. Vəzirov və silahdaşları Kremldəki qurultayda tez-tez genosiddə ittiham olunmalarını dinləyir, heç olmasa 1988-c ilin iyulunda M. S. Qorbaçovun bu məsələ ilə bağlı səslənən cavabındansa istifadə etmirdilər: "Genosid—kortəbii deyil, müəyyən mütəşəkkil irqçilik siyasətidir... Genosid hər hansı xalqa və ya milli azlığa münasibətdə aparılan düşünülmüş məhvetmə siyasətidir. Niyə siz banditlərin hərəkətini bütün Azərbaycan xalqının adına çıxırsınız? hansı genosid haqqında danışmaq olar?"

Həm də Qorbaçov özü də bu ədalətli sözləri unutmuşdu, "Qarabağ problemi" haqqında yanlış təsəvvür isə ictimai şüurda zəfər çalmaqda davam edirdi. İctimai şüura azərbaycanlının yeni stereotipi yeridilirdi: faşist, düşmən, panislamist, millətçi-karyerist, ən əsası isə demokratik dəyişikliklərin əlehdarı.

Bax elə buradaca Vəzirov qarşısında üçüncü sualı qoymağın vaxtı çatır.

Necə oldu ki, 1988-ci il dekabrın 5-də gecə Bakının Lenin meydanından silahsız adamların dəyənəklərlə döyülərək qovulması xeyli yaralının xəstəxanalara düşməsinə baxmayaraq gizlədildi və ört-basdır edildi?

Üstəlik Vəzirov o zaman öz xalqına qarşı repressiv üsullar tətbiq etdi: xoşuna gəlməyən çoxlu miqdarda rəhbər işçilərə və qulluqçulara töhmət və başqa inzibati cəzalar verərək adamları işdən qovdu. Respublika kütləvi informasiya vasitələri məlumat verirdi ki, hakimiyyət orqanları meydanı doldurmuş narkomanları, xuliqanları, yüngül əxlaqlı qadınları və ekstremistləri təqib edirdi.

Yox, bu onillərlə mənəviyyatı zora məruz qalmış və uzun müddət ətrafda baş verən şər işlərlə razılaşan xalqın vətəndaş oyanışı idi. Dünyanın hər tərəfindən Sumqayıt, həlak olmuş ermənilər, qatil azərbaycanlılar barədə qışqırdıqları halda, səbr kasası dolmuş xalq başqa nə cür diqqəti özünə cəlb edə bilərdi?! Bu, Qumilevin insanlıq ləyaqətini saxlamaq xatirinə həyatını təhlükə altında qoymuş tanışı Rzaqulunun özünü müdafiə reaksiyası idi.

Azərbaycan Xalq Cəbhəsinin ilk bülleteni yalnız 1989-cu ilin mayında çıxdı. AXC təşəbbüskarları xalqa müraciətlərində xeyli ehtiyatla (Pribaltika və elə həmin Ermənistanda olan oxşar [90 - 91] hərəkatlardan

fərqli olaraq) respublikadakı "inzibati amirlik sosializm sistemini" tənqid edir, onu sanki "inqilabi yenidənqurma ideyaları" sistemindən, "qəbul edilmiş radikal proqram, plan və qanunlardan" ayırırdılar. Müraciətdə üç dəfə "suverenlik" sözü işlədilsə də, açıqgözlü adamlara aydın oldu ki, ziyalıların barışdırıcılıqı və qətiyyətsizliyi hələ milli müstəqillik haqqında fikirləşməyən yeni hərəkatın monolit fəaliyyət göstərəcəyindən xəbər vermirdi.

Büllütendə haqlı olaraq qeyd edilirdi ki, "Dağlıq Qarabağdakı hadisələr bürokratiyanın milli mənafeələri müdafiə etmək qabiliyyəti olmadığını və gücsüzlüyünü açıq nümayiş etdirdi. 200 min azərbaycanlı öz doğma ocaqlarından qovulmuş, Dağlıq Qarabağ isə faktiki olaraq Respublikanın tabeliyindən çıxarılmışdır. Növbə — yeni Azərbaycan torpaqlarınındır. Öz hakimiyyətlərinin vaxtını uzatmaq üçün bürokratiya konfliktin əsl səbəblərini və miqyasını xalqdan hər cür kizlədir, Ermənistan SSR hökumətinin təcavüzünə qarşı rəsmi e'tiraz etməyə cürət etmir". AXC-nin elə həmin sənədində ilk dəfə elan edilirdi ki, DQMV problemi Azərbaycanın daxili işidir. "Erməni millətçilərinin Dağlıq Qarabağ məsələsini" mərkəzi hakimiyyətin köməyi ilə öz xeyirlərinə həll etmək cəhdləri nəticə verməyəcəkdir və azərbaycan xalqında etiraz hissi doğurur. Xalqımız öz torpaqları uğrunda mübarizədə yalnız öz gücünə arxalanır və bu güç öz vətənini qorumağa kifayət edəcək qədərdir". Azərbaycan hökumətinin Kremlin iltifatından istifadə etmək cəhdlərini AXC liderləri sanki görmürdülər.

Xalq cəbhəsi liderləri Respublika Ali Sovetininin Sessiyasına yalnız 1989-cu ilin sentyabrında buraxıldılar. Müzakirələrin sonunda çıxış edən AXC idarə heyətinin sədri Əbülfəz Əliyev (Elçibəy) filosofcasına qeyd etdi:

"Əlbəttə biz öz dərdləri barədə bütün dünyaya hay-küy salan millətlərdən deyilik. Bəlkə də bu düzgündür, bəlkə də yox, lakin bizim səsimiz eşidilmirsə elə fikirləşə bilərlər ki, biz günahkarıq. Digər tərəfdən isə haylı-küylü çağırışlarla o qədər də çox hörmət qazanmaq mümkün deyil".

Elə bu zaman Amerika senatında Robert Doulun təşəbbüsü ilə dəfələrlə "erməni məsələsi"nə dair müzakirələr təşkil olunurdu. Senata 1990-cı ilin "erməni genosidi ili" elan olunması təklif sdilirdi. Məsələnin özünün qoyulmasından növbəti dəfə qəzəblənən ABŞ yəhudi icmaları yəhudi-erməni qarşıdurmasının səbəbini "İsraillə şərqin müsəlman dövlətləri arasında yeganə dayanıqlı körpü" olan Türkiyə ilə ənənəvi dostluq əlaqələrini korlamaq istəmədikləri ilə izah etdilər. Ermənipərəst senatorların cavab hərəkətlərini çox gözləmək lazım gəlmədi. R. Doul Corc Buşu bir addım da geri çəkilməməyə çağırdı. Dörd erməni terrorçu Buenos-Ayresdə sovet səfirliyini tutdu və özlərinin ifadə etdiyi kimi "SSRİ-nin diqqətini erməni məsələsinin həllinə cəlb etmək [91 - 92] üçün" bir neçə gün nəzarətləri altında saxladı. Los-Anjelesdə bir qrup gənc erməni vətənpərvərlik idealları uğrunda mübarizədə öz qətiyyətlərini nümayiş etdirmək məqsədilə yəhudi qəbristanlığını murdarladı və yaxındakı evlərin divarlarına qırmızı və sarı rəngli boyaqların qatışığını yaxdı.

"Nyu-York Tayms"qəzeti ABŞ yəhudi icmasının köməyilə Azərbaycan jurnalistlərinin məktubunu dərc etdi; məktubda erməni diasporunun və Daşnaksütyun partiyasının millətlərarası düşmənçiliyi qızışdırmaq və Azərbaycan SSR DQMV ətrafında özlərinin uydurduqları və son məqsədi vilayəti güclə Ermənistana birləşdirmək olan məsələni şişirtmək sahəsindəki hərəkətlərinə qiymət verilirdi. Bu əlamətdar fakt "Azərbaycan" qəzetinə qəribə bir paradoksu qeyd etməyə imkan verdi: mərkəzi sovet qəzetləri DQMV probleminə dair məlumatsız adamların ölkə ictimaiyyətini çaşdırai iri məqalələrini verməyə yer tapır, Azərbaycan mütəxəssislərinin məqalələri isə nəinki mərkəzi mətbuata, təəssüf ki, çox vaxt heç respublika mətbuatına da yol tapa bilmir.

Paradoksun sadə açması var: konfliktin lap əvvəlindən Azərbaycan tərəfə belə bir sərsəm ideyanı qəbul etdiriblər ki, guya həqiqəti yazan məqalələr millətlərarası düşmənçiliyi gücləndirə bilər, halbuki, bu düşmənçiliyin alovu qonşu respublikada göylərə qalxmışdı və həqiqət onu hələ söndürə bilərdi. Qəzetin müəlliflərindən biri R. Həsənli belə bir ritorik sual verirdi: "Niyə "Nyu-York Tayms" qəzeti Azərbaycan jurnalistlərinin Amerika ictimaiyyətinə erməni diasporunun Dağlıq Qarabağ "problemi" barədə zorla qəbul etdirdiyi birtərəfli təsəvvürlərdən yaxa qurtarmaqda kömək edən məqaləsini verə bilir, amma indiki aşkarlıq dövründə ittifaqın mərkəzi qəzetlərində bunu etmək praktiki olaraq mümkün deyildir?

1989-cu ilin payızında ən böyük yenidənqurma tərəfdarı olan "Oqonyok" jurnalının şərhçisi Keorgi Rojnov çox sərt informasiya blokadası ilə qarşılaşdı. Dəmir yolu ilə Meğri, Culfa və Naxçıvandan keçərək Bakıdan Noraşenə gəlib çıxan "Oqonyok" jurnalisti həmsöhbətlərinin açıq-aşkar ona inanmadıqlarını hiss etdi: "Əgər praktiki olaraq bütün mərkəzi qəzet və jurnallar, radio və televiziya ya bizi narahat edən problemlər barədə susur, ya da utanmadan yalan deyirsə, Sizin bu gəlişlərinizin nə xeyri var?" Georgi Rojnov özü də bunun şahidi oldu: "heç bir gün keçmədi ki, mən əmin oldum: adamlar haqlı idilər. Davam edən millətlərarası konfliktdə nə baş verirsə versin dinləyiciyə bu faciəli hadisə barədə yalnız bir " versiya təqdim edilirdi: Azərbaycan az qala qaniçən təcavüzkardır, onun qonşuları isə təcavüzün günahsız qurbanları."

1989-cu ilin yayında və payızında Zaqafqaziyadan olan məlumatların leksikasına hamı vərdiş etmişdi: avtobusa atəş açılıb, girovlar tutulub, silah müsadirə edilib, adamlar həlak olub. Bu, [92 - 93] Daşnaksütyun partiyasının uzun illərdən bəri istifadə etdiyi irimiqyaslı terrorun başlanğıcı idi. Lakin, 1989-cu il sentyabrın sonundan yeni bir söz — müharibə dövründən sonra yaddan çıxarılmış "blokada" sözü eşidilməyə başlandı. İlk

dəfə Moskvada Ermənistanın daimi nümayəndəliyində deyilmiş bu söz qəzet səhifələrində göründü, efirdə səsləndi.

SSRİ EA Kosmik Tədqiqatlar İnstitutunun Baş elmi işçisi K. Qrinqauz özünün Bakıdakı həmkarı, SSRİ xalq deputatı və Azərbaycan EA Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunun direktoru T. İsmayılova açıq məktubla müraciət etdi:

"Necə ola bildi ki, Sovet İttifaqının mövcud olmasının 8-ci onilliyində Sovet Sosialist Respublikalarından biri blokada təşkil edir və bu respublikanın öz daxilində yerləşən vilayətin əhalisini aclıq həddinə çatdırır, yenicə ağır fəlakətə düçar olmuş qonşu sovet respublikasını blokadaya alır".

Məlum olduğu kimi, dəmiryolçuları tətil etməyə çağıran xalq cəbhəsi idi. Ona görə də Bakıya uçub gələn "Georgi Rojnov ilk növbədə AXC idarə heyətinin üzvü Hikmət Hacızadəni dinlədi:

"Azərbaycan dəmir yolunda hərəkətin dayandırılması sentyabrın 4-dən 17-dək respublikada davam edən ümumi tətilin nəticəsidir, — deyə o izah etdi. Tətil özü. isə bizim xalqa qarşı erməni ekstremistlərinin qanuna zidd hərəkətlərinin güclənməsinin yeni mərhələsinin nəticəsi idi. hesablayın: İyunun 13-də DQMV-dəki azərbaycanlı kəndlərinin tam blokadası başlayıb, sərhəd kəndlərimizə, həm yük, həm də sərnişin qatarlarımıza onlarla basqın olub. Hərgah nə ittifaq, nə də respublika hökuməti respublikanın suverenliyini qoruya bilmirsə və ya qorumaq istəmirsə, onu təcavüzdən mühafizə etmirsə, biz nə etməliyik?"

Qeyd edim ki, həmin günlərdə Vəzirov klanı dəmiryolundakı vəziyyətə nəzarət edən Azərbaycan Xalq Cəbhəsi ilə dialoqa getmək məcburiyyətində qaldı. 1989-cu ilin 5 oktyabrında Azərbaycan Ali Soveti respublikanın suverenliyi haqqında qanun qəbul etdi, Nazirlər Soveti isə həmin gün Xalq Cəbhəsini qeydiyyatdan keçirdi. Üstündə təzə ay şəkli olan qırmızı-göy-yaşıl rəngli bayraq dövlət atributikasına daxil edildi, aeroportda, meydanlarda və küçələrdə məğrur-məğrur dalğalanmağa başladı.

İçtimai həyatın bütün bu faktları qonşular tərəfindən də qiymətləndirildi.

Müsibət içində olan Ermənistanın blokadası barədə qəzəbli mə'lumatları oxuyarkən və ya dinləyərkən bir çox adamlar çətin başa düşərdilər ki, Azərbaycan dəmir yolu ilə hərəkət edən qatarlar uzunluğu cəmisi 46 km olan kiçik bir hissəni Ermənistan SSR ərazisindən keçməli olurdular. Məhz Mincivan stansiyasından Meğri stansiyasınadək olan bu hissədə terrorçuların basqınları baş verirdi. Bu barədə Georgi Rojnova baş ədliyyə müşaviri, nəqliyyat prokuroru Əhməd Ələkbərov danışdı: [93 - 94]

"İlk fitnəkarlıqlar" hələ 1988-ci ilin noyabrında başladı. Burada hər şey var idi: dəmir yolunun partladılması, çınqılla örtülməsi, maşinistlərə və sərnişinlərə qarşı kütləvi xuliqanlıq hərəkətləri. Onları daşa basır, döyüş silahlarından atəş açırdılar. hər belə epizod üzrə cinayət işi qaldırıldı, lakin onların heç biri öz həllini tapmadı. Ermənistanın Meğri rayonunun hüquq-mühafizə orqanları istintaq işlərini aparmağa mane olurdular. Bir də ki, əgər rayonun bir sıra prokurorluq və milis işçilərinin özləri cinayətkar hadisələrin iştirakçısı idilərsə, onlardan hansı köməyi gözləmək olardı!

Rojnovun Bakıya gəlməsinədək dəmir yolunda hərəkət bərpa edildi və aşkar oldu ki, blokadanın dayandırılmasını dağlarda gizlənmiş terrorçular hansı qəzəblə qarşıladılar. Jurnalist öz oçerkində Meğri hissəsində yalnız 1989-cu il oktyabrın 7-i axşam baş vermiş hadisələrin xronikasını verdi:

"Saat 22.50-də 347-ci kilometrdə 2731 №-li qatar Kərçivan stansiyasına yaxınlaşarkən gülləyə tutuldu. Bu dəfə lokomotivin maşinisti İbrahimovu daxili qoşunların hərbçiləri Buqayev və Qiqauri müşayiət edirdi. 23.30-da 2703 №-li qatara atəş açıldı, onu maşinist Məmmədov idarə edirdi. 00.45-də 2704 №-li qatarı daşa basdılar (maşinist İsmayılov), 1.45-də daşlar maşinist Bayramovun idarə etdiyi 2766 №-li qatarın teplovozuna dəyirdi. Və nəhayət, oktyabrın 8-də günorta daxili qoşunlar polkovniki Uqolkov Kərçivan stansiyasındakı yolları yoxlayarkən güclü partlatdıcı qurğu aşkar etdi və zərərsizləşdirdi".

Bəs aşkar etməsəydi, necə? Bir ay sonra həmin sahədə terrorçu Artuş Parsaqyan dəmir yolu relslərinin altına mina qoyarkən partladı; halbuki, bu vaxt yolu artıq SSRİ DİN qoşunları mühafizə edirdi.

Ona görə də oçerkist özünün Leninakan xəstəxanasının həkimi Alvina Markosyanla yadda qalan dialoqunu verir.

A. Markosyan: Qonşu respublikanın xalqına nə dərəcədə nifrət edilməlidir ki, bizim tərəfimizdən heç bir səbəb olmadan iqtisadi terrora keçəsən? Mənim üçün Azərbaycan dəmiryolçularının gözlərinin içinə baxmaq maraqlı olardı—-görəsən, mən onlarda nə görərdim?

G. Rojnov: Qorxu və qəzəb... Qorxu — demək olar ki, hər gün atılan güllələrə, onların idarə edib sizə gətirdikləri qatarların üzərinə yağan daşlara görə. Qəzəb — həmin işləri görən qoçuların ünvanına; və inanın ki, onlar həmin qoçuları Erməni xalqı ilə heç cür əlaqələndirmirlər.

Kabinetə doluşmuş həkimlər və tibb bacılarının Rojnovun dediyinə görə, heç xəbərləri yox idi ki, artıq çoxdan — bir ilə yaxın müddətdə dəmir yolunun onların respublikalarından keçən kilometrlərində nələr baş verir.

Bəlke, ola bilsin ki, maşinistlərə və sərnişinlərə edilən [94 - 95] hücumlardan (Rojnov və onun yoldaşı — fotoreportyor Bakı-Yerevan qatarında Noraşen stansiyasını keçəndən yarım saat sonra atılan ağır daşdan təsadüfən sağ qaldılar) SSRİ prokurorluğunun xəbəri yox idi? Prokuror Əhməd Ələkbərov məlumat verirdi:

"Mən hələ 1988-ci il noyabrın 26-da SSRİ Prokurorluğunun nəqliyyatda qanunlara riayət edilməsi üzrə idarəsinin rəisi baş ədliyyə müşaviri A. Şkrebsin adına "Azərbaycan dəmir yolunun Ermənistan SSR ərazisində yerləşən stansiyalarında baş verən hadisələr barədə" ətraflı məlumat vermişəm. 1989-cu ildə Moskvaya bu cür informasiya müntəzəm daxil olurdu".

Və "Doroqa bez kontsa" ("Sonu görünməyən yol") oçerkinin müəllifi Georgi Rojnov özünə nəticə çıxarır:

"Gələçəyi görən olmaq lazım deyil ki, başa düşəsən: əgər mərkəzin köməyi ilə dərhal, uzatmadan heç olmasa yoldakı ilk cinayətlərdən biri üzrə istintaq başa çatdırılsaydı, müqəssirlər tapılıb cəzalandırılsaydı, hərəkətin təhlükəsizliyini təmin etmək üçün təsirli ölçülər götürülsəydi Azərbaycan dəmiryolçularının hiddətli qəzəbi də olmazdı; bu, əvvəlcə onları lənətə gəlmiş qırx altı kilometrlik yolda qatarı idarə etməkdən tək-tək imtina etməyə, sonra hərəkəti tam dayandırmağa məcbur etdi. Bizə bunu dərhal başa düşmək lazımdır ki, — deyə müəllif "Oqonyokun" oxucularına müraciət edirdi, — yolla bağlı qızışmış konfliktin ağıq. nəticələri barədə danışanda, onun səbəblərini yaddan çıxarmayaq".

Bakıda və Yerevanda öz həmsöhbətlərinə vədlər verərkən jurnalist hiyləgərlik etmirdi: Moskvaya qayıdım və mütləq həqiqəti danışacağam. Bəs nə oldu?

"İki aydan çox keçib, mən isə hələ də Azərbaycana və Ermənistana səfərim barədə bir sətir də dərc edə bilməmişəm, — deyə o respublikanın "Vışka" qəzetinə müraciət edirdi. Moskvanın nə bir qəzeti, nə də bir jurnalı mənə öz səhifələrində yer vermək istəmədi. Niyə? Səbəbi sadədir: mənim danışdığım həqiqət aydan-aya oxucuların və dinləyicilərin beyninə yeridilən həqiqətə heç cür oxşamırdı.

Bütün bu aylar, həftələr, günlər ərzində mənə öz ürək ağrılarını etibar etmiş onlarla adamın qarşısında üzücü bir günahkarlıq hissi məndən əl çəkmir. Bu yaxınlarda isə daha açınaçaqlı oldu: SİTA-nın mə"lumatı iddia edirdi ki, "Spirtli içkilərin və narkotiklərin təsiri altında olan" yüzlərlə ekstremist Sovet-İran sərhədlərində fitnəkarlıq etmişdir. Bu növbəti böhtan SSRİ yollar Naziri N. Konarevin həmin ekstremistlərin dəmir yol xəttinə uşaqlı qadınları oturdaraq qatarların [95 - 96] Ermənistana keçməsinə maneçilik törətdiyini iddia etməsinə nscə də oxşayırdı. Bu cür yalanları toxuyanlar bilmirdilər və ya bilmək istəmirdilər ki, onların uydurmaları böyük xalqın xaraktsoi, ən'ənələri və adətlərinə ümumiyyətlə ziddir və ona gerə də daha təhqiramizdir. Və bir də mən başa düşdüm ki, oktyabrda Zaqafqaziyaya gəlişimdən sonra mənim susmağım yolverilməzdir, həqiqətdən uzaqlaşmaq daha bir yalana gətirib çıxarır. Bu səbəbdən də mən Moskvada işıq üzü görməyən oçerkimi Azərbaycana, respublika qəzeti "Vışkaya" göndərirəm. Bu, səfər zamanı mənə Bakıda, Culfada, Naxçıvanda, İliç rayonunda, Noraşendə kömək edən, mənə inanan, mənim düzgünlüyümə və vicdanlı olmağıma ümid edənlər qarşısında bəraət qazanmaq üçün yeganə imkandır".

Gördüyümüz kimi, həyatı ilə risk etmək bahasına öz ləyaqətini qorumaq təkcə azərbaycanlı Rzaquluya deyil, rus jurnalisti Rojnova da, erməni Qavril Petoyana da xasdır, öz xəyanətkar rəhbərliyi ilə 1990-cı ilin qanlı yanvarını hazırlayan və sonra amneziya keçirdiyini və heç nəyi xatırlamadığını bəyan edən azərbaycanlı Əbdürrəhman Vəzirova xas deyil.

Bir də ki, vaxt hər şeyi öz yerinə qoyacaq, cəzanı isə müqəssirliyin dərəcəsi müəyyən edəcək.

1989-cu il oktyabrın 5-də Georgi Rojnovun Bakıya gəldiyi gün səhər 10.55 dəqiqədə Stepanakert şəhəri Kərkicahan qəsəbəsinin sakinləri 11 yaşlı İbrahimov Nadir və onun qardaşı 9 yaşlı Nicat baş nahiyələrində odlu silahdan açılmış atəşdən aldıqları qırma yarası ilə Ağdam rayon xəstəxanasına gətirildilər. Atalarının dediyinə görə, uşaqlar səhər saat 8-də evin həyətində yaralanmışdılar. Stepanakert cərrahları yaralı uşaqlara tibbi yardım göstərməkdən imtina etdilər və zərərçəkənlər Bakıya göndərildi... Bu, həmin günlər Qarabağın azərbaycanlılar yaşayan kəndlərindən verilən adi məlumatlar idi.

## Qara yanvar:
## Həsən Həsənov, Salatın Əsgərova və Ayaz Mütəllibov

Dağlıq Qarabağdakı bu günkü vəziyyəti dərk etmək üçün neçənci dəfədir ki, geriyə qayıtmaq lazım gəlir. 1989-cu ilin iyulunda SSRİ xalq deputatları qurultayının qərarı ilə DQMV problemləri üzrə komissiya yaradılması xəbəri, elə gözlənildiyi kimi, regionda gərginliyin daha da güclənməsinə səbəb oldu. Stepanakert erməniləri azərbaycanlılar yaşayan şəhərətrafı Gərkicahan kəndinə (iki il sonra həmin kənddə "Mayak"ın radio jurnalisti [96 - 97] Leonid Lazareviç erməni snayperinin gülləsindən həlak oldu) hücum etdilər, siqnal raketlərinin köməyi ilə evləri yandırdılar. Səhərə yaxın hücum dayandı. Lakin vəziyyət daha da pisləşdi və yollardakı "daş" müharibəsinə gətirib çıxardı. SİTA o vaxt məcburi obyektivliklə (çünki, xalq deputatları o zaman döyüş bölgəsinə getməyə hazırlaşırdılar) məlumat verirdi ki, vilayətin yollarında nəqliyyat hərəkəti blokadaya alınmışdır, Stepanakert rayonunda yolları təmizləməyə çıxmış əsgərlərə isə ermənilər daş və əldəqayırma partlayıcı qurğular atmış, ov tüfənklərindən atəş açmışlar. Nəticədə 19 hərbçi yaralanmışdır. SİTA bildirirdi ki, pusqudan üç azərbaycanlıya hücum edilmiş, nəticədə onlardan ikisi öldürülmüş, üçüncüsü ağır yaralanmışdır. Bu — əslində ilk obysktiv məlumata errmənilər dərhal kəskin reaksiya verdilər: Stepanakert

capçıları tətil etdilər və vilayət "Sovetskiy Karabağ" qəzetinin nəşri dayandırıldı. Rus dilində çıxan "Kommunist" qəzeti açıq elan etdi ki, iki azərbaycanlının öldürülməsi barədə "SİTA-nın çox ehtiyatsız məlumatı" vəziyyəti daha da gərginləşdirmişdir, "halbuki, onları kimlərin və hansı şəraitdə öldürdüyü hələ aydınlaşdırılmayıb". Moskva deputatları hər şeyi bütün təfərrüatı ilə möcüzəli şəkildə ölümdən xilas olmuş, cinayətin şahidi Namiq Salahovdan öyrənə bilərdilər. Tut bağındakı bulaq başında onun iki yoldaşına — Səfərova və Nəbiyeva hücum edib onları öldürən altı qatili o üzdən tanıyırdı, biri ilə hətta eyni məktəbdə oxumuşdu. Belə ki, istəsəydilər istintaq uzanmaya bilərdi. Qatillər silahla qorxudaraq öz qurbanlarını lüt qalanadək soyunmağa məcbur etmiş, əllərini arxalarında bağlayaraq işgəncə verməyə başlamışlar. Siqareti Səfərovun yarasına basıb söndürmüş, öldürdükləri adamların kürəklərini süngü ilə kəsik-kəsik etmişdilər.

"Volqa" minik maşınları ilə Ağdama gəlib çatmış deputatlarda heç nə təşviş doğurmurdu. Ətrafdakı adamlar sakit və şən görünür, alver edir, sahələrdə işləyir, çayxanalarda oturub çay içirdilər. Ağdamdan sonra şərait kəskin dəyişildi. Avtobusların və şəxsi maşınların sərnişinləri təşvişlə ətrafa baxırdılar. Ağdamdan Şuşaya 37 kilometrdir, bu dağ serpantinində 8 nəzarət-buraxılış məntəqəsi və hər birinin yanında zirehli transport-yollar və əsgəri hissə dururdu, yolda beton bloklardan şahmat qaydasında düzülmüş maneələr qoyulmuşdu. Çox şey görmüş və çox şeyi də başa düşməyən şuşalılar gələnlərə eyni bir sual verirdilər: doğrudanmı biz Azərbaycanda deyil, Ermənistanda yaşayırıq və buraya kənar adamların girməsi qadağandır? Niyə bizi silahlı bandaların hücumlarından mühafizə etmirlər? Niyə [97 - 98] Stepanakertdə hüquq-mühafizə xidmətlərini təkcə SSRİ DİN qoşunları və ordu deyil, həm də Yerevandan xüsusi gətirilmiş milis bölmələri yerinə yetirir? Əgər iş bu cürdürsə, niyə Şuşaya Bakıdan və Ağdamdan milis gətirilmir?

Moskvanın rezidenti Arkadi Volskiyə tabe olan DİN və ordunun onları qorumadığını öz üzərlərində hiss edən DQMV kəndlərinin azərbaycanlıları öz uşaqlarını hər halda daha etibarlı olan qədim Şuşa qalasına gətirirdilər. Azərbaycan kəndlərində bütün sutkanı sayıq olmaq lazım gəlirdi. Silahlı erməni "saqqallıları" adətən gecələr basqın edir, ya da adamları qorxu altında saxlamaq üçün tüfənglərdən atəş açırdılar. Elə Şuşanın üzərində də vaxtaşırı hərbi vertolyotlar barraj edirdi. Bu aksiyaların məqsədi bir idi: silahsız azərbaycanlıları qorxutmaq və onları öz torpaqlarından getməyə məçbur etmək. Vilayətə gəlmiş hərbçilərin yalnız erməni əhalisini müdafiə etməyə göndərildiyini görən və günün reallığından çıxış edən şuşalılar belə bir nəticə çıxarmağa meyl edirdilər: odur, Ermənistandan bizimkiləri qovdular, indi də DQMV azərbaycanlılarına keçiblər. Volski komitəsi də Azərbaycan kəndlərini nə ərzaqla, və yanacaqla, nə elektrik enerjisi ilə, nə rabitə ilə təmin etməməklə azərbaycanlıların DQMV-dən sıxışdırılıb çıxarılmasına fəal kömək edirdi. Belə bir təsəvvür yaranırdı ki, Bakıdakı hakimiyyət də öz soydaşlarının Dağlıq Qarabağı tərk etmələrinə elə erməni rəhbərliyi kimi maraqlıdırlar. Vilayət bu cür alçaq siyasət nəticəsində SSRİ-də daha bir monoetnik erməni regionuna çevrilə bilərdi.

Şuşa rayon partiya komitəsinin birinci katibi, SSRİ xalq deputatı V. Cəfərov Vəzirova təklif edirdi: gəlin DQMV-də Ermənistandan olan qaçqınları və məshəti türklərini yerləşdirək; yer kifayət qədərdir, həm də ki, köçkünlər işlə də təmin olunaçaqlar. Və bir də ki, kimin bu cür addımı qadağan etməyə gücü çatacaqdır: torpaq bizim, hökumət bizim, deməli, əmr də bizim olmalıdır. Əbdürrəhman Vəzirov nəinki bu qərarı çıxarmağa cəsarət etmədi, onun hətta, əslən özünün vətəni olan Qarabağa getməyə də cürəti çatmadı. Onsuz da o, artıq bir dəfə 1988-ci il dekabrın 5-nə keçən gecə, öz xalqını Macarıstanda, Çexoslovakiyada və Əfqanıstanda qanlı divan tutmuş ordunun ixtiyarına buraxmaqla ona xəyanət etmişdi.

Bu, milli faciənin proloqu idi və mən həmin hadisələrin şahidi, filologiya elmləri namizədi Rövşən Mustafanın dediklərindən istifadə etməklə həmin günlərə qayıtmaq istəyirəm.

...1988-çi ilin həmin dekabr günlərində nümayişin dağıdılaçağı barədə ciddi şayiələr gəzirdi. Buna az adam inanırdı: adamları isə öz tarixi, dili, mədəni irsi narahat edirdi. Üstəlik [98 - 99] də xalqın irəli sürdüyü tələblərin haqlı olduğu Respublika Ali Soveti Rəyasət heyəti sədrinin çıxışında təsdiq olunmuşdu. Ona görə də hər kəs sağlam düşüncənin qalib gələcəyinə inanır, bir növ təsəlli yerinə çevrilmiş Meydana gəlməkdə davam edirdi.

5 dekabra keçən gecə əsgərlər adətən olduğundan çox deyildi. Onlar əvvəl olduğu kimi mesydanı hər tərəfdən ciddi dövrə ilə əhatə edirdilər. Onlardan üç-dörd addım aralı başqa bir dövrə — burada gecə qalanlardan ibarət dövrə düzülürdü. Dekabr gecələri soyuq idi. Ərzağı və odunu buraya daha buraxmırdılar: MK-da olan ağıllı başlar iğtişaşçıları aclıqla təslim etmək qərarına gəldilər. Bəlkə ona görə də həmin gecə adam çox qalmamışdı. Min beş yüz, bəlkə də bir az da az. Yeganə kiçik tonqal öz ətrafına qadınları, qocaları və uşaqları toplamışdı. Rövşən Mustafa xatırlayırdı: sonuncular heç nə olmamış kimi tonqalın ətrafında mahnı oxuyur, gülüşürdülər. Onlara baxdıqca adam istəyirdi ki, komendant saatını unutsun, hərbi texnikanın işə düşmüş mühərriklərinin səsini eşitməsin, inanmasın ki, Bakıda faciəli hadisələr baş verə bilər və bir neçə ay sonra bu hadisələr artıq başqa bir meydanda — Tbilisidə, sonra isə müxtəlif vaxtlarda yenidən Bakıda və Vilnüsdə öz apogeyinə çatar. Rövşən Mustafa etiraf edir: düzdür, hansısa daxili bir nigarançılıq uşaqlar üçün narahat olmağa məcbur edir və adamın onların valideynlərinə acığı tuturdu. Arabir əsgərlər manevr etməyə başlayırdılar. Bir də ki, son gecələr onların bu "dəcəlliklərinə" artıq burada vərdiş etmişdilər və üstəlik növbəti

hərbi vəzifəli gəlib "Razqovorçiki" ("Danışmayın") deyə sərt məzəmmət edib gedincəyədək üz-üzə dayanıb eyni qutudan papiros da çəkmək olurdu. Məzəmmətdən sonra sanki komanda ilə hamı yenidən bir-birilə düşmənə çevrilirdi.

Mühasirədə qalmış nümayişçilərə əllərində isti çayla dolu termos olan qızlar yaxınlaşırdılar... Həmin günlər partokrat qəzetlər çox canfəşanlıq edirdilər: meydanda gecələr guya elə şeylər olur ki... Bakılılar isə əmin idilər ki, onun əksi baş verir". Şayiələr insanların nəçib arzularını nəyin bahasına olursa olsun bayağılaşdırmaq, təhqir olunmuş xalqın hələ qoruyub saxladığı ən müqəddəs anlayışı—namusunu tapdamaq istəyənlər tərəfindən yayılırdı.

Söz Rövşən Mustafanındır:

"Gecəyarıya yaxın Meydana iki silahlı "adyutantın müşayiət etdiyi general daxil olmağa cəhd etdi". Onların gəlmələrinin məqsədini bilmirəm, yadımda qalan o oldu ki, onlar tezliklə geri qayıtmağa məcbur oldular. Generalın baxışı xatirimdən çıxmır: [99 - 100] o, bizə elə baxırdı ki, sanki hər birimizi gözümüzdən yadda saxlamaq istəyirdi.

Təxminən qırx dəqiqə sonra bizə bir qrup adam yaxınlaşdı, onlar əsasən mülki geyimdə idilər, yalnız bəziləri daxili qoşunların formasında idi və bizimlə çox müxtəlif şeylərdən— Balayandan, ərzaq vergilərindən, kommunizmdən sərbəst söhbətlər aparmağa başladılar. Cavanlar dərhal onların ətrafına cəmləşdilər. Qızğın mübahisələr, müzakirələr başlandı. Birdən dövrə qırıldı... Hərdən mənə belə gəlir ki, elə bu da hesaba alınmışdı: sadə insanların səmimiliyi, inamı, sadəlövhlüyü.

Sonra hər tərəfdə işıq söndü. Elə bil, hətta yaxınlıqdakı evlərdə də işıq yanmırdı. Mənə qəribə gəldi ki, heç kim buna xüsusi əhəmiyyət vermədi: hamının başı danışığa qarışmışdı, sanki, heç nə hiss etmirdilər. Sonuncu kösöv yanıb qurtarırdı.

İki saat sonra qəfil yanan parlaq işıq bir anlığa hamının gözünü qamaşdırdı. Sonra mən dönüb baxanda hər tərəfdə əsgərlərin toplandığını gördüm."Azərbaycan" mehmanxanasından "Abşerona"dək əsgər kaskalarından əks olunan işıqlar oynaşırdı. Əsgərlər tribuna tərəfdən də bizim arxamıza keçmişdilər. Yeri gəlmişkən, yüksək hərbi vəzifəlilər artıq tribunaya çıxmışdı.

Biz sıx dövrə vurub oturduq. Ortada uşaqlar və qadınlar, kənarlarda cavanlar. Biz çox deyildik, bir səkkiz yüz adam olardıq.

Ucadan danışan da tapıldı. Yaşlı qadın əsgərlərə müraciət etdi. O, hamımızı narahat edən şeylərdən — doğma torpaqdan, onu zəbt etmək istəmələrindən, torpağı qorumaq istəyən insanların namus və ləyaqətindən danışırdı. Sonra Böyük Vətən müharibəsinin və Əfqanıstan müharibəsinin veteranları əsgərlərə müraçiət etdilər. Mənə elə gəlir ki, bu adamların danışıqlarındakı səmimiyyət əsgərlərə böyük təsir bağışladı. Başqalarının ağrısına daha həssas olanları zabitlər sıradan çıxarıb aparırdılar.

Tez-tez soruşurdular: bizə dincliklə dağılmağı təklif etmişdilərmi? Bəli, buna oxşar təkliflər var idi: guya, dövlət nümayişçilərin gigiyenası barədə qayğı göstərir, yaxud daha güclü səbəb — birdən xalqa soyuq dəyər. Xalqla respublika rəhbərliyi arasında dialoq aparılmasının zəruriliyi də yada düşdü. Və bütün bunlar dişlərinədək silahlı əsgərlərin əhatəsində! Sonra özünü rejissor kimi təqdim edən bir nəfər ortalığa düşdü. 0 belə bir məzmunda təklif irəli sürdü: o, ordudan qorxmayan cəsur nümayişçiləri lentə çəkir, amma bir şərtlə ki, çəkilişdən sonra hamı evinə dağılışsın.

Vaxt dayanmadan komendant saatının qurtarmağına doğru gedirdi, generallar saata nəzər salırdılar: işıqlanırdı. [100 - 101]

Gözlənilmədən qarşımızda duran əsgərlər çıxıb getdilər. Onların yerini dərhal uca boylu, əllərində hündür sipər və ağ dəyənəklər olan başqaları tutdu. Parıldayanadək silinmiş çəkmələr: elə bil hərbi parada hazırlaşmışdıdar. Yandan müəmmalı bir hərbi maşın yaxınlaşdı, projektorun güclü işığı gözümüzə vurdu, bununla da eyni vaxtda nəfəs almaq çətinləşdi. İşıq şüalarında görünürdü ki, tüstü buraxılıb. Uşağı başının üzərinə qaldırmış kişinin qışqırtısı xatirimdə qalıb.

Generallar komanda verdilər ki, başlayın... Müqavimət göstərmək barədə söz də ola bilməzdi. Yalnız bir şey çəkmələrin, dəyənəklərin və qundaqların zərbələrindən qaça-qaça "Azərbaycan", "Azərbaycan" deyə qışqırmaq mümkün olurdu.

Həmin gecə tələfat oldumu? Rəsmi məlumatlara görə, belə şey olmayıb. Mənə gəldikdə isə, — Rövşən Mustafa davam edirdi, — qana batmış adamları, huşunu itirmiş bir qadını və iki qocanı gördüm. Biz onları qaldırıb özümüzlə apara bildik. Xüsusi təyinatlı qoşunlar adamları canlı dəhlizlə dəniz vağzalına tərəf qaçmağa məcbur edir və hələ öz aralarında zarafat etməyə də imkan tapırdılar. Qarşıda yolu hərbi maşınlar kəsmişdi və onların üstündə avtomatlarını bizə tərəf tuşlamış əsgərlər dayanmışdı. Biz hər tərəfdən mühasirəyə alındıq və dayandıq. Uşaqlar ağlayırdı, dostlarını adları ilə səsləyərək bir-birini axtarırdılar, qadınlar yaralıları sarıyırdılar. Əminəm ki, faciədən qaçmaq olardı, lakin demokratiya bizdə qonaq, ev sahibi isə dəyənək idi."

Zaparojyedən olan qonaq, SSRİ xalq deputatı Vitali Çelışev AXC idarə heyətinin üzvü İsa Qəmbərovla söhbətdə qeyd edəndə ki, Azərbaycan xalq cəbhəsi özünün romantik dövrünü yaşayır (arxasınca böhran və əməli iş dövrü başlayacaqdı), Qəmbərov ona cavab verdi:

"Yox, biz xəyal dünyası ilə 1988-ci il dekabrın 5-də vidalaşmışıq. Romantik dövr başa çatmışdır". Bir il sonra Bakıda xalq ilə hakimiyyət arasındakı qarşıdurma daha böyük amansızlıq və şiddətlə özünü göstərdi. İndi Vəzirova kömək üçün Azərbaycan paytaxtına Siyasi Büro üzvləri Girenko və Primakov, SSRİ DTK və DİN-in yüksək rütbəli xadimləri gəldilər. Əməliyyata şəxsən başçılıq etmiş Yazov, bu əməliyyata görə marşal rütbəsi aldı. Şahidlər danışırlar ki, 1990-cı il yanvarın 20-də DİN-in o vaxtkı başçısı Vadim Bakatin öz demokratizmini nümayiş etdirmek üçün iclasdan əvvəl qanun keşiyində duran respublika DİN rəhbərliyinin sırası önündən keçərək hər biri ilə əl uzadıb görüşürdü. Yalnız bir polkovnik cəllada əl uzatmaqdan imtina etdi. "Siz tarixin məhkəməsindən qorxmursunuz?" — deyə o, öz [101 - 102] nazirindən soruşdu. Tarix zad məni maraqlandırmır, — deyə Bakatin əsəbi cavab verdi, — əsas odur ki, ölkə rəhbərlərinə əmrin yerinə yetirildiyi barədə məlumat verim".

1990-cı ilin yanvar iğtişaşları başlayanda Ermənistan artıq aşkarca Dağlıq Qarabağ Muxtar Vilayətini idarə edirdi: 1989-cu il dekabrın 1-də Ermənistan Ali Soveti birtərəfli şəkildə bu vilayəti özünə birləşdirmək barədə qərar qəbul etdi və bununla da suveren Azərbaycanın hüquqlarını tapdadı. 42 gün ərzində DQMV-nin bütün müəssisələri Ermənistan nazirlikləri və idarələrinin tərkibinə daxil edildi, bütün rayon partiya komitələri Ermənistan Kommunist Partiyasının tərkibinə keçdi. Bu sonuncu isə Daşnaksütyün partiyası ilə əməkdaşlığı özü ilə eyni nizamnaməyə malik Azərbayçan Kommunist Partiyası ilə dostluqdan üstün tutdu. Bütün Azərbaycan bayraqları, gerbləri, yazıları, blankları məhv edildi. DQMV ərazisində Ermənistan bayrağı və gerbi qaldırıldı. DQMV-nin Ermənistana birləşməsi şərəfinə daha bir "Arsax" medalı peyda oldu.

Hələ Volski dövründə hazırlanmış bütün bu ideoloji aksiyalar 1990-cı il yanvarın əvvəlində hərbi terror aktları ilə müşayiət olunurdu. Şuşaya su verən boru kəməri partladıldı, azərbaycanlı kəndi Xoçalıya gedən körpü partladıldı, yanvarın 7-də isə oraya gedən dəmir yolu xətti də partladıldı. Artıq DQMV-dən kənarda olan Laçın və Qubadlı rayonlarının azərbaycan kəndlərinə viranedici hücumlar, sərnişinləri azərbaycanlılar olan avtobuslara basqınlar davam edirdi. Ermənistandan DQMV-yə tikinti materialları ilə birlikdə "Yer-Yer" tipli raketlər, partladıcılar və avtomatlar göndərilirdi.

Bakıda 1990-cı il yanvarın 8-də respublikanın partiya — təsərrüfat fəalları iclas keçirirdi, burada AKP katibi H. Həsənov Mərkəzi və şəxsən Vəzirovu kəskin tənqid atəşinə tutan çıxış etdi. Onun diktofona yazılmış çıxışı xalq cəbhəsinin qəzeti olan "Azadlıq"da dərc olundu. Həsənov kifayət qədər açıqlıqla iclasda oturan partayqenosse Andrey Girenkonun başçılıq etdiyi Moskva rəhbərliyi qarşısında öz xalqının keçirdiyi "milli tənhalıq və milli qəribtik" hisslərini təhlil etdi. Elə onun tezisləri xalqla hakimiyyət arasında qarşıdurma olduğunu göstərirdi.

"Xalqın gözündə Mərkəzə inamsızlıq bizə inamsızlıqla eyniləşibdir. Onlar biz vəzifəli şəxslərin hər birində Mərkəz qarşısında yaltaqlanmağı xalq qarşısında nüfuz qazanmaqdan üstün tutan adamı görürlər. Biz vəzifəli şəxsləri tutduqları vəzifədə möhkəmlənməyi xalqın mənafeyini müdafiə etməkdən üstün tutan [102 - 103] adamlar hesab edirlər. Bizi sözün əsl mənasında manqurd adlandırırlar".

Ürək ağrısı ilə, özünütənqid şəklində Həsən Həsənov başda Vəzirov olmaqla Azərbaycan hökumətinin yenidənqurma siyasətini "təslimçi, qondarma — sülhyaradan və arxayınlaşdırıcı" siyasət, "güzəştçilik siyasəti, volyuntarist uydurmalar, əsassız sazişçilik, filantropik, birtərəfli barışdırıcılıq siyasəti" adlandırırdı. Bu üsullar dəsti stabilliyə gətirib çıxara bilməzdi. Həsənov çıxışını belə bitirdi: *"Bizim xalq arasında deyildiyi kimi, biz ağzımızı yuma bilərik, qulaqlarımızı tıxaya bilərik, biz həqiqətə göz yuma bilərik, lakin öz Bətəninin bölünməzliyi barədə duşunməyi və fikirləşməyi Azərbaycan xalqına qadağan etməyə bizim gücümüz çatarmı?"*

O vaxtkı MK katibi DQMV-də Volskinin başçılığı ilə xüsusi idarə formasının tətbiq edilməsinə gülür və sübut edirdi ki, özünün də mənsub olduğu respublika hakimiyyəti Azərbaycanı idarə etmir. O zaman Ayaz Mütəllibovun başçılıq etdiyi Nazirlər Sovetinin bu məsələyə münasibətini natiq "etinasızlıq" adlandırırdı.

Həsənov deyirdi: "Mən indiyədək bilmirəm ki, DQMV-də xüsusi idarəetmə formasının tətbiq olunması və mərkəzə tabe olan Komitənin yaradılmasının təşəbbüskarı konkret olaraq kimdir? Komitənin tərkibinə mövqeləri açıq-aşkar və gizlədilmədən DQMV—ni Azərbaycanın tərkibindən çıxarmaq olan adamları kim təklif edib? Bu kimin variantıdır ki, DQMV Azərbaycanın tərkibindən çıxarılsın, amma kompromis xatirinə Ermənistana yox, mərkəzə, yaxud-istənilən başqa respublikaya verilsin? Bu gülünc kompromis dünya ictimaiyyətində belə bir fikir yaradıb ki, guya bu sadəlövh Azərbaycan xalqı prinsipcə DQMV-ni verməyin əleyhinə deyil, amma bir şərtlə: təki Ermənistana verilməsin, başqa kimə olsa olar".

Elə bil Azərbaycan Kommunist Partiyası MK katibinin dili ilə AXÇ liderlərindən biri, hesab edək ki, tarix elmləri namizədi Etibar Məmmədov danışırdı. hansı ki, iki ay əvvəl Respublika Ali Sovetinin sessiyasında söz alaraq sübut etdi ki, Arkadi Volski Komitəsi Ermənistanla Azərbaycan arasındakı qarşılıqlı münasibəti kiçicik bir nifaq halından tam qırılmağa gətirib çıxardı, DQMV-də azərbaycanlıların hüquqlarının bir qədər məhdudlaşdırılmış olduğu vəziyyət onların tam diskriminasiyasına keçdi.

Amma Etibar Məmmədov bu məsələdə Bakıdakı mitinqlərdə familiyası artıq başqa sonluqla Vəziryan kimi işlədilən "komsomolçu" Vəzirovu günahlandırırdı. Həsənov isə iddia edirdi ki, DQMV-də xüsusi idarəetmə forması "mənim iradəm əleyhinə və MK Bürosunda müzakirə olunmadan" tətbiq edilib. [103 - 104]

MK katibi Həsən Həsənov məşhur çıxışında öz təqsirini dönə-dönə ("bir MK katibi kimi") qeyd etdi, Vəzirovun familiyasını isə bir dəfə də olsa işlətmədi. O, bütün Azərbaycanı bürümüş tətil dalğasına da bəraət qazandırdı:

"Xalq Ermənistanın bizim Vətənimizə etdiyi görünməmiş ərazi iddialarına etiraz əlaməti olaraq tətil edir, və məsələni ədalətli həll etmək əvəzinə bizə güclə təlqin edirlər ki, bu, Ermənistanın iqtisadi blokadasıdır. Soruşun bizim adamlardan — tətil etməklə onlar hansı məqsəd güdürlər? Bir onlara baxın, kimdir bu adamlar? Əksər halda onlar adambaşına ailəsinin gəliri kasıbçılıq həddindən aşağı olan adamlardı. Bizim işə başlamaq haqqında çağırışlarımıza cavab verirlər ki, namusu və ləyaqəti itirib doğma torpağı əldən verməkdənsə, onlar özlərini və balalarını acından öldürməyi üstün tuturlar".

Yox, "Azadlıq" qəzeti (Həsən Həsənov MK katibi kreslosundan keçib Respublika Nazirlər Soveti sədrinin kreslosunda otursa da, qəzet on gün sonra bağlandı) partiya fəalları yığıncağının anonim iştirakçısının diktofona yazdığı bu çıxışı əbəs yerə çap etməmişdi.

Əsas kəlmə olan “suverenlik” isə partiya fəallarının yığıncağında deyilmədi, o, rəhbər xadimlərin boğazında ilişib qalırdı. Həsənovun cəsarəti ona çatdı desin ki, qoy Moskva respublikaya nəhayət ixtiyar versin ki, onun sakinlərinin yaratdığı milli gəlirdən özü tam istifadə etsin, neftinin və pambığının ixtiyarı özündə olsun, xalq arasında “saqqallılar” adlandırılan və davam edən gərginliyin başlıca səbəbkarı olan, DQMV-də qanunsuz yaşayan boyevikləri oradan deportasiya etsin. MK katibi məhz "davam edən gərginlik" söz birləşməsini işlətdi, halbuki, onu bir sözlə — "müharibə" sözü ilə əvəz etmək daha düzgün və daha dəqiq olardı. Faciələr və bəlalar — talanlar, basqınlar, ölümlər, güllə səsləri, mərmi partlayışları, insanın ürəyini üzür.

Düz bir il sonra, elə həmin gün 1991-ci il yanvarın 8-də Laçın-Şuşa yolunda "Molodyoj Azerbaydjana"qəzetinin müxbiri Salatın Əsgərova və onunla birlikdə üç hərbçi — batalyon komandiri podpolkovnik O. Larionov, Laçın hərbi komendantlığının qərərgah rəisi mayor İ. İvanov və serjant İ. Qoyek həlak oldular. Əslən Tayşetdən olan Oleq Larionov Sibirdəndi, beş ildən çox idi ki, batalyona komandirlik edirdi. 1990-cı ilin yazında batalyon erməni boyeviklərinin Qazax rayonundakı Bağanis Ayrım kəndində hücumlarının qarşısında dayanmışdı. Larionovun başı üçün 10 min rubl mükafat vəd edilmişdi.

Onlar xidməti işlərdə bağlı səhər tezdən Laçından Stepanakertə yola düşmüş, Salatın Əsgərovanı özlərinə yol yoldaşı [104 - 105] götürmüş və avtomobil yolunun elə beşinci kilometrindəcə pusquya rast gəlmişlər. Avtomatlardan və snayper tüfəngindən onlara iki istiqamətdə demək olar ki, birbaşa atəş açılmışdı: hərəkət istiqamətində və arxadan, maşının sol tərəfindən. Maşında güllələrin açdıqı 113 deşik saydılar: düşmən atəşinin intensivliyi belə olmuşdur. Üç nəfər o dəqiqə həlak oldu: sürücü İ. Qoyek, onunla yanaşı oturmuş mayor İ. İvanov, həmçinin jurnalist S. Əsgərova. Yaralı kombat Larionov idarə oluna bilməyən maşından sıçrayıb düşə bilmiş və müdafiə mövqeyi tutmuşdur: həlak olmuş zabitin iki güllə darağında cəmisi on gülləsi qalmışdı.

Əgər Laçın Azərbaycanın rayon mərkəzi kimi qalarsa oradakı küçələrdən biri mütləq Oleq Mixayloviç Larionovun adını daşıyacaqdır, bu bir faktdır.

Özünün Stepanakertdən hazırladığı son reportajlardan birində Salatın Əsgərova məhz hərbi formalı adamlara çoxlu sətir həsr etmişdi, o, görürdü ki, burada demək olar ki, hər döngədə onları təhlükə gözləyir.

Salatın yazırdı: "Bu sətirləri yazmaq çətin olur, ona görə çətin olur ki, mən özümü onların — taleyin hokmü ilə Qarabağ torpağına atılmış cavanların qarşısında günahkar sayıram. Erməni boyevikləri hərbi formada olan hər əsgərin başına üç min rubl, zabitin başına isə on min rubl qiymət qoyub". Altı yaşlı oğlu yetim qalmış gənc jurnalist qadın öz həyatında hər şeydən çox istəyirdi ki, onun rastlaşdığı hər bir gənc sağ və salamat evinə, oz ailəsinə, öz sevgilisinin yanına qayıtsın. Salatın dua oxuyurmuş kimi təkrar edirdi: "Allah, qoy onların hamısı sağ qalsın! Qoy onlar boyeviklərin gülləsinə tuş gəlməsinlər! Qoy analar lənətə gəlmiş müharibənin qara kağızını almasınlar!" Lənətə gəlmiş və mənasız müharibənin...

1990-cı il yanvarın əvvəlində qulluq etdiyi Salyan kazarmalarından Leninqrada kursa göndərilmiş əslən Gədəbəydən olan azərbaycanlı artilleriyaçı — kapitan Bakının tank işğalından sonra müsibətdən rəngi ağarmış halda mənə etiraf etdi: "öz vətənimdə on il mən hərbi geyimdə gəzə bilməyəcəyəm". Oz hərbi geyiminə isə o hörmət edirdi, zabitlik şərəfini hər şeydən üstün tüturdu: belə hesab edirdi ki, Bakının qara yanvar günü bu hörməti və şərəfi təhqir etmiş, üstündən xətt çəkmişdir. Amma heç bir il keçməmiş gənc Azərbaycan qadını Salatın Əsgərova iki xalqı barışdırmaq və silahsız sakinləri qorumaq üçün Qarabağa göndərilmiş əsgərlərin taleyinə bütün qəlbi ilə acıyırdı. O, kin nə olduğunu bilmədən çıxış yolu axtarır, başa düşürdü ki, onun tapılmasına hələ çox qalıb. [105 - 106]

"Hələ ki, əli avtomatlı rus oğlanları Qarabağın tozlu yolları ilə gəzəcək və bir xalqı o birindən mühafizə edəcək. Hələ ki, ermənilər — kirvələr, qohumlar divar dalından bizi izləyəcək və zərbəni birinci endirməyə çalışacaqlar — deyə jurnalist ölümqabağı sətirlərini yazırdı. Hələ ki, anası erməni, atası azərbaycanlı olan balaca qız gizlincə təşkilat komitəsinin üzvü azərbaycanlıya yaxınlaşacaq və pıçıltı ilə deyəcəkdir: "Dayı, sən mənim atama çox oxşayırsan. Mən səninlə bir yerdə durmaq istəyirəm, atamla durduğum kimi. Amma mənim anama demə ki, atam üçün darıxıram, yoxsa o məni cəzalandırar". Və hələ ki, təşkilat komitəsinin işçisi bu

körpənin dərdinə ağlayacaq və onun qara saçlarını sığallayacaqdır, bu cür azərbaycanlı, bu cür erməni saçlarını. Və hələ ki, rus gənci Saşa Yeruniç anası rus — sağıcı, atası azərbaycanlı — sürücü olan başqa bir qızı — Külnaranı müşayiət edəcək ki, o, Şuşaya nənəsinin yanına qonaq gedə bilsin. Və onu Stepanakertdən ötürəndə Saşa aşağıdakı sözləri eşidəcək: "Mən istəyirəm ki, Yer üzərində müharibə olmasın. Mən başa düşmürəm ki, bu cür gözəl bir yerdə necə müharibə etmək olar? Mən istəyirəm ki, hamı barışsın. Axı, mənim anamla atam heç vaxt dalaşmırlar".

Külya, Mariyeta, əsgərlər, kursantlar, zabitlər, təşkilat komitəsindən olanlar, erməni kəndindən hərbçilərin yanına gəlib Ermənistandan göndərilmiş boyevikləri oradan qovmağı xahiş edən sakinlər; baxın biz necə nəfərik, necə də çoxuq... Doğrudanmı biz öz aramızda yola gedə bilmərik? Doğrudanmı biz banditlərə layiqli cavab verə bilmərik?

Salatını qoruya bilmədilər, halbuki xəbərdar etmişdilər: diqqətli olun, atışma başlasa maşının içinə uzanın. Qatillər basqın edəcəklərini əvvəlcədən bildirmirlər: 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda belə oldu, bir il sonra Laçın-Şuşa dağ yolunun beşinci kilometrində də belə oldu. Sonra 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni ordusu MDB qoşunlarının 366-cı qvardiya motoatıcı alayının köməyi ilə Azərbaycan şəhəri Xocalını məhv edəndə də belə olacaqdır. Şəhərin sakinlərini piyadaların döyüş maşınları və zirehli transportyorlarla əzirdilər: iki il əvvəl 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə onlar artıq təcrübə toplamışdılar.

Xoçalıdakı qanlı qırğın Qorbaçov, Yazov və Bakatinin "tank demokratiyasının" köməyi ilə Vəzirovu əvəz etmiş Ayaz Mütəllibovun hakimiyyətdən getməsini sürətləndirdi. O vaxt elə görünürdü ki, respublika rəhbərliyi (Həsən Həsənov Azərbaycan Nazirlər sovetinin sədri vəzifəsini tutmuşdu) xalqın tökdüyü qandan ayılacaq, özünə gələcək və... [106 - 107]

Amma, əfsuslar olsun ki, artıq 1990-cı il yanvarın 20-də Ayaz Mütəllibov "Vremya" proqramı ilə SİTA-nın müxbirinə elan etdi ki, Bakıda ölənlər arasında uşaq və qadın yoxdur. Salyan kazarmalarına isə boyeviklər atəş açmışlar. Məktubuna yuxarıda istinad etdiyim leninqradlı azərbaycanlı qadın o zaman Mütəllibova müraçiət edirdi: sizdə televiziya bloku partladılmışdı., ölkə isə sizin yalan bəyanatınıza qulaq asırdı. Əgər bu mərkəzi televiziya tərəfindən təşkil olunmuşsa, Siz onları məhkəmə məsuliyyətinə cəlb etməli idiniz. Bu zəruri idi. Ona görə ki, respublikadan kənarda yaşayan azərbayçanlılar və eləcə də müxtəlif millətlərdən olan bakılılar informasiya blokadasına baxmayaraq artıq çox şeyi bilirdilər. Qohumların, tanışların mənə Bakıdan zəng vurur, faciə haqqında danışır, telefon dəstəyini pəncərəyə təref tuturdular və mən orada atışma olduğunu eşidirdim. Siz yalanı necə dilinizə gətirə bildiniz?"

Ayaz Mütəllibovun respublikadan kənarda yaşayan soydaşı Vəzirovun xəyanətkar fəaliyyətini qeyd etməklə bərabər yeni liderə müraçiətlə 1990-cı il yanvarın sonunda xəbərdarlıq edirdi:

"Nə vaxta qədər ki, hələ respublika rəhbərliyinin rəsmi nümayəndələri xalqın mənafeyini müdafiə etmək üçün fəal iş aparmayacaq;

Nə vaxta qədər ki, hələ Siz ən yüksək ittifaq səviyyəsində özünüzə və xalqınıza ehtiramla münasibət bəslənməsinə nail olmayaçaqsınız;

Nə vaxta qədər ki, hələ Siz böhtan və dezinformasiyanı məhkəmə yolu ilə rədd edərək hadisələrin mərkəzi kütləvi informasiya vasitələrində, SSRİ xalq deputatları qurultaylarında, Ali Sovetin sessiyalarında, komitə və komissiyalarında obyektiv işıqlandırmasına nail olmayacaqsınız;

O vaxta qədər Azərbayçana münasibətdə heçnə dəyişməyəcəkdir".

İşıq üzü görməyən məktubun müəllifi bu məqsədlərə çatmağın sanki aydın yolunu da göstərirdi:

"Bu, yalnız o zaman mümkün olacaqdır ki, respublikanın və onun xalqının mənafeyinin müdafiəsi Azərbaycan hökumətinin və MK-nın müxtəlif demokratik ictimai hərəkatların sağlam konstruktiv təkliflərini də özündə cəmləşdirən dövlət siyasətinə çevrilsin. Xalq həyatının demokratikləşdirilməsinə mane olmaq mənasızdır və təhlükəlidir. Ona görə də çox şey məhz Sizdən, daha doğrusu Sizin və Həsənovun respublikanın idarə olunmasında nəyi — Azərbaycanın həqiqi mənafeyinimi, yaxud Moskva nə desə onumu əldə rəhbər tutmanızdan asılıdır. Yalnız o zaman həm erməni "hüquq müdafiəçiləri", həm də SSRİ prezidenti başa düşərlər ki, respublika, onun rəhbərliyi və xalqı (onlar bir [107 - 108] yerdədirlərsə) ilə hesablaşmaq lazımdır. Yalnız o zaman milli ləyaqətimizi qorumaq, azərbaycanlıların mədəniyyətsizliyi, kütlüyü, barbarlığı və banditizmi barədəki uydurmalara son qoymaq olar.

Qoy Vəzirovun nümunəsi heç olmasa kiçik də olsa xəbərdarlıq olsun. Yoxsa Sizin də arxanızca xalqın etimadsızlıq və lənət şleyfi uzanacaqdır...

Xəbərdarlıq qəbul edilmədi və edilə də bilməzdi. Səbəbi isə Kreml nomenklaturası yolu ilə hakimiyyətə gəlmiş liderlərin iki və hətta üç mənəviyyata birdən qulluq etməsindədir. Həsən Həsənovun Bakı faciəsi ərəfəsində xalqın xeyrinə həyəcanla ürəyini boşaltmasından Xocalıda körpələrin, qadınların və qocaların qanlı qırğınınadək keçən iki il ərzində Dağlıq Qarabağ torpaqlarının çox hissəsinin işğalı (ümid edək ki, müvəqqəti) başa çatdı. İki il ərzində formal olaraq suveren olan respublikanın ali rəhbərliyn ondan asılı olan hər şeyi etdi ki, azərbaycan xalqını diz çökdürsün, adamları çarəsizlik və ruhi depressiya vəziyyətinə çatdırsın. Mütəllibov və

Həsənov hətta Azərbaycanın, Rusiyanın və Qazaxıstanın dövlət və hərbi xadimlərinin uçduğu vertolyotun həyasızcasına məhv edilməsini də Starovoytovanın, Yeltsinin və Ter-Petrosyanın əmri ilə unutdura bildilər. Jurnalist İsgəndər Axundovun dediyinə görə parlament müzakirələrində artıq suveren respublikanın prezidenti olmuş Mütəllibov özünün yalançı sülhsevərliyini nümayiş etdirərək parlament üzvlərini və xalqı soyuqqanlılığı itirməməyə, intiqamdan imtina etməyə çağırırdı, yoxsa bu, müharibənin başlanmasına gətirib çıxarar, guya müharibə o vaxtadək artıq üç il idi ki, getmirdi. Dinləyiciləri öz səmimiliyinə inandırmaq üçün prezident bəyan etdi ki, hətta vurulmuş vertolyotun içində özü olmuş olsaydı belə, qəti cavab tədbirlərinin əleyhinə olardı... Prinsipsizlikdən də çox-çox aşağı, siyasi soyğunçuluğa və xalqın ümumi bədbəxtliyi üzərində qurulmuş hakimiyyət parazitliyinə yaxın olan bir məntiq!

Azərbaycan prszidentinin mətbuat xidmətinə başçılıq edən Rasim Ağayev artıq Mütəllibovun istefasından sonrakı müsahibələrinin birində etiraf etdi ki, respublika rəhbərliyi həmişə mərkəzin, sonra Rusiyanın, MDB-dən olan başqa partnyorların iltifatına ümid bağlayırdı. Ordunun yaradılması yalnız elan olunurdu. Azərbaycan kütləvi informasiya vasitələrinin bir neçə gün ərzində təkcə dünya ictimaiyyətindən deyil, həm də öz xalqından da gizlətməyə çalışdığı Xocalı qırğını eks-prezidentin azərbaycanlıların vuruşmağı bacarmadığı haqda hamını təngə gətirmiş [108 - 109] oxşamalarının və vəziyyətdan sülh yolu ilə necə çıxmağın ona bəlli olduğu barədə ehyamlarının nəqarəti altında baş verdi.

Respublika parlamentinin üzvü, müstəqil deputatlar qrupunun lideri Rasim Ağayev 1992-ci il martın 28-də verdiyi müsahibəsində Mütəllibovun istefasının legitimliyini şübhə altına alır və bildirirdi ki, istefa "birbaşa təzyiq və hədə-qorxu nəticəsində" baş vermişdir.

Və keçmişdə beynəlxalq siyasəq üzrə tanınmış jurnalistin bu mövqeyi məni narahat edir. Rasim Ağayevin fikrincə Mütəllibovun hakimiyyətdən uzaqlaşmasında "legitim olmayan" nə var?

"Sankt-Peterburqskiye vedomosti"nin jurnalistinə verdiyi müsahibədə mətbuat mərkəzinin rəhbəri deyirdi:

"Birinci gün biz sessiyaya gedəndə xalq parlamentin qarşısında sakitcə dayanmışdı. Axşam isə informasiya verildi ki, Ali Sovet mühasirəyə alınıb. Deputatların görünməsi kütləni sözün əsl mənasında cuşə gətirdi. Adamlar şüşələri sındırmağa və qışğıraraq hədə-qorxu gəlməyə başladılar. Kimsə bildirdi ki, onlar silahlıdırlar. Sonra şayiə buraxdılar ki, şəhərdə rusları döyürlər (gördüyümüz kimi, vəziyyət 1990-cı ilin yanvarını xatırladırdı, lakin tankları və avtomatları işə salmaq mümkün olmadı: artıq 1992-ci ilin martı idi və bütün dünya diqqətlə Bakını izləyirdi — *Y.P.).* Əlbəttə, bu, prezidentin iradəsini qırmaq üçün qızışdırılan dezinformasiya idi. Əminəm ki, kütlənin hərəkəti idarə olunurdu. (Xatırladım ki, 1990-cı ilin yanvarında xalqla hakimiyyətin qarşıdurmasında Xalq Cəbhəsinin liderləri günahlandırıldı, onların çoxu həbs olundu, qalanları gizli fəaliyyətə keçməyə məcbur oldu və Mütəllibov tökülmüş şəhid qanlarının günahını onların üzərinə yıxdı — *Y.P.).* Axşam üstü binada yemək ehtiyatı tükəndi, lakin ərzaq gətirmiş maşını parlamentə buraxmadılar. Prezident özünü pis hiss edəndə də reanimasiya maşını eyni ilə geçə bilmədi. Deputatlardan kimsə prezidentə təklif etdi ki, hazır dayanmış daxili qoşunların köməyi ilə yol açsın. Lakin Mütəllibov bu ideyanı qəti rədd etdi. Bu rüsvayçılıq olardı (Vəzirovun silahsız adamların mühasirəyə aldığı MK binasından yeraltı yolla biabırcasına qaçmasını o, əlbəttə xatırlayırdı, çünki, adamlar qarşısında açıq çıxış etməyə nə birinin, nə də iki il sonra digərinin cürəti çatmadı: axı, deməyə sözləri yox idi — *Y.P.).* Hadisələrin "Gürcüstan variantında" inkişaf etmə imkanından çox danışılırdı və bu, prezidentin iradəsini əsl mənada iflic edirdi. Atəş, zərbə, partlayış — kiçik bir provakasiya... və çoxlu qan tökülə bilərdi. Bunu dərk etməsi prezidenti sıxırdı və onun qət' qərara gəlməsinə faciəli şəkildə təsir etdi". [109 - 110]

Rasim Ağayev etiraf edir ki, Mütəllibovun istefası tələbi başa düşüləndir (haqlı deyil, yalnız başa düşüləndir — *Y.P.):* Prezidentin respublikanın təhlükəsizliyini təmin edə bilməməsindən xalq qəzəblənmişdi. Buna baxmayaraq dövlət çevrilişi barədə söhbətləri jurnalist əsassız saymır: istefa parlamentin mühasirəsi və ardı-arası kəsilməyən hədə-qorxu və ultimatumlar şəraitində baş vermişdi. Guya bunun üçün adekvat siyasi və hüquqi formalar tapmaq lazım idi.

Özünün aldadılmasına və zorakılığa məruz qalmasına parlamenti mühasirə etməklə cavab verməyə xalqın haqqı vardı. Xüsusilə də elan olunmamış və üstü vurulmayan müharibə şəraitində. Xocalı faciəsi bütün dünyanı lərzəyə gətirdi. Butros Qali, Sayrus Vens, Türkiyə və İranın rəhbərləri, hətta Ceyms Beyker və Corc Buş, daha kimlər həmin günlərdə minlərlə həlak olanlar barədə öz narahatlıqlarını bildirirdilər. Təkcə siyasi nüfuz dairəsində Mütəllibovun da fəaliyyət göstərdiyi Rusiya federasiyasının prezidenti Boris Yeltsin cinayətkarcasına susdu və heç olmasa Mütəllibovun imzasına əsasən MDB-də sayılan bir respublikanın dinc əhalisi arasında olan kütləvi qırğınla bağlı adi başsağlığı da vermədi.

Bu çirkin müharibənin hadisələrini izləyən hamı təkcə Xocalı façiəsindən deyil, həm də "Rqo Armtnia" agentliyinin növbəti utanmaz yalanından dəhşətə gəldi. Erməni agentliyi fransız jurnalisti Florens Davidə istinad edərək iddia edirdi ki, Xocalıdakı qırğını azərbaycanlılar özləri təşkil etmişlər. Erməni silahlı dəstələri isə şəhəri üç tərəfdən mühasirəyə almış və əhalidən hörmətlə xahiş etmişlər ki, əvvəlcədən saxladıqları dəhlizlə çıxıb getsinlər. İçtimai rəy bu cür yalan üsulları ilə razılaşmışdır: cəmisi üç ay əvvəl güllələnmiş Mİ-8 vertolyotu ya

ağaca, ya da dağa dəyib qəzaya uğramış, Azərbaycan hökumətinin Moskvaya verdiyi "qara qutu" isə yanmış elan edilmişdi. Lakin, bu dəfə qəzəblənmiş fransız jurnalisti ermənipərəst yalanı təkziblə çıxış etdi.

Amma budur, "Meqapolis-Ekspress" həftəliyi 1992-ci il aprelin 22-də sabiq prezident Mütəllibovun sensasiya doğuran müsahibəsini dərç edir, burada o, həmin qanlı aksiyada Ağdam Xalq Cəbhəsini günahlandırırdı. Bu məntiqdən belə alınırdı ki, Mütəllibovun iki illik hakimiyyəti dövründə itirilmiş Dağlıq Qarabağda azərbaycanlılar azərbaycanlılarla müharibə aparır və ermənilərin buna dəxli yoxdur. "Komsomolskaya pravda"nın müxbiri A. Mürsəliyev sabiq prezidentin müsahibəsindən sonra haqlı olaraq qeyd edirdi: onun dəhşət doğuran versiyasına görə belə alınır ki, oğul [110 - 111] ata-anasının əllərini əvvəlcədən bağlayıb sonra güllələyib, qardaş-bacını, ata-körpə uşaqlarını öldürüb, sonra isə xarici müxbirlərə göstərmək üçün meyidlərin başının dərisini soyub götürüblər. Axı region əhalisinin 60 faizi AXC üzvüdür, praktiki olaraq hər Xoçalı ailəsinin Ağdamda qohumu var. Baxın, azərbaycanlılar adi vəhşilərdirlər.

1990-cı ildə olduğu kimi Azərbaycanın hakimiyyətdə olan klanı öz xalqına sadəcə olaraq xəyanət etmədi, həm də onu öz-özünü vəhşicəsinə öldürməkdə təqsirləndirdi. "Komsomolskaya pravda" 1992-ci il aprelin 29-dakı nömrəsində xatırladır ki, Mütəllibovun "Meqapolis Ekspressə" verdiyi müsahibə bu cavan təqaüdçünün korrupsiyada və xalq sərvətini dağıtmaqda, həm Azərbaycanda, həm də Ermənistanda müharibə hesabına varlanan mafiya ilə əlaqədə olmaqda ittiham edilməsindən sonra meydana gəldi.

"Komsomolskaya pravda"yazırdı: "Çoxdan sirr deyil ki, siyasət çirkabdır. Lakin hələ torpağı qurumamış qəbirləri təhqir etməyə heç kimin nə siyasətçilərin, nə jurnalistlərin ixtiyarı yoxdur. hətta bu, "vəhşilərin" qəbirləri olsa da. hörmətli həftəliyin xocalıların öldürülməsinin azərbaycanlıların öz işi olmasına doğrudan inanması belə, onlara "Xocalı faciəsini" dırnaqda verməklə həlak olanları təhqir etmək hüququ vermir.

Deyirlər ölənlərin ayıbı olmur. Bəs dirilərin? Ayaz Mütəllibovu 1990-cı ilin yanvarında Mərkəzi televiziyaya müsahibəsindən sonra olduğu kimi ikinci dəfə öz xalqı barədə yalan danışması üstündə rüsvay edən bu sualdan sonra Boris Yeltsinin həmin yanvar günlərindəki mövqeyini yada salmaya bilmirəm. O vaxt o, Yaponiyada səfərdə idi və deyildiyinə görə Konstitusiyaya zidd olaraq qoşunların Bakıya yeridilməsi ilə əlaqədar Qorbaçova etiraz teleqramı vurmuşdu. Bakıda operativ nəşr olunmuş "Qara yanvar" kitabı ilə tanışlıqdan sonra ittifaq parlamentinin deputatı, SSRİ Ali Soveti rəyasət heyətinin üzvü Boris Yeltsin o zaman bu oçerkin müəllifinə belə dedi:

"Yaxın qurultayda biz marşal Yazovun istefasına nail olacağıq və Bakıda tökülən günahsız qan üçün onun mühakimə olunmasını tələb edəcəyik".

Lakin, bu sözlər də sonradan deyilən bir çox başqa sözlər kimi Rusiyanın demokratik qüvvələrinin mitinqlərdə Yelena Bonnerlə birgə çıxış edən liderinin küləyə sovurduğu sözlərdən oldu, iki il sonra isə yenə də tələm-tələsik MDB-nin qapılarını qeyri-slavyan dövlətlərin üzünə bağlamaq istədi.

Bir də ki, çoxmillətli Rusiyanın xalq prezidenti olsa da, yaxın məsləhətçiləri sırasında dövlət siyasətini müəyyən edən [111 - 112] Q. Starovoytovadırsa, ondan başqa nə gözləmək olar?! Axı əgər Dağlıq Qarabağ girdabı bütün ölkədə millətlərarası qanlı konfliktlər zənciri yaradırsa, onda Ermənistanın Azərbaycana qarşı müharibəsi (bu gün də mərkəzi televiziyadan olan nazaryanlar həyasızcasına Azərbaycanın onlara qarşı müharibə etdiyini yayırlar) bizim gözümüz qarşısında mütləq başqa regionlarda da silahlı toqquşmalara gətirib çıxaracaqdır və onun ardınca Rusiya ərazisində də vətəndaş müharibəsi başlaya bilər.

Demokratiya və azadlıq doğurdanmı bu qədər qurban tələb edir?

## Qara yanvar:
## Etibar Məmmədov və Saşa Boqdanov

Köhnə bakılılar öz ömürlərində çox şey görmüşdülər. Onlar aclıq illəri olan otuzuncu illərdə yurdsuz-yuvasızların tiyan altında yatdıqlarını, kommersiya çörəyi almaq üçün İçəri şəhərdəki növbələri, hitler təyyarələrinin düşmən basqınlarını xatırlayırdılar. Vətənini, evini itirən, həyatı boyu yığdığı nə varsa qoyub çıxan bu adamlar şəhərin kənarında faner və taxtalardan özlərinə evciklər düzəldir, öz ailələri ilə orada daldalanırdılar. Hakimiyyətə lazımsız olan, öz müsibətləri ilə təkbətək qalmış cavan qaçqınlar diqqəti çox qəribə yolla özlərinə cəlb etmək istədilər.

Ermanistanın kənd rayonlarındakı patriarxal ailələrdən çıxmış bu adamlar bakılı qız-qadınlara mənəviyyat dərsi keçməyə başladılar. həmin günlər qəzetlərdə bu məzmunda məlumatlar olurdu: "Bizim gözəl şəhərimizin küçələrində bəzi cavanlar gəzir və allah eləməsin ki, açıq sarafan, yaxud qısa don geymiş qızlar onlarla rastlaşsın. Yazıq qızcığazın üstünə hədə qorxu və təhqir yağdıracaqlar. Ən çılğınları tezliklə sözdən hərəkətə keçir: koftaların çiyinlərini qoparır, makiyajı silirlər. Bijuteriya isə onlara ümumiyyətlə çox mənfi təsir edir. Sırğalar, qolbağlar, boyunbağılar bir an içində qadınların qulaqlarından, qolundan və boynundan qopardılır". Bakı milisinə müraciət etməzdən əvvəl qəzetçilər əxlaq dərsi keçənlərə məsləhət verirdilər: "Kişiyə yaraşan işdimi ki, küçədə tanımadığın qadına yaxınlaşıb ona nə uzunluğunda don geyməli olduğunu başa

salasan. Əl çəkin ondan siz öz "ismətə dair" məsləhətlərinizlə, bunlarsız da bir təhər keçinə bilərlər. Köhnə zamanlarda başqasının işinə bu cür nümayişkarənə, camaatın gözü qarşısında qarışmaq üstündə adamın boynunu vurardılar. Və yerində olardı. Necə deyərlər "köhnə bazara təzə nırx qoyma". [112 - 113]

Qəzetçilərin bu cür mövqeyi başa düşüləndir: Azərbaycanda heç zaman ortodoksal islam mövçud olmamışdı. Çox qədim zamanlardan burada pravoslav kilsəsi, sinaqoq, erməni kilsəsi və məscid bir-birinin qonşuluğunda olmuşlar.

On səkkizinci əsrin sonunda, on doqquzuncu əsrin əvvəlində bu torpaqlar öz vətənlərində təqib olunan təriqətlərə, malakanlara, baptistlərə, xlıstlara və yeddinci gün adventistlərinə sığınacaq verdi. Onların törəmələri bu gün də sağ və salamat yaşayır, azərbaycanlılara qarşı aparılan müharibənin təhlükələrinə onlarla birgə məruz qalırlar. Bir şey şübhəsizdir: nəhəng sənaye şəhəri olan Bakıda millətçi olmaq və ya dini dözülməzlik etmək bütün dövrlərdə özü-özünü ölümə məhkum etməyə bərabər olub. Ona görə də yazıçı Maqsud İbrahimbəyovun 1989-cu ilin mayında "Drujba narodov" jurnalının millətlərarası münasibətlər üzrə şurasının iclasında aşağıdakı sözləri inamla deməsi asan başa düşüləndir: "Bakıda millətçilərdən "qana susamışlar ordası", yaxud heç olmasa rotası təşkil etmək, yerli buz üstə xokkey komandası təşkil etməkdən asan deyil".

Bu sözlər Bakıya — son bir neçə il ərzində ərzaq çatışmazlığı üzündən talon sistemi ilə yaşayan, sayı ikiyüz mindən çox olan və kifayət qədər firavan yaşayan erməni icması olan kosmopolit şəhərə qaçqınların kütləvi axını ərəfəsində deyilmişdi. Respublikaya gələn qaçqınların hərəsinə 50 manat verir və onları "naxalstroy"daxmalarında yerləşdirirdilər. Burada isə cinayətkar alçaqlar onsuz da kifayət qədər idi.

Talesiz, acıqlı adamları 1990-cı ilin 13 yanvarında talanlara təhrik etmək mümkün idimi?

İlk növbədə Azərbaycan DTK-sının o zamankı sədri, indi öz xalqına sonsuz məhəbbətini izhar edən, lakin silahsız əhalini qırdırdıqdan sonra xəyanətkarlığına görə sakitcə general rütbəsi alan Vaqif Hüseynova müraciət edim. Respublika komitəsinə Bakıda yanvar ayında kütləvi iğtişaşlar, talanlar və oğurluqlar hazırlandığı məlum idimi? — kəskin sualına Vaqif Hüseynov 1990-cı ilin avqustunda belə cavab verirdi:

"Bəli, komitə onu bilirdi, yuxarı təşkilatlara vaxtında və dəfələrlə informasiya vermişdi onları xəbərdar etmişdi. Lakin, faciəli hadisələrə yol verməmək, onların qarşısını almaq üçün siyasi qərar lazım idi. Bu qərarı isə heç də Dövlət Təhlükəsizlik Komitəsi çıxarmır. hadisələr başlayanda milis iflic vəziyyətində idi. Daxili qoşunlar isə əmr almadıqları üçün kazarmalarda oturub gözləyirdilər. Özlərinin birbaşa vəzifələrini onlar yerinə yetirmədilər".

Dediyinə görə, şəxsi təşəbbüsü ilə Bakıya faciənin təhlili [113 - 114] üçün material toplamağa gəlmiş SSRİ xalq deputatı polkovnik Nikolay Petruşenko "Bakinski raboçi"yə yanvarın sonunda verdiyi müsahibəsində təsdiq etdi ki, "bakılıların köhnə beynəlmiləlçilik ənənələri yaşayır və fəaliyyətdədir. Zaqafqaziyanın bütün başqa regionları kimi buranı da kənardan gətirilmiş millətçilik dalğası bürüməsinə baxmayaraq, o öz beynəlmiləlçilik əqidələrində qalır.

Polkovnik Petruşenkonun diqqətini xüsusilə cəlb edən bir şey var idisə, o da Bakıda Ermənistandan qovulmuş 80 minə yaxın azərbaycanlı qaçqın yerləşsə də, onlardan bir dənə də telefon zənginin olmaması idi. Əhalinin bu qatını polkovnik rədd edilmişlər, "bir çox cəhətdən Bakıda millətlərarası münasibətlərin kəskinləşməsinə səbəb olanlar" kateqoriyasına aid edir və bu kütləni böhran kütlə adlandırırdı.

Rejissor Stanislav Qovoruxin də qara yanvarın şahidi oldu. Bakıdakı talanlar haqqında eşidən kimi o, operatorla birlikdə buraya uçdu.

Onun nöqteyi-nəzəri belədir:

"İlk əvvəl ən kədərli faktı demiş oluram. Ordu şəhərə o vaxt girib ki, orada ermənilər artıq yox idi. Dirilər çıxıb getmişdilər, ölüləri isə basdırmışdılar. ("Literaturnaya qazeta"nın yazdığına görə yanvarın 13-də başlamış erməni talanları özündən sonra 56 meyid qoymuşdur. Sonunçu tələfat 16 yanvarda qeydə alınmışdır. — *Y.P.).* Müdafiə olunası heç kim qalmamışdı. Mən hərbçilərlə danışdım. Bir batalyon xüsusi öyrədilmiş əsgər talançıları sakitləşdirə, həmişəlik ayılda bilərdi.

Talan günlərində isə şəhərdə daxili qoşunların on bir min beş yüz əsgəri var idi. Generalların qoşunlar mühasirəyə alınmışdı deməsi çox gülünc gerünür. Kazarmalardan çıxmaq lazım gələndə (20-nə keçən gecə) onlar çıxdılar. həm də gülməli şəkildə sadə: zəif hasarı tanklarla dağıtdılar və avtomobil dayanacağından maşınların üstü ilə küçənin genişliyinə çıxdılar".

Böyük, çoxmillətli şəhərdə talanlar təşkil etmək mürəkkəb iş deyil. Xüsusilə də bu şəhərdə məhrumiyyətlərə düçar olmuş adamlardan ibarət kriminogen böhran kütlə yaranıbsa. Rusiyanın ən yeni tarixində buna dair rüsvayçı misallar az deyil. Və təşkil olunmuş qalmağalların hər birində bir qayda olaraq milis (nə vaxtsa-polis) fəaliyyət göstərmir, ordu isə heç mühasirədə olmasa da kazarmalardan çıxmır. Yeri gəlmişkən, Bakıda hərbi hissələrin və yolların blokadası yanvarın 16-da, SSRİ Ali Soveti rəyasət heyətinin Dağlıq Qarabağda və Azərbaycanın bir sıra başqa [114 - 115] rayonlarında fövqəladə vəziyyət tətbiq edilməsi barədə Fərmanı çıxdıqdan sonra başlandı. Adamları narahat edən Fərmanın Bakıda da fövqəladə vəziyyət tədbiq edilməsini tövsiyə edən yeddinci bəndi idi. Bir halda ki, talanlar qurtarıbdır, bu nə üçündür? Yanvarın 16-da

evsiz-eşiksizlər tərəfindən Bakıda boş qalmış bir neçə erməni mənzili tutuldu. Bir il əvvəl Ermənistandan gələn qaçqınlar şəklində qoyulmuş dinamit partladı.

Qoşun yeridilməsinə üç gün qalırdı. Bu müddətdə raykom binaları boşaldı və nəhayət, MK binası da blokadaya alındı. hakimiyyət sözün əsl mənasında göz önündə dağılırdı. MK binası qarşısındakı çoxsaylı kütlə vahiməli "İstefa" tələbini qışqırırdı.

Həmlədən və milislə toqquşmadan sonra Cəlilabadda rayon partiya komitəsinin binası ələ keçirildi. Lənkəran əhalisi şəhər partiya komitəsini və onunla birlikdə bütün dövlət müəssisələrini ləğv etdi. Xalq Cəbhələrinin təzyiqi altında Azərbaycanın bir çox şəhərlərində və rayon mərkəzlərində Konstitusiyanın altıncı maddəsi ləğv edilirdi, keçmiş aparat işçiləri çayxanalarda oturur və gözləyirdilər ki, kimsə əli avtomatlı gələcək, külli gəlir gətirən hakimiyyət kreslolarını onlara qaytaracaqdır.

"Kim deyir ki, biz hakimiyyəti vermək fikrindəyik,—deyə Əbdürrəhman Vəzirov nomenklaturadan soruşurdu. Moskvada və Bakıdakı çıxışlarında özünün irəli sürdüyü "Dağlıq Qarabağ bizə sosial və iqtisadi məsələləri həll etməyə imkan vermir" tezisini Vəzirov 180 dərəcə döndərdi. "Sosial və iqtisadi problemlər, mitinqlər və tətillər bizə Dağlıq Qarabağ məsələsini həll etməyə imkan vermir". Siyasi təlxək MK-dakı aktivlərdə "ümumi düşmənlə birləşmək" tezisini ciddi-cəhdlə təkrar edirdi. Rsspublikanın Xalq Cəbhəsi tərəfindən ayağa qaldırdığı xalq isə açıq-aşkar ümumi düşmən elan olunurdu.

1990-cı il yanvarın 13-də Bakı ermənisinin öz mənzilində onu tutmaq üçün gəlmiş Ermənistandan olan qaçqınlara müqavimət köstərərkən balta ilə onlardan birini doğraması xəbəri mitinq keçirilən meydana çatdı. Orada isə hər şeyini itirmiş, ürəkləri narazılıq və nifrətlə dolu, allahdan və dövlətdən imdad istəyə-istəyə evsiz və eşiksiz gəzən, hakimiyyət strukturlarının törətmək istədikləri qalmaqallar üçün ideal icraçılar ola biləcək yüzlərlə cəlayi-vətən var idi. Vəzirova məlumat çatanda ki, talançılar dəstəsi erməni kilsəsinə tərəf üz tutub o, balaca əlini yelləyərək, "qoy nadincliklərini etsinlər" — dedi.

Sonralar SSRİ xalq deputatı yazıçı Anar Kremldə Mixail [115 - 116] Qorbaçova sual verdi: "DİN-in hesablamarına görə talanlarda beş minədək adam iştirak etmişdi. Şəhərdə isə daxili qoşunların on iki mindən çox əsgəri var idi: hər talançıya ikidən artıq. Onlar nə üçün talanları dayandırmadı, işə qarışmadı?" Prezident və Baş katib əllərini yelləyərək dedi:"Doqrudan da, nə üçün?".

Cavab birdir: Müxtəlif istiqamətli siyasi qüvvələr və yenidənqurma xadimləri əllərində heç zaman quran tutmamış və Ermənistanda heç elementar dini savadın belə üzünü görməmiş, özlərinə yer tapa bilməyən qaçqınlar kütləsinin Bakıda yaratdığı kriminogen vəziyyətə çox ümid bəsləyirdilər və qalmağalları elə başlanğıcdaca dayandırmaq onların maraqlarına uyğun gəlmirdi. Bakı rayonlarının partiya hakimiyyət orqanları talançıları erməni millətindən olan sakinlərin ünvanları və telefon nömrələri ilə təmin edirdi. Erməniləri üç gün dostları, azərbaycanlı qonşuları və Xalq Cəbhəsinin fəalları gizlətdilər.

İnsanların antikommunist əqidələr və milli müstəqillik ideyası ətrafında birləşdiyi Pribaltika respublikalarından fərqli olaraq Azərbaycanın xüsusiyyəti ondan ibarət idi ki, yenidənqurma proseslərinə dair boşboğazlıqlarla iki il ərzində xalqı tarixən özününkü olmuş torpaqlar uğrunda mübarizəyə sürükləyirdilər. Əvvəlcə mitinq və nümayişlərdə, sonra isə silahlı mübarizəyə dinç əhalini də cəlb etməklə Dağlıq Qarabağdakı azərbaycanlı kəndləri ətrafındakı atışmalarda. Dinc əhali kənd təsərrüfatı alətləri əvəzinə divardan asılmış qoşalüləni əlinə almağa məcbur oldu.

Və indi Bakının növbəsi çatdı.

Ordu gəldikdən və dəhşətli qanlı hadisələr baş verdikdan sonra çayxanada gün keçirənlər rus süngülərinin köməyi ilə öz kabinetlərinə qayıtdılar və hakimiyyətdəkilər çevriliş cəhdi barədə danışmağa başladılar.

26 Bakı komissarları rayon partiya komitəsi katiblərindən biri V. Lomakin 1990-cı ilin yanvarında keçirdiyi şok hissindən sonra təəccüblə mühakimə edirdi: "Əgər bu barədə (çevriliş — *Y.P.)* əvvəlcədən bilirdilərsə, onda biz yenə nəyi gizlədirdik? Niyə televiziya işləmirdi, radio verilişlərinin ruporları bu barədə var gücü ilə qışqırmırdı, şəhərə milyonlarla vərəq səpilməmişdi ki, hər kəs oxuya və baş verən hadisələrin məğzini dərk edə bilsin? Axı, müxtəlif səviyyəli partiya işçilərinin əhval-ruhiyyəsindən belə görünürdü ki, MK-da qərarlar əvvəllər olduğu kimi yenə də kollegiallıq əsasında deyil, təkbaşına rəhbərlik şəraitində qəbul olunmuşdu. Respublikanın bir nömrəli rəhbərinin belə bir böhran vəziyyətində, insan qanı [116 - 117] tökülməsindən qaçmağın hələ mümkün olduğu bir vaxtda xalq. qarşısına çıxmaması bunu bir daha təsdiq edir".

Bu yerdə nə demək olar? Katib Lomakin retroqradlardan deyildi, o zaman 1990-cı ilin yanvarında Vəzirovun Sov.İKP sıralarından çıxarılmasına səs vermişdi. Lakin əlində Konstitusiyanın hələ ləğv olunmamış altıncı maddəsi olan Moskva ilk partiya təşkilatının bu qərarını təsdiq etmədi.

Ermənistan Ali Sovetinin DQMV xalq təsərrüfatı planının Ermənistan büdçəsinə daxil edilməsi barədə qərarı Bakı faciəsinin baş verməsinə kömək etdi. Azərbaycanda seçkilər haqqında qanunun qəbul edilməsi də ehtirasları qızışdırdı: Xalq Cəbhəsi seçicilərin səsi uğrunda mübarizəyə qoşuldu.

Lakin ən əsası kütləvi informasiya vasitələrində 1990-cı ilin əvvəlindən başlamış antiazərbaycan psixozunun daha da qızışdırılması idi. Q. Starovoytova yanvarın 7-də Ermənistan Ali Soveti ilə DQMV Milli

şurasının (1989-cu ilin dekabrında hələ Volski dövründə belə bir monoetnik struktur da yaranmışdı) birləşmək haqqındakı birgə qərarını bəyanərək qeyd etmişdi: "Dağlıq Qarabağın Ermənistana iqtisadi, sosial və mədəni inteqrasiyası sahəsində real iş gedir".

Ermənistandan SSRİ xalq deputatı Q. Starovoytova öz mühakimələrində Azərbaycana hansı yer ayırırdı? Buyurun baxın: "Azərbaycan öz respublikasının suverenliyini müdafiə edir, lakin vətəndaş cəmiyyətinin əsası olan millətin öz müqəddəratını təyin etmək hüququ dövlət suverenliyi ideyalarından yüksəkdə durur". Başqa sözlə, ermənilərin hüququ Azərbaycanın suverenliyindən yüksəkdə durur və cəhənnəm olun siz, SSRİ Konsititusiyası, Azərbaycan SSR Konstitusiyası və hamılıqla qəbul olunmuş federativ birgəyaşayış normaları ilə birlikdə. Yeni demokratların bu cür qətiyyətliyi və özbaşınalığa çağırışı (Q. Starovoytovanın səsi burada kamerton rolunu oynayırdı) Kremlə sübut edirdi: bir halda ki, siz başqa ucqarlarda anarxiya baş verəcəyindən qorxaraq DQMV və Naxçıvan sərhədlərini Ermənistanın xeyrinə dəyişməyə razı olmursunuz, biz istəsək bu ondan da ağır nəticələr verə bilər. Qərara gəlin!

Sərhədlərin yenidən dəyişdirilməsi Ermənistanın özündə və Moskvada regionlararası deputatlar qrupunda milli nüfuz və demokratik özünəvurğunluq məsələsi səviyyəsinə çatdırılmışdı, daşnakçı qüvvələr isə belə bir prinsiplə işləyirdi: yola gəlmirsinizsə daha pis olacaq.

Hələ 1989-cu ilin oktyabrında o zaman "Moskovskaya tribuna"nı təmsil edən iqtisad elmləri doktoru Viktor Şeynis Moskvada Azərbaycan qadınları ilə görüşdə natiqlik edirdi: "Verin Qarabağı Ermənistana, yoxsa pis olacaq, qan töküləcək, ikinci Sumqayıt baş verəcək!" [117 - 118]

Budur, baş verdi ikinci Sumqayıt, amma bu dəfə Bakıda, qara yanvar günlərində. Qan tökülməsi yenə də planlaşdırılmış idi.

Rus ədibləri, mədəniyyət xadimləri də antiazərbaycan ehtiraslarına öz cinayət möhürlərini vurdular. Bununla bağlı iki misal üzərində dayanacağam.

Lenin adına Sovet Uşaq Fondunun o zamankı sədri Albert Lixanov "Semya" həftəliyində sual işarəsi altında belə bir ifadə işlətdi: "Kim təqsirkardır ki, bu gün balaca azərbaycanlı öz həmyaşıdı — erməniyə çətin izah olunan bir nifrətlə baxır". Bir halda ki bu uşaq yazıçısı son iki ildə Azərbaycanda olmamışdı, bəs balaca azərbaycanlını harada görmüşdü? O ki, Ermənistandan — öz doğma torpaqlarından qovulmuş azərbaycanlı uşaqların qarlı aşırımları ayaqyalın keçdiklərini görməmişdi. Niyə onu yalnız çox əzabkeş erməni uşağının taleyi narahat edir? Albert Lixanov vicdanlı adam olsaydı, başqalarının dediklərinə züy tutmasaydı, tamamilə obyektiv şəkildə belə yazardı: "Kim təqsirkardır ki, bu gün balaca azərbaycanlı və balaca erməni biri-birinə çətin izah olunan. bir nifrətlə baxır?" Bu elə sual idi ki, cavabını doğrudan da həmin Moskvada, qapısını Uşaq Fondu sədrinin dəfələrlə döyməli olduğu həmin kabinetlərdə axtarmaq lazımdır.

Yox, Albert Lixanov sən demə, təkcə böyüklərdən deyil, uşaqlardan da adamyeyən azərbaycanlı obrazı yaratmaq üçün öz payına düşən işi gördü.

Bakının qanlı yanvar hadisələrində günahsız uşaqların da qanı töküldü: 15 məktəbli yaralandı, üçü həlak oldu. Nə idi onların günahı?

Dünya miqyaslı tanınmış akademik, çox təmiz adlı rus ziyalısı Dmitri Sergeyeviç Lixaçov ya fikir dağınıqlığından, ya da "Literaturnaya qazeta"nın xüsusi müxbirinin yaranmaq üçün onun adına yazmasından bütöv bir xalqın mənliyini və ləyaqətini təhqir etdi:

"Hərgah azərbaycanlılar erməni mədəniyyətini bilsəydilər, qədim erməni kilsələrini uçurmağı özlərinə rəva bilməzdilər".

Talan günlərində Bakıda bir erməni kilsəsinə zərər dəymişdi və yuxarıda dediyim kimi onun təqsirkarı balaca əllərini yelləyərək "Eybi yoxdur, qoy nadincliklərini etsinlər" deyən olmuşdu. Nə bu Moskva nümayəndəsinin, nə də cəzasızlıqdan qızışmış bandit dəstəsinin azərbaycan xalqına aidiyyatı yoxdur. Bu hadisəyə yol verən hakimiyyət də, onun hüquq müdafiəçiləri də cinayətkardır.

Nikolay Samvelyanın həmmüəllifi akademik Lixaçova məlum olmalı idi ki, Azərbaycan poeziyasının dahi klassiki Aşıq Ələsgərin Göyçədəki (Sevandakı) qəbrindən nə qaldı, Səməd Vurğuna Ermənistanın Meğri rayonunda qoyulmuş heykəl haradadır [118 - 119] və nəhayət Yerevandakı Azərbaycan Dram Teatrının taleyi necə oldu? Dediklərim istənilən qərəzsiz tədqiqatçının kədərli dəqiqləşdirmələridir. Təəssüf ki, onları dağıdanlar nəyə əl uzatdıqlarını, bu yadigarların və müqəddəs yerlərin qonşu xalq üçün nə olduğunu gözəl bilirdilər. Axı, otuzuncu illərin əvvəllərində Moskvada Lazar Kaqanoviçin və Anastas Mikoyanın əmri ilə partladılmış Xilaskar İsa kilsəsi də allahı tanımayan totalitarizm dövründə bu məbədin üsyançı rolunu başa düşən gerostratların qurbanı olmuşdu. Təkcə mədəniyyəti bilmək vacib deyil, həm də cəmiyyət və hakimiyyət mənəviyyatı olmalıdır. Şair Siyavuş Məmmədzadə yazdığı açıq məktubla akademik Lixaçova cavab verirdi: "Sizi inandırıram ki, bizim xalq (kiçik talançı dəstəsi yox, xalq) əsrlər boyu yanaşı yaşadığı qonşu xalqın mədəniyyətini bilir... Əkinçilərin əmək mahnıları "Orovel" və "Holovar"ı dinləyin, xalq rəqsləri "Köçəri" və "Yallı"nın musiqisinə, Xaçaturyanın "Qayane" baletində və Spendiyarovun "Anuş" operasında dəyişdirilmiş Azərbaycan motivlərinə qulaq asın, Cəlil Məmmədquluzadənin 1918-ci ildə yaratdığı kiçicik "Kamança"

pyesini yada salın (burada oxuyan simlər düşmənçilikdən gözü tutulmuş ürəklərdə xeyirxah, gözəl hisslər oyadır və siz qarşınızda heç də milli qəfəslə məhdudlaşmamış mənəvi yaddaş fəzası görəcəksiniz)".

"Literaturka" bu cavab məktubunu dərc etmədi və Dmitri Serkeyeviç Lixaçovun əslində dağıdıcılar dəstəsi ilə eyniləşdirdiyi çoxəsrlik mədəniyyətə malik Azərbaycan xalqı haqqında mülahizələri akademikin çoxdilli ölkədə yaşayan istənilən xalqın şərəfini əziz tutan vicdan carçısı olması barədə təsəvvürləri şübhə altına aldı.

İki il sonra Ermitaj teatrında Nizami Gəncəvinin xatirə gecəsində iştirak edən akademik Lixaçov təntənədə iki söz belə demədən zalı tərk etdikdə bu şübhələr bir az da möhkəmləndi. 1990-cı il yanvarın ortalarında milli düşmənçilik alovunun kənardan gətirildiyini hətta "Pravda" qəzeti də gizlətmirdi. Onün xüsusi müxbirləri A. Qoroxov və V. Okulov belə yazırdılar: "Ermənistandan ölüm qoxusu altında sənaye şəhəri Bakıya qaçmış əkinçini — ev-eşiyini itirmiş və siyasi hazırlığı bir qayda olaraq idealdan uzaq olan adamı daşı uçuruma buraxan kimi, qanunazidd hərəkətlər burulğanına itələmək çoxmu çətin idi, qəzəbdən od tutmuş, taleyindən, ermənidən və nəhayət Sovet hökumətindən küsmüş bir adamı *iğtişaşlara təhrik etmək* (kursiv mənimdir — *Y.P.)* çoxmu çətin idi?

Axı, Bakıda yanvarın 13-dən 14-ə keçən gecə baş vermiş talanların və oğurluqların hərəkətverici qüvvəsi məhz Ermənistandan gələn bir qisim qaçqın olmuşdu" — deyə "Pravda"nəticə çıxarırdı. [119 - 120]

Azərbaycanın mitinqli paytaxtının o günlərdəki əhval-ruhiyyəsini daha aydın təsəvvür etmək üçün bir mühüm faktı da qeyd etmək lazımdır. 1990-cı il yanvarın 12-də Ermənistandan uçub gəlmiş bir neçə vertolyot Xanlar rayonunun Quşçu kəndi yaxınlığında yerə endi. Müasir silahlarla silahlanmış adamlar vertolyotdan düşərək dinc əhalini avtomat və pulemyot atəşinə tutdular. Basqının lap əvvəlində onlarca adam öldü və yaralandı, içərilərində qadınlar, uşaqlar və qoçalar vardı. Ov tüfəngi ilə silahlanmış yerli əhali müdafiəni təşkil edə və terrorçulara layiqli cavab verə bildi. Səhərisi gün "Azadlıq" qəzeti oxuculara müraçiətlə çıxış etdi: "Beləliklə, Ermənistanın azərbayçan xalqına qarşı elan olunmamış müharibə apardığını göstərən daha bir fakt göz qabağındadır. Ermənistanın bunu elan etməməsi başa düşüləndir, bu barədə Moskva susur, ona da vərdiş etmişik. Bəs bizim öz rəhbərliyimizin bu haqda susmasını necə başa düşək? Yaranmış şəraitdə onun cinayətkarcasına fəaliyyətsizliyini necə başa düşək? 0, öz xalqının emosiyaları ilə oynamaqla sabahkı qantökülməyə kömək etmirmi?" Yazı "Hamı Vətənin müdafiəsinə!" çağırışı ilə bitirdi.

AXC sədrinin müavini və milli müdafiə komitəsinin üzvü, ixtisasca tarixçi, iki uşaq atası Etibar Məmmədov Moskvada Azərbaycan SSR-in daimi nümayəndəliyində həbs olunmazdan əvvəl baş vermiş hadisəni "Moskovskaya tribuna" klubunun iclasında izah etdi. O günlərin həqiqəti belə idi:

E. Məmmədovun sözünə görə Bakıdakı aksiya çoxdan hazırlanırdı. AXC-də İttifaq çərçivəsində olmayan suverenlik uğrunda proqram məqsədlərinə nail olmaq istəyən qüvvələr üstünlük təşkil etdikdə şərait dəyişdi.

Bununla da Azərbaycandakı demokratik hərəkat özlərinin Pribaltikadakı həmfikirlərini qabaqladı: onlar hələ Moskvadan iqtisadi suverenlik tələb edirdilər.

AXC-nin üçüncü konfransının 1990-cı il yanvarın 6 — 7-nə təyin edildiyi məlum olandan sonra konfransı pozmaq və hərəkatı parçalamaq cəhdi edildi. Yanvarın 8 -də Xalq Cəbhəsinin məclisi seçildi və parçalanma baş vermədi. Seçkilərdə AXC-nin üstünlük qazanacağı aydın oldu və bundan sonra Azərbaycanda fövqəladə vəziyyət tətbiq etmək aksiyası başlandı. həmin günlərdə Etibar Məmmədov erməni talanlarının hazırlandığı barədə şəxsən daxili işlər nazirinin müavinini xəbərdar etdi, lakin heç kim heç bir tədbir görmədi.

DQMV sərhədlərindən kənarda yerləşən Quşçu kəndi yaxınlığına vertolyotlarla desant çıxarıldıqdan sonra (erməni boyeviklərinin sayı 500-ə yaxın idi) AXC idarə heyəti özünümüdafiə dəstələri təşkil etmək qərarına gəldi. AXC liderlərinin respublika rəhbərliyi ilə görüşü zamanı Etibar Məmmədovun [120 - 121] dediyinə görə rəhbərlik elan etdi: biz sizin gəncləri DİN-ə cəlb etməyə və hərbi fəhlə drujinaları təşkil etməyə hazırıq.

Yanvarın 12-də Milli Müdafiə Komitəsi yaradıldı və bu haqda yanvarın 13-də məlumat verildi.

Sözü Etibar Məmmədova verək:

"Elə həmin gün mitinq və eyni vaxtda erməni əhalisinin talan olunması başlandı. Mən Daxili İşlər Naziri A. Məmmədovdan Bakıda qayda-qanun yaratmaq üçün bizim dəstələri cəlb etməsini və Bakıda olan daxili qoşun kontingentini işə salmasını tələb etdim. heç bir hərəkət olmadı. Gecə mən özüm şəhəri gəzdim, mən nə bir əsgər, nə də bir patrul maşını görmədim. Vağzal ətrafında iki ermənini öldürdülər, benzin töküb yandırdılar. Yaxınlıqda Nəsimi rayon milis şöbəsi, içərisində də daxili qoşunların 500 əsgəri vardı, onlar heç nə etmədilər, maşınla yandan keçdilər, kütləni də gördülər. Hakimiyyət orqanları heç bir hərəkət göstərməyə cəhd etmirdilər. 13-də və 14-də talanlar davam etdi. 15-də bizim dəstələr şəhərə nəzarət eetməyə başladı. Tək-tək boş evlərin talan edilməsi oldu, insan təlafatı isə praktiki olaraq olmadı. Biz ermənilərin təhlükəsiz yerlərə köçürülməsinə başladıq".

1990-cı il yanvarın 15-də Azəpbaycanda fövqəladə vəziyyət tətbiq edildi: Leninqrad canişini Qriqori Romanov demişkən işlər buna gedirdi. Bakıya gəlmiş siyasi Büro üzvləri Y. Primakov və A. Girenko AXC

rəhbərlərini danışıqlara dəvət etdilər. Primakov elan etdi ki, "seçgilərdən sonra sizin ayrılmanıza bir addım qalır. Biz buna yol verə bilmərik və yol verməyəcəyik".

Bəs AXC liderləri nə etdilər? Etibar Məmmədovun söhbətini davam edək:

"Biz Bakıda və başqa rayonlarda vəziyyəti nəzarət altına almağı təklif etdik. Bizə vəd etdilər ki, Bakıda komendant saatı olmayacaq və qoşun yeridilməyəcək. Lakin, yanvarın 15-də axşam bizə hava, dəniz və dəmir yolu ilə ağır silahlı və texnikalı ordu hissələrinin gəlməsi barədə məlumatlar daxil oldu. Onda biz yolları blokadaya almağa başladıq. 16-dan 17-nə keçən kecə: şəhərin blokadasını yarmaq və qoşun yeritmək üçün ilk cəhdlər, hökumətin və respublika rəhbərliyinin istefasını tələb edən nümayişlər; hökumət və rəhbərlik qoşun yeridilməsinə artıq şifahi razılıq vermişdi. 17-də axşam MK binası qarşısında Y. Primakov çıxış etdi, dedi ki, ordu xalqı qorumaq üçün lazımdır. Onu fitə basdılar və getdi".

Həmin gün axşam AXC liderləri Azərbaycan Kommunist Partiyasının MK binasına dəvət olundular. Mitinq edənlərin əsas tələbləri Vəzirovun istefası idi. Sov. İKP MK katibi A. Kirenko orada olanlara dedi: "Biz rəhbərliyin dəyişdirilməsi [121 - 122] məsələsinə baxırıq. Lakin biz onu heç vaxt kütlənin təzyiqi ilə etməyəcəyik. Yol verilməməlidir ki, Azərbaycan rəhbərliyini Sov. İKP MK deyil, binanın qarşısına toplaşmış kütlə dəyişsin".

Hələ bir gün yarım da vardı. Dağlıq Qarabağda gərginlik azalmırdı. Gecə atışmalarından başqa diversiyaların da sayı artdı. Ağdam və Əsgəran arasındakı şose yolunda dəmir-beton körpü partladıldı, Ağdamın beş kilometrliyindəki dəmir yol körpüsündə də güclü partlayış oldu, Xocalı kəndi yaxınlığındakı dəmir yol körpüsünün mühafizəçilərinə atəş açıldı.

1990-cı il yanvarın 15-də Leninqrad televiziyasının "Pyatoye koleso" proqramında SSRİ xalq deputatı Anatoli Sobçak Azərbaycanda olan 600 min rusu çox pis tale gözlədiyi barədə fitnəkar bəyanatla çıxış etdi. Bu bəyanat Bakıdan əvvəlcədən hazırlanmış ünvanlar üzrə hərbçi ailələrinin təxliyyəsi barədə verilən məlumatlarla eyni vaxta düşdü. Bu təkcə Rusiyanı deyil, bütün dünyanı azərbaycanlılar əleyhinə çevirmək üçün qaçqınlar probleminin süni olaraq şişirdilməsində ilk priyom deyildi.

Yanvarın 18-də Bakı qarnizonunun komandiri general Sokolov Etibar Məmmədova xəbərdarlıq etdi: biz əmr alsaq, heç kimə rəhm etməyəçəyik, biz əsgərik və əmri yerinə yetirəcəyik.

Elə həmin gecə Sov. İKP MK-nın millətlərarası münasibətlər şöbəsinin müdiri Mixaylov respublika televiziyası ilə çıxışında elan etdi ki, Bakıya qoşun yeridilməsi barədə danışıqlar əsassızdır və hətta fitnəkarlıqdır. Buna baxmayaraq qoşunların şəhərə girəcəyi güman edilən yerlərdə Xalq Cəbhəsi mülki əhalidən ibarət piketlər qoymuş, minik və yük avtomobilləri düzmüşdü.

Yanvarın 19-da Salyan kazarmalarından M. Qorboçovun və D. Yazovun ünvanına teleqram köndərildi. Onu zabitlər yığıncağının sədri A. Savelyev və ümumqoşun məktəbinin siyasi şöbəsinin rəisi A. Rusakov imzalamışdı. Hər ikisinin polkovnik rütbəsi vardı və keçmiş "əfqanlar" idilər. Onlar xoşagəlməz həqiqəti deməklə allahın və adamların unutduğu bir qornizonda hərbi xidməti başa vurmağa hazır olanlardan idilər.

"Sizin nəzərinizə çatdırırıq ki, şəhərdəki vəziyyətə nəzarət Xalq Cəbhəsinin əlindədir. Mərkəzi mətbuat informasiyanı heç də həmişə obyektiv vermir və bu yerli əhalidə narazılıq yaradır. Belə hesab edirik ki, silahlı qüvvə tətbiq etmək hərbçilərin sadəcə təcrid sdilməsinə gətirib çıxaracaq, onların ailələrinin təhlükəsizliyini qorxu altına alacaq, antirus əhval-ruhiyyənin güclənməsinə səbəb olacaqdır".

Dmitri Yazov həmin gün, yanvarın 19-da Vadim Bakatin və Yevgeni Primakovla birlikdə Bakıda, ordu qərargahında idi. Əbdürrəhman Vəzirov və əlaltıları da MK binasından gələcəyin marşalı Yazovun əməliyyata şəxsən rəhbərlik etdiyi bu qərargaha [122 - 123] keçdilər. AKP MK-nın ikinci katibi V. Polyaniçko saat 17-də Etibar Məmmədovla şəxsi söhbətində dedi: "Məsələ həll olunub, qərar qəbul edilib, heç nə etmək olmaz. Köhnə dostluğumuz xatirinə qaçıb gizlənməyi məsləhət bilirəm".

Televiziya binasına özlərini Xalq Cəbhəsinin nümayandələri adlandıran naməlum şəxslər daxil oldular və elan etdilər: telestudiyanı bağlamaq və tətil elan etmək lazımdı. Bunu bildikdə, Etibar Məmmədov Respublika Dövlət Teleradio komitəsinin sədri Elşad Quliyevə zəng vurdu və əməkdaşların geri qayıtmasını təklif etdi: axşam biz xalqa müraciətlə çıxış edəcəyik.

Saat 19.15-də televiziya mərkəzinin enerji bloku partladıldı. Tezliklə qoşunların şəhərə yaxınlaşması barədə məlumatlar daxil olmağa başladı, əsas yollarda mağaza taralarından simvolik barrikadalar yaranırdı.

Etibar Məmmədovun dediyinə görə saat 00.05-də AXC-nin milli müdafiə komitəsi qərargahı binasının yanında 500-dək hərbçi düzüldü və onlar bir kəlmə demədən binaya və onun ətrafında olan adamlara şiddətli atəş açdılar, gecəni səhərədək qərargahı məsafədən atəşə tutdular. AXC liderlərini gizli yollarla aradan çıxardılar.

Əməliyyat 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecəyarı şəhərin müxtəlif ətraflarından eyni zamanda başlandı. Əməliyyat həyasızcasına, qanlı divan tutmaqla və qabiliyyətsiz həyata keçirildi. Bundan əvvəl Rusiyanın erməni diasporu nəzərə çarpacaq səviyyədə olan cənub vilayətlərindən (Stavropol və Krasnodar diyarları, Rostov vilayəti) ehtiyatda olan hərbçilərin səfərbərliyi keçirilmişdi.

Sov. İKP MK-dakı görüşdə Rostov vilayətindəki şaxtalardan birinin təmizləmə quyusunun dağ-mədən fəhləsi Leonid Krivenda hiddətlə deyirdi:

"Bakıdakı fövqəladə vəziyyətlə bağlı ehtiyatda olanların səfərbərliyinə dair sonuncu tələm-tələsik əmr Rostov vilayətində bizə çox güclü zərər verdi. Yəqin ki, heç 37-ci ildə də adamları bu çür — gecələr milis maşınları ilə yığmırdılar. Həmin səfərbər olanlar içərisində təəssüf ki, ölənlər və yaralananlar var. Adamların bu hadisəyə münasibəti çox müxtəlifdir. Şaxtalarda tətil etdilər. Qadınlar çox hiddətlənmişdilər, bütün mərkəzi küçə qadınlarla dolu idi. Mən Mixail Sergeyeviçə sual verdim: son nəticədə bu aksiyanın müəllifi kimdir, axı, səfərbərlik haqda fərman olmamışdı, yalnız Bakıda qayda-qanünu bərpa etməyə dair fövqəladə tədbirlər haqqında fərman verilmişdi. Səfərbərlik haqda qərarı kim qəbul etdi? O, etiraf etdi: [123 - 124] hə, burada biz işləri korlamışıq, lakin bu qərarı qəbul edən konkret şəxsin adı çəkilməmiş qaldı".

Ali Baş Komandan şaxtaçıya qərarın müəllifi özü olduğunu deyə bilməzdi ki,...

Bakının hərbi komendantı — daxili qoşunlar general-leytenantı V. S. Dubinyakın aşağıdakı suallara cavabı da xarakterikdir: "Şəhərə qoşun yeridilməsinin alternativi vardımı, ordu şəhərə niyə gecə girdi, onlar niyə hələ erməni talanları günlərində yeridilmədi, nə üçün qoşun yeridilməsi saat 00.24 dəqiqədə başlandı, bu haqda qərar isə radio ilə səhər 5.30-da bildirildi?".

Dubinyak: "Bu suallara cavab verməyəcəyəm. O səbəbdən ki, mən artıq qoşun yeridildikdən sonra hərbi komndant təyin edilmişəm".

General-leytenant marşal Yazovun əvəzinə cavab verə bilməzdi ki,...

Amma Bakının rus dilli əhalisi arasında təlaş olması və hərbçi ailələrinin təxliyyəsi barədə deputat Sobçakın proqnozu haqda Dubinyakın fikirləri əhəmiyyətlidir.

Dubinyak : "heç bir təxliyyə olmamışdı. O heç elan olunmamışdı və təşkil edilməmişdi. Lakin çoxlu hərbçi ailələri fövqəladə vəziyyətin ilk günlərində həqiqətən Bakıdan çıxıb getmişdilər. Buna səbəb onların ünvanına söylənilən hədəqorxular və praporşik arvadının həlak olması olmuşdur. Lakin sizə tam məsuliyyətlə deyirəm ki, fövqəladə vəziyyət tətbiq edilən andan yuxarıda dediyim faktdan başqa bir nəfər də olsa rus zərər çəkməmişdir. Bizə-komendantlığa hər gün köklü bakılılar zəng edir, şaiyələrin yayılması və təlaş yaradılmasından ürəkdən qəzəblənir, Bakının rusdilli əhalisini qoruyub saxlamaq istədiklərini deyirdilər".

Hər şey üçün AXC liderlərini günahlandırırdılar: fanatikdirlər, adamları tankların və beteerlərin altına uzanmağa məcbur ediblər.

Qəribədir ki, Tbilisidəki aprel qırğınından bu qədər yazan kütləvi informasiya vasitələrindən heç biri Azərbaycan Xalq Cəbhəsi liderlərinin müdafiəsinə qalxmadı, sanki bir demorkasiya xətti çəkirdilər: "Siz özünüzü bizim kimi demokratlar hesab edirdiniz? Düşünürsünüz ki, sizin də Xalq Cəbhəsi yaratmaq hüququnuz var, ağ adamlarda olan kimi?Yox, siz başqasınız, həmişəlik başqasınız!"

Azərbaycan gözlənilmədən onun üçün şok vəziyyəti yaradan və "qara yanvardan" iki il sonra xristian-yəhudi ittifaqının [124 - 125] antiislam fundamentalizmi şəklində təzahür etmiş dünya konfrontasiyasının önünə çıxdı. Və bu, Qərbin kommunist təhlükəsi ilə mübarizəsini əvəz edən kifayət qədər ciddi yeni doktrina idi.

Hətta, Bakı televiziya mərkəzinin enerji blokunun partladılması kimi təmamilə aşkar süjet də qəzet hayküyünün predmeti olmadı. Partiya rəhbərliyinin versiyası ("ekstremistlər partlatdı") üstün gəldi və yalnız "Komsomolskaya pravda" tapılmış şahidin — növbətçi elektrik montyoru Viktor Romanovun sözləri ilə onu bir azca şübhə altına aldı.

Viktor Romanov isə belə şahidlik edirdi: "Mən yanvarın 19-da saat 19-da növbəyə başladım. Bir on beş dəqiqədən sonra sexin içinə silahlı dörd əsgər girdi. Onlar enerji mənbəyinin sxemi ilə maraqlandılar, ayrı-ayrı gözləri açaraq rabitə kabelinin haradan keçdiyinə baxdılar, başqa suallar verdilər. Sonra dedilər: "Sizi komendant çağırır". Növbə yoldaşım ilə birlikdə bizi zirzəmiyə apardılar və mühafizə etmək üçün başqa əsgərlərə təhvil verdilər, onlar çox idilər. Özləri geri qayıtdılar. Bir neçə dəqiqə sonra mən boquq partlayış səsi eşitdim. Bizi təqribən. daha bir saat buraxmadılar. Sonra isə hərbi forma keyindirdilər ("Sizin təhlükəsizliyiniz üçün") və Az.SSR Ali Sovetinin qonşuluqdakı binasına apardılar".

Həmin yanvar qarmaqarışığında Romanovu yaddan çıxardılar; o, gizli həyat keçirir, tanışların evlərində yaşayırdı. SİTA-nın bəyanatında isə "cinayətkar qüvvələrin radioteleviziya mərkəzini tutmaq üçün birbaşa hərəkətləri" barədə fikir deyilirdi. Sən demə o, heç tutulmayıbmış və üstəlik hərbi bölmə tərəfindən mühafizə olunurmuş, həmin gecə saat 20-də isə AXC-nin mühüm məlumat verəcəyi e'lan olunubmuş...

SSRİ-nin, indi isə demokratik Rusiyanın kütləvi informasiya vasitələrində qanlı Bakı yanvarını həqiqəti saxtalaşdırmaq və susmağın ciddi sistemi müşayiət edir. Xarici mətbuatın mövqeyinə gəldikdə isə, onu elə o zaman, yanvarın 24-də "Türkiş deyli nyus" qəzetinin baş redaktoru İlnur Çevik daha dəqiq ifadə etmişdi:

"Elə ki, 1968-ci ildə sovet tankları və ordusu Çexoslovakiyanın sərhədlərini keçdi, qərb ölkələri bu aksiyaya hiddətli reaksiya verdilər və Moskvaya etirazlarını bildirdilər... İndi, bir müddət keçəndən sonra həmin qızıl ordu Azərbaycan millətçilərini öldürə-öldürə onun ərazisində hərəkət edir, həmişə insan hüquqlarından danışan Qərb isə kənarda dayanıb əl çalır".

Müsəlmanlarla münasibətdə ikili standart və qəddarlığı müdafiə etmək o qədər aşkar görünür ki, 1990-cı ilin yanvarındakı Bakı faciəsi "xristian ittifaqının" siyasətbazları və [125 - 126] mədəniyyət xadimləri tərəfindən bu gün də mötərizədə işlədilir, sanki o heç baş verməmişdi, yaxud mülki əhaliyə qarşı zorakılıq insan hüquqlarını pozmamışdı.

Bu çür ideoloji ayrı-seçkilik şəraitində, 1990-cı il fevralın əvvəlində Leninqradda makinada yazılıb yayılan və "qanlı Mixailin özbaşınalığına" həsr olunmuş "Antisovetskaya pravda"nın vərəqləri peyda oldu. Bir adamın — Saşa Boqdanovun yazdığı, şəkillərini çəkdiyi və kserosurətini çıxardığı bu qəzetin birinci sütunu elə belə də adlanırdı: "Qanlı Mixailin özbaşınalığı". Bu qədər vaxt keçməsinə baxmayaraq bu qiymətli vərəqə özünün təkcə cəsarəti ilə deyil, həm də Saşa Boqdanovun gəldiyi nəticələrin və verdiyi siyasi qiymətlərin tam dəqiqliyi ilə adamı heyran edir.

"Antisovetskaya pravda"nın iki sütununa nəzər salaq. Budur Qorbaçov — onilliyin ən böyük adamı körpüdə duraraq yuxarıdan öz sadiq köpəklərini yemləyir. Onların bir çoxunun adı yazılmışdır. Borislər, Yeqorlar, Reket, Bahalıq, Qarabağ, Sovet faşizmi, Raisa Maksimovnanın (Pul) hesabları, DTK, Defisit, Sov. İKP-də parçalanma. "Cinayətkarlar ölkəni idarə edir" yazısında ordunun Bakıya yeridilməsi ərəfəsindəki siyasi vəziyyət felyetonsayağı təsvir edilirdi.

Yerevanda əllərində "Raisa, qaytar bizim hədiyyələrimizi" yazılmış qulaqbatırıcı transparant olan etiraz marşı dolanırdı. Bakıda Ermənistandan olan sinfi simasını itirmiş qaçqın-azərbaycanlılar kəzir və qışqırırdılar: "Raisa, qaytar ermənilərə onların hədiyyələrini!" "Vəzirovu işdən götürün və Dağlıq Qarabağa göndərin!" Moskvada noyabrın 7-də Telman Qdlyanın azğın dəstəsi veyillənirdi. Qabaqda əlində plakat tutmuş inqilabçı gedirdi. Plakatda Talmudun (yəhudilərin dini kitabının—*tərc.)* üz qabığı çəkilmiş, titul vərəqəsində isə "Mixail Qorbaçov. Skazki o perestroyke"... yazılmıçdı. Leninqrad irticaçılarının lideri, vilayət komitəsinin keçmiş birinci katibi Solovyovu partiya üzvlüyündən çıxarırlar. Lakin, Nina Andreyevanın məktubuna və ideolokiyanı dağıtdığına görə deyil, ona görə ki, Yuri Filippoviç 9 min "taxta" rubla özünə təptəzə "Mersedes" ələ keçirmişdi. Onunsa qiyməti ən aşağı meyarla ölçülsə belə ən azı yüz min idi. Cinayətkarlar ölkəni idarə edir!"

Və "Bakı qırğını" ("Bakinskaya boynya") başlığı ilə verilmiş yüksək səviyyəli publisistika:

"Bakıda 1990-cı ilin yanvarında SSRİ hökuməti iki cinayət törətmişdir. Birincisi—mərkəzi hökumət dinç əhalini çanilərin, fitnəkarların və aqressiv əhval-ruhiyyəli adamların törətdiyi [126 - 127] zorakılıqdan, talanlardan və öldürülməkdən mühafizə etmədi. Əhalini qarətlərdən mühafizə etmək əvəzinə hökumət Bakı milisini tərksilah etdi. halbuki, şəhərdə Ermənistandan qovulmuş, daldalanmağa yeri olmayan, işsiz 60 min azərbaycanlı qaçqın və 40 min yenə də evsiz-eşiksiz qalmış və yaşamağa vəsaiti olmayan məhsəti türkləri vardı. Çoxmillətli Bakı, hökumət tərəfindən aldadılmış, heç kimin kömək etmədiyi və heç kimin nəzarət etmədiyi adamlardan ibarət qaynar qazana çevrilmişdi. Azərbaycanda inqilab milli zəmində başladı, onun məntiqi nəticəsi isə hakimiyyətin hörmətdən düşmüş və ifşa olmuş köhnə aparatdan yeni ictimai hərəkata—Azərbaycan Xalq Cəbhəsinə keçməsi olmalı idi. Yalnız o, köhnəlmiş hakimiyyət strukturlarını əvəz edə, respublikanın bütün ərazisində qayda-qanuna və əhalinin təhlükəsizliyinə təminat verə bilərdi. Lakin bu, Zaqafqaziya respublikalarından birində kommunist rejiminin süqutu demək idi və başqaları üçün real sosializmdən həqiqi demokratiyaya inqilabi keçid nümunəsi olardı. Mixail Sergeyeviçin və Raisa Maksimovnanın şişirdilmiş Daqlıq Qarabağ problemi ətrafındakı fitnə fəsadı tam uğursuzluqla qurtara bilərdi və ola bilsin ki, bizim dövlətimizin tarixində Stavropol dinastiyasının sonu çatardı.

Və bu zaman onlar Sovet Timişuaresini düzəltdilər. Bizim xalqımıza qarşı ikinci çinayət törədildi, xalq demokratik inqilabı qan içində boğuldu, tankların altına salındı, diri hədəflərə atan snayperlər tərəfindən güllələndi".

MKİ (Mərkəzi Kəşfiyyat İdarəsi)—nin sərənçamında olan Amerika çəld əməliyyat qoşunlarının xəlvəti Qrenadaya və Panamaya soxulan dəstələrinin "vəhşi qazlar" adlandırıldıqını öz oxucularına xatırladan Saşa Boqdanov sonrakı materialını "Vəhşi qazlar Bizim Vətənimiz üzərində" başlığı ilə vermişdir:

"Müharibə — yenidənqurma siyasətinin başqa vasitələrlə davamıdır. Hərgah DTK belə qırğını Brejnevin vaxtında törətsəydi qərb ölkələri və bütün müsəlman dünyası öz səfirlərini Moskvadan geri çağırardı. İnsanlıqdan uzaq və cinayətkar sovet rejiminə qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq oluna bilərdi.

1990-cı il yanvarın 19-dan — 20-nə keçən keçə Bakıda lap qəssabxaia idi. Qorbaçov qrupu — Qorbaçov özü, Yazov, Kryuçkov, Bakatin, Primakov və Girenko öz xalqına qarşı hərbi əməliyyat aparırdı. Tanklar və zirehli transportyorlar adamların üstündən keçir, öz yolunda yüzlərlə adamı öldürür və şikəst edirdi. Döyüşçülər yaralanmış, ağrıdan qışqıran adamları yolun hərəkət hissəsindən götürməyə icazə vermirdilər. "Təcili yardım" maşınları [127 - 128] güllələnirdi, həkimlərdən ikisi yerindəcə öldürülmüşdü. həlak olanlar içərisində — yeddinci sinif şakirdi Larisa Məmmədova döş qəfəsindəki güllə yarasından öldü, 14 yaşlı İlqar İbrahimov morqa gətirildi, o da döşündən aldığı yaradan ölmüşdü. Öldürülənlər arasında qadınlar, qocalar, ruslar, yəhudilər, çeçenlər, azərbaycanlılar və gürcülər var. Ordu ən yeni döyüş vasitələrindən istifadə etmişdi. Adamlara tanklardan, minaatanlardan, qumbaraatanlardan, avtomatlardan atəş açmışdılar. Təkcə bir xəstəxananın reanimasiya şöbəsində iki sutka ərzində 29 adam öldü. 1990-cı il yanvarın 22-də Bakının Dağüstü

parkındakı 126 təzə qəbirdən yeni qəbiristanlıq — yenidənqurma dövrünün qardaşlıq qəbiristanlığı yarandı (indi o "Şəhidlər xiyabanı" adlanır — *tərc.).*

Rezervistlər, komsomolçu könüllülər və DTK-nın xüsusi bölmələri özlərindən sonra bir yığın meyit və əlil qoyub getdilər, "Svoboda" və "Amerikanın səsi" radioları isə sevinclə "Bakıda vəziyyətin normallaşması" barədə xəbər verirdi. Zirehli jilet geyinmiş 15 avtomatçı və mülki geyimdə olan 10 DTK işçisi hücumla Azərbaycanın Moskvadakı nümayəndəliyini ələ keçirdilər. hamını döşəməyə uzatdılar və ya diz çökdürdülər ki, AXC lideri Məmmədovu həbs etsinlər, rəsmi sovet aşkarlığı isə bir həftə ərzində ya erməni, ya da azərbaycanlı ekstremistlərin hücum edərək Moskvanın mərkəzində atışma təşkil etdiyi barədə düz beş versiya söylədi".

Saşa Boqdanov Bakı faciəsinin güclülərin dünya siyasətində yerini də düzgün müəyyən etdi:

"Belə qırğın Brejnevin vaxtında törədilsəydi, Kreml həm BMT-nin təhlükəsizlik şurasında, həm də BMT-nin Baş məclisində kəsgin izolyasiyada qalardı.

Lakin əgər yol verilirsə ki, Fransa prezidenti Mitteran və SSRİ Ali Sovetinin sədri Qorbaçov Kiyevdə oturub diktator Çauşeskunun taleyini həll etsinlər, Prszident Buş Kemp-Deviddə dincələ-dincələ, yaxud Şevardnadze ilə rezin qayıqda Men ştatının çaylarında və göllərində üzə-üzə diktator Noryeqanı devirsin, onda Ermənistan öz milli problemlərini niyə Zaqafqaziyada Sovet hərbi qüvvələrinin güclənməsi hesabına həll etməsin?! Müasir siyasətin və kəşfiyyatın qeyri-adiliyi məhz ondadır ki, DTK həmişə Mossadla ümumi dil tapa bilər. Britaniyanın İntellicent Servisi "şeytan ayələrinin" müəllifi Rüşdini təhlükəsiz yerdə gizlədə bilər, MKİ Amerikanın erməni icmasının beynini SSRİ-dəki yenidənqurmanın perspektivləri barədə elə doldura bilər ki, ermənilər mifik Böyük Ermənistanın bütün ermənilərin katolikosu 1 Vazgenin televiziya ilə çıxış edərək başının üstünə qaldırıb silkələdiyi orta əsrlər xəritəsi üzrə dəqiq bərpasına doğurdan da inana bilər... Xalqları baş-başa

toqquşdururlar, qan tökürlər, qarətlər, talanlar, bütöv milli rayonların köçürülməsi başlanır. Qorbaçov hərbi vəziyyət tətbiq edir və respublikalar volskilərin, rodionovların və krivolapov-ların general-qubernatorluğuna çevrilir, millətlərarası ziddiy-yətlər isə dərinləşirdi."

Bakının işğalından iki il sonra Belovejski Puşşada İttifaqın dağılması başa çatdıqda Zbiqnev Bjezinski gözlərini yaşardan fərəhini gizlədə bilmədi:

"Mən Qorbaçova çox hörmət edirəm. Və onun şəxsi faciəsinə dərindən acıyıram. Onun xidməti ondadır ki, bir damla qan tökmədən, *dinc vasitələrlə, qış saraylarına hucum etmədən və vətəndaş muharibəsi aparmadan* (kursiv mənimdir — *Y.P.);* Qarabağ girdabını hazırlayanların və onu insan qanı ilə dolduranların riyakarlığının həddi-hüdudu yoxdur) köhnə dünyanı dağıda bildi. Lakin bu ona baha başa gəldi — özünün sonu çatdı. O, Respublikalardakı qeyri-rus millətçilərinin gücünü qiymətləndirə bilmədi, hesab etdi ki, hamı "mehriban yaşaya" bilər, o, ittifaqda birliyin zəruriliyini şişirdirdi. Yeltsin (Saşa Boqdanov Rusiya Federasiyasının hazırkı prezidentini Bakıdakı qətllərdən sonra Qorbaçov, Yazov, Kryuçkov, Bakatin, Primakov və Qorbaçov komandasının digər üzvlərini məhkəmə məsuliyyətinə cəlb etmək əvəzinə, xalqı bütün Moskvadan keçirərək qızıl meydana aparan və bununla da yenidənqurma, demokratikləşmə və aşkarlıq kursunu müdafiə etdiyini nümayiş etdirən "mandatlı yenidənqurucu" adlandırır. Yox. Komandanın üzvləri hələ Qərbə gərək idi. — *Y.P.)* bu səhvləri etmədi, başa düşdü ki, həqiqi mənada faciəvi bir dönüş etmək lazımdır. Öz intellekti ilə yox, heyrətamiz tarixi uzaq görənliklə instinktiv başa düşdü. Və məhz ona görə də qalib gəldi".

Verilən qurbanlara dəyməyən qələbədir bu, cənab Bjezinski!

"Qanlı yenidənqurmanın" başçısı Qorbaçov, onun sapı "öz" Vəzirovumuz olan baltaya bənzər əlaltıları tarix qarşısında, xalq qarşısında, məhkəmə qarşısında cavab verəcəklər! 1990-cı ilin yanvar günlərində Ali Sovetin deputatı, Böyük Vətən müharibəsinin iştirakçısı, xalq yazıçısı İsmayıl Şıxlı bunu inamla bildirdi. Sov. İKP sıralarına müharibədə daxil olmuş, təqribən yarım əsrlik stajı olan yazıçı Yeltsin, Popov, Sobçak kimi hər cür demokratlardan əvvəl MK plenumunda bəyan etdi: "•Kommunist partiyası öz simasını itirib. O öz xalqı ilə vuruşur. Don Kixot yel dəyirmanları ilə döyüşdüyü kimi. O, SS-ə çevrilir. Mən belə partiyanın üzvü olmaq istəmirəm".

Bakı hadisələrinin şahidi, şahmat üzrə dünya çempionu harri Kasparov Qorbaçovla görüşərkən açıq elan etdi ki, Bakıya qoşun yeridilməsi təmamilə səhv idi. 1990-cı il yanvarın son günlərində Moskvada keçirdiyi mətbuat konfransında isə Qərbin kütləvi [129 - 130] informasiya vasitələrinin nümayəndələrinə belə dedi: Azərbaycan yeganə yer idi ki, hərbi qüvvə tətbiq etməklə qərbin demokratiya müdafiəçilərinin alqışlarını qazanmaq olardı.

Lakin bu həqiqətdən Azərbaycan özü və onun, əvvəlki həyatları hamıdan əvvəl alt-üst edilmiş sakinləri bəs hara qaçsın? Yanvarın 19-dan 20-nə keçən kecə adamlarda nə isə qaytarılması mümkün olmayan bir dəyişiklik etdi. Gözlərdə qüssə, kədər, tankları, əlində silahı hazır saxlamış çoxsaylı patrulları, həyasız inamla avtomatları adamların üzünə tutaraq — "Ey çirkin azərbaycanlılar, biz. sizə görün hələ nələr göstərəcəyik. Azadlıq istəyirdiniz?! Bunlar hələ harasıdır ki..., — deyən əsgərləri görüb öz gücsüzlüyündən təhqir olunmuş hisslər. Pozğunluq, cəzasızlıqdan məstolma, sadəcə sərxoşluq, rəhmsizlik, qəddarlıq və bunların hamısının təzahürü kimi qadına deyilən sözlər: "Sus, əfqan qızı, nə qədər ki, mən səni diz çökdürməmişəm. Sənin ayağın

altındakı torpaq od tutacaqdır!" həmin günlərdə Bakıda olan 725 №1-li ZTR-in komandirinin dilindən çıxan hədə-qorxu belə idi.

Sanki açıqca görünən/ bu patologiya rəsmi qəbul olunmuş münasibətlər qaydasına çevrilirdi. Elə ki, mərkəzi televiziyanın siyasi şərhçisi Aleksandr Tixomirov yanvarın 28-də "7 gün" verilişində Azərbaycandakı qanlı hadisələrdən danışdı və Bakıda baş vermiş hadisəyə siyasi qiymət verilməsini tələb etdi, o dəqiqə onu "kadrdan çıxartdılar", "7 gün" verilişinin özü isə ömrünü başa vurmalı oldu.

Belə güman edirəm ki, bu o zamankı Siyasi Bürodan daha çox Eduard Saqalayevin və onun birbaşa ağalarının xidməti idi. Belə güman etməyə bir də ona görə cürət edirəm ki, inadkar Tixomirov sonra bir dəfə də olsa bu mövzuya toxunmadı. İki il sonra tamaşaçılara mühasirədə olan Şuşanın atəşə tutulması, Leonid Lazareviçin həlak olması və xüsusilə də Jeleznovodskdakı danışıqlardan sonra fədainlərin vurulmuş vertolyotdakı sərnişinlərin cəsədlərini təhqir etməsi barədə həqiqəti çatdıran mərkəzi televiziyanın digər jurnalisti Nikolay Ansiferovun talsyi də bunu təsdiq edir. 1992-ci il mayın ilk günlərində Ansiferov xəbərdarlıq aldı ki, o daha mərkəzi televiziyada işləmir.

Bir zamanlar Sovet hakimiyyətinin gücü böyük olduğu kimi, indi də Eduard Saqalayevin gücü böyükdür.

Ona görə də bu bölmənin sonunda rəsmi informasiya kanalları ilə deyil, adi poçtla daxil olmuş şahid məlumatına müraciət edirəm. Məktub o vahiməli gecədən dörd sutka sonra Bakı sakini Əli Hüseynov tərəfindən yazılıb:

"Yanvarın 19-dan 20-nə keçən gecə Bakıda, xüsusilə də bizim [130 - 131] məhəllədə nələr baş verdiyini təsvir etməyə kimsənin gücü çatmaz. Müharibə haqqında çəkilmiş heç bir filmdə bu cür dəhşət görməmişəm. Saat 23.30-da Rasimlə mən evə qalxdıq ki, çay içib geri qayıdaq. Bu zaman hücum və top atəşi hazırlığı başlandı; Ağasəf zəng vurub dedi ki, Salyan kazarmalarından tanklar çıxdı və bizə tərəf gəlirlər. Onların gəlməsi ilə əsgərlər də peyda oldu. Şəhərin bütün istiqamətlərindən atırdılar...

"Bizim" qızıl ordu avtomatlardan və zirehli transportyorlarda qoyulmuş pulemyotlardan şiddətli atəş açırdı. Onlar silahları binalara tuşlayır, pəncərələri projsktorlarla işıqlandıraraq mənzillərə atəş açırdılar. Gördüklərimi necə ifadə edim? Mən, Rasim və Ələddin pəncərədən baxırdıq, güllə düz bizim pəncərəyə dəydi.

İndi isə mənim xalqımın cəsurluğu barədə. Oğlanların yanan kösövləri götürüb avtomatdan atəş açan əsgərlərin üzərinə necə cumduqlarını gördüm. Yıxılırdılar, durub yenidən kösövü əllərinə alır, düz projektorların yanına çıxaraq qışqırırdılar: "Doğrudanmı siz adam deyilsiniz? Kimi öldürürsünüz?" "Təcili yardım"lar gəlir— bizim ordu onlara atəş açır. Yaxın məsafədən tuşlayıb atırlar. Güllə yağışı səhərədək davam edir. Onlar mərkəzə doğru irəliləyirdilər. Adamlar küçələrə çıxmışdılar, dörd tərəfdə qan çay kimi axırdı; cəsədləri hələ gecə ikən güllə altında toplayırdılar.

Salyan kazarmaları ətrafında nələr oldu! Aeroport yolunda nələr oldu! Onlar texnikanı kəndə sürür, adamları öz evlərində əzirdilər. Yolda bir dənə də salamat maşın qoymamışdılar. Lap faşistlər kimi qəfil hücum etmişdilər.

Bir sözlə, yuxuda olan və silahsız adamları həqiqi mənada qırmışdılar. Rəsmi məlumatlara görə 90 nəfər, o cümlədən 14 hərbçi həlak olub. Mən isə sizə deyirəm: ən azı 300-400, bəlkə də min adam həlak olub, xəstəxanalarda yaralı əlindən yer yoxdur. Bir çox meyiti hərbçilər toplayıb yandırıblar, deyilənlərə görə bir hissəsi də bizim paroxodların mühasirəyə aldığı hərbi tankerdədir. "İmkan verin yoxlayaq" tələbinə cavab olaraq gəmidən atəş açırlar, amma buraxmırlar.

Ordu adamlara qarşı belə qəddarlığı necə edə bildi? Öndə gedən dəstələr Rostovda təşkil olunmuşdu. Orada erməni təsiri hamıya bəllidir. Şayiə buraxdılar ki, Bakıda rusları öldürürlər və o dəqiqə səfərbərlik elan ediblər. Qısası, burada cinayətkar-lardan, ermənilərdən və s. cəza zərbə dəstəsi düzəldiblər, bunlar ön hissələrdə şəhərə giriblər, öz işlərini görən kimi yox olublar, onları adi hissələr əvəz edib. [131 - 132]

Bizim binada rus qadını yaralanıb, o, 11-ci mərtəbədə yaşayır Üzbəüz binada iki nəfər öz mənzillərində həlak olub.

Salyan kazarmalarında isə bu günədək atışma gedir. Azərbaycanlı, gürcü, qazax, özbək və ləzgi kursantlar nə yollasa sursa anbarını ələ keçiriblər və and içiblər ki, son nəfəslərinədək vuruşacaqlar.

Şəhərdə kimə istəsələr atəş açırlar, necə istəyirlər ələ salırlar. Danışırlar (həkim şahidi olub) ki, xəstəxanada ata həlak olmuş oqlunu qucaqlayıbmış. Əsgər və zabit ona yaxınlaşırlar. Ata Qorbaçovu söyməyə başlayır, zabit pistoleti çıxardır və soyuqqanlıqla qocanı başından güllələyir (inanmırsınızsa həkimlə sizin görüşünüzü təşkil edə bilərəm). Vahidin əmisi oğlu işdən gələndə transportyorun yanından keçirmiş, görüb ki əsgərlər ətrafa atəş açır və gülüşürlər.

22.01 tarixdə həlak olanların Kirov parkında dəfni idi. Necə möhtəşəm mənzərə idi... Abşeron mehmanxanasından Kirovu heykəlinədək insan dənizi təsəvvür edirsinizmi? Biz qəbirlərin yaxınlığınadək qalxa bilmədik (dayanmağa yer yox idi), deyirdilə; ki, 100-dən çox adam dəfn olunur. Şəhərətrafında da dəfn eləyirdilər, rayonlarda da. İndi şəhərdə nə partiya təşkilatları nə də başqa təşkilatlar var, qəzetlər çıxmır, televizor işləmir radioda isə yalnız komendantın əmrləri və matəm musiqisi verilir Televiziya barədə deyim.

19.01-i axşam Xalq Cəbhəsinin iştirakı ilə proqram verilirdi və birdən televizor göstərmədi. Sən demə əsgərlər bir bloku partladıblarmış.

Hansı yollasa radio ilə bizim prezidentin notasını verirdilər Özü oxuyurdu — deyirdi ki, hazırlanan hərbi müdaxilə haqqında məlumatı olmamışdır. Bizim torpağa tökülən qanımız — ölkə rəhbərliyinin işidir. Deputatlar gizlicə toplaşaraq bütün baş verənlərin pisləyən və 48 saat ərzində ordunun çıxarılmasını tələb edən qərar qəbul etdilər, əks təqdirdə SSRİ-dən ayrılacaqlarını bildirdilər. Naxçıvan Azərbaycan SSR-dan və SSRİ-dən ayrıldığını elan etdi.

İndi Bakıda yeni fitnəkarlıq hazırlanır — hərbçi ailələrindən olan rusları təcili surətdə şəhərdən çıxarırlar. Bunun DTK və ordu edir ki, özlərinin Bakıda qalmalarına bəraət qazandırsınlar. Onsuz da hamısını yaza bilməyəcəyəm. Bax elə indi zirehli transportyor keçir. Ondan hərdən atəş açırlar — elə belə.

Sizin tanışlarınız və dostlarınız hələlik sağdır. Sərdarın qardaşı yaralanıbdır, deyirlər ağır vəziyyətdədir. Telefon demək olar ki, işləmir. Əmin deyiləm ki, məktub sizə çatacaq.

Evinizə əmin-amanlıq arzulayıram".

Yazının kənarındakı boş yerə əlavə edilmişdi: "Hamı partiyadan çıxır, sabah mən də təhvil verəcəyəm". [132 - 133]

Kədərli yekun bəllidir: həmin günlər şəhidlər xiyabanında yüz yetmiş bakılı şəhid dəfn edildi, dörd yüzədək adam yaralanmışdı. Larisa Məmmədovanın qəbri üzərində məktəb forması və çanta qoyulmuşdu. Şəkli yox idi: gətirib qoymağa adam yoxdur: həmin gecə atası ağır yaralanmışdı. Şəkilsiz o biri qəbrin üstündəki lövhədə yazılmışdı: "Yefimov, kor idi. Süngü ilə öldürülüb". O biri şəkildə isə qolboyun durmuş, toyları təzəcə olmuş Allahverdiyevlər, İlham və Fərizə, İlhamı güllələdilər, Fərizə isə intihar etdi.

Evlərin bir çoxunun qülləsində bakılı uşaqlar həyatlarını təhlükə qarşısında qoyaraq yuyulanda getməyən epoksid qatranı ilə yazmışdılar: "İşğalçılar, rədd olun Azərbaycandan!", "Rədd olsun Sov. İKP!" , "Qorbaçov qatildir".

### İki xalqın iyerarxiyası:
### İqor Belyayev və Sabir Rüstəmxanlı

1992-ci il mayın 9-u — bayram şənbəsi günü Qarabağda Azərbaycan qüvvələrinin növbəti məğlubiyyəti və hüzn günü oldu. həmin gün ərəfəsində erməni silahlı birləşmələrinin Şuşa şəhərinə və Kosalar kəndinə irimiqyaslı hücumunda Turan agentliyinin məlumatına görə 1000-dək adam iştirak edirdi. Qəzetlərin yazdığı kimi hücum əməliyyatı xeyli miqdarda artilleriya və zirehli texnikanın köməyi ilə aparılırdı. Bu texnika haradan və üstəlik "xeyli miqdarda" alınmışdı?

Ermənistanda yerləşmiş 7-ci qvardiya ordusunun zabitləri "Den" qəzeti vasitəsilə bildirdilər ki, başda satqın general Meşşeryakov olmaqla ordunun komandanlığı tərəfindən ermənilərə 40 PDM (piyadaların döyüş maşını-tırtıllı), 6 BRDM, 4 ZTR və 5 "qrad" tipli BM-21 reaktiv atəş qurğusu verildi. Onlar məhz bu texnika ilə də Şuşaya hücuma keçmişdilər.

Ermənistanda olan hərbi sursat anbarlarındakı hadisələr yəqin ki, çoxlarının xatirindədir. O zaman ermənilər əllərində satqın general Meşşeryakovun verdiyi təptəzə avtomatlarla qarovula hücum edirdilər. hamı artıq bilirdi ki, general qarovula xəyanət etmiş, zirehli qrupların blokadanı götürməsini qadağan etmiş və əmr etmişdi ki, erməni boyeviklərinə hərbi sursat və "qrad" qurğuları verilsin. General Meşşeryakov Zaq. HD-nin komandanı general Patrikeyevlə birlikdə Erebuni aeroportunda yerləşən vertolyot eksadrilyasını da ermənilərə təhvil verdi.

Meğri sərhəd bölməsinin rəisi təklif etdi ki, zastavada erməni bayrağı qaldırılsın. Namuslu olduqları və ona görə də iyli su içməyə məcbur olan zabitlər cavab verdilər ki, həmin bayrağa elə rəis özü salam verməli olacaqdır. Zastavanın "Çar" ləqəbli rəisi [133 - 134] birinci gün deyildi ki, zastavanın əmlakını erməni boyeviklərinə satırdı və onlar üçün xüsusi hamam da saxlayırdı.

Ona görə də Şuşaya mayın 8-də başlanan hücumla eyni zamanda Naxçıvanın sərhəd kəndi Sədərəyə də basqın edildi. Erməni; birləşmələri Araz çayı (Zori Balayanı yada salın—"Qədim erməni çayı Araz") üzərindən Naxçıvanı Türkiyə ilə birləşdirən körpünü partlatmağa cəhd etdilər. Sədəqəyə bu cür fitnəkar hücumla bu günkü Ermənistanın daşnak liderləri ən arzu etdikləri şeyə nail olmaq istəyirdilər: Türkiyəni hərbi əməliyyatlara təhrik etmək və sonra isə Rusiya ilə birlikdə müdafiə müqaviləsinə əsasən Yeltsini Ermənistan tərəfdən müharibəyə cəlb etmək.

Bu isə üçüncü dünya müharibəsi, xristianlığın islama qarşı səlib yürüşü demək idi. Burada çoxlarının biri-birinə qarşı narazılıqları və çətin həll oluna bilən problemləri yığılıb qalmışdı ki, onları bir dəfəyə həll etmək olmazdı. Bəlkə belə deyil?

Şuşanın alınması da, Xocalı qırğını kimi, İran hökumətinin himayəsi altında aparılan sülh danışıqları fonunda baş verdi. Bu dəfə danışıqlar Tehranda gedirdi. Azərbaycan Prezidentinin səlahiyyətlərini yerinə

yetirən Yaqub Məmmədov Dağlıq Qarabağda azərbaycanlıların əlində olan sonuncu məntəqənin xaincəsinə tutulmasını üçtərəfli saziş imzalanandan sonra artıq Tehran aeroportunda bildi. Ermənistan prezidenti Levon Ter-Petrosyan riyakar bir sakitliklə izah etdi ki, Qarabağın özünü müdafiə dəstələri nəzarətdən çıxmışdır və dünya ictimaiyyəti hansı cür düşünürsə düşünsün təbiətin bu cənnət guşəsində özünü elan etmiş əldəqayırma respublikanı tanımalı olacaqdır. Axı DQR-in hərbi birləşmələri Azərbaycanla, adamları qartallardan yüksəkdə, ağ buludların bərabərlərində yaşayan, buz bulaqlı,; heyrətamiz parlaq günəşli, iri ulduzlu bu bəxtiyar torpaq uğrunda vuruşur. Ermənistan isə kənarda, sanki bu savaşdan yuxarıda durur və sadəcə olaraq öz həmtayfalarının — "türkləşmiş" esrmənilərin; halına acıyır.

Prezident olduğu gündən Levon Ter-Petrosyan belə mühakimə edir, əslində isə EÜH və "Qarabağ" komitəsi liderinin proqramında heç nə dəyişməmişdir, yalnız sözlərinə bir az bal sürtmüş, işlərində isə yovşan və öldürücü zəhər artmışdır. Qoy indi bütün dünya baş sındırsın ki, Qarabağ konfliktini necə həll etsin, çünki, sınaq meydanına çevrilmiş bu girdabda o qədər qarşılıqlı nifrət, yalan və riyakarlıq yığılıb ki, BMT-nin mavi dəbilqəliləri olmadan keçinmək mümkün olmayacaq. Nə qədər ki, Qarabağ güllərinin səxavəti qönçələri arılara şirin nektar vermək əvəzinə, ilanlara öldürücü zəhər verir, heç bir dəbilqə kömək etməyəcək. Böyük dövlətlərin kütləvi informasiya vasitələrində Qarabağ konfliktinin necə işıqlandırıldığını bildirən [134 - 135] heç bir sağlam düşüncəli azərbaycanlı bu cür vasitəçiliyə razı olmayacaq və nə qədər ki, prszident hakimiyyəti strukturunda əsas postlardan birini vicdanında təkcə azərbaycanlıların və ermənilə-in deyil, həm də gürcülərin və osetinlərin, moldovanların və rusların tökülən qanı olan Q. Starovoytova tutur, Rusiyanın Zaqafqaziyada sülh məramlı fəaliyyətinə inanmayacaq. Starovoytovanın Ermənistan xatirinə quraşdırdığı "millətin hüququ bütün hüquqlardan yüksəkdə durur" ideyası hələ çox əks-səda verəcəkdir.

Əlbəttə, 1992-ci il martın əvvəlində Dmitri Furmanın "Nezavisimaya qazeta"da şərh etdiyi mifoloji sxemi reallıq kimi qəbul etmək olar. Jurnalist Rusiyanın Zaqafqaziyada təbii müttəfiqinin onunla həmsərhəd olmayan Ermənistan olduğunu əsaslandırarkən qərb, kosmopolit demokratizminin şüurunda mövcud olan xalqların ierarxiyasına istinad edir. Dmitri Furman səmimi etiraf edir ki, bu iyerarxiyada ermənilər azərbaycanlılara nisbətən bir neçə dəfə yüksək yer tutur. Ermənilər — xristiandırlar, azərbaycanlılar — müsəlman, islam isə qərbpərəst demokratların xüsusilə sevmədiyi dindir. Erməni obrazı, demək olar ki, yəhudi obrazı kimidir: soyqırımına məruz qalmış, guya "qara müsəlman qüvvələri arasında məhv olmamaq uğrunda mübarizə aparan qərb təmayüllü, kiçik, mədəni bir xalq. Qərb demokratı instinktiv olaraq İsrailin tərəfini saxlayıb ərəblərə qarşı olduğu kimi, Furmanın fikrincə burada da ermənilərin tərəfini saxlayıb azərbaycanlılara qarşı olurlar.

Burada div də qurbağaya aşiq olur, deyib can qurtarmaq olardı, hərgah Dmitri Furmanın "Nezavisimaya qazetanın" oxucularına astarını çevirib göstərdiyi Nina Andreyeva sxemi olmasaydı. Axı, 1988-ci ilin martında Nina Andreyeva təkcə cəmiyyətin bolşevik-stalinçi modelini müdafiə etmirdi, o, həm də Lev Nikolayeviç Qumilevin məntiqinə görə tarixi təsadüf nəticəsində içərisində paylandıqları etnosun bədənində parazitlik edən "allahın seçmə millətləri" barədə qeyri-müəyyən qərarlar söyləməklə xalqların iyerarxiyası məsələsinə də toxunurdu.

Və qəribə bir paradoks: elə bu zaman kiçik Qarabağ torpağında siyasi ekstremizmin, talan və qaçqınlığın modeli işlənib hazırlanırdı və bu, əslində Sov. İKP-nin o dövrdəki ideoloqu, Yerevana gedib gəlmiş Aleksandr Yakovlev tərəfindən dəstəklənirdi. Di gəl Nina Andreyevanın SSSR-nin mədəni, qərb təmayüllü (D. İ. Furmanın ifadəsidir) kiçik xalqları nümayəndələrinin "parçala və hökmranlıq et" probleminə yalnız toxunmuş olduğu məqalə bütün kütləvi informasiya vasitələrində necə də kəsgin tənqidə məruz qaldı.

Belə ki, xalqların iyerarxiyası ideyası qərbpərəst demokratların şüurunda sadəcə yaşamır, həm də onların özü tərəfindən təlqin edilir, hətta qayda qanunun bərpası üçün silah tətbiq etmək lazım gəlsə belə: Kabul olsun, Bakı, yaxud Bağdad, nə fərqi?... [135 - 136]

Təsəvvür etmək olar ki, hərgah 1988-ci ilin əvvəlində Naxçıvan ilə Azərbaycan arasındakı Zəngəzur dəhlizində Ermənistan ərazisində — cənubda Əgərəkdən şimalda Əzizbəyovadək olan ərazidə kompakt yaşayan azərbaycanlılar öz müqəddaratlarını təyin etmək uğrunda mübarizəyə başlasaydılar indi bütün millətlərdən olan demokratlar necə səs-küy qaldırmışdı! Azərbaycanlıların buna haqqı daha çox idi, heç olmasa ona görə ki, Qarabağın erməni icmasından fərqli olaraq Zəngəzur azərbaycanlıları heç bir muxtariyyətə malik deyildilər.

Yox, min illərlə Ermənistanda yaşamış bu çobanları, maldarları, əkinçiləri qərb demokratlarının tam susması şəraitində öldürməyə, döyməyə və qovmağa başladılar, evlərini və əmlaklarını yandırdılar. Amma Sumqayıtdakn iğtişaşlara görə elə mərəkə qopardılar ki, bu günədək hamının qulağında səslənir. "Bu qırğını mütləq soyqırımı adlandırmaq" komandası bütün Yer üzündə səhvsiz yerinə yetirilirdi.

Təqibə məruz qalmış millətin müdafiəçiləri nəyə nail oldular? Millətçilik yanğını nəticəsində ermənilərin bir qismi Azərbaycanı tərk etməyə başladı. Lakin bunlardan həmin çobanlara və əkinçilərə əvəz olmadı. Buyurun bir neçə rəqəmlə tanış olun. Erməni millətindən 29 nəfər Azərbaycan Ali Sovetinin deputatı var idi, 61 erməni Azərbaycan KP MK-da şöbə müdiri və müavin işləyirdi.Minlərlə erməni Rsspublika Nazirlər Sovetində, Dövlət- Plan komitəsində, şəhər partiya komitəsində, Bakı Sovetində, Respublika DİN-ində, DTK-da

yüksək vəzifələr tuturdu, həkim, müəllim, zavod və fabrik direktoru idi. Ticarətdə, milisdə, xidmət sahəsində, araq-çaxır sənayesindəki gəlirli yerlər də onların diqqətindən kənarda qalmamışdı. Yüksək vəzifələrdən əlavə Bakıda, Gəncədə, Şəkidə, Mingəçevirdə hər cür şəraiti olan mənzillərə və bağ evlərinə sahib idilər.

DQMV-də kənd və qəsəbə sovetliyindən tutmuş vilayət rəhbərliyinədək, böyük və kiçik vəzifələrlə birlikdə bütün hakimiyyət həmişə 99 faiz ermənilərin əlində olmuşdur. Qarabağda da azərbaycanlılar əsasən heyvandarlıq və əkinçiliklə məşğul olmuşlar. Taleyin acı təsadüfünə bax ki, məhz allahın da unutduğu yarıuçuq azərbaycan kəndləri ermənilər və onların hüquq müdafiəçiləri tərəfindən lentə alınaraq baxımsız erməni kəndləri kimi nümayiş etdirilirdi. Belə dəhşətli dezinformasiyaya aid faktlar qalır, onlar izsiz yox olmur, amma nədənsə onları yoxlamaq həvəsində olanlar azdır. Vilayətdə azərbaycan dilində nə mətbuat, nə də yazışma yox idi. Azərbaycanlıların laqeyd olmalarına ümid edərək yerlərin, şəhər və kəndlərin adları, tarixin şahidi olan toponimlər məhv edilir, dəyişdirilir, saxtalaşdırılırdı və qəribə də olsa azərbaycanlılar susurdular.

1990-cı ilin iyulunda Qarabağa xalq yardımı komitəsi Sov. İKP XXVIII qurultayının nümayəndələrinin təkcə azərbaycanlılarla deyil, həm də Qarabağ erməniləri ilə görüşünü təşkil etdi. Erməni qadınları, analar, atalar, bütün əməksevər adamlar onda nələr demirdilər? "hər yerdə danışın, qoy bizi yenidən peyda olmuş saqqallı banditlərdən azad etsinlər. Onlar ilk növbədə bizim düşmənimizdir, ermənilərin düşmənidir. Özlərini müdafiəçilərimiz adlandırırlar, amma özbaşınalıq edir, qadınlara və qızlara sataşır, gəncləri düşmənçilik etməyə məcbur edir, bütün vasitələrlə millətlərarası ədavəti qızışdırırlar. Yuxarıda oturanlar isə öz yalan informasiyaları ilə onları həvəsləndirir, cəlb edir. Qoy Allah bu adamların cəzasını versin!"

"Allah cəzasını verəcək" — dinc, təmiz qəlbli, hələ millətçilik zəhəri ilə yoluxmamış insanların yeganə ümidi idi.

1990-cı ilin avqustunda erməni terrorçuları doludağıdan toplardan, minomyotlardan və avtomatlardan Qazax rayonunu şiddətli atəşə tutanda, çox əzablar görmüş Baqanis Ayrımda ananı iki aylıq körpəsi ilə birlikdə yandıranda, Ermənistan parlamenti Qorbaçovun qanunsuz silahlı birləşmələrin qadağan olunması barədə fərmanının Ermənistan və Dağlıq Qarabağda qüvvədə olmadığını elan edəndə, parlamentin yeni seçilmiş liderini Moskvada baş nazir Rıjkov tələsik qəbul etdi.

Ermənistan DİN-in məlumatına görə bu bəyanat verilənədək Respublika ərazisində ümumi sayı təqr. 10 min nəfər olan bir neçə hərbi birləşmə və qrup fəaliyyət göstərirdi. Yalnız EÜH-ün hərbçiləri rəsmi qeydiyyatdan keçmişdilər. Erməni Milli Ordusu (EMO) öz sıralarında 5 minədək saqqallını birləşdirirdi. "David Sasunski", "Vretaruner" ("qisasçılar"), "Aydat" ("ermənilərin məhkəməsi"), "Neytral dəstələr", Respublika "Nart" partiyasının müstəqil ordusu və nəhayət, öz bayrağı altında müxtəlif qrupları birləşdirən"MUŞ" milli ittifaqı kifayət dərəcədə sərbəstliyə malik idilər. 1990-cı il mayın sonu — iyunun əvvəlində Yerevanda silahlı adamlar gizlənmədən gəzirdilər. Bu təkcə respublikanın paytaxtında deyil, bütün erməni şəhər və kəndlərində belə idi.

"Krasnaya zvezda" qəzeti 1990-cı il 31 iyul nömrəsində yaxın keçmişdə jurnalist, sənətşünas olan, "Erməni xalçaları" kitabının müəllifi, sonra isə EMO hərbi şurasının sədri paron (cənab) V. Vardanyanın baxışlarını və mühakimələrini müfəssəl şərh etmişdir.

Paron Vardanyan erməni-azərbaycan düşmənçiliyinin təbiəti barədə lap zooloji mühakimə yürüdürdü. 0, öz xalqının minillik tarixi, onun xüsusi rolu barədə uzun-uzadı fikir söylədi. Bu zaman xüsusi vurğulayırdı ki, o elə erməni tanımır ki, ruslara [137 - 138] pis münasibət bəsləsin. "Krasnaya zvezda"nın müxbirini inandırmağa çalışırdı ki, yalnız üzünü Türkiyəyə və Azərbaycan; çevirdikdə erməni qəlbini qəzəb hissi bürüyür. Vardanyan iddia edirdi ki, ermənilərin və azərbaycanlıların qardaş ola biləcəkləri tarixən sübut edilməmişdir. İki il yarım müharibə dövründə biz belə bir qənaətə gəldik ki, erməni mütləq əlində tüfəng anadan olmalıdır (?!—*tərc).* Özünü ateistlərdən sayan EMO hərbi şurasının sədri açıq-aşkar millətçi-sosialist formulu söylədi: erməni xalqı o vaxt daim yaşayacaqdır ki, millət orduya çevrilmiş olsun, millətin dini isə hər hansı qondarma allah yox, millətin özü olsun. 0 zaman suveren Ermənistan özünün qüdrətli diasporunun köməyi ilə tanınmaz dərəcədə dəyişiləcək, çiçəklənən ölkəyə çevriləcək və onun əsasını inam uğrunda başdan ayağadək silahlanmış indiki fədainlər təşkil edəcəkdir. Vardanyan özünün bir çox planını 1990-cı ilin yayında ermənoid irqinin genofondu elmi institutunun yaradılması ilə bağlayırdı.

"Krasnaya zvezda"nın müxbirləri aydın etdilər ki, EMO-nun təkcə qərargahı, silah ambarı, təlim mərkəzləri deyil, hətta tribunalı da varmış. "Sizin orduda ölüm cəzası varmı?" sualına hərbi şuranın sədri çətin hiss edilən təbəssümlə cavab verdi: "Ölüm cəzası bizdə yoxdur. Amma biz ondan da dəhşətli cəza düşünmüşük. Təqsirkar olana bir neçə qumbara verir və onu Azərbaycan ərazisinə göndəririk."

1990-cı il avqustun sonunda Azərbaycanın təzəcə seçilmiş prezidenti Ayaz Mütəllibov, prezident kimi verdiyi ilk müsahibəsində Ermənistanda milli ordunun olması, boyeviklərin kütləvi hücumları, onların Azərbaycana qarşı "Yer-Yer" və "hava-hava" tipli raketlər tətbiq etməsi barədə sualına belə cavab verdi:

"Bəli bizim ərazimizdə müharibə gedir. İtgilər var. Görünür, bu taledir. "Sonadək mübarizə" ideoloqları bu gün yeni fitnəkarlıqlar hazırlayacaqlar. Onların ümidi onadır ki, Azərbaycanda da hərbiləşmiş qeyri-rəsmi

qruplar yaranmağa başlayacaqdır. Adamları xəbərdar edirəm ki, öz "vətənpərvərliyini" silahlanmaq, ordu yaratmaq və s. kimi məsuliyyətsiz çağırışlarla nümayiş etdirənlərdən özlərini gözləsinlər".

Öz hərbi qüvvələrini yaratmaq tələblərinə Mütəllibov uzun monoloqla cavab verdi:

"Biz oğurluq, hərbçilərə və milisə basqın etmək, başqa qanunsuz yollarla silahlanmaq fikrindən uzağıq... hazırda bizim sərhədlərimizdə SSRİ DİN-in və Sovet Ordusunun xeyli kontingenti cəmlənmişdir. Bu gün xüsusi narahatçılıq üçün əsas olmamalıdır. Ona görə də öz ordumuzu yaratmağa çağırışlar bu gün obyektiv zərurətdən doğmur, onu saxlamaq üçün tələb olunan külli miqdarda xərclər də nəzərə alınsa bu, ümumiyyətlə real deyil. Bir sözlə bu məsələlərdə emosiyalara yer olmamalıdır. Siyasət, birə. tutmaq deyil ki, tələsgənliklə hərəkət edəsən".

İnsafən Mütəllibov sitat gətirdiyimiz müsahibəsində ilk dəfə olaraq ozünün belə bir fikrini bildirdi: "Yaxşı planlaşdırılmış sui-qəsd nəticəsində Azərbaycanın düşdüyü uzun və dəhşətli ədalətsizlik illəri mən düşünürdüm: doğrudanmı hamı laqeyddir, doğrudanmı heç kim (mən respublikaları nəzərdə tuturdum) baş verən hadisələrlə maraqlanmır? Axı, başqaları sadəcə müşahidə etsələr, istənilən xalqın işini bitirmək olar. Azərbaycanla bağlı hadisələrdə bizim İttifaqımız özünü çox parlaq nümayiş etdirdi. Axı biz bu gün də təkik!"

1990-cı il avqustun 21-də çərşənbə axşamı Ayaz Mütəllibov hətta müttəfiq respublikaların Ali Sovetlərinə müraciət də etdi ki, gəlin "ümumi səylərlə təcavüzkarı dayandıraq". O, xatırladırdı ki, mərkəzin səssiz razılığı, uzaqgörməzliyi və aşkar məsuliyyətsizliyi nəticəsində Ermənistanda milli ordu yaradılmışdır, halbuki bu iradları prezident ilk növbədə özünə ünvanlamalıydı. Bəlkə elə buna görə də onun parlamentlərə müraciətini "Vremya" proqramında İqor Fesunenko bu cür sarkazmla və ələ sala-sala şərh edirdi. Əslində isə onun məzmunu qısaca belə idi: dünya bilməlidir ki, təkcə "çox əzab görmüş "Ermənistan mövcud deyil, həm də Azərbaycan var—özünün qədim dövlətçiliyi, zəngin mədəniyyəti, onun ərazisində yaşayan bütün insanlara qarşı qonaqpərvər, qəlbiaçıq və xoş xarakterli xalqı olan Azərbaycan. İndi bu xalq erməni silahlı qruplarının hücumlarından həlak olur və Mütəllibov ümid edirdi ki, kimsə onları tərksilah olmağa məcbur edəcək. halbuki, bu yaxşı silahlanmış hərbi birləşmələr Ermənistana təkcə yumşaq ürəkli qonşularla deyil, həm də ölkə rəhbərliyi ilə zor dili ilə danışmaq imkanı verirdi.

Necə deyərlər, güc olan yerdə ağıl nə lazım.

Mərkəzin ağzına baxan Mütəllibov öz xalqının başına gətirilən yanvar qırğınından iki həftə sonra — 1990-cı il fevralın 8-də Sov. İKP MK plenumunda Mixail Sergeyeviç Qorbaçovun öz məruzəsində "Azərbaycanın bütövlüyünə riayət olunmasını təsdiq etdiyinə görə ona minnətdarlıq edir, avqust ayında verdiyi müsahibədə DQMV problemini Yerevanda, Stepanakertdə, Moskvada və xaricdə hazırlanmış "intriqa", "kompleks plan" adlandırırdı. Və ritorik sualla məlum olmurdu ki, kimə müraciət edirdi:

"Öz varını bütün respublikalarla səxavətlə bölüşən, həmişə öz Vətəninə, ümumi işə sədaqətlə xidmət edən bir xalqa qarşı bu münasibət düzgündürmü? Bəli. onun güclü diasporu yoxdur, ölkə [139 - 140] daxilində və paytaxtda güclü lobbiyə malik deyil. Lakin bu o deməkdirmi ki, onu yezuitcəsinə ümumi psixoz, ümidsizlik, ölmək istəmək, hətta təkbaşına da olsa öz namus və mənliyini qorumağa məcbur edən hala salmaq lazımdır? Bizim xalqa qarşı misli görünməmiş ədalətsizlik var. Bütün bu dövrdə ölkə rəhbərləri hara baxırlar? Nəyi gözləyirlər?"

Görəsən bəs suveren Azərbaycanın prezidenti nəyi gözləyirdi?

Xalqa qarşı ən misli görünməmiş ədalətsizlik isə prezident tərəfindən Bakıda fövqəladə vəziyyətin saxlanılması və onun yanvardakı tələfat üçün mitinqlərin təşkilatçıları olan Xalq Cəbhəsi liderlərini təqsirkar sayması idi. Moskva qarşısında şəxsi nökərçiliyi satqın marionetlik kompleksinə və öz partokratlarının satqınlığı isə son nəticədə xalqın böyük ümidsizliyinə çevrilirdi.

Mütəllibovun razılıqı ilə Azərbaycan öz mənafeini və müdafiəsini ittifaq ordusuna etibar etdiyi zaman, hələ 1990-cı ilin iyununda Yelena Bonner erməni "Kommunist" qəzetinin səhifələrində ordunun Ermənistanda olmasını "obyektiv fitnəkarlıq" adlandırır və kim onu buraya göndəribsə, onun guya əfqan avantürası yolu ilə getdiyini bildirirdi. Bonner hərbi postlara və hətta Yerevan qarnizonunun rəhbərliyi yerləşən binaya "erməni oğlanların-fədainlərin" çoxsaylı basqınlarına bəraət qazandırır: onlar rus, moldavan və ukraynalı oğlanlara atəş açıb əylənməklə məşğul olmurlar, sadəcə olaraq heç vaxt milli konflikt baş verməmiş şəhərdə ordunun olmasından yaranan gərginlikdən ümidsizlik vəziyyətinə düşüblər.

"Krasnaya zvezda"nın müxbiri V. Kauşinski "insan hüquqları müdafiəçisi" (dırnaq tərc.-dir) Y. Bonnerə ordunun Yerevanda "Niyə veyilləndiyini" (Bonnerin terminologiyasıdır) və bəzən bu zaman üstlərinə qurquşun və daş yağdığını izah edərək onu obyektivliyə çağırırdı:

"Yelena Georgiyevna, mən çox istərdim ki, DİN işçilərinin erməni boyevikləri tərəfindən bütünlüklə yandırılmış Azərbaycan kəndi Bağanis-Ayrımdan çəkdikləri, böyüklərin və kiçiklərin oddan yanıb qaralmış cəsədlərini nümayiş etdirən videofilmi Sizə göstərəm. Bu, çox dəhşətli mənzərədir, elə Bakıda yanvar ayında təşkil olunmuş erməni talanları da. Məsləhət vermək fikrində deyiləm, amma sülh məramını Zaqafqaziyada özü üçün heç nə axtarmayan ordunu düşünülmədən pisləmək əsasında deyil, barışıq və dialoq, mərhəmət, yaxşılıq və humanizm əsasında nümayiş etdirmək lazımdır".

Erməni terrorçularının hərbçilərə, milisə, hərbiləşdirilmiş mühafizəçilərə, hətta OADKYC-in özəklərinə basqınları total xarakter almışdır: milli ordu belə silahlanırdı. Təkcə 1990-cı il mayın 27-də — Ermənistanın dövlət müstəqilliyi günü ərəfəsində Yerevanda silah və sursat əldə etmək məqsədilə edilən 16 basqın, o cümlədən silahlı qrupun dəmiryol vağzalında daxili qoşunların qarovul dəstəsinə basqını və daxili qoşunlar polkunun (alayının) hərbi şəhərciyinə 50 nəfər fədainin pulemyotlardan atəş açması qeydə alınmışdır. Onlardan bəziləri cavabsız qalmadı və bu, insan hüquqlarının müdafiəçisi Yelena Bonnerə çox təsir etdi: "Kimə atəş açırdılarsa, onlar bir adam itirdilər, kimlər atəş açırdısa onlarca, qəribədir..." (Silah əldə etmək məqsədilə terror faktını isə Bonner zərrə qədər də pisləmirdi).

Azərbaycan həmin günlərdə öz prezidentinin şəxsində "Sovetskaya Rossiya" qəzetinin oxucularına izah edirdi ki, "o biri tərəfdən olan millətçilərə oxşamaq lazım deyil, biz həmişə bu hisslərdən yüksəkdə olmuşuq, biz həmişə ümid etmişik ki, insanlar başa düşəcək, Ermənistandakı sadə adamlar ayağa qalxacaq, baş verənlərdən hiddətlənəcəklər", bu zaman azərbaycanlıların xarakterində olan və rusların yaxşı başa düşəcəkləri qeyri-adi dözümlülük, alicənablıq, təmkin, məhrumiyyətlərə hazır olmaq kimi cəhətlərə istinad edilirdi. Aləm bir-birinə qarışmayınca onlar hər şeyə dözəcəklər...

Mən oxucuya 1990-cı ilin qızmar yayındakı fakt və hadisələrin ən kiçik bir hissəsini göstərdim ki, qoy hər bir qərəzsiz adam özü fikirləşsin: nə üçün təkcə Qərb demokratları deyil, hətta Şərq demokratları da təcavüzkarı ittiham etmirlər? Yanına nida işarəsi qoymaqla aşkar dəlillərlə razılaşsalar da onlar instinktiv olaraq söhbətdən qaçmağa çalışırlar: bu çox incə məsələdir və yalnız ermənilərlə azərbaycanlılara aiddir. Görəsən bu laqeydlik haradandır? Nə üçün xalqların iyerarxiyasında ermənilər Furmana görə azərbaycanlılara nisbətən bir neçə dəfə yüksək yer tuturlar? Tuturlar, vəssalam!

Sən demə, heç də hər şey qaçılmaz alın yazısı deyilmiş.

1990-cı ilin "qara yanvarından" sonra Mixail Qorbaçov Bakıda törətdiyi qanlı cinayətlərə görə özünü təmizə çıxarmaq qərarına gəldi və onu başa düşmək olar. Lakin, necə? Günahsız qurbanlar üçün canıyananlıq göstərmək yolu iləmi! Əlbəttə yox. Mərkəzi televiziya ilə çıxış edərkən Baş katib və SSRİ Ali Sovetinin sədri Bakıda vəziyyəti gərginləşdirən, boyevik dəstələri təşkil edən "davakar millətçi-karyeristlərdən" alçaqcasına danışmağa başladı, halbuki, iki milyonluq şəhərdə bir nəfər də boyevik tutulmamışdı və aydın oldu ki, fitnəkarcasına damlardan atışmaları xüsusi orqanlar təşkil etmişdilər. Mən hələ onu demirəm ki, dünyanın onlarca qəzetinin məşhurlaşdırdığı, [141 - 142] "erməni irqinin genofondu"nun əsasını qoyan paron Vardanyanın miqyasına yaxınlaşacaq bir nəfər də millətçi karyeristi Azərbaycan heç qorxulu yuxu şəklində də olsa görməyib. Ona görə də Azərbaycan xalqının cəlladı kimi tarixdə qalacaq Qorbaçov sınanmış formula əl atdı: Sovet adamları ölkə rəhbərliyindən dinc Bakı sakinlərini tankların altına salmağı tələb etdilər.

Baş katibin mərkəzi televiziya ilə çıxışından dərhal sonra qəzetlərin və televiziyanın Azərbaycan üzərinə kütləvi hücumu başlandı. Hücuma, o devrlərdə qəbul olunmuş qaydaya əsasən "Pravda" yol açdı və 1990-cı il fevralın 4-də tibb elmləri doktoru V. Əfəndiyevin "Aliyevşina ili plaç po sladkomu vremeni" məqaləsini dərc etdi. Yeri gəlmişkən məqalənin müəllifi az sonra izah etdi ki, redaksiya onun razılığını almadan məqalənin adını və giriş hissəsini dəyişmiş, orta hissəyə və sonuna əlavələr etmişdir ki, bu da məqalənin istiqamətinin təhrifinə səbəb olmuşdur. V. Əfəndiyev e'tiraf edirdi: "Mən ilk variantda yalnız səhiyyənin Azərbaycanda yaranmış sosial və iqtisadi vəziyyətlə əlaqəsini, bu işdə ölkənin və respublikanın partiya rəhbərliyinin metod və stilinin rolunu təhlil etmişdim".

Bakıdakı faciəvi hadisələrə Əliyevçiliklə bəraət qazandırmaq, üstəlik də bunu qan tökülməsinin on beşinci günü etmək açıqca siyasi hörmətsizlikdir. Bu barədə Naxçıvandan olan oxucu S. Sadıqov "Pravdaya" belə yazmışdı: Yanvar ayında deşilmiş irinlik yalnız "Pravda"nın uzun illər ərzində xalqlar arasındakı münasibətlərdə yaranmış çatları böyütmək sahəsindəki fəaliyyətinin nəticəsidir. "Pravda"nın üzdəniraq "Aliyevşina" məqaləsi... azərbaycanlıların özləri arasında fitnəkarlığı gücləndirməyə yönəldilən və sözsüz ki, erməni ekstremistlərinin çirkli əlləri ilə redaktə olunmuş növbəti saxtakarlıqdır... Siz düz qeyd etmişsiniz: Əliyev səhhətinə görə təqaüdçü deyil. O, siyasi təqaüdçüdür. Əgər o Siyasi Büroda qalsaydı Alma-Atada, Tbilisidə və Bakıda günahsız adamların qanı tökülməzdi... Bəli, Əliyev Azərbaycan xalqının şərəfli oğlu olub və olmaqda davam edir", — naxçıvanlı S. Sadıqov öz rəyini belə yekunlaşdırırdı.

Heydər Əliyevin necə şəxsiyyət olduğunu deməyə mənim haqqım yoxdur, lakin Qarabağın barıt zirzəmisinə kibriti tullayan akademik Aqanbekyanın Parisə məlum səfəri ərəfəsində Siyasi Bürodan onun kənar edilməsi Sov. İKP MK-dakı erməni lobbisinin təsiri olmadan baş vermədi.

Yeri gəlmişkən, "Pravda"dakı həmin məqalə Heydər Əliyevə tezliklə Naxçıvandakı yüksək kreslonu tutmağa kömək etdi: oradakı rəhbərlər qorxaqcasına hərəsi bir tərəfə qaçıb gizləndilər.

Bu gün, təsvir olunan hadisələrdən iki il sonra, Azərbaycanda [142 - 143] partnomenklatura klanının AXC-nin irəli sürdüyü yeni lider ilə kəskin mübarizənin davam etdiyi bir dövrdə Heydər Əliyev prezident postunu tutmağa ümid edir və bu, heç də əsassız deyildir. Siyasi Büroda onun silahdaşı olan Eduard Şevardnadze Fransada Burbonların bərpasında olduğu kimi Kürcüstana qayıtdı, üstəlik Moskva-Vaşinqton-Bonn arabasında. Və mən Prezidentin mətbuat xidmətinin başçısı Rasim Ağayevin verdiyi müsahibədə Əliyev

barədə dedikləri ilə razılaşıram: "Bu güçlü simadır. O, prezident postu uğrunda mübarizəyə girməyə qadirdir. Qarabağ probleminin həll olunmamış qalması belə bir fikir yaradır ki, bu düyünü yalnız güclü əl aça bilər. Əliyev bu mənada üstünlüyə malikdir. O, bizdə özünü heç də Yeltsin Sverdlovskda, yaxud Şevardnadze Gürcüstanda olduğundan zəif göstərməyib".

Lakin, gəlin 1990-cı ilin fevralına qayıdaq. Kütləvi informasiya vasitələri hökumətin və ordunun Bakıdakı cinayətlərinə bəraət qazandırmaq üçün panislamist və pantürkist azərbaycanlılar, islam fundamentalizmi, müsəlmanlar tərəfindən xristianlığa yaranmış təhlükə haqqında isterik təbliğat aparmaqda davam edirdi. Məhz həmin gün millətlərarası ədavəti qızışdıranlara qarşı fərman qəbul edilsə də bir tərəfli hücum oyunu davam edirdi.

1990-cı il fevralın birinci yarısında olan nisbətən böyük hücumları sayım.

Yeni "Sovetskaya Rossiya" videokanalının ilk verilişində (fevralın 4-ü, Mərkəzi televiziyanın İ-ci kanalı) söhbət hələ XIII əsrdən müsəlmanların xristianlara münasibətindəki fanatizm, qəddarlıq və vandalizm barəsində gedirdi; kələcək dünya müharibəsi təhlükəsinin olduğunu sübut etmək üçün rusiyalılara bolqar filmi nümayiş etdirildi: yəni, azad Rusiyanın vətəndaşları, fikirləşin, görün Amerika imperializminin yerinə kim gəlir. Fevralın 2-də "Sovetskaya Rossiya" həftəliyi N. Aleksandrovun silah gücü ilə yayılan çihad, islam fundamentalizmi və başqa tanış motivlərə həsr olunmuş "Rusiya üçün Mücahiddin" məqaləsini dərc edir.

Elə həmin günlərdə RSFSR xalq deputatlığına namizəd A. N. Minkin Leninqrad televiziyası ilə teledebatında bildirir: nə qədər ki, islam rejimli dövlətlər mövcuddur SSRİ üçün müharibə təhlükəsi olacaqdır. A. N. Minkin — Leninqrad xalq cəbhəsinin xadimi, Marina Salyenin sağ əlidir.

Tezliklə sutka ərzində iki dəfə Fərqanə, Sumqayıt və Bakı hadisələri barədə film nümayiş etdirilir və müsəlmanların yaraladığı Sovet əsgərləri göstərilir. Bakının tankların altında həlak olmuş dinc sakinləri barədə tamaşaçılar heç bir kadr da görmədilər: televiziyadakı ideoloji senzura sayıq idi.

Doğma, mehriban senzura bu gün də yatmayıb. Bakılı mühəndis, Azərbaycan xalqlarının həmrəyliyi respublika cəmiyyətinin fəalı V. N. Sergeyevanın dediklərinə müraciət edim. 1992-çi ilin martında [143 – 144] — Xocalı qırğınından sonra cəmiyyətin rus nümayəndələri Moskvaya gələrək Ostankinoda piket təşkil etdilər' ki, onlar; televiziyada çıxış etmək imkanı versinlər. Əvvəlcə onların yolunda yaşıl işıq yandırdılar, lakin biləndə ki, onlar Azərbaycanda rusların təqib olunmasından şikayət etmirlər əksinə Qarabağ girdabı haqqında həqiqəti Rusiyaya çatdırmaq istəyirlər, qapıları üzlərinə bağladılar — marşal Şapoşnikovun idarəsində də (Bakılı rusları onun müavinlərindən biri qəbul etdi və bildirdi ki, hərbçilər ehtiyac içində yaşayırlar kim çox pul verirsə, ona da işləyirik), Rusiyanın "Vesti" proqramında da (bu informasiya proqramının Minasyan familiyalı baş redaktoru Bakılı qonaqları qəbul etməyi qəti qadağan etdi bu qadağa otaqda da eşidildi, o, həyasızcasına soruşdu: "onlar məni eşidirlər?"), "Novosti"də də (burada onlar Eduard Saqalayevi; danışmaq şərəfinə nail oldular, qırx dəqiqə boş şeylərdən danışdılar), Amerika səfirliyində də (oraya buraxmadılar gözlədilər, klerk gəldi və dedi: "Bu dəqiqə Bakıda antirus talanları gedir, siz isə burada veyillənirsiz"; nümayəndələr təcili öz evlərinə zəng etməyə başladılar və öyrəndilər ki, heç nə olmayıb, sakitləşdilər). Suveren Azərbaycanın rus müdafiəçilərini təkcə Kanada səfirliyində qəbul etdilər və onlara açıqça bildirdilər: Qarabağın açarı Amerika səfirliyindədir. (Tezliklə Yaqub Məmmədov da hamı qarşısında elan etdi: Biz hamımız böyük oyunun peşkalarıyıq).

1992-ci ilin mayında Nikita Mixalkovun "Dörd yol ağzı" (Perekrestok) proqramı senzuranın alçaq toruna düşdü. Dünyada tanınmış rus rejissoru diktor Mitkovanın timsalında televiziyada bu gün covlan edən yalanın miqyasını göstərməyə cəhd göstərdi və bu yalanın ideoloqlarından birinin — dövlət katibi Kennadi Burbulisin adını çəkməyə cəsarət etdi. Axı məhz Mitkova və Minasyanın "Vesti"si iki qonşu xalqın iyerarxiyasına dair öz dezinformasiya payını yayır, özgə xalqı alçaltmaqla, özününkünü isə tərifləməklə məşğul olurdu. Nə vaxtadək biz Rusiyanın kütləvi informasiya vasitələrində ermənipərəst təzyiqlərlə razılaşacağıq? Bu yaxşı qurtarmayacaq. Ən əsası isə diktorlar və redaktorlar arasında istedadlar gözə dəymir, daha çox yaltaqlar və yalançılardır. Əsl istedad kinli millətçilik hissindən uzaq olur və o, heç zaman başqa xalqın heysiyyatına toxunmaz. İstedada inanmaq olar, o, namuslu və etibarlı olur.

Mən heç vaxt nə Minasyanın, nə də Saqalayevin milli mənsubiyyətindən danışmazdım, əgər onlar Ermənistanın Azərbaycana təcavüzü barədə həqiqəti blokadaya almasaydılar: bu abırsız müharibəni varlı diasporun nəzarəti altında olan demək olar ki, bütün informasiya vasitələri və Demokratik Rusiyadan olan qara qışqırıqçılar (KriKunlar) müdafiə edirlər. Bu təşviqatın məqsədi azərbaycanlıları bir millət kimi məhv etməkdir. [144 - 145]

1990-cı il fevralın 7-də siyasi şərhçi İqor Belyayev "Literaturnaya qazeta"nın oxucularının diqqətini şah rejimi devrildikdən sonra İranın dini rəhbəri olmuş Ayətulla Xomeyninin sözlərinə cəlb edirdi: Bir millət kimi azərbaycanlı ümumiyyətlə mövcud deyil, onlar türklərdir". Belyayevin məqaləsi "Azərbaycanlılar doğrudanmı bölünmüş xalqdır?" adlanırdı və bu sual işarəsi ilə islam üzrə "supermütəxəssis" göstərmək istəyirdi ki, doqquz milyonu (əslində 23 milyonu—*tərc.)* İranda yaşayan Azərbaycan xalqının bölünmüş olması barədə söz-söhbətlər əsassızdır və bütün məsələlər panislamizmlə bağlıdır. Yeri gəlmişkən Xomeyni azərbaycanlılar

haqqında danışarkən yalnız və yalnız "türk" sözü işlədə bilirdi və onun böyük ayətulla, milliyyətcə azərbaycanlı Şəriət-Mədari ilə düşmən münasibəti dini-siyasi mübarizədən başqa heç nə ilə izah edilmirdi.

Azərbaycanlıların 150 ildən çox aralı düşdükləri qohumları ilə görüşmək üçün özünəməxsus Berlin divarını — sərhədi keçmək rejimini sadələşdirməyə dair təbii arzularını İqor Belyayev "İslam oyunları" adlandırır, Xalq Cəbhəsinin bəzi liderlərini "İslam Azərbaycanı" yaratmaqda ittiham edirdi.

İslamşünas Belyayevin bu cür riyakar iddialar üçün 1990-cı il yanvarın əvvəlində dövlət sərhədinin "uçurulmasından" başqa əlbəttə heç bir əsası yox idi. Bu məqalə Mixail Qorbaçovun "qara yanvarda" tökdüyü qandan təmizlənməkdən ötrü verdiyi bəyanatdan sonra yayılmış "İslam təhlükəsi" alovunu gücləndirdi. Elə həmin günlər mərkəzi mətbuat səhifələrində və mərkəzi televiziyanın verilişlərində xristianlığın dirçəlişi hər cür təbliğ edilir və bu zaman bir dəfə də olsa "xristianlıq təhlükəsi"ifadəsi işlədilmir, yalnız "xristianlıq mərhəmətindən" danışılırdı.

Əsas kimi "Azərbaycan" qəzetinin 1990-cı il yanvarın 11-də dərc etdiyi "Biz nə qədərik... Bizim dərdimiz nə qədərdir?" məqaləsini götürmək olmazdı ki? Qəzetin o zamankı redaktoru dünyada cəmisi nə qədər azərbaycanlı yaşadığı barədə mülahizə söyləyir (onun hesablamasına görə 36 milyona yaxın alınırdı), yəhudi diasporunun təcrübəsinə istinad edirdi. Doğrudan da Moskva kitab yarmarkasında Amerikadakı yəhudi təşkilatlarından birinin bütün yəhudi millətinə müraciəti olan vərəqə yaymışdılar. Vərəqənin məzmunu ondan ibarət idi ki, sivilizasiyanın həyatı onun bütün əzələlərinin sağlamlığından asılıdır, biz—14 milyonluq yəhudi xalqı olmadan sivilizasiya mövcud ola bilməz və beləliklə də dünyanın gələcəyi bizim hər birimizdən asılıdır. Vərəqə bir növ siyahıyaalınma məqsədi güdürdü: hər bir yəhudinin harada yaşadığını aydınlaşdırmaq, öz millətinin nümayəndəsi olduğunu, ətraf aləmin taleyinin ondan asılı olduğunu ona [145 - 146] çatdırmaq: öz yerini bildir və arxayın ol ki, sənin taleyinlə maraqlanırlar.

Sabir Rüstəmxanlı öz xalqının tarixi ilə baqlı faciəli təcrübəyə istinad edirdi: "...Bütün tarix boyu bizi elə bölüblər ki, bir-birimiz haqqında nəyi isə bilmək imkanından məhrum olaq. Şimal-Cənub bölgüsü ilə kifayətlənsəydilər nə var ki? İran və çar imperiyaları Azərbaycanı parçaladıqdan sonra onu bu imperiyaların daxilində yenidən 4—5 hissəyə böldülər. Şimalda velikorus və cənubda fars şovinizmi milləti hansı təhqirlərə məruz qoymadı. Nəticə gözümüzün qabağındadır. Yer üzərində bu cür parçalanmış, didilmiş, zülmə, alçalmağa və təhqirlərə məhkum edilmiş xalq tapmaq çətindir". Yazıçı göstərirdi ki, bu gün də dünyanın yolları İran qaçqınları, Azərbaycanın yolları isə Ermənistandan qovulmuş evsiz, işsiz qaçqınlarla doludur. Millətin parçalanması tədricən adamların bir-biri ilə yadlaşmasına gətirib çıxarır: bir xalqın bu gün üç əlifbası var. Sabir Rüstəmxanlı davam edir: "Burada biz azərbaycanlıyıq, Türkiyədə biz azəriyik, Qonşu İranda biz türkük, Avropada biz İranlıyıq, İrakda biz Türkmənik, Əfqanıstanda biz Əfşarıq, başqa yerlərdə biz tərəkəməyik, tatarıq və sadəcə olaraq simasızlaşdırılmış müsəlmanlarıq".

Beynəlxalq azərbaycanşünaslıq konfransı yaradılmalıdır—bu-dur yeganə çıxış yolu; 1990-cı il yanvarın əvvəlində "Azərbaycan" qəzetinin redaktoru buna çağırırdı. Bütün tarixi boyu xalqın özünün buraxdığı səhvləri təkrar etməməyə çağıran Sabir Rüstəmxanlı öz həmvətənlərinə məsləhət görürdü ki, biri-birinə qarşı iddialardan, iradlardan, ambisiyalardan, pisniyyətlikdən, yerlibazlıqdan, kreslo uğrunda mübarizədən əl çəksinlər. Yazıçı sual verirdi: "Nə vaxta qədər qardaş-qardaşa düşmən qalacaq? 36 milyonluq xalqın sonrakı taleyi bizdən məsuliyyətli olmağı, birləşməyi və iş görməyi tələb edir. Mirzə Cəlil demişkən, iş görmək, iş görmək, iş görmək lazımdır!

Öz xalqı üçün ürəkdən narahat olan şəxs ilə iki xalqın qondarma iyerarxiyasında azərbaycanlıları ən aşağı pillədə möhkəmləndirmək xatirinə milli və dini düşmənçilik yayan möhtəkir alim, jurnalist və siyasətçilərin fərqi bax bundadır. Yoxsa vahid Azərbaycanın təkcə adını çəkmək istəyəndə yaranan bu əsəbilik haradandır?

O ki, qaldı qədim Azərbaycan qalası, 1795-ci ildə İran hökmdarı Ağa Məhəmməd Şah Qacarın işğalçı orduları üzərində misilsiz qələbəsi ilə məhşur olan Şuşanın verilməsinə, bu daha. çox siyasi didişmələrin və öz hakimiyyətlərini qaytarmağa və ya saxlamağa çalışan mafioz partiya klanlarının həmişə istifadə etdikləri xalqı alçaltmaq siyasətinin nəticəsidir. Azərbaycanlılarda misal var: "Sən özünə dost axtar, cəllad isə həmişə sənin öz içindən tapılacaq, başın üstə duracaqdır".

## Evə soxulan yarasanı öldürərlər:
## Nəriman Nərimanov və Tatyana Rüstəmli

Belə bir fakta da diqqət verməyə bilmirəm: azərbaycanlıların sərhədi sərbəst keçə bilmək tələblərini müdafiə edən mitinqlərini sərhəd çayı Arazın İran sahilində heç də şadyanalıqla qarşılamadılar. İranda azərilər bir neçə vilayətə bölünüblər, məclisdə deputatların Azərbaycan dilində danışmasına yol verilmir; Keçmiş Sovet İttifaqında respublikaların, bu günkü Rusiya parlamentlərində isə muxtar qurumların nümayəndələrinə öz ana dilində danışmağa icazə verilmədiyi kimi. 1990-cı ilin yanvarında İran məclisinin üzvü Kərim Şəfi toplaşanlara

ucadan-danışanla çayın İran sahilindən müraciət edərək bildirdi ki, "bu cür mitinq və nümayişlərin keçirilməsi heç bir nəticə verməyəcək" və "sovet müsəlmanları öz hökumətlərinə müraciət etməlidirlər ki, beləliklə İrana gedib-gəlməyin qaydalarını müəyyən edə bilsinlər." Və Azərbaycan millətindən olan vətəndaşları "iki ölkə sərhədinin təhlükəsizliyini təmin etməyə" çağırdı.

Azərbaycan Türkiyənin onu müdafiə etməsinə də bel bağlaya bilməz: Türkiyə rəhbərliyi Corc Buşa və özlərinin NATO-dan olan hərbi rəislərinə qulaq asmaya bilməzlər.

O ki, qaldı Rusiyaya, parlamentin hələ təsdiq etmədiyi Ermənistanla dostluq müqaviləsinə bir neçə MDB ölkəsinin (Rusiya. Ermənistan, Qazaxıstan, Özbəkistan və Türkmənistan) 1992-ci il mayın 15-də Daşkənddə imzaladıqları kollektiv təhlükəsizlik şərtləri barəsində müqavilə də əlavə olundu. Bu müqavilə o qədər açıq-aşkar Azərbaycan əleyhinə yönəldilmişdi ki, Boris Yeltsin ona xas olan kobud hövsələsizliklə Moldovanın prezidenti Mirçe Snequrun protestinə cavab olaraq elan etdi ki, MDB-yə girmək haqqında bəyannaməni hələ təsdiq etmədikləri üçün Moldova və Azərbaycan nümayəndələrinin belə kollektiv toplantılarda, ümumiyyətlə, nə işi var?

Erməni millətçiləri işğal etdikləri torpaqlarda möhkəmlənmək üçün maraqlıdırlar ki, Azərbaycanda qarışıqlıq, anarxiya yaratsınlar, DQMV ümummilli məsələ olmasın, azərbaycanlıların özünün daxili siyasi çarpışmalarında diqqət mərkəzində qalsın.

Dörd il özünü konflikti siyasi yolla həll etməyə çalışan kimi göstərən (nəticədə isə konflikt daha da kəskinləşmişdir və daha qanlı qırğınlarla müşayiət olunur) Azərbaycanın öz hökuməti isə əsas etibarilə Dağlıq Qarabağın respublikadan faktiki ayrılmasında (şübhə etmirəm ki, müvəqqəti) günahkardır. Azərbaycanda fövqəladə vəziyyət şəraitində keçirilən seçkilər hakim partiya [147 - 148] strukturlarının hakimiyyətdə yeni adlar altında möhkəmləndirilməsinə gətirib çıxarırdı. "Oğurluqla məşğul olmuş, özünü hörmətdən salmış, respublikanı uçuruma gətirib çıxarmış rayon, şəhər, vilayət partiya komitələri katibləri, nazirlər, bütün səviyyələrdən olan rəislər prefekt, icra başçısı, müşavir təyin edilmiş, bir idarədən başqasına keçirilmişdir və beləliklə, talan davam edir — Azərbaycan DBTİ-nin humanitar elmlər kafedrasının müdiri İsgəndər Axundov 1992-ci il martın 5-də "Azərbaycan" qəzetində bu cür acı nəticə ilə çıxış etmişdir Fərq yalnız ondadır ki, milli sərvətin hərraca qoyulması beynəlxalq səviyyəyə çıxmışdır. Konsessiya vermək, birgə müəssisələr yaratmaq hüququ vermək, iqtisadi və ticarət sövdələşmələri — hamısı varlanmaq mənbəyinə çevrilmişdir. Xarici partnyorlar onların təklif etdiyi xidmətlərin millətə nə dərəcədə faydalı olmasına görə deyil, hansının daha çox peşkəş verməsinə görə seçilir".

Axundovun haqlı olduğunu artıq Şuşanın təhvil verilməsindən sonra Bakıdan göndərilmiş şəxsi məktub da təsdiq edir: "Bəsdir buradakı hadisələrə görə özünüzü üzdüyunuz. Burada hər şey əvvəlki kimidir, deməli belə olmalıymış. Hakimiyyət orqanları özlərini elə göstərirlər ki, guya hər şeyi hamıdan yaxşı bilirlər, eyni adamların ucdantutma yerdəyişməsi gedir, vəzifələri get-gedə böyüdürlər. Möhür və kreslo sahiblərinin hamısı əvvəlki kimi, özlərinə və özlərindən yuxarıda olanlara bağ evi tikirlər, obyektlərin 98%-ində isə tikinti işləri dayandırılır, yəni atılır və talan edilir".

Açıq və hər şeyi əhatə edən bu cür korrupsiya şəraiti Rusiya üçün də xarakterikdir, lakin Azərbaycanda gündən-günə həyasızlaşan müharibənin qanlı yaraları nəticəsində xalqın ağlasığmaz məhrumiyyətləri daha da dərinləşir.

Dörd ildən çox keçmiş SSRİ-də və indi MDB-də Azərbaycanın diskriminasiyası xalqda mənəvi depressiya yaradır və onu möhkəmləndirir. 1990-cı il avqustun 20-də Kremldə SSRİ Nazirlər Soveti Rəyasət heyətinin geniş iclasında Həsən Həsənov sual verirdi: "Niyə Azərbaycanda fövqəladə vəziyyət elan etmək olar, amma Ermənistanda yox? Niyə Azərbaycanda fövqəladə vəziyyətin; elan olunmasını respublika parlamenti ilə razılaşdırmamaq da olar, amma Ermənistanda bunu mütləq etmək lazımdır? Niyə Ermənistanda silahlı bandit birləşmələrinin buraxılması adı ilə onlar qanuniləşdirilir və üzdəniraq özünümüdafiə dəstələrinə yazılır, dövlət strukturlarına daxil edilir, Azərbaycanda isə hətta qanuni yolla milisin sayını artırmağa imkan yoxdur? Azərbaycandan deyilən hətta ən müdrik sözə bu qədər inamsızlıq, [148 - 149] Ermənistandan deyilən hətta qərəzli sözlərə də bu qədər inam haradandır?" Azərbaycan SSR Nazirlər Soveti Sədrinin geniş bəyanatı o dövrdəki ölkə rəhbərlərinə ünvanlanmış yeganə bəyanat idi. Mənim bildiyimə görə, millətin ləyaqəti, xalqın təhlükəsizliyi ilə bağlı məsələlərin müzakirəsində Azərbaycan rəhbərliyindən bir dənə də etiraz eşidilmədi. hətta Boris Yeltsin və Nursultan Nazarbayev Xankəndində olarkən bir neçə Azərbaycan jurnalisti və türk jurnalisti həbs ediləndə, sülhməramlı vasitəçilərin gözü qarşısında respublika televiziyasının redaktoru Nadejda İsmayılova erməni millətçiləri tərəfindən qəddarcasına döyüləndə də. Baş verən həyasız özbaşınalıq və cəzasızlıq şəraiti mənim doğma şəhərimin (Sankt-Peterburqun—*tərç.)* qəzetlərinə imkan verir yazsın ki, tutulub saxlanılan qanun pozanlar içərisində "iki fəhlə və bir azərbaycanlı" var. Cinayətkar ünsürlərin milliyyətinin göstərilməsi bu günədək yalnız azərbaycanlıları müşayiət edir.

Respublikadan kənarda azərbaycanlıların təqib edilməsi 1990-cı ilin yayında başladı. Kütləvi informasiya vasitələrinin verdiyi məlumata görə bu zaman Ermənistan artıq 170 min nəfərlik ordu düzəltmişdi, iki il sonra isə Ermənistan adam başına düşən hərbi xərclərə görə İsraili ötüb keçərək birinci yerə çıxmışdı.

Azərbaycan Konstitusiyaya tam müvafiq şəkildə səfərbərliyi təmin etməklə məşğul olanda erməni gəncləri bərpa işlərində iştirak etmək bəhanəsi ilə əslində fərarilik edir, onları milli ordunun sıralarına doldururdular.

Xüsusilə belə bir fakt misli görünməmiş oldu ki, SSRİ Prszidenti Mixail Qorbaçovun 1990-cı il iyulun 25-də qanunsuz silahlı birləşmələrin ləğv edilməsi barədə verdiyi fərmanın vaxtı iki həftə sonra Ermənistanın xahişi ilə iki ay uzadıldı. Ermənistan rəhbərliyi (o zaman hələ kommunist rəhbərlik idi) fərmanın həyata keçirilməsini ilk gündən blokadaya aldı, sonra isə yeni seçilən parlament elan etdi ki, fərman Ermənistan ərazisində və hətta onlara yad olan Dağlıq Qarabağ ərazisində qüvvədə deyildir; bununla da Ermənistan Azərbaycana qarşı təcavüzkar niyyətdə olduğunu bir daha təsdiq edirdi.

Moskvada bu düşmənçilik hərəkatına reaksiya olmadığı və növbəti hüquqi ekstremizmə lazımi qiymət verilmədiyi başa düşüləndir. Əksinə, Nikolay Rıjkov və Vadim Bakatin hakimiyyətə gələn Levon Ter-Petrosyanı müdafiə etdilər. Lakin öz qüvvələri ilə öz sərhədlərini qorumaq iqtidarında olmayan Azərbaycan hakimiyyət orqanları da susdular.

Xəritələrdə 1988-ci ilədək yalnız topoqraflara və sinoptiklərə gərək olan punktir xətlər 1990-cı ilin yayında Qazax rayonunun sakinləri üçün müharibə və fədakarlıq sərhədinə çevrildi. Erməni [149 - 150] boyevikləri belə fikir yürüdürdülər: "Gec, ya tez bu imperiya dağılacaq. Bizə öz ərazilərimizi genişləndirmək lazımdır" Əfqanıstan müharibəsindən keçmiş baş leytenant O. Çetenov həmin günlərdə etiraf edirdi: "Diz üstə küllükdə sürünərək öz qardaşının cəsədinin yanıb kömürə dönmüş parçalarını vedrəyə yığan qocaya, xirtdəyi kəsilmiş qadına, silahın qundağı ilə baş əzilmiş körpəyə baxmaq dəhşətli idi. Beynimdə fasiləsiz olaraq oxşar obrazlar — Xatın, Oradur, Lidissa dolaşırdı. Lakin kiçicik Azərbaycan kəndi Bağanis Ayrımı mən onlarla yanaşı qoya bilmədim. Axı onlarda cinayəti alman faşistləri törətmişdilər, burada isə özümüzünkülər..."

Qazaxdakı çoxsaylı mitinqlərdə adamlar yalnız bir şey tələb edirdilər: silah. Bakıdakı hakimiyyət orqanları müharibə sözün işlətməyə qorxurdular və Ermənistan-Azərbaycan sərhədi boyunca olan beş kilometrlik neytral zonaya əməl olunacağına ümid edir, burada taleyin ümidinə qalmış həmvətənlərinin qoyub getdikləri kəndləri yandırılmış torpaq zonasına çevirirdilər.

1990-cı ildə müharibədə dönüş mərhələsi olan vəziyyətə özünütənqid mövqeyindən qiyməti "Azərbaycanfilm" kinostudiyasının direktoru, yazıçı Ramiz Fətəliyev verdi:

"Açıq deyim: həmin günlərə (məhz günlərə, onların sayı icə çox idi) dünya və ölkə ictimaiyyəti tərəfindən indiyədək lazımi qiymət verilməyib. Və bunda ilk növbədə biz özümüz günahkarıq Mən dediyim hər söz üçün cavabdehəm və arzu edənə kifayət qədər arqument gətirməyə hazıram.

Bizim bir çoxumuz bütün bu il ərzində nə ilə məşğul olurduq? Matəm şerləri qoşurduq. Yürüşlər düzəldir, mitinq edirdik. Ağı; deyir, ağlayır, təntənəli şəkildə kimlərəsə məhəbbət, başqalarına nifrət andı içir, partiya biletlərini yandırırdıq. Bu yol məhsuldar deyildi".

Xüsusi təyinatlı qoşun hissələrinin güllələrinin vıyıltısı altında, döyüş şəraitində demək olar ki, kustar üsulla çəkilişi aparan və Bakıdakı 1990-cı il yanvar faciəsi haqqında film yaradan R. Fətəliyev qənaətə gəlirdi ki, ayrı-ayrılıqda bizlərdən) heç birimiz müstəqil və suveren ola bilməmişik. Yoxsa hərəkətlərində və mühakimələrində müstəqil olan şəxslərdə insan ləyaqəti və milli qeyrət birinci yerdə olardı, yoxsa hər kəs öz yerində və öz imkanları daxilində, birgə və bütün elliklə öz xalqını təcavüzkardan müdafiə etmək üçün işləyərdi. İndi isə aydındır ki, ən azı iki il itirmişik.

Qazaxdakı orta məktəbin tarix müəllimi Alı Alıyev öz nifrətini ifadə etməyə söz tapdı və 1990-cı ilin avqustunda bəyan etdi: "Tarix bu cür qanunsuzluğun şahidi olmayıb. M. S. Qorbaçov erməni lobbisinin təzyiqinə tabe oldu və bununla da vəzifəyə keçərkən verdiyi andı pozdu. Andını pozan Prezident istefa verməlidir".

Ayaz Mütəllibov isə Novo-Oqarevo malikanəsinin təmtəraqlı [150 - 151] pillələri və zalları ilə təxminən il yarım, imperiya dağılana qədər noxta çəkənin arxasınca getdi, imperiyanın dağılmaqda olduğu isə erməni boyeviklərinə artıq 1990-cı ilin yazında məlum idi.

Ermənistan öz ərazi iddialarını həyata keçirmək üçün qanunsuz silahlı birləşmələrdən istifadə etmək imkanlarını gizlətmirdi və beynəlxalq səviyyədə bu məsələ müzakirə edilərkən öz hərbi imkanları ilə açıqca öyünürdü. Qorbaçovun fərmanına cavab olaraq erməni hərbi birləşmələrinin rəhbərləri elan etdilər ki, silahları təhvil verməyəcəklər. Üstəlik, 1990-cı il iyunun axırlarında silahları güclə ələ keçirmək halları gücləndi, iş hətta o yerə çatdı ki, sursatları ilə birlikdə odsaçanlar oğurlandı. Ordunun etiraz səsi eşidilmədi və bundan aydın olurdu ki, odsaçanları ermənilərə satmışdılar. Təkcə "Qarabağ" komitəsinin 1988-ci ildə, zəlzələdən dərhal sonra açılmış valyuta kanalı deyil, Yerevanda milliləşdirilmiş (yəni mənimsənilmiş) sovet pullarının dövlət anbarı (o bütün ölkə üçün nəzərdə tutulmuşdu) da fəaliyyətdə idi.

1990-cı il avqustun 5-də dördüncü səsvermədən sonra Ermənistan parlamentinin sədri seçilmiş Levon Ter-Petrosyan ayın sonunadək çox az itki ilə respublikadakı bütün silahlı qruplaşmaları, o cümlədən EMO-nun sovet mətbuatının hesablamalarına görə 30 min nəfərdən 140 min nəfərədək olan və Azərbaycan sərhədləri boyunca azğınlıq edən dəstələrini rəhbəri olduğu EÜH-ə tabe etdi.

Ermənistanın "faktiki prezidenti"nin seçkiləri ərəfəsində — avqustun dördündə Yerevan qarnizonunun siyasi şöbəsinin rəisi, SSRİ xalq deputatı, general-mayor Mixail Surkov müxbirlərə elan etdi: "Ordu silahları yığmaq haqqında əmri yerinə yetirməyə hazırdır".

Moskvadan isə əmr verilmədi.

Azərbaycanın hakimiyyət orqanlarının tərk-silah haqqında Prezident fərmanının vahiməli gücünə ümid etməsi sadəlövlük və xülya idi. Paron Vardanyanın dediyi "erməniləri vahid orduya çevirmək" işi başa çatmışdı: erməni mətbuatı millətlərarası ədavətin alovlanmaqda olan odluğuna daim quru odun atır, obıvatel kütləsini öz yaxın qonşularının üstünə salışdırır, akademik İ. Orbelinin dediyi kimi, on və yüzminlərlə erməni qaçqınına sığınacaq vermiş və indi yüz əlli, iki yüz il keçəndən sonra özü kənarda sığınacaq axtaran bir xalqı hər şeydə günahlandırırdı.

Hakimiyyətə Ter-Petrosyanın gəlməsilə yalnız ad dəyişdi, siyasi kurs isə əvvəlki kimi qaldı. Yeni lider gözünü qırpmadan elan etdi ki, onlar tərk-silah haqqında fərmanı üç aya yerinə yetirəcəklər. Müddətin iki ay artırılmasına razılaşan o zamankı SSRİ Daxili İşlər Naziri Vadim Bakatin təkidlə bunu kiməsə güzəştə getmək kimi qiymətləndirməməyə çağırırdı. Onun dediyinə görə, problemi həll etmək üçün dinc yollar axtarmağı davam etmək lazımdır və təkcə gücə arxalanmaq olmaz. Bakının dinc [151 – 152] əhalisini qıran bu demokratık riyakarlıqı belə bir fikir yaradırdı ki, bandit birləşmələri ilə ümumi dil tapmaq lazımdır. Halbuki hərbçilər özü, o cümlədən Bakatinin müavini genesral-polkovnik Y. Şatalin Ermənistan SSR-dəki silahlı birləşmələrin gücünü bildikləri üçün belə hesab edirdilər ki, fərman onsuz da gecikmişdir. Hələ yarım il əvvəl, yəni 1990-cı ilin yanvarında qayda-qanunu cəld və qətiyyətlə bərpa etmək olardı. General-polkovnik Y. Şatalinin dediyi kimi indi hər silahı geri almaq çox baha başa gələcəkdir. Lakin bu yoldan da imtina edildi və əlbəttə, itkilərin çox ola biləcəyinə görə yox. Y. Şatalinin dediyinə görə, bu məqsədi yerinə yetirmək üçün Zaqafqaziyada daxili qoşunların yaxşı geyindirilmiş və təchiz edilmiş şəxsi heyəti var idi.

Zorakılığın güclənməsi cəzasız qalırdı və hətta həvəsləndirilirdi.

SSRİ Ali Sovetinin deputatı Vəli Məmmədov fərmana verilən 2 aylıq müddət başa çatandan sonra, 1990-cı il oktyabrın 23-də iclaslararası fasilədə Mixail Qorbaçova yaxınlaşaraq ona 20-ci illərdə Zaqafqaziyada sərhədlərin necə yaranması haqqında broşüra verdi və dedi: "Azərbaycan xalqı qonşu respublikadakı bütün hərbi birləşmələrin sözsüz tərk-silah ediləcəyini gözləyir." Qorbaçov Ter-Petrosyansayağı heç gözünü də qırpmadan deputata cavab verdi: "müvafiq orqanlar tərk-silahla bağlı məsələlərlə məşğuldurlar". halbuki, vaxtı ötmüş fərman artıq zibil qutusuna atılmışdı. Erməni fədainlərinin (bu da azərbaycanlıların musiqiləri və mahnılarından tutmuş milli mətbəxinin xörəklərinə qədər olduğu kimi ermənilərin mənimsədikləri türk sözüdür) əlində isə artıq tanklar, zirehli transportyorlar, minaatanlar, qumbaraatanlar, tonlarla partlayıcı maddələr və yuxarıda dediyim odsaçanlar cəmləşirdi. Bu qədər ölümdaşıyan silahlar ağlasığmaz məbləğdə rubl və valyuta ilə ödənilmiş vəsait hesabına ordudan fədainlərə keçirdi. həm də ki, ixtiyari sıravi fədain və ya muzdlu quldur xidmət etməsinin və adam öldürməsinin müqabilində lap generala layiq mükafat alırdı.

Azərbaycan isə əvvəlkitək ona edilən təcavüzə laqeyd münasibət bəslədiyi üçün mərkəzin ünvanına astadan deyinirdi. halbuki, Moskva siyasətçiləri erməni milli ordusunu həvəsləndirməkdə və silahlandırmaqda davam edirdi. Qarabağdakı silahlı dəstələrə Moskvadakı hərbi rəhbərlərin çoxuna radio danışıqlardan bəlli olan rus polkovniki başçılıq edirdi. Bakıdakı 132 №-li məktəbin direktoru, respublika parlamentinin deputatı A. Təhmasib 1990-cı ilin sentyabrında Moskvaya gəldi, aydınlaşdırmaq istədi ki, Azərbaycan xalqına qarşı edilən təcavüzə və mərkəzi mətbuatın prinsipsizliyinə və açıq-aşkar birtərəfli mövqeyinə nə vaxt son qoyulacaq və dediyinə görə, rastlaşdığı mənzərə onu heyrətə gətirdi:

"Bizim qaldığımız mehmanxananın yarısında, bəlkə də çox hissəsində ermənilər qalırdı. Öz gözlərimizlə gördük ki, bizim getdiyimiz müəssisə və təşkilatlarda erməni nümayəndələrinin bir dəstəsi digərini necə əvəz edirdi. Onlar faktları elə təhrif edir, elə acı-acı danışırdılar ki, guya bizdən özlərini müdafiə etmək üçün silahlanmaq məcburiyyətində qalıblar. Onlar bizə qara yaxır və böhtan atırdılar ki, bizi hörmətdən salsınlar. Bəs niyə çalışmamalıyıq ki, biz də eşidilə bilək?"

Beləliklə Bakı məktəbinin direktoru başqa deputatlarla birlikdə özləri ilə götürdükləri təkzibedilməz tarixi materiallarla və qanlı yanvar hadisələrinə aid materiallarla silahlanaraq paytaxtda öz tərəfdarlarının sayını artırmaq qərarına gəldilər. Maraqlıdır ki, bunun nəticəsi necə oldu?

Gəlin, deputat Təhmasibin hesabatını dinləyək:

"Biz SSRİ Ali Sovetinin sədri Lukyanovla, RSFSR Ali Soveti sədrinin müavini Xasbulatovla, "Literaturnaya qazeta"nın əməkdaşları ilə görüşdük. Bu görüşlər onlara hadisələrin gedişini başa düşməyə, məsələnin tarixi köklərini öyrənməyə, üzdəniraq Dağlıq Qarabağ probleminin əslində xarici milyonçu himayədarların köməyinə hesablanmış və öz dişlərini bizim torpaqlarımıza necə keçirməyin intizarında olanların arxasında gizlənmələri üçün pərdə olduğuna inanmağa kömək etdi. (Təmiz, saf azərbaycanlılar üçün xarakterik olan və qarşıdakının da təmizliyinə və saflığına ümid edən müdafiə mövqeyi)."

Bəs yüksək vəzifəli moskvalı həmsöhbətlər nə dedilər? Bakıdan olan deputatların niyə mərkəzdə hər şeyi bildikləri halda qəti tədbirlər görmədikləri və azərbaycan xalqının hüquqlarını müdafiə etmədikləri barədə

birbaşa suallarına cavab olaraq ya susur, ya da söhbəti başqa istiqamətə yönəldirdilər. Və burada təəccüblü heç nə yox idi: düşmən tərəflə söhbət gedirdi.

Təhmasibin dediyinə görə, yalnız yoldaş Lukyanov "hadisələrin düzgün təhlilini verdi, Balayan, Dadamyan, Poqosyan və onlar kimilərin kimlərə xidmət etdiklərini söylədi. Təəccüb doğuran odur ki, Ali Sovetin sədri ölkənin taleyini həll edən parlamentdə onların olmasına necə təmkinlə dözür. Lukyanov söz verdi ki, Prszident şurasının yaxın iclasında gündəliyə erməni milli ordusunun bizim respublikaya qarşı təcavüzünün qətiyyətlə qarşısının alınması barədə məsələnin salınmasına çalışacaq".

Bir" il sonra, 1991-ci ilin avqustunda yoldaş Lukyanov Matrosskaya Tişinaya düşdü və bunun belə olması üçün Yelena Bonnerin cəhdləri də mütləq rol oynadı. O, iki gün əvvəl Ağ Evdə Demokratik Rusiya xadimlərinin qarşısında çıxış edərək, İttifaq müqaviləsini pozmaq üçün hətta cinayətkarlığadək istənilən zorakılıq aktına əl atmağa çağırdı, çünki, İttifaq Ermənistanın xoşuna gəlmirdi. Amma MDB-ni birinci alqışladı. Azərbaycan torpağında müvəqqəti işğal olunmuş öz "Respublikası"nı alqışladığı kimi.

Sentyabrın 1-də isə Azərbaycan Ali Sovetinin sessiyasında Moskva səfərindən qayıtmış deputat Təhmasib öz həmvətənlərinə and verirdi: [153 - 154]

"Gəlin Vətənin üstünü qara buludlar aldığı bir vaxtda xalqın parçalanmasına yol verməyək. Günahsız adamların qanı axdığı bir vaxtda bizim bir məqsədimiz olmalıdır: erməni banditlərinin nəzərlərini torpaqlarımızdan uzaqlaşdırmaq — onların işğal etdiklərindən də, hələ gözlərini dikdiklərindən də! Qoy onlar birdəfəlik bilsinlər ki, bizim torpaqlarımız sahibsiz deyil! Bu məqsədə çatmaq xatirinə mən sizi birləşməyə çağırıram. Bizim parçalanmağımız düşmənin xeyrinədir. Respublikanı böhrandan çıxarmaq üçün bütün gücümüzü sərf edək, düşmənin yolunda alınmaz, keçilməz qala kimi dayanaq".

Bakı müəlliməsinin çağırışı partokratların sessiyası tərəfindən eşidilmədi. Əvəzində isə Levon Ter-Petrosyan 1990-cı ilin oktyabrında ABŞ-dan "bizim səyləri erməni diasporu ilə uzlaşdırmaqdan" qayıdandan sonra gözlənilmədən slan etdi ki, daha konfrontasiyaya ehtiyac yoxdur. Guya ilk dövrlərdə Ermənistanı Dağlıq Qarabağda Sovet hakimiyyətinin bərpası (Ermənistanın özündə bu hakimiyyətə nifrət etdiklərinə baxmayaraq — *Y.P.)* və normal həyat fəaliyyətinin təmin olunması qane edir. Başqa sözlə, müharibə edən respublikanın prezidenti riyakar bir kompromis təklif edirdi: regionda millətçilik isteriyası başlananadək mövcud olan ilkin vəziyyətə qayıtmaq. Onun məntiqinə görə belə çıxır ki, ermənilərin və havadarlarının Qarabağı qan girdabına salmalarının bir məqsədi var imiş. Azərbaycanlıları Ermənistandan və Stepanakertdən qovmaq, Bakıda vəziyyətin stabilliyini pozmaq, 120 kilometrlik sərhədyanı ərazidə yandırılmış torpaq zonası yaratmaq, indi isə 1988-ci ilin fevralında nədən başlanılmışdısa, ona qayıtmaq. Ermənistana sadəcə olaraq fasilə lazım idi ki, 1991-ci ilin yazında müharibəni yenidən şiddətləndirsin, il ərzində Qarabağın bütün ərazisini işğal etsin, Şuşa və Laçının süqutundan sonra 1992-ci ilin mayında onu Ermənistanla birləşdirsin. Azərbaycan xalq mahnılarının birində oxuyurlar: Qarabağ — ömrümün qara bağı, lənətə gəlsin o cəllad ki, kor qoydu Qarabağı...

Ötəri nəzər salsaq 1991-ci il nə ilə müşayiət olundu? Millətçi-boyeviklərin terror aktlarının güclənməsi ilə: bütün vətəndaşların laqeydliyi və hakimiyyət orqanlarının səhlənkarlığı şəraitində onlar Rusiya ərazisində də terror aktları törətdilər —Moskva—Bakı qatarlarında, Rostovun mərkəzində, Azərbaycanda isə Tbilisi-Bakı avtobuslarında. Xatırladım ki, pasxadan sonrakı səhərin sükutunu yaran avtomat atəşləri ilə 1990-ci il aprelin əvvəlində Rostovda SSRİ DİN-in daxili qoşunlar idarəsi rəisinin müavini polkovnik Blaxotin həyasızcasına və qəddarlıqla qətlə yetirildi. Terror aktının bilavasitə icraçıları Rostova martın ortalarında "Amaras" xeyriyyə cəmiyyətinin ezamiyyə vəsiqələri ilə gəlmişdilər. "Amaras"ın devizi belədir:"Allah bizim işığımız və xilaskarımızdır". Yola düşməzdən əvvəl onlar Yerevanda müfəssəl tə'limat almışdılar. Təlimatın məğzi bundan ibarət idi ki, Dağlıq Qarabağ erməni milli ordusunun qurultayı DQMV-də öz xidməti [154 - 155] vəzifələrini yerinə ystirən daxili qoşun zabitlərindən bir neçəsinə ölüm hökmü çıxarmışdır. Bəs niyə terrorçular Rostovdan başlamışdılar? Bu, uzaq məqsədlə edilmişdi: kazaklarla ermənilərin yanaşı yaşadıqları Donu Rusiya Qarabağına çevirmək idi məqsəd.

"Çox güman ki, terrorçular sadəcə olaraq səhv ediblər, — Qarabağdakı canişinlərdən biri Levon Melik Şahnazaryan belə deyir. Rostovda öldürülmüş polkovnik Blaxotin general-mayor V. Safonovla eyni biçimdə idi. Onun maşınının nömrəsi də V. Safonovunkundan yalnız bir rəqəm fərqli idi".

General Safonov isə Dağlıq Qarabağ fövqəladə rayonunun hərbi komindantı idi. Belə ki, hər şey hələ irəlidədir? Axı ermənilər kimisə ləkələmək üçün yığdıqları materialları məhv etmirlər. Və onlardan hələ heç kim terror aktını pisləməyib. Əksinə, erməni ordusu hamının gözü qarşısında Qarabağda və Naxçıvanda kimyəvi silah işlədir və bu onlar üçün cəzasız keçir.

Son dövrlərdə müxtəlif ideyaları həyata keçirmək üçün Rusiya parlamentinin tribunasından istifadə etmək xarakterik hal almışdır və diqqətlə fikir verdikdə bu ideyaların arxasında deputatlar Ambarsumov (xariçi əlaqələr üzrə komitə) və Arutynovun (rus qaçqınları ilə iş üzrə komitə) durduğu aşkar olur. Bu iki rusiyalı Bakıdan olan rus qaçqınlarına qayğını təbliğ etməklə həm deputatları, həm də Rusiya televiziyasının tamaşaçılarını azərbaycan xalqının əleyhinə yönəltməyə, rus-bakılıların dediyinə görə episentri Ermənistanda yerləşən azərbaycanafobiya yaratmaqa çalışırlar.

Bakının rus əhalisi RSFSR xalq deputatlarının altıncı qurultayına müraciətlərində yazırdılar: "Arutyunovun məsuliyyətsiz çıxışları rusların Bakıya dəstə ilə qayıtmasının qarşısını əlbəttə ala bilməyəcək, onlar öz talelərini çoxdan Azərbaycan xalqı ilə bağlayıblar, onun heç bir çığır-bağırı Bakıda yaşayan biz ruslarla bizim azərbaycanlı qardaşlarımız arasında nifaq sala bilməyəcəkdir".

Görünür, heç yada salmağa da ehtiyac yoxdur ki, onlarca buna oxşar müraciətlər kimi bu müraciət də Rusiya qurultaylarında bəyan edilmədi: Azərbaycana qarşı informasiya müharibəsində də Rus hakimiyyət orqanları işi hərbi qayda-qanunla amansızcasına və qəddarlıqla görürdü. Potensial Rusiya "qarabağların"ın çoxluğu Ermənistanla müttəfiqliyi xeyli təhlükəli etsə də. Elə Azərbaycanla toqquşmağa edilən cəhdlər də Rusiyanın müsəlman dünyasındakı strateji maraqlarına kökündən ziddir. Lakin bu cür insanpərvər nəticələrə bir halda gəlmək olar: gərək hesab edəsən ki, Rusiyanın indiki başçıları, işi minillik monoliti dağıtmağa aparmırlar. Bəs aparırlarsa, necə? Onda hər şey öz yerini alır və müasirlərimizin ermənipərəst lobbistlərin, daşnakçı diasporun, çoxsaylı xüsusi orqanların (yeri gəlmişkən, Azərbaycanınkı da daxil olmaqla), müxtəlif növ biznesmsnlərin və cinayətkarların təşkil etdiyi sui-qəsdin xoşagəlməz tarixini açacaq yeni "qarabağgeyti" gözləməkdən başqa əlacı qalmır. [155 - 156]

Bir sözlə, dörd ildən çox Azərbaycanın kənardan kömək və özünə ədalətli münasibət gözləməsi belə bir həqiqəti dərk etmək üçün dərs olmalıdır ki, yalnız dövlət özü və onun əzabkeş xalqı özünü xilas edə bilər. İmperatorlardan biri deyirdi ki, "Rusiyanın dünyada dostu yoxdur". Eyni sözləri Azərbaycanın 1992-ci il iyunun 7-də ilk azad seçkilərdə seçiləcək yeni lideri də deyə bilər. Əgər o, aldadılmış, lakin təslim olmamış xalqın bəxtinə düşən acı taleyə və məsuliyyətə layiq olarsa.

M. Rəsulzadə adına Bakı Dövlət Universitetinin professoru, beynəlxalq münasibətlər kafedrasının müdiri Ağalar Abbasov belə hesab edir ki, "artıq geriyə çəkilməyə yer yoxdur. Lakin geriyə çəkilmək də hələ məğlubiyyət demək deyil. Amerikalılar və yaponlar. fransızlar və italyanlar, ruslar və almanlar geriyə çəkilmişlər və məğlubiyyət xəcalətini görmüşlər. Başlıcası odur ki, vahiməyə düşməyəsən, yumruq kimi birləşəsən, əks-hücum üçün qüvvələri yenidən qruplaşdırasan. Və uzaq və yaxın dostlardan kömək gözləmək lazım deyil. Öz taleyimizi yalnız özümüz həll etməyə qadirik. Başqa heç kim yox!"

Yetmiş il əvvəl öz doğma torpaqlarından Moskvaya yüksək vəzifəyə göndərilmək adı ilə qovulan Nəriman Nərimanov şübhə etmirdi ki, bədbəxt Azərbaycan vicdansız fırıldaqçıların əlində oyuncaq olacaqdır. AzMİK-in sədri başqaları üçün yaşayırdı, bütün varlığı ilə köləliyə qarşı etiraz edirdi. Əhatəsində olan gerilik və lənglik, səhlənkarlıq və millətlərarası mənasız çəkişmə, qan, gözyaşları, dilənçilik, yalan ona rahatlıq vermirdi. Ölümündən az əvvəl Nərimanov özünün beş yaşlı oğluna açıq etiraf edirdi: "Biz hakimiyyətdən o qədər lovğa olmuşuq ki, boş şeylərlə, dedi-qodu ilə məşğul olaraq ən əsas məsələni əldən buraxmışıq".

Əsas məsələni isə o, müstəqil, nümunəvi azad Azərbaycan Rspublikasının yaradılmasını sayırdı və bütün taktikası ilə Azərbaycanı simasızlaşdırmağa və türk xalqını məhv etməyə çalışan siyasi fırıldaqçılara layiqli cavab verə bilirdi.

Partiya Yoldaşları Nərimanova millətçi damğası vurmuşdular. O, maarifçilərə xas olan bir səmimiyyətlə cavab verirdi: *"Mən iddia edirəm ki, mənim "Bahadur və Sona" romanım müvəffəqiyyət qazananda, yoldaş Mikoyan hələ daşnak idi. Bəs niyə iyirmi il keçəndən sonra mən millətçi olmalıyam, yoldaş Mikoyan isə beynəlmiləlçi".* Yeri gəlmişkən, Bakıdakı çevrilişdən sonra məhz Mikoyan Nərimanovun ora göndərilməsini təkid edirdi. O, Nəriman müəllimin Azərbaycanda hansı nüfuza malik olduğunu bilirdi. Nərimanov istəyirdi ki, türk fəhlələri də rus fəhlələri ilə bərabər idarəetmədə iştirak edərək Azərbaycanın mənafeyi qayğısına qalsınlar və mərkəzin Zaqafqaziyadakı canişini Orconikidzedən gizlətmirdi ki, onu dar qəlbli adamlar əhatə edirlər və onlar öz mövqelərini qorumaq və möhkəmləndirmək üçün onun qarşısında yaltaqlıq edir, respublikada millətçilik meyli olması barədə qışqırırlar. [156 - 157]

Nəriman Nərimanov RKP MK-ya yazırdı: "Müsəlman zəhmətkeş kütləsi rus çarlarının siyasətindən cana doymuşlar, indi onlar çox gözəl başa düşürlər ki,çarizm, demokratizm, Sovet hakimiyyəti, zəhmətkeşlərin öz hakimiyyəti nə deməkdir? Sovet Azərbaycanı özü könüllü olaraq neftin Sovet Rusiyasının zəhmətkeşlərinə məxsus olduğunu elan.etdi, lakin Sovet Respublikasında başda "Kral" Serebrovski olmaqla "Monarxiya" yaratmaq nəyə lazım idi. Serebrovski bu gün də elə bilir ki, aypara və ulduzla azərbaycanlıların başını aldadır. hərgah indi Neftkomun, Bakı Sovetinin qulluqçularının tərkibinə diqqət yetirilsə qərəzsiz müşahidəçi dəhşətə gələr. Bu müəssisələr ruslarla, ermənilərlə və yəhudilərlə doludur".

Nərimanovu hiddətləndirirdi ki, niyə kerosin Tiflisdə Gəncədən ucuz satılır, Kirov, Mirzoyan və kompaniyasının isə vecinə deyil ki, neft məhsullarından Azərbaycanın nəfinə faiz ayırmaları aparılmır. AzMİK-in sədri bu haqda qərarı Siyasi Bürodan keçirmişdi. Nərimanov deyirdi: həqiqətən beynəlmiləl qəlbə malik olmaq lazımdır ki, buna diqqət yetirəsən. Onlar üçün fərqi varmı ki, Azərbaycanda kəndlilər nadanlıq bataqlığında boğulurlar". Və nəticə çıxarırdı:

"Ucqarların beynində böyük dövlətçi xalqın milli siyasəti özünün iyrənc həyata keçirmə üsulları ilə dərin kök salmışdır".

Partiya hakimiyyətinin müstəmləkəçilik siyasəti haqqında Nərimanov həqiqi mənada ucadan qışqırırdı və onu misallarla nümayiş etdirirdi:

"Azərbaycanın paytaxtında türklər Bakı Sovetinin qulluqçularına şifahi və yazılı müraciotlərini məcburən rusca etməlidir, çünki, ruslar, yəhudilər və ermənilər türk dilində danışmırlar. Mən iddia edirəm ki, şəhər duması olan dövrdə türk əhalisi bu çür məhdudiyyətə məruz qalmırdı. Məgər bu Kirov, Mirzoyan yoldaşlara bəlli deyildi? Bu cür şəxsiyyətlərə Azərbaycanda zəhmətksşlərin xoşbəxtliyini etibar etmək olarmı?"

O, dəfələrlə müsəlmanlardan olan məsul işçiləri də tənbeh edir, Aqamalıoğlunun, Musabəyovun, Hüseynovun, Axundovun, Qarayevin adlarını çəkərək xəbərdarlıq edirdi: bədbəxtlər öz vəzifələrinə ona görə irəli çəkiliblər ki, sussunlar. Hətta Bakının partiya rəhbəri Levon Mirzoyan diskussiya klubunda, türk fəhlələri partiya sıralarına qəbul etmək lazım deyil, deyəndə də sussunlar.

1923-cü ilin dekabrında Moskvaya köçmüş Nərimanov deyirdi: "Məni Azərbaycandan uzaqlaşdırmaq Serqoya ona görə lazım idi ki, özünün "parçala və hökmranlıq et" şüarı altında apardığı Qafqaz siyasətinin" inkişafında hər cür maneəni yox etsin. Orconikidze məsləhət üçün Mirzoyana müraciət etdi. Mirzoyan dedi: "Biz yalnız sənin razılığını gözləyirik ki, Nərimanovu buradan itirək". Serqo dedi: "Buyurun!" Mirzoyan da bunu yerinə yetirdi. Xanbudaqov AKP MK-ya katib seçildi (Nərimanov dəfələrlə qeyd edirdi ki, məlum adamlar Azərbaycanı gücdən salmaq məqsədilə öz mənfur məqsədləri [157 - 158] üçün Azərbaycanın mənafeyini müdafiə edənlərə qarşı türklərin özlərini çıxış etməyə məcbur edirdilər—*Y.P.)* və iş başladı. O, uyezdlərə öz qohumlarını göndərir və göstəriş verirdi ki, heç yerdə Nərimanovun adını çəkməsinlər, heç yerə onu seçməsinlər. Belə bir işi qurtarandan sonra Xanbudaqov Mirzoyana deyir: "Məndə uyezdlər hazırdır". Mirzoyanın özünün fəhlə rayonları isə çoxdan hazır idi. Serqoya məlumat verirlər ki, Nərimanovu cəsarətlə işdən götürmək olar. Götürürlər və... məni həqiqətən SSRİ MİK-in sədri seçirlər. Mirzoyan və Serqo şadyanalıq edirlər: məni işdən çıxardılar və əlahiddə heç nə baş vermədi, hətta heç kim Nərimanovun adını çəkməyə cürət etmir".

Öz vətənində 50 ildən çox onun adını çəkməyə qadağa qoyulmuşdur. hətta həmişə yüksək amallarla, hiylə və yalan bilmədən ömür sürmüş bu böyük şəxsiyyətin yüz illik yubileyinə hazır olmuş heykəlini dörd il sonra qoymaq mümkün olmuşdur. Bu monumental heykəlin müəllifi Azərbaycanın xalq rəssamı Cəlal Qaryağdı bu kədərli tarixçənin sirrini açdı: Daşnag ideyalarını xəlvət yerdə saxlamış hansısa "alim" yuxarılara yazır ki, Bakıda millətçilik baş qaldırır — Nərimanova heykəl qoyurlar. Bu yalanı təkzib etmək üçün komissiya yaratmaq lazım gəldi. 20-ci illərdə Nərimanovun millətçiliyi barədə məktub və teleqramları birbaşa Leninin adına göndərirdilər. O vaxt Vladimir İliç Nərimanovla görüşür və onun yazılı izahatının üstündə qoyduğu dərkənarda öz qəti qərarını yazır. Komissiya bu tarixi sənədi tapmalı idi və qocaman bir arxiv işçisinin köməyilə onu tapdı, məsələ həll olundu".

Lakin yalan və böhtanla dolu məktub və teleqram qalaqları öz işini gördü: heykəlin layihəsi təhrif olundu. Nərimanovun ədəbi-ictimai fəaliyyətini əks etdirən qranit barelyeflər silsiləsi yaradılmadı, qranit monolitdən düzəlməli olan postamenti ucuz mərmər üzlük əvəz etdi. Bunlar azmış kimi antiazərbaycan məktublarının paytaxta axınının qarşısını almaq üçün postamentin özü də altı metr qısaldıldı. Burada yazıçı Sadıq Elcanlı ilə razılaşmamaq olmur. Cənubi Sovet meydanından keçən bir çox bakılılar kimi onu da Azərbaycanın dahi oğlunun kədərli nəzərləri ayaq saxlamağa məcbur edir: "Mən özümü bu adamın qarşısında günahkar hesab edirəm. Sanki böyük Nəriman haqqında əfsanəni altı metrlik quyuya salıblar ki, onun möhtəşəm boyu görünməsin." Nərimanov o vaxt Azərbaycandakı daşnakların yolunda əsas maneə idi (heykəllə bağlı tarixçə göstərir ki, elə indikilərin də). O göstərirdi: "Mirzoyanın güclü təzyiqi nəticəsində Dağlıq Qarabağ Muxtar vilayəti elan edildi. Mənim vaxtımda bunu edə bilmədilər, ona görə yox ki, mən bu muxtariyyətin əleyhinə idim, sadəcə olaraq ona görə ki, erməni kəndliləri özləri bunu istəmirdi. Mirzoyan bu müddət ərzində erməni daşnak müəllimlərin köməyi ilə məsələni hazırladı və Zaqafqaziya vilayət komitəsindən keçirdi. Bu andan etibarən erməni kəndliləri ilə türk kəndliləri arasında münasibət kəskin pisləşdi. İndi söhbət Gəncənin dağlıq hissəsindən [158 - 159] gedir və s. Azərbaycanda daşnak siyasəti var gücü ilə gedir. Məndə zərrə qədər də şübhə yoxdur ki, Serqo və Stalin şəxsində RKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklara tapşırırlar. Təəccüblüsü odur ki, bu şəxslər düşünürlər ki, türklər o qədər kütdürlər ki, bunları başa düşmürlər".

Ölümqabağı Nərimanov oğluna Stalinin diktatorluğunu birbaşa göstərmişdi: "İndi, mən bu sətirləri sənə yazarkən bizim işimizi o yerə çatdırıblar ki, ən yaxın dostlar—kommunistlər Lenindən sonra özlərini onun "qanuni varisləri" adlandıranların dövləti idarə etməyi bacarmadıqları nəticəsində yaranmış biabırçı nöqsanlar mövzusunda bir-biri ilə danışa bilmirlər".

1925-ci il martın 19-da axşam saat doqquzun yarısında 55 yaşlı Nəriman Nərimanov Aleksandrovski bağının barısı yanında öskürəkdən boğulan halda tapıldı. ÜMİK-in sədri Kreml ambulatoriyasının əməkdaşını tanıdı və dedi: "Məni tez xəstəxanaya aparın, mən ölürəm". O, xəstəxanaya çatmamış öldü və müstəqil Azərbaycan haqqında ürəyində sakitləşməyən ağrıları özü ilə Kreml divarlarındakı yuvaya apardı.

Mən ürəyinə dağ çəkilmiş torpağın bu günkü qoruyucularına və müdafiəçilərinə yalvarışı və ağrını Tatyana Rüstəmlinin 1992-ci il martın 26-da dərc olunmuş məktub-müraçiətində hiss etdim:

"Doğrudanmı bizim qanı axan Vətənimizdə əsl kişilər-döyüşçülər daha qalmayıb? hanı onlar? Bizim evimizə bədbəxtçilik gəlib. Bəlkə kədər və qəzəb öz yerini qorxuya və çaşqınlığa verib? Yaxud, varlanmaq ehtirası sizin beyninizi dumanlandırıb? Ayılın! Düşmənin güllə və mərmilərindən hər gün sizin analarınız, sizin baçılarınız, sizin uşaqlarınız həlak olduğu bir vaxtda pul yığmaq əxlaqsızlıqdır. Müsibət və fəlakət zamanı kef məclisi qurmaq dəhşətdir. Döyüşən Şuşa üçün göndərilən ərzaq qutuları oraya boş çatanda qəlbimi qəzəb hissi bürüyür. Qoy alçaqlıq və xəyanətlə qazanılmış pullar əclafların əllərini yandırsın. Qoy xalqın tökülən qanı və lənəti onların başına yağsın!

Qarabağ, vicdanım mənim! Xarabalıqlar içində sənin talanmış və məhv edilmiş kəndlərin və şəhərlərin yatır, mənim günəşli, bədbəxt ölkəm. Xocalının külü mənim ürəyimdə döyünür və intiqama çağırır. Kimdə ki, namus və ləyaqət anlayışları hələ ölməyib, onların hər birinə müraciət edirəm. Öz ürəyinizə baxın, özünüzdən soruşun:"Bu gün mən nə etmişəm ki, öz Resbublikamın Vətəndaşı olmaq üçün mənəvi haqqın olsun? Tələsin. Uşaqlarınızın xatirinə, tüfəngin qundağı ilə öldürülmüş anasının öz ağuşundan buraxmadığı, yaxın məsafədən güllələnmiş körpə Xocalı şəhidinin xatirinə".

Bu çağırışa əlavə etməyə heç nə deyə bilmərəm, yalnız bir Azərbaycan inancından başqa: yarasa evə soxularsa onu öldürərlər.

Qoy bizim evlərə yarasa soxulmasın!

Amin.

1992-ci il mayın 19-da tamamlanmışdır.

*Pompeyev Yuri Aleksandroviç*

QARABAĞ QAN İÇİNDƏ
(Sənədli oçerk)

Bədii redaktoru *İlyas ZƏNGƏZURLU*
Texniki redaktoru *Səlim ƏHMƏDOV*
Rəssamı *Tatyana BAĞIROVA*

"Azərbaycan Ensiklonediyası"NPB-nin
kompüter mərkəzində yığılıb
çapa hazırlanmışdır.
Mərkəzin müdiri *Gülbəniz QOÇAYEVA*
Kompüter tərtibatçısı *Esmira ÇABAROVA*

Yığılmağa verilmişdir 02.06.95. Çapa imzalanmışdır 05.07.96
Formatı 60x901/16. Şərti çap vərəqi 10. Sifariş 162 Tirajı 2000.
Qiyməti müqavilə ilə.
Azərbaycan Resnublikası Mətbuat və İnformasiya Nazirliyi.
"Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi.
Bakı—370004, Böyük Qala küç. 41.

Hazır plyonkadan "Şərq-Qərb" mətbəəsində çap olunub.
Bakı, A. Ələsgər küçəsi, 17.